**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN–TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN "XALQ QƏZETİ"NDƏ TƏQDİMİ MƏSƏLƏLƏRİ

İxtisas: 5720.01- Jurnalistika

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru

elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**D İ S S E R T A S İ Y A**


İddiaçı: _______________ **Namiq Qədim oğlu Əhmədov**

Elmi rəhbər: ________________ Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Həmid Alı oğlu Vəliyev**


**Bakı–2021**

# MÜNDƏRİCAT

**GİRİŞ...................................................................................................... 3**

**I FƏSİL. AZƏRBAYCAN MİLLİ MƏTBUATININ TÜRKÇÜLÜK ƏNƏNƏLƏRİ VƏ SOVET DÖVRÜ MƏTBUATINDA TÜRKİYƏ MÖVZUSU..........................................................................................14**

**1.1.** Azərbaycan milli mətbuatında türkçülük ideyası və Azərbaycan Xalq Cümhuriyyətinin mətbu irsi haqqında ....................................................... 14
**1.2.** Sovet dövrü Azərbaycan mətbuatında Türkiyə mövzusu........................... 24

**II FƏSİL. AZƏRBAYCAN–TÜRKİYƏ ƏLAQƏLƏRİNİN YENİDƏN TƏŞƏKKÜLÜ, FORMALAŞMASI VƏ STABİLLƏŞMƏSİ DÖVRÜ "KOMMUNİST" VƏ "XALQ QƏZETİ"NDƏ (1989-2002-Cİ İLLƏR).......48**

2.1. Azərbaycan–Türkiyə əlaqələrinin yenidən təşəkkülü müstəqillik illəri ərəfəsi (1989-1991) mətbuatında............................................................................ 48
2.2. Müstəqilliyin ilk illərində "Xalq qəzeti"ndə Türkiyə mövzusu.................. 61
2.3. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik kursunda Azərbaycan – Türkiyə əlaqələri və münasibətlərin yenidən formalaşması məsələləri....... 70

**III FƏSİL. AZƏRBAYCAN–TÜRKİYƏ ƏLAQƏLƏRİNİN DİNAMİK İNKİŞAF DÖVRÜ "XALQ QƏZETİ"NDƏ (2003-2018-Cİ İLLƏR)............95**

3.1. Müştərək regional layihələr, enerji və neft strategiyasının uğurları mətbuatda...............................................................................................95
3.2. Çoxtərəfli əlaqələrin dərinləşməsi və Azərbaycan–Türkiyə strateji tərəfdaşlığı mətbuatda......................................................................103
3.3. Yeni tarixi çağırışlar kontekstində terrorizmə qarşı mübarizə və ümumtürk həmrəyliyi .........................................................................112

**NƏTİCƏ ..............................................................................................135**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ………...............……………………........142**

# G İ R İ Ş

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Türkiyə və Azərbaycan arasındakı əlaqələrin inkişaf səviyyəsinin durmadan yüksəlişi analoqu olmayan reallıqlarındandır. “*Bir kökdən olan xalqlarımız öz tarixi dostluğuna, ənənələrinə həmişə sadiq olmuş və bu ənənələr xalqlarımızın dilini, dinini, mənəviyyatını yaşatmışdır. Məhz bunlara görə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında olan dostluq əlaqələri xüsusi xarakter daşıyır*” [167, s.49]. İlk növbədə tarixi təməllərə söykənən bu əlaqələr, həm də bu günümüzün geosiyasi gerçəklikləri baxımından da olduqca önəmli və zəruri olmuşdur.

XX əsrin əvvəllərində baş verən tarixi hadisələr bu əlaqələrin möhkəmlənməsində xüsusi əhəmiyyət kəsb etmişdir. 1918-ci ilin 28 mayında müsəlman Şərqində ilk demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin möhkəmlənməsində Türkiyə yaxından iştirak etmiş, Türkiyənin dəstəyi ilə Azərbaycanın müstəqilliyi təmin olunmuş, bolşeviklərin və daşnakların Bakı və ətraf rayonlarda ağalığına son qoyulmuşdur. Sovet dövründə bunlar təhrif edilmiş, hətta Qafqaz İslam Ordusunun göstərdiyi yardım da işğal kimi qiymətləndirilmişdir. Amma *“Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra Türkiyədən gələn dəstək bizim rahat və təhlükəsiz şəraitdə yaşamağımıza böyük fayda veribdir”* [169, s.177].

Birinci Dünya müharibəsindən sonra Sovet Rusiyası ilə Türkiyə arasında münasibətlərin yaxşılaşdırılmasının vacibiyini qəbul edən V.İ.Lenin və M.K.Atatürk bu münasibətlərin təməlini qoya bildilər. Qeyd edilməlidir ki, bu məsələdə Azərbaycan Xalq Komissarları Sovetinin sədri, dövlət xadimi, həkim, yazıçı və dramaturq Nəriman Nərimanovun dəyərli xidmətləri olmuşdur. Məğlub blokdan çıxıb həyata vəsiqə almış yeni Türkiyə ilə qalib Antantanın məğlub üzvü olan Rusiya arasında dostluq münasibətlərinin qurulması zamanın tələbi idi. Beynəlxalq vəziyyət hadisələrin gedişini müəyyən etsə də, tərəfləri bir-birinə bağlayan maraqlar da mühüm əhəmiyyət kəsb edirdi. Hətta nə 30-cu illərin repressiyaları, nə Sovetlərin torpaq iddiaları və 70 ildə baş verənlər xalqlarımızın

mənəvi əlaqələrini qıra bilmədi. İki dövlət arasında münasibətlərin yeni və əsas mərhələsi 1991-ci ildə Sovetlər birliyi dağıldıqdan sonra başlanmışdır. Türkiyə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkə olmuş və həmin dövrdən *"Bütün ölkələrin yanında, beynəlxalq aləmdə Azərbaycana əl tutan, kömək duran Türkiyə Cumhuriyyəti, onun səlahiyyətli nümayəndələri oldu"* [211].

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Türkiyə Cümhuriyyəti ilə münasibətlərin inkişafına xüsusi önəm verdi. Bu birlik, təsadufi deyil ki, "*regionda sülhün, təhlükəsizliyin qarantı kimi dəyərləndirilir"* [84]. Türkiyə və Azərbaycan böyük enerji layihələrinin həyata keçirilməsində strateji ortaqlıq nümayiş etdirərək, "*ümumilikdə regionun, eyni zamanda, Avropanın iqtisadi imkanlarının genişlənməsinə mühüm zəmin yaradırlar"* [386, 101]. Regionda təhlükəsizliyin təminatında, münaqişələrin sülh yolu ilə həllində Türkiyə və Azərbaycan dünyanın ən nüfuzlu təşkilatlarında eyni mövqedən çıxış edir, Dağlıq Qarabağ problemi və ikili siyasətin yaratdığı problemlərlə mübarizə də hər iki ölkənin qardaşlıq və dostluq maraqlarından irəli gəlir.

Bu gün iki dövlətin rəsmi mövqeyi, eləcə də qardaş Türkiyənin dünya və Avropa siyasətində tutduğu mövqe Azərbaycan mətbuatının ən çox diqqət ayırdığı məsələlərdəndir. Tarixi reallıqların cəmiyyətə təqdim olunmasında milli mətbuatın xidmətləri *"Azərbaycan xalqının dövlətçilik ideyalarının formalaşmasında milli mətbuatın rolu əvəz olunmazdır"* [326, s.6] kimi ifadələrlə dəyərləndirilmiş, nəşrlər də dövrün mətbu salnaməsini yaratmaqla üzərlərinə düşən müqəddəs missiyanı yerinə yetirmişlər. Jurnalistikanı çətin peşə adlandıran Ümummilli Lider mətbuatın roluna obyektiv və yüksək qiymət vermişdir: "*Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində... səmərəli istifadə etməkdən ibarətdir*" [167, s.57].

Eyni zamanda qeyd edilməlidir ki, Azərbaycan-Türkiyə münasibətləri təkcə jurnalistikada yox, həm ədəbi-bədii nümunələrdə, həm də Azərbaycanın ikinci müstəqilliyindən sonra çoxsaylı elmi tədqiqat işlərində ən cox araşdırılan və aktuallığı ilə diqqət mərkəzində olan mövzulardan olmuşdur. 60-cı illərdə

münasibətlərin yumuşaldılması jurnalistikada da yeni mərhələ yaratdı. Türkiyə haqqında Mehdi Hüseyn, Qasım Qasımzadə, Nigar Rəfibəyli, Elçin və Məmməd Aslanın təqdimatları mətbuatda yer aldı. 1967-ci ilin iyununda Əziz Nesin, Yaşar Kamal və Məlih Cövdət Antay Azərbaycanda oldular [246].

Bu dövrdə Sovet jurnalistikasının Türkiyə haqqında maraqlı nümunələrini ortaya qoyan iki imza da olub: Azad Şərifov və Zaur Qədimbəyov. *"Əslində sovet dövrü mətbuatında Türkiyə mövzusundan danışanda bu imzalardan yan keçmək və ya onları yada salmamaq bəlkə də haqsızlıq olardı. Digər tərəfdən diqqət doğuran bir fakt da var ki, Türkiyə mövzusunda, məhz Türkiyə mövzusunda yazmaq həm də onların işi-peşəsi olmuşdur: məşhur «İzvestiya» qəzetinin həm də Türkiyə üzrə xüsusi müxbirləri kimi... Hətta cəsarətlə demək olar ki, onlardan biri - Azad Şərifov Azərbaycan yazarları, o cümlədən jurnalistləri sırasında Türkiyə həyatından və türk dünyasından yazılan ilkləri ortaya qoyan və böyük oxucu auditoriyasına çatdıran çoxsaylı məqalələrin müəllifi olmuşdur"* (511).

Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş çoxsaylı araşdırmalar da təsdiqləyir ki, müstəqillik dövründə Azərbaycanla heç bir dövlətin və xalqın əlaqələri bu qədər geniş müstəvidə tədqiqat obyekti olmamışdır. Azərbaycanda Atatürk Mərkəzinin yaradılması Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında yeni mərhələdir. Atatürk irsinin, türk tarixi və mədəniyyətinin dərindən öyrənilməsini və təbliğini məqsəd edən mərkəz 2004-cü ildən başlanan fəaliyyəti ilə Böyük Türk Dünyasına töhfələrini verməkdədir. Eyni zamanda ortaya qoyulan, məsələn M. Qasımovun "Azərbaycan–Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il–dekabr 1922-ci il) (1998), M.Abdullayevin "Azərbaycan–Türkiyə əlaqələri" (1998) və "Azərbaycan–Türkiyə mədəni əlaqələrində yeni mərhələ (1970–1990-cı illər) (1998), C.Cahangirlinin "Müasir dövrdə Azərbaycan-Türkiyə münasibətləri" (2006), F. Hüseynovanın "Müstəqillik dövründə Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət)" (2007), N. Səmədovanın "İnsan, zaman və həyat həqiqəti" (2011), C. Feyziyevin "Türk Dövlətləri Birliyi: qlobal inteqrasiyanın Avrasiya modeli" (2013), "Türk Dünyası" 5-cildliyi (2017) kitablarında, E.Hüseynovun "Azərbaycan

Respublikasının Türkiyə Cümhuriyyəti ilə mədəni əlaqələri (1990-1995)" (2000), T.Atmacanın "XX əsrin axırlarında Azərbaycan-Türkiyə münasibətləri" (2004), A.Əsgərzadənin "Azərbaycan Respublikasının Türkiyə ilə strateji əməkdaşlığı" (2012), Z.Məmmədovun "Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə mədəni əlaqələri (2003-2010)" (2015), A. Paşayevanın "Azərbaycan" jurnalında publisistika məsələləri (1953-2010)" (2019) adlı dissertasiya işlərində, eləcə də Azərbaycan-Türkiyə əlaqələrinin ən müxtəlif sahələrinə həsr edilmiş monoqrafiyalarda, onlarca elmi jurnal və beynəlxalq konfransların materiallarında əlaqələrinin tarixi kökləri, mədəni aspektləri, inkişaf səviyyəsi, siyasi-iqtisadi amilləri geniş tədqiqat mövzusu olmuş, müxtəlif təşkilatların və elmi mərkəzlərin rolu araşdırılmışdır.

Azərbaycan–Türkiyə əlaqələri Türkiyədə də geniş təhlil və tədqiqat obyekti olmuşdur. İbrahim Bozyelin "Azerbaycan diyarından seyahat notları" (1985), Ali Kafkasyalının "Kafkaslardan gelen ezan sesleri" (1991), Mehmet Sarayın "Azerbaycan türkleri tarihi" (1993), Bilal Şimşirin "Türkiyə ilə Türk Cumhuriyyətləri arasındakı anlaşmalar" (1993), Ali Arslanın "Türk Cumhuriyetleri ve Türk Topluluklarından Türkiyeye gelen Öğrenciler (1992-1993) (1994)", Betül Aslanın "I dünya savaşı esnasında "Azerbaycan türkleri"nin "Anadolu türkleri"ne "Kardaş kömeği" ve Bakü Müslüman Cemiyeti Hayriyesi" (2000), "Türkiye – Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923)" (2004), Ocak Kemalın "Dünyada Türk Cumhuriyetleri Türk Halkları"(2002) kitabları və onlarca digər tədqiqatcı və siyasi xadimlərin əsərlərində Azərbaycan-Türkiyə əlaqələrinin tarixi və perespektivləri təhlil edilmişdir. Bu tədqiqatlarda da mətbuatdan danışılmış və dövri nəşrlərdən mənbə kimi istifadə edilmişdir. Amma Azərbaycan-Türkiyə münasibətlərində mətbuatın rol və vəzifələri ayrılıqda öyrənilməmişdir.

Həm Azərbaycanda, həm də Türkiyədə bir sıra tədqiqat əsərləri də var ki, mətbuat tədqiqat obyekti olsa da münasibətlər əsasən ədəbi əlaqələr fonunda təqdim olunmuşdur. Ümit Pektaşın "XX əsrin əvvəlləri Türkiyə və Azərbaycan uşaq ədəbiyyatındakı bədii nümunələrin ideya-mövzu rəngarəngliyi ("Cocuq dünyası" (1913-1918) və "Məktəb" (1911-1920) jurnalları əsasında) (2016),

Səbuhi Bayramovun "Müasir Azərbaycan-Türk ədəbi əlaqələri (Zəlimxan Yaqub və Məmməd Aslanın yaradıcılığı əsasında)" (2016) dissertasiya işlərini misal göstərmək olar. Amma təqdim olunan dissertasiya işi isə bilavasitə Azərbaycan-Türkiyə əlaqələrinin mətbuatda, konkret olaraq "Xalq qəzeti"ndə təqdimatı olduğundan araşdırmalar da mətbuatın bazasında aparılmışdır.

Bu baxımdan "Müstəqillik dövründə Azərbaycan–Türkiyə münasibətlərinin "Xalq qəzeti"ndə təqdimi məsələləri" adı ilə təqdim edilən elmi iş istər mövzu baxımından, istərsə də bu günümüzün tələbləri baxımından aktuallıq kəsb edir. İki qardaş dövlətin rəsmi mövqeyi, eləcə də Türkiyənin dünya və Avropa siyasətində tutduğu mövqe Azərbaycan mətbuatının, o cümlədən "Xalq qəzeti"nin ən çox diqqət ayırdığı məsələlərdəndir. Son illərdə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi görüşləri, ümumtürk birliyinə yönəlmiş təhdidlərə cavabları mətbuatın daimi mövzularından olmuşdur. Tarixi ənənələri olan Azərbaycan jurnalistikası bir daha sübut etmişdir ki, *"bütün dövrlərdə müasirlik, yüksək ideyalılıq, kütləvilik, beynəlmiləlçilik bu publisistikanın əsas xüsusiyyətidir"* [289, s.3].

Mövqeyindən, yəni müxalif, müstəqil və hakimiyyətyönlü olmasından asılı olmayaraq, ölkənin bütün mətbuat orqanlarında ümumiləşdirilmiş bir fikir var: bölgədə Türkiyə və Azərbaycan olmadan hər hansı layihəni həyata keçirmək mümkün deyildir. Bu, həm də Türkiyə və Azərbaycan birliyinin təntənəsidir. Təbii ki, bu olmuşlar və gələcəyə hədəflənmiş layihələrin mətbuatda təqdimatı ciddi araşdırmalara ehtiyac yaradır. Digər tərəfdən, yaddan çıxarmamalıyıq ki, *"jurnalistika – bütövlükdə cəmiyyətin sosial sisteminin bir hissəsidir"* [493, s.9]. Eyni zamanda, *"jurnalistika – aktual sosial informasiyanın toplanılması, hazırlanması və vaxtaşırı yayılması üzrə ictimai fəaliyyətdir"* [495, s.3]. Günümüzdə bu sahədə tədqiqatlar aparılması daha böyük aktuallıq kəsb etməkdədir. Bu, həm də professor Famil Mehdinin yazdığı *"Cəmiyyətimizin müasir inkişaf mərhələsində sözə, xüsusilə də publisist sözə maraq və tələb qat-qat artmaqdadır"* [289, s.3] fikirlərini də təsdiq edir.

**Tədqiqatın obyekti və predmeti.** Azərbaycan ikinci müstəqilliyini qazanandan sonra tarixi təməllərə söykənən Azərbaycan –Türkiyə əlaqələrinin müttəfiqlik səviyyəsinə yüksəlməsi mətbuatın önəmli mövzularından olmuşdur. Sovetlər dönəmində Azərbaycan SSR-in baş mətbuat orqanı olan "Kommunist", Azərbaycan ikinci müstəqilliyini qazanandan sonra həftədə 2-3 dəfə, sonralar isə gündəlik nəşr olunan "Xalq qəzeti"ndə Azərbaycan –Türkiyə münasibətlərinə həsr olunmuş çoxsaylı məqalələr, şərhlər, rəsmi dövlət nümayəndələrinin, o cümlədən dövlət və hökumət rəhbərlərinin çıxışları, intervü və bəyanatları, qarşılıqlı səfərlər və onların mətbuatda təqdimatı tədqiqatın obyektidir və bu toplu müxtəlif janrlı materiallardan ibarətdir. Azərbaycan və Türkiyə dövlət başçılarının fərmanları, hər iki ölkə parlamentlərinin və hökumətlərinin qəbul etdiyi qanunlar, qərar və sərəncamlar, dövlətlərin sosial-iqtisadi inkişaf proqramları, siyasət adamlarının fikirləri, beynəlxalq təşkilatların qiymətləndirmələri və digər rəsmi sənədlər tədqiqatın imkanlarını genişləndirir.

Eyni zamanda, bu dövrdə nəşr edilən mətbuat orqanlarından da mənbə kimi istifadə edilmişdir. Bu sırada xarici mətbuat nümunələri də diqqətdə olmuş, Azərbaycan–Türkiyə münasibətlərinin aktuallığını, tarixi köklərini, elmi, mədəni və hərbi-strateji aspektlərini dəyərləndirən araşdırma və təqdimatlar tədqiqatın informasiya bazasında yer almışdır.

Məqalələrin təhlili, mövzu və problematikası, məzmun və əhatəlilik sferasının öyrənilməsi, politoloji baxımdan xarici və daxili mənbələri dissertasiya işinin predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işi müstəqillik dövründə Azərbaycan–Türkiyə əlaqələrinin mətbuatda təqdimatına həsr edilsə də, Azərbaycanın ikinci müstəqilliyini qazandığı dövrə kimi olan mərhələnin – milli mətbuatımızda türkçülük ənənələrinin təşəkkülü və formalaşmasının, Azərbaycan Xalq Cümhuriyyəti və sovet rejimi adlandırılan 70 illik böyük bir tarixi dövrün araşdırılmasına da önəm verilmişdir. Bu yanaşma mövzunun tarixi köklərinin və mətbuatda təqdimatının araşdırılmasında xüsusi əhəmiyyət daşımaqla, həm də dissertasiyanın məqsədi olmuşdur.

Azərbaycanın ikinci müstəqilliyinin qazanması ilə yeni dövrün reallıqlarının cəmiyyətə təqdimatı mətbuatın da önəmli vəzifəsi oldu. Azərbaycan və Türkiyə arasında münasibətlərin yeni dövrü təkcə xalqlarımız arasında yox, həm də dövlətlərarası münasibətlərdə aktuallıq kəsb etdiyindən mətbuatın da daim diqqətində olmuş, bu ənənə bu gün də uğurla davam etdirilməkdədir. Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamı, Ümummilli Lider Heydər Əliyevin birliyimizin möhtəşəm sloqanına çevrilmiş "Bir millət – iki dövlət" ifadəsi müasir dövrdə Azərbaycan–Türkiyə münasibətlərinin məzmununu və yönünü aydın göstərir. Bu baxımdan Azərbaycanın müstəqillik qazandığı 1991-ci ildən başlayaraq 2018-ci ilin sonlarına kimi ölkələrimiz arasında bütün sahələrdə təşəkkül tapan əlaqələrin inkişaf trayektoriyasının mətbuatda - "Xalq qəzeti"ndə təqdimatının öyrənilməsi araşdırmanın məqsədi olmuşdur.

*"Ortaq tariximizin və qardaşlığımızın daimi olması üçün hər cür fədakarlıq göstərən insanların, yeni baxış ortaya qoyan şəxsiyyətlərin, o cümlədən Mustafa Kamal Atatürkün və Ulu Öndər Heydər Əliyevin tövsiyələri, hazırda bu missiyanı uğurla davam etdirən dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın əlaqələri qarşıya olduqca mühüm vəzifələr qoyur"* (517). Bunlar dissertasiyanın xronoloji hüdudlarının təyinedicisi olmaqla elmi işin önündə də vəzifələr qoyur və aşağıdakı ümdə məsələlərin öyrənilməsini və araşdırılmasını müəyyən edir:

- Birinci, türkçülük ideyalarının milli mətbuatın inkişaf yolunda yeri;
- İkinci, türkçülük ideyalarının formalaşmasında mətbuatın rolu;
- Üçüncü, Azərbaycan sovet mətbuatı tarixində türkçülük;
- Dördüncü, müstəqilliyimizin yeni dövründə mətbuatda Türkiyə mövzusu;
- Beşinci, Azərbaycan və Türkiyə münasibətlərinin bütün Türk dünyasının problemlərinin həllinə təsiri;
- Altıncı,tarixi ənənələrdən bəhrələnərək bu günümüzün reallıqlarına münasibət;
- Yeddinci, Azərbaycan-Türkiyə münasibətlərinin tarixi, siyasi, iqtisadi, ədəbi, mədəni sahələrdə olduğu kimi mətbuatda əksinin də tədqiqat sahəsi olması və s.

Azərbaycan–Türkiyə əlaqələrinin mətbuat müstəvisində araşdırılmasında deyilənlər də münasibətlərin inkişafı üçün sağlam zəmin yaratmaqla mətbuata tükənməyən mövzular təqdim etməkdədir. Araşdırmalar da göstərir ki, Azərbaycan-Türkiyə əlaqələri bütün sahələrdə geniş və əhatəlidir. Hətta "Xalq qəzeti"nin bu mövzuda dərc etdiyi məqalə və xəbərlər, reportaj və təqdimatlar təkcə janr rəngarəngliyi ilə yox, əhatə etdiyi mövzu müxtəlifləyi ilə də zəngindir.

**Tədqiqat metodları.** Dissertasiyada müqayisəli-analitik, müqayisəli-tarixi və müqayisəli-tutuşdurma metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işinin müdafiəsinə çıxarılmış müddəalar əsasən, aşağıda təqdim olunan araşdırma, təhlil və dəyərləndirmələr istiqamətində müəyyənləşdirilmişdir:

- Azərbaycan milli mətbuatının dövlətçilik və türkçülük ənənələri,
- Azərbaycan Xalq Cümhuriyyətinin mətbu irsi və milli mətbuatın türkçülük ideyası,
- Sovet dövrü Azərbaycan mətbuatında Türkiyə mövzusu,
- Azərbaycan–Türkiyə münasibətləri müstəqillik ərəfəsi dövrü mətbuatında,
- Müstəqilliyin ilk illərində Azərbaycan mətbuatında Türkiyə mövzusu,
- Ulu öndər Heydər Əliyevin dövlətçilik kursunda Azərbaycan–Türkiyə əlaqələri,
- Müştərək regional layihələrin və neft strategiyasının uğurları mətbuatda,
- Çoxtərəfli əlaqələrin dərinləşməsi və strateji əməkdaşlıq,
- Ümumtürk həmrəyliyi və terrorizmə qarşı mübarizə.

Məsələnin araşdırılması göstərir ki, əslində, Azərbaycan–Türkiyə əlaqələrinin istər inkişaf mərhələləri, istərsə də bütün sahələrdə uğurları o qədər geniş və əhatəlidir ki, bir dissertasiya işində bunları əhatə etmək mümkün deyildir. Hətta nəinki müasir Azərbaycan mətbuatının, eləcə də təkcə "Xalq qəzeti"nin Azərbaycan –Türkiyə münasibətlərinə həsr etdiyi məqalə və xəbərlərin, reportaj və təqdimatların zənginliyi, janr rəngarəngliyi, mövzu müxtəlifliyi o qədər əhatəlidir ki, bir dissertasiya işi bunların təhlili üçün yetərli deyildir. Ona görə də bir sıra məsələlərin təqdimatından, demək olar ki, bütünlüklə yan keçilmiş, bəzi ümdə məsələlərin üzərində isə tezizlər çərçivəsində dayanılmışdır.

**Tədqiqatın elmi yeniliyi** ölkədə nəşr olunan və uzun illik fəaliyyəti olan bir qəzetin, əvvəlcə "Kommunist" (1919), sonra isə "Xalq qəzeti" (1991) adlandırılan dövri nəşrin Azərbaycan–Türkiyə münasibətlərinə yanaşmasındadır. Bu əlaqələri əks etdirən materialların siyasi və ictimai dəyərinə elmi münasibətdədir. Müxtəlif dövrlərdə bu münasibətlər ziddiyyətli olduğu qədər də dəyərli və gərəkli olmuşdur.

Mətbuat tədqiqatçılarının araşdırmaları ilə tanış olanda AXC dövrü və Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu illərə kimi mətbuat tariximizin daha geniş və əhatəli araşdırıldığının şahidi oluruq. Sovet dövründə buna geniş imkan verilməsə də, müxtəlif vasitələrlə, eyni zamanda tədqiqatçı fədakarlığı ilə mətbuat tariximizin bu dövrü də öyrənilmiş və bu ənənə davam etdirilməkdədir. Müstəqilliyimizin yeni dövründə bu işlər daha da geniş vüsət almış, eləcə də mühacirət jurnalistikası tarixinin araşdırılması önəmli tədqiqatlardan olmuşdur. Amma sovet dövrü mətbuat tarixinin tədqiqatı və bu sahədə təqdim edilən əsərlərin sayı barmaqla sayılacaq qədər azdır. Əslində, ortaya qoyulan tədqiqatların böyük qismi Sovet dövrünün payına düşdüyündən ideoloji baxışlar üstünlük təşkil edir.

İndiki dövrdə Azərbaycan sovet mətbuatının cəmiyyət qarşısında xidmətlərini "rejimin xidmətçisi və təbliğatçısı" adlandırmamaq mümkün olmadığı kimi, onu tam şəkildə bu cür təqdim etmək də haqsızlıq olardı. Bu baxımdan, Azərbaycan sovet mətbuatı tarixinin, o cümlədən dövri nəşrlərin öyrənilməsi önəmli olmalıdır. Tədqiqatın I fəslində mətbuatda Azərbaycan–Türkiyə münasibətlərinin az bir hissəsinin araşdırılmasına cəhd edilmiş və burada da, ancaq "Kommunist" qəzetinin dərc etdiyi materiallar tədqiqat obyekti olmuşdur. Bu araşdırmalardan sonra ortaya qoyulan qənaət belədir: uzun illər boyu Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı kimi nəşr edilmiş "Kommunist", təkcə "rejimin xidmətçisi" yox, həm də xalqımızın uğurlarla, hədsiz çətinliklər və faciələrlə müşayiət edilən həyat yolunun əks olunduğu tarixi güzgü olmuşdur.

Digər tərəfdən, *"Azərbaycan sovet mətbuatında Türkiyə mövzusundan danışılanda Azərbaycan sovet publisistikasının ilklərini ortaya qoyan, bir növ, bu mövzuda cəmiyyətin"* (511) "aclığını" ödəyən yazıların müəllifləri məşhur

yazıçılar olduğundan onların Türkiyə haqqında müxtəlif mətbuat orqanlarında dərc edilən yazıları və səfər təəssüratları daha çox ədəbi əsərlər kimi təqdim olunmuşdur. Hələ ilk dəfə sovetlər dönəmində Xalq yazıçısı Mehdi Hüseynin Türkiyə səfərindən sonra *"Bir ay və bir gün"* [227] kitabı ilə başlayan bu tendensiya sonralar da davam etdirilmişdir. "*Tədqiqatçıların ədəbi nümunələr kimi təqdim etdiyi bu əsərlər Azərbaycan–Türkiyə əlaqələri haqqında yazılmış ilk nümunələrdir. İllər boyu jurnalistikanın publisistika janrının daha çox ədəbiyyat nümunəsi kimi təqdim olunması etiraz doğurmayıb. Ədəbiyyat və jurnalistika arasında sərhəd yaratmaq fikrindən uzaq olsaq da, reallıq budur ki, bunlar jurnalistikadır və mətbuatın predmeti kimi də tədqiq edilməlidir"* [511]. Eyni zamanda, mövzu ilə əlaqədar müstəqillik dövrünün uğurlarının mətbuatda təqdimatı tədqiqatın nəzəri və elmi predmeti kimi onun elmi yeniliyini təsdiq edir. Tədqiqata cəlb edilmiş mövzu sistemli şəkildə öyrənilmədiyi üçün bir sıra elmi yeniliklərdən bəhs etmək mümkündür və aşağıdakı qənaətləri formalaşdırır:

– Mətbuatın üzərinə qoyulan qadağalar obyektiv reallıqlardan yazmağa imkan verməmişdir. "Kommunist" qəzetində Azərbaycan–Türkiyə münasibətlərini əks etdirən materialları təhlil edərkən də bunu görməkdəyik.

– Sovet dövrü mətbuatının tədqiqinə dair əsərlərin sayı azdır, tədqiqatlarda ideloji baxışlar üstünlük təşkil edir.

– Sovet dövrünə kimi mətbuat tarixi geniş araşdırılmış, müstəqillik dövründə bu iş daha da vüsət almış, mühacirət jurnalistikasının araşdırılması önəmli mövzularından olmuşdur.

– Azərbaycan sovet mətbuatının xidmətlərini rejimin xidmətcisi və təbliğatçısı adlandırmamaq mümkün olmadığı kimi, onu tam bu cür təqdim etmək də haqsızlıq olardı. Bu baxımdan jurnalisistika *"...xalqımızın zülmə, istismara, dini fanatizmə, istibdada, tamahkarlıq, rüşvətxorluq, nadanlıq, yaltaqlıq, laqeydlik və sairəyə qarşı mübarizənin salnaməsinə çevrilmişdir"* [289, s.3].

– Ən önəmlisi, "Xalq qəzeti"nin mövzuya münasibəti yanaşmanın yeniliyini və müstəqilliyini şərtləndirir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi milli mətbuatın tarixi inkişaf yolunun öyrənilməsi, Azərbaycan–Türkiyə əlaqələrinin araşdırılması, o cümlədən başqa istiqamətlərdə də tədqiqatların aparılması baxımından nəzəri əhəmiyyətə malikdir.

Tədqiqat işinin nəticələri Azərbaycan–Türkiyə, bu gün daha da yaxınlaşılmasına ciddi ehtiyac duyulduğu türk dövlətləri birliyinin və əlaqələrinin inkişafında önəmi olan layihə və təkliflərin hazırlanmasında, ixtisas kurslarının proqramlaşdırılmasında və tədrisində baza rolunu oynaya bilər. Eyni zamanda təqdim olunan təkliflərin tətbiqi kütləvi informasiya vasitələri arasında əlaqələrin daha da genişlənməsində önəmli rola malik olmaqla, həm də jurnalistlər arasında əlaqələrin yaxınlaşdırılmasınada yeni bir müstəvi kimi də təqdim edilə bilər.

**İşin aprobasiyası və tətbiqi.** Tədqiqatın elmi-nəzəri müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq qəbul edilmiş xaricdə və Azərbaycanda nəşr edilən elmi jurnallarda dərc edilmiş 30-dan çox elmi məqalə və beynəlxalq konfranslardakı məruzələrdə, o cümlədən tədqiqat obyekti olan "Xalq qəzeti"ndə və dövri mətbuatda dərc olunmuş müxtəlif janrlı çoxsaylı məqalələrdə əks olunmuşdur. Tədqiqatın nəticələri humanitar elmlərlə məşğul olan alimlər, araşdırmaçılar, mətbuat tarixi mütəxəssisləri, filoloqlar, eləcə də digər geniş tədqiqatçı auditoriyası üçün böyük maraq kəsb edə və nəticələrindən əlavə vəsait kimi də istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Bakı Dövlət Universitetinin (BDU) Beynəlxalq Jurnalistika və informasiya siyasəti kafedrasında hazırlanmışdır. Dissertasiyanın növzusu BDU Jurnalistika fakültəsi Elmi Şurasının 15 fevral 2017-ci il (protokol № 4) və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası Filologiya problemləri üzrə Elmi Şuranın 30 mart 2017-cü il tarixli (protokol №3) qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın strukuru.** Tədqiqat işi "Giriş" (20861 şərti işarə), üç fəsil (I fəsil, 67309 şərti işarə, II fəsil, 91293 şərti işarə, III fəsil, 77227 şərti işarə), "Nəticə" (12853 şərti işarə) və "İstifadə olunmuş ədəbiyyat siyahısı" olmaqla, ümumilikdə 269543 şərti işarədən ibarətdir.

# I FƏSİL
# AZƏRBAYCAN MİLLİ MƏTBUATININ TÜRKÇÜLÜK ƏNƏNƏLƏRİ VƏ SOVET DÖVRÜ MƏTBUATINDA TÜRKİYƏ MÖVZUSU

## 1.1. Azərbaycan milli mətbuatında türkçülük ideyası və Azərbaycan Xalq Cümhuriyyətinin mətbu irsi haqqında

Bütün Şərqdə, eləcə də türk–islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olan Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman dünyasında ilk demokratik respublika kimi tarixə düşməklə yanaşı, Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini bərpa etdi, insan hüquq və azadlıqlarının təmin edilməsinə, irqi, milli, dini, sinfi və digər sosial bərabərsizliklərin ləğvinə əsaslı şərait yaratdı. Ulu Öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddət ərzindəki fəaliyyətini yüksək qiymətləndirmiş, 1997-ci il mayın 27-də Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda AXC-nin yaradıcılarını "*xalqımızın qabaqcıl insanları, Azərbaycanın gələcəyi haqqında düşünənlər*" [210] adlandırmışdır. Ulu Öndərin 1998-ci il yanvarın 30-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" sərəncam və yubileyin respublika miqyasında təntənə ilə qeyd edilməsi, silsilə tədbirlər, konfrans və toplantıların keçirilməsi dövlət başçısının bu tarixi hadisəyə yüksək qiymətinin növbəti təzahürü oldu.

Azərbaycan Xalq Cümhuriyyəti 23 ay mövcud olmasına baxmayaraq, çox böyük və taleyüklü problemləri həll etməyə müvəffəq olmuşdur. *"Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, dövlətçilik atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır"* [46,s.3]. Ulu Öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də Azərbaycan Xalq Cümhuriyyəti qurucularının bütün sahələrdəki fəaliyyətlərini yüksək qiymətləndirmişdir. Onun 2017-ci il mayın 16-da imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" sərəncamda bu

çox aydın ifadə edilmişdir: *"Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu...ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü"* [45].

Təəssüflər olsun ki, uzun illər bu şərəfli tarix xalqdan gizlədilmiş, yaxud da bolşevik təfəkkürünün saxtalaşdırılmış iddiaları ilə cəmiyyətə təqdim edilmişdir. Tarixçi alim Anar İsgəndərovun ciddi bir ittiham adlandırdığı və riqqətlə yazdıqları fikirlərimizi bir daha təsdiq edir: *"Tarixi həqiqətlərin konyukturçu nöqteyi-nəzərdən, qəsdən təhrif edilməsinin bariz nümunəsi 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin tarixidir. Bu torpağın üstündə addımlayaraq, bu xalqın çörəyini yeyərək, onun maddi-mənəvi dəstəyi ilə ərsəyə yetib elmi mənsəb, şan-şöhrət sahibi olaraq, böyük pafosla özünü tarixçi alim adlandıran kommunist məddahları adidən də adi həqiqətə ... məsələn, Bakı Kommunası tərəfindən... Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsini ən yaxşı halda "vətəndaş müharibəsi" kimi təqdim etməkdən zərrəcə olsa da vicdan əzabı çəkməmişlər"* [248]. Amma *"Şükürlər olsun ki, milli ruhu oyanmış Azərbaycan türklərinin xalq hərəkatı tarixin təkrarini 28 apreldən 28 Maya doğru apardı. Bizi özümüzə, kökümüzə qaytardı"* [342]. Gec də olsa AXC öz tarixi dəyərinə sahibləndi: *"AXC qurucuları elə böyük şəxsiyyətlərdir ki, onlar bütün gələcək nəsillər tərəfindən həmişə ən dərin minnətdarlıqla anılmalıdırlar. Onların yox yerdən qurduqları bu cümhuriyyət, xalqımıza bəxş etdikləri istiqlaliyyət bu millətin var olduğu müddətdə qazandığı ən böyük nailiyyətdir"* [229, 512].

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra alimlərin, tədqiqatçıların üzünə "tam məxfi" və "məxfi" qrifləri ilə bağlı elan edilmiş

arxivlərin, fondların açılışı cümhuriyyət tarixinə dair önəmli və yeni münasibətləri ortaya qoydu. O cümlədən, mətbuatın yazdıqları bu şərəfli tarixin cəmiyyətə çatdırılmasında mühüm rol oynadı. Təbii ki, mətbuatın bu sahədəki rolunu önə çəkməklə həm də xalqın qurduğu dövlətin həyata keçirdiyi olduqca miqyaslı tədbirlərin nə qədər dəyərli olduğunu aydın görürük. Bu məsələdə "*araşdırmaları və nəşrləri ilə Həsən bəy Zərdabi, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev və digər millət fədailərinin şəxsiyyəti və irsinin daha yaxşı tanınması üçün mötəbər təməllər yaradan*" [473] professor Şirməmməd Hüseynovun "*tarixi keçmişimizi, kökümüzü dəqiq və dürüst öyrənməyin ən mötəbər mənbələrindən biri – zamanın kollektiv yaddaşı hesab edilən mətbuatdır*" [230,s.23] deyimi bir daha təsdiqini tapmış olur.

"*Azərbaycan Xalq Cümhuriyyətinin bütün digər ictimai-siyasi qurumları kimi, onun dövri mətbuatı da birdən-birə yaranmamışdı. Hələ 19-cu əsrin 1-ci yarısında Azərbaycanda milli və ümumbəşəri ideалların məfkurəçiləri olmuş Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə kimi yazıçı və ictimai xadimlər tərəqqinin başlıca yolunu, milli istiqlalın təntənəsini dövri mətbuat nəşr etməkdə görürdülər. Bu yolun davamçısı olan Həsən bəy Zərdabi öz böyük sələflərinin arzularını yerinə yetirmiş, 1875-ci ildə "Əkinçi" qəzetinin timsalında ilk milli mətbuatı yaratmışdı*" [44, s.73-74]. Tədqiqatçıların qənaətinə görə isə, dövrün mətbuat orqanları "*Əsrin əvvəllərində fəaliyyət göstərən ... qəzet, jurnallar müxtəlif qüvvə və təbəqələrin cəmiyyətdəki yerini, rolunu, ziyalılar arasında ictimai-siyasi ədəbi fikrin istiqamətini,məslək, əqidə mübarizəsini, amal, məramını parlaq əks etdirməklə yanaşı, tərəqqi, təkamül amili idi*" [376].

Tiflisdə "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin çapdan çıxması (7 aprel 1906-cı il) ilə satirik jurnalistika məktəbi yaradıldı, Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin" adı ilə məşhur oldu. Mirzə Cəlil yaradıcılığına münasibətdə yeni yanaşma tərzi ilə seçilən tədqiqatçı Allahverdi Məmmədli yazırdı: "*Cəlil Məmmədquluzadə vətənini, millətini, ana dilinin inkişafı, mənəvi yüksəlişi, yad təsirlərdən qorunması üçün yaradıcılıq potensialından yetərincə və bacarıqla istifadə etmişdir. O, azərbaycançılıq idealının bütün sahələrini əks etdirmiş,*

*ədəbiyyatda azərbaycançılığı sənət konsepsiyası səviyyəsinə çatdırmışdır*" [291]. Professor Əziz Şərifin təbirincə desək, "Molla Nəsrəddin" *"...demokratik ictimaiyyəti maraqlandıran elə bir problem olmamışdır ki, onu qabaqcıl, mütərəqqi mövqedən işıqlandırmasın"* [503, s.10]. Sovetlər dönəmində ara verməyən təzyiqlərə tab gətirməyib yorğan-döşəyə düşən Mirzə Cəlili professor Bəşir Əhmədov *"ilk repressiya qurbanlarından biri"* [152] adlandırmışdır.

Heç şübhə etmirik ki, Azərbaycan ziyalılarının dövlətçilik, intellektual cəmiyyət, azad şəxsiyyət, dil uğrunda fəal mübarizəyə qoşulması məhz junalistikanın vətəndaş mövqeyi və milli təəssübkeşliyi ilə əlaqələndirilməlidir. Bu mübarizəni *"...dövri mətbuatın köməyi ilə gerçəkləşdirən ədib, şair, ictimai xadim və jurnalistlər Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji əsaslarını formalaşdıra bildi, "Türkçülük, islamçılıq, müasirlik" prinsiplərinə söykənərək azərbaycançılıq düşüncəsini cəmiyyətin şüuruna tətbiq edə bildilər"* [469]. Türkçülük ideyalarının geniş yayıldığı *"Bu dövrdə Azərbaycan milli mətbuatı öz səhifələrində, əsasən, türkçülük ideyalarını təbliğ etməklə oxucularının qəlbinə yol tapdı"* [280, s.56]. Dövrün mətbuat nünunələrinin fəaliyyətini izləməklə bunları aydınlığı ilə görmək mümkündür.

Xalqın xilas yolunu məfkurə birliyində görən və türkçülük çağırışları ilə bütövlüyü, müstəqilliyi təbliğ edən "Açıq söz" qəzetinin qarşıya qoyduğu məram 1-ci sayından özünü göstərir. Elə ilk sayında qəzetin adının altında "Gündəlik türk qəzetidir" sözlərinin yazılması onun türk dünyası ilə bağlılığının bariz nümunəsi idi. Hətta qəzet mətbuat tariximizdə, ilk dəfə olaraq, "türk xalqı" olduğumuzu sübut etmiş, AXC dövründə də ənənələrə sadiq qalmış, *"hökumət də xəlqə, torpaq da xəlqə bayrağını qaldırır"* [343, s.230] fikrini söyləmişdir.

Hər sahədə olduğu kimi, ordu quruculuğunda da Türkiyə (Osmanlı dövləti) Azərbaycandan yardımını əsirgəmədi. Ölkədə milli nizami ordu, ordunu milli zabit kadrları ilə təmin etmək üçün 1918-ci ilin iyununda Gəncədə hərbi məktəb yaradıldı. Əslində, uzun illər İran və Türkiyəyə qarşı müharibə aparan Çar Rusiyası müsəlman gənclərə etibar etməyərək, onların orduya çağırışını dayandırmışdı. Bu, əsgərlik vergisinin ödənilməsi ilə yekunlaşırdı. Tiflisdə yaradılmış Zaqafqaziya

komissarlığının dekabrın 19-da general Əliağa Şıxlınskinin rəhbərliyi ilə "Müsəlman ordusu"nun yaradılması haqqında qərarı tarixi bir hadisə idi. "Açıq söz" azərbaycanlıların əsgərliyə çağırılması ilə əlaqədar çağırış və onun qaydaları haqqında qanunu dərc edir [310]. Milli Ordunun yaradılması Azərbaycanın müstəqilliyi və azadlığının təminatında böyük əhəmiyyət daşıyırdı. Mirzəbala Məmmədzadə "Azərbaycan çağırıyor" məqaləsində bunu belə ifadə edirdi: *"Hürriyyət və vətən yolunda can verməyən bir millət, muxtariyyəti və istiqlalı yolunda varından keçməyən bir millət yaşamaq istəməmək deməkdədir"* [300].

Təhlükəsizlik və müstəqilliyin qorunması kimi çağırışlar 1918-ci ilin əvvəllərində tez-tez rast gəlinən və demək olar ki, tutduğu mövqe və dayandığı platformadan asılı olmayaraq bütün mətbuatın müraciət etdiyi mövzulardan idi. "Birlik tələb olunur", "Birləşəlim", "İttifaq edəlim", "İttihad gərək" kimi çağırışların əks olunduğu qəzetlər, o cümlədən "Açıq söz"ün 1918-ci il 18 mart qanlı bazar günündən 3 gün əvvəl təqdim etdiyi *"Dəhşətli saat gəlir, birlik gərək"* [240] kimi yazılar mətbuatın nə qədər fəal bir mövqedə dayandığını ortaya qoyur. O gün Şaumyanın tabeliyində olan Bakı Sovetinin qoşunları "vətəndaş müharibəsi" adı ilə tarixin ən vəhşi qırğınını törətdilər. Üzeyir Hacıbəyli bu qırğını "vətəndaş müharibəsi", "sinfi mübarizə" adlandıranları ifşa edərək yazırdı: *"Əcəba bu nə müharibə idi, bu nə qırğın idi? Deyirlər ki, bu, "qrajdan" müharibəsi, sinif müqatiləsi idi. Yəni bolşeviklər füqərayi-kasibə xatiri üçün burjuvalarla müharibə edirdilər. Lakin bu, yalandır. Bunun böyük yalan olduğunu isbat edən minlərcə müsəlman füqərayi-kasibəsinin meyitləridir ki, bolşevik qoşunu tərəfindən "müsəlman olduğuna görə" çox rəhmsiz bir surətdə öldürülmüşdülər"* [192]. Hələ sovetlər dönəmində Üzeyir bəyin jurnalistlik fəaliyyətini dəyərləndirən Xalq yazıçısı Mirzə İbrahimov yazırdı: *"Üzeyir Hacıbəyov "Molla Nəsrəddin", "İrşad", "Həyat", "Tərəqqi", "İqbal", "Həqiqət" və sair qəzet və jurnallarda çap etdirdiyi saysız-hesabsız publisistik yazılarda Azərbaycan xalqının həyatının, mübarizəsinin, təfəkkürünün ən müxtəlif sahələrini və problemlərini işıqlandırır"* [239, s.6].

Obyektiv mövqeyi, milli ruhu və yüksək ideya fəallığı ilə seçilən "Açıq söz" *725-ci nömrəsindən* sonra fəaliyyətini dayandırdı [343, s.37] və onun yerini dövrün

mütərəqqi mətbu orqanlarından biri sayılan "İstiqlal" qəzeti tutdu. Həftədə bir dəfə buraxılan qəzetin 42 nüsxəsi çap edilərək oxuculara çatdırılmışdır. Qəzetin başlığında böyük türk şairi Tofiq Fikrətin epiqraf kimi verilmiş məşhur "Millət yoludur, haqq yoludur tutduğumuz yol. Ey haqq! Yaşa, ey sevgili millət, yaşa, var ol!" misraları həm də AXC-nin məram və niyyətini əks etdirən epiqraf idi. Amalı millət yolu, haqq yolu olan AXC yarandığı ilk gündən "türkləşmək, islamlaşmaq, müasirləşmək" şüarını rəhbər tutaraq, son gününə kimi apardığı geniş islahatları davam etdirmişdir. Mətbuat tədqiqatçısı Asif Rüstəmli "İstiqlal"ın bu fəaliyyətini dəyərləndirərək yazırdı: *"...qəzet, həqiqətən də, millətlərin və insanların azadlığını müdafiə etmiş, təmsilçisi olduğu firqənin demokratik ənənələrinə, yürütdüyü açıq və ardıcıl xəttə sadiq qalmışdır"* [343, s.3].

AXC mətbuat və nəşriyyat işinin yenidən qurulması üçün də tarixi qərarlar qəbul etdi. Bu dövrün mətbuatı milli mədəniyyətin mühüm tərkib hissəsi kimi Azərbaycan həyatının canlı salnaməsinə çevrildi. Eyni zamanda, *"Bu oyanışdan Azərbaycan ziyalıları da bəhrələnmək üçün xalqın azadlığı uğrunda mübarizəyə qalxdılar. Bu mübarizə daha çox mətbuatda özünü büruzə verdi"* [306, s.174]. 1919-cu il oktyabrın 30-da qəbul edilmiş "Mətbuat haqqında Nizamnamə" ölkədə kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən ilk qanunverici akt oldu. Hökumətin 1918-ci il 9 noyabr tarixli sərəncamı ilə kütləvi informasiya vasitələri üzərində dövlət nəzarətini ləğv etdi [40,s.50-55]. "Mətbuat haqqında Nizamnamə"də göstərilirdi ki, *"Mətbuat, litoqrafiya və buna bənzər müəssisələrin açılması üçün, habelə çap məhsulunun nəşri və satılması üçün hökumət idarələrinin heç bir icazəsi tələb olunmurdu. Bunun nəticəsi idi ki, iki il içərisində ölkədə 100-ə yaxın adda qəzet və jurnal çıxmışdır"* [44,s.73]. 1918-1920-ci illər Azərbaycan mətbuatının ən yüksək inkişaf dövrü olmuşdur. Maraqlı faktdır ki, Azərbaycanda milli mətbuatın yaranmasından keçən 43 il ərzində təxminən 40 adda qəzet və jurnal çıxmışdısa, tədqiqatçı Nazim Axundov bu dövrdə 200-ə qədər [42], Solmaz Rüstəmova-Tohidi isə azərbaycan, rus, erməni, fars, gürcü, polyak, alman və qeyri dillərdə yayımlanmış 400-dən çox [43] mətbuat orqanının nəşr olunduğunu bildirirlər. Bu dövrdə mətbuat-informasiya işinin təşkili, daxili və

xarici siyasətdə doğru-düzgün olanın dünyaya çatdırılması tarixi vəzifə idi. 1918-1920-ci illər mətbuatını ideya istiqaməti baxımından müxtəlif qruplara ayıran tədqiqatçılar AXC ideyalarını təbliğ edən milli mətbuatın fəaliyyətinə xüsusi önəm verir, *"cümhuriyyət dövrü Azərbaycan publisistikasını ideya-mövzu cəhətdən çox zəngin"* [17, s.210], *"mətbuat orqanlarını həmin illərin tarixi salnaməsi, sənədli tarixi yadigarı kimi*" [17, s.203] təqdim edirlər. "Türkləşmək, islamlaşmaq, avropalaşmaq" şüarını əsas ideya istiqamətləri kimi qəbul edən, *"Avropanın inkişaf qanunlarını cəmiyyətə aşılayan bu tip mətbu nümunələr ideya şəklində olan AXC-nin timsalında dövlət quruluşunun siyasi, fəlsəfi cizgilərini yaratdılar"* [466, s.8].

Bu dövr həm də "Azərbaycan" adlı dövlət qəzetinin, *"...milli mətbuatımızın tarixində təkcə ərazi olaraq ölkənin deyil, milli dövlətin adını ifadə edən mətbuat orqanının fəaliyyətə başlaması ilə əlamətdardır. Bu mənada "Azərbaycan" qəzetinin rəsmi dövlət qəzeti kimi meydana çıxması Azərbaycan tarixinin mühüm hadisəsidir"* [220]. Qəzet 1918-ci il 15 sentyabrda Gəncədə nəşrə başlamış, 6-cı sayından sonra nəşrini Bakıda davam etdirmişdi. İlk nömrəsindən azərbaycançılıq ideologiyasının geniş təbliği ilə məşğul olmuş və rəsmi dövlət qəzeti statusunu qazanmışdı. *"Bu qəzet Azərbaycanda şəffaf informasiya mühitinin yaradılmasını başlıca məqsəd bilir, ümummilli problemlərin həllinə çalışır, ..."gör-götür dünyası"nda Azərbaycan insanına beynəlxalq aləmi tanıdırdı"* [469, s.5].

"Azərbaycan" qəzetinin publisist mübarizəsinin başında qəzetin əsas redaktorlarından olmuş Üzeyir Hacıbəyli dayanırdı. O, Azərbaycan həqiqətlərini dünyaya çatdırmağın vacibliyini açıqlayan "Mühüm məsələlər" məqaləsində bildirirdi: *"İndiyə qədər o dərəcədə bişüur olmuşuq ki, bütün Qafqaz millətlərindən təkə-təklikdə ədədcə çox olduğumuz halda, biz Azərbaycan türkləri haqqında nəinki Avropanın, hətta yüz ildən bəri üstümüzdə sahiblik edən rusların da dürüst xəbərləri yox idi. Ruslar bizi "persian" deyə İran və fars millətindən hesab edirlər. Mən özüm bizim "persian" olmayıb türk olduğumuzu Moskva və Petroqraddan əlavə Bakının özündə də bir çox ruslara dəfələrlə qandırmışam"* [193].

*"1918-1920-ci illərdə Ü.Hacıbəyov publisistikasının mühüm tənqid hədəflərindən biri Azərbaycan xalqını dünyaya vəhşi, qaniçən, mədəniyyətsiz kimi*

*tanıdan erməni-daşnak təbliğatı idi"* [17, s.213]. Hətta bu mövzuda yazdığı "Səddi-İsgəndər" adlı məqaləsində Azərbaycan nümayəndə heyətinin Fransaya sülh konfransına getdiyi günlərdə erməni-daşnak təbliğatını Azərbaycan diplomatiyası qarşısında dayanan *"İsgəndər səddi"* adlandırırdı [194].

"Azərbaycan" qəzetinin Gəncədə işıq üzü görən ilk sayında Bakının azad edilməsi ilə bağlı xəbərlərə daha çox yer ayrılması bu ümdə məsələnin daha çox diqqətdə saxlanılması kimi dəyərləndirilə bilər. Bakının azad olunması haqqında Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın Azərbaycan Cümhuriyyəti hökumətinə və hökumətin sədri F.X.Xoyskinin adından Nuru paşaya cavab teleqramı da ilk olaraq "Azərbaycan"da dərc olunmuşdur. M.Ə.Rəsulzadə *"15 sentyabr zəfərinin 28 May qədər tarixi dəyəri var"* [339] deyə dəyərləndirmişdir. Qəzetin 15 sentyabr 1918-ci il nömrəsində Məhəmməd Hadinin türk əsgərinin şücaətini vəsf edən "Türkün tökülən qanları bihudə gedərmi? Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?" misraları ilə başlayan *"Türk nəğməsi"* şeirinin [197], *"Bu o gündür ki, Azərbaycan türklərinin Milli Məclisi, Milli Şurası açılıb. Azərbaycan təkmil bir hökumət şəklinə girir"* [195] kimi xoş müjdəli xəbərlərin də ilk yayıcısı "Azərbaycan" olmuşdur. Tədqiqatçıların da yazdığı kimi, *"AXC-nin İstiqlal Bəyannaməsi, AXC Milli Məclisinin işə başlaması və fəaliyyəti, Bakının Qafqaz İslam Ordusu tərəfindən azad olunması, Bakı Dövlət Universitetinin yaradılması, dövlət müstəqilliyinin ildönümünün qeyd edilməsi, hətta hakimiyyətin bolşeviklərə təhvil verilməsi zərurəti kimi tarixi hadisələri bütün təfərrüatı ilə öyrənmək üçün "Azərbaycan" qəzeti mötəbər mənbədir"* [220]. Qəzetdə dərc edilən erməni-daşnak qulduru Andronikin Zəngəzur, Naxçıvan, Qarabağ və digər rayonlarda törətdiyi vəhşiliklər, Ermənistan ərazisində yaşayan azərbaycanlıların acı taleyi, kütləvi məhvi və ata-baba torpaqlarından qovulması haqqında materiallar AXC tarixinin öyrənilməsində dəyərli nümunələrdir.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1918-ci il dekabrın 7-də işə başladıqdan sonra qəzet parlamentin iclaslarından stenoqrafik hesabatları "Azərbaycan Məclisi-Məbusanında" rubrikasında dərc edib. "Rəsmi xəbərlər", "Teleqraf xəbərləri", "Rusiyada", "Ermənistanda", "Gürcüstanda", "Türkiyədə",

“İrəvan müsəlmanlarının halı”, “Teatr və musiqi” və digər daimi rubrikalar olub. *“Qəzetdə “Türk əsgəri” adlı ayrıca guşə var idi ki, burada türk əsgərinin döyüş rəşadətindən bəhs edən poetik duyğular intensiv şəkildə verilirdi”* [306, s.177]. Üzeyir Hacıbəyli yazırdı: *“Qədirbilən Azərbaycan xalqı türk silahlı qüvvələrinin öz doğma qardaşları ilə birgə Bakını azad etmək uğrunda göstərdiyi qəhrəmanlığı heç bir zaman yaddan çıxarmayacaq”* [196]. Yeri gəlmişkən qeyd edək ki, qəzetdə Üzeyir bəy Hacıbəylinin Azərbaycan tarixinə, siyasi vəziyyətinə, iqtisadiyyatına, sənayesinə, maarif və mədəniyyətinə aid 100-dən çox məqaləsi dərc olunmuşdur.

Qısa müddətdə böyük nüfuz qazanmış "Azərbaycan" Üzeyir bəy Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Mirzəbala Məmmədzadə, Xəlil İbrahim, Məhəmməd Hadi, Zülfüqar Hacıbəyov, Əhməd Cavad, Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Fərhad Ağazadə, Şəfiqə Əfəndizadə, Məhəmməd ağa Şahtaxtlı, Firidun bəy Köçərli, Seyid Hüseyn, İbrahim Xəlilov, Cəfər Cabbarlı, Abdulla Şaiq, Qafur Rəşad Mirzəzadə, Şəfi bəy Rüstəmbəyli, Yusif Vəzir Çəmənzəminli kimi ziyalıların milli problemləri səsləndirdiyi möhtəşəm tribunaya çevrilmişdi.

*“Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti öz varlığı müddətində 145 iclas keçirmişdir... Parlamentin 1918-1919-cu illərdə keçirilmiş 113 iclasından 18-nin, 1920-ci ildə keçirilmiş 32 iclasından isə 14-nün stenoqrafik hesabatları arxivdə qalmamışdır. ...əgər onların stenoqrafik hesabatları arxivdə yoxdursa da, onlar "Azərbaycan" qəzetində çap olunmuşdur”* [44, s.18-19]. Göründüyü kimi, Azərbaycan Xalq Cümhuriyyəti tarixinin öyrənilməsində “Azərbaycan” qəzetində dərc olunmuş materialların ilk mənbə kimi əhəmiyyəti də böyükdür.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Bakıda bolşevik hökumətinin qurulmasından sonra respublikada müstəqil və demokratik mətbuatın ənənələrinə son qoyulmuş, Xalq Komissarları Soveti 27 oktyabr 1920-ci ildə "Mətbuat haqqında" dekret imzalamış, mətbuata qarşı açıq repressiya xarakteri daşıyan bu sənədlə 2 ay ərzində 92 qəzet bağlanmışdı.

AXC-nin mətbuat və informasiya sahəsində atdığı daha uğurlu bir addım *Azərbaycan Dövlət Teleqraf Acanslığı – AzərTAc-ın* yaradılması ilə bağlıdır [31, s.15]. Milli hökumət Azərbaycan ətrafında mövcud informasiya blokadasını

yarmağa, respublikanı dünya miqyasında tanıtmağa, fəaliyyəti haqqında xalqı məlumatlandırmağa ciddi ehtiyac duyurdu. Bu reallığı anlayan hökumət 1919-cu il martın 3-də Azərbaycan Teleqraf Agentliyinin təşkili məsələsini müzakirə etmişdi. İclasda Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin məruzəsi dinlənilmiş, hətta o vaxtlar xalq maarif naziri olan Nəsib bəy Usubbəyli Azərbaycan Teleqraf Agentliyinin təşkil edilməsi haqqında rəsmi tapşırıq da almışdı. Amma agentliyin real fəaliyyəti radiotexniki vasitələrdən asılı olduğundan bu qərar dəyişdirilmiş, agentliyin təşkili məsələsi Poçt və Teleqraf Nazirliyinin sərəncamına verilmişdi.

Cümhuriyyətin rəsmi qəzeti olan "Azərbaycan" 1920-ci il martın 2-də ilk dəfə olaraq AzərTAc imzası ilə xəbərlər yaydı. Bu, agentliyin yaradılması haqqında olan mülahizələri təkzib edən və AzərTAc Xəbər Agentliyinin 1920-ci il martın 1-də fəaliyyətə başladığını təsdiq edən önəmli fakt sayıla bilər. Qəzetin 3 mart tarixli sayında Şuşa, Qaryagin (Füzuli) və Xankəndidən xəbərlər "AzərTAc-ın daxili xəbərləri" adı altında dərc edilmişdi.

Bolşevik Rusiyasının işğalı nəticəsində 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və onun təsis etdiyi AzərTAc da cəmi iki aya yaxın bir müddətdə müstəqil fəaliyyət göstərə bildi. Həmin gün Rusiya Teleqraf Agentliyi Bakıda çevriliş olduğunu və xalq kütlələrinin AXC-ni devirdikləri barədə xəbərləri dünyaya yaydı.

Sovet hakimiyyəti dövründə 8 dəfə ad dəyişikliyinə məruz qalan, hazırda ən aparıcı informasiya agentlikləri ilə bir sırada duran, yerli və xarici kütləvi informasiya vasitələri üçün yeganə rəsmi informasiya mənbəyi olan, gün ərzində azərbaycan, rus, ingilis, fransız, alman və ərəb dillərində fasiləsiz dəqiq və operativ informasiyalar hazırlayan Azərbaycan Dövlət Teleqraf Agentliyi (AzərTAc) də Azərbaycan Xalq Cümhuriyyətinin yadigarıdır. *"AzərTAc xəbər verir..."* [32, s.78] televiziya və radio verilişlərində tez-tez səslənən, mətbuatda daim nəzərə çarpan bu sözlər, müstəqil Azərbaycan dövlətinin ilk informasiya orqanı olan AzərTAc-ın fəaliyyətini təsdiqləyir. Mətbuat tədqiqatçılarının təbirincə desək, *"müstəqil Azərbaycanımızın 1 nömrəli informasiya agentliyinin Avropada, Asiyada, Afrikada, Amerikada tanınması, onun informasiyalarından müxtəlif ölkələrdə*

*istifadə edilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması bu media qurumunun gözəl perspektivlərə malik olduğunu göstərir”* [468].

Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 aylıq tarixi olsa da, onun yaratdığı milli istiqlal ideyaları tariximizin ən şərəfli səhifələrindən oldu. O cümlədən, mətbuat və söz azadlığının təmin edilməsi cümhuriyyətin demokratik dəyərlərə verdiyi önəmin təzahürü idi.

## 1.2. Sovet dövrü Azərbaycan mətbuatında Türkiyə mövzusu

*“Sovet dövrü Azərbaycan mətbuatında Türkiyə mövzusu bütün qadağalara baxmayaraq cəmiyyətin daim açlıq duyduğu və ciddi maraq doğuran mövzulardan olmuşdur. 70 illik bir tarixi özündə birləşdirən bu əlaqələrin tarixi həm vaxt, zaman baxımından, həm də mahiyyət baxımından müxtəlif mərhələdə özünü göstərmişdir”* [511]. Bu əlaqələr Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra “yaxın qonşuluq” təzahüründə olsa da, repressiya, İkinci Dünya müharibəsi və “soyuq müharibə” illərində isə tamam başqa aspektdə özünü göstərmişdir.

Türkiyə ilə münasibətlərin birinci mərhələsi Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu 28 aprel 1920-ci il tarixindən sonrakı, təqribən, 10 ilə qədər olan bir dövrü əhatə edir. Bu dövr tarixi baxımdan məhsuldar olduğu qədər də ziddiyyətli, eyni zamanda vacib bir mərhələ olmuşdur. Tarixi reallıqlar prizmasından baxanda, hər iki dövlətin maraqlarını təmin etmişdir. Hətta Sovet Azərbaycanının Türkiyə Cümhuriyyətində səfirliyi belə olmuşdur. 1921-ci ildə əvvəlcə Azərbaycan SSR-in, sonra isə Zaqafqaziya Fedarasiyasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olmuş İbrahim Əbilovun Sovet–Türkiyə, eləcə də Azərbaycan–Türkiyə münasibətlərinin formalaşmasında böyük rolu olmuşdur. Səfir İbrahim Əbilovun bu təyinatı nəinki Türkiyənin hökumət dairələri, eləcə də türk xalqının ən müxtəlif zümrələri tərəfindən böyük bir coşqunluqla qarşılanmışdı. Ankaraya gedən Azərbaycanın diplomatik nümayəndəliyinin yolüstü Kastamonuda dayanması və burada böyük bir sevinclə qarşılanmasından yazan Türkiyənin “Açıq söz” qəzetinin baş redaktoru İsmayıl Həbib (Sevük)

“Qardaş ölkənin səfiri” adlı baş məqaləsində *“... dünən axşam buraya gələn və bu gün bizim əziz qonağımız olan səfir qarışıq bir hökumətin, dost bir hökumətin, bilməm necə bir hökumətin deyil, birbaşa qardaş bir hökumətin səfiridir"* [480] deyərək qardaşlıq duyğusunu önə çıxarmaqla azərbaycanlı səfirdən riqqətlə bəhs etmişdir.

Maraqlıdır ki, Şərqdə ilk demokratik respublikanın – AXC-nin süqutundan sonra, kommunist rejiminin qələbəsinin bərqərar olduğu ilk illərdə Bakı təkcə Azərbaycanı yox, həm də Şərq xalqlarını, eləcə də Türkiyəni bolşevizm yoluna istiqamətləndirmək uğrunda paytaxta çevrilmişdi. Hətta V.İ.Lenin Azərbaycanda sosialist inqlabının roluna xüsusi dəyər vermiş [491] və bu fikirlərini ən yüksək tribunalardan dəfələrlə vurğulamışdı. Şərq Xalqlarının I qurultayının (1920,1-7 sentyabr), Şərq Gəncləri qurultayının (1920, 9-10 sentyabr) Bakıda keçirilməsi bu amillərdən doğurdu və sonralar bəlli olduğu kimi, Şərq xalqları arasında təbliğat işi aparmaq və milli azadlıq hərəkatlarını idarə etmək üçün bu, ən uğurlu vasitə idi: *“Bolşeviklər Azərbaycanda möhkəmlənmişlər, onun paytaxtı Bakı İranda və Xəzər dənizindən şərqə doğru vilayətlərdə siyasi təbliğatın mərkəzi olmuşdur”* [279].

Dövrün çox populyar mətbuat orqanlarında, o cümlədən “Kommunist” qəzetində Türkiyə və türkçülük haqqında yazıların kifayət qədər çox və əhatəli olması diqqəti cəlb edir. Onda “Kommunist” qəzeti sıradan bir qəzet yox, Cənubi Qafqazın aparıcı dövri nəşrlərindən birinə çevrilmişdi, SSRİ-nin iri şəhərlərində və bir sıra xarici ölkələrdə xüsusi müxbirləri var idi. Diqqət edəndə, milli ruhun dirçəldilməsi və qorunmasını təbliğ edən məqalələr qəzet səhifəsində müntəzəm görünməkdə idi. Məsələn, 1922-ci il martın 2-də “Kommunist” qəzetində Azərbaycanın sərvətlərinin Rusiyaya daşınması və əvvəllər bunun müqabilində Bakıya ərzaq adı ilə boş vaqonların gətirilməsi barədə mübahisələrə səbəb olan, “Yoxsul” imzası ilə təqdim olunan məqalənin müəllifi Xalq Daxili İşlər komissarı Həmid Sultanov idi [470]. Arxiv sənədləri əsasında hazırlanan məqalə martın 3-də Azərbaycan K(b)P MK Siyasi Bürosunun iclasında müzakirə olunur və müəllif tutduğu vəzifədən azad edilir. Yaxud 1924-cü ilin 18 aprelində Mərkəzi Komitənin ikinci katibi, 27 yaşlı Əyyub Xanbudaqov “Kommunist” qəzetində *“Milli*

*məsələyə dair”* [234] *adlı məqalə ilə çıxış edərək partiyanın milli siyasətini tənqid edir, milli kadrların hazırlanmasının qarşısının alındığını, vəzifəyə təyinatında ayrı-seçkiliyə yol verildiyini bildirir* [224]. Məqalə aprelin 27-də Bakı Partiya Komitəsinin konfransında müzakirə edilir, Ə.Xanbudaqov cəzalandırılır. Əliheydər Qarayevə tapşırılır ki, “Kommunist” qəzetində kök salmış millətçilər ifşa olunsunlar. *“Nəticədə qəzetin redaksiyasında çalışan Əbdürrəhimbəy Haqverdiyev, Ağababa Yusifzadə, Cəfər Cabbarlı, Mir Seyfəddin Kirmanşahlı kimi ziyalılar Ə.Qarayevin təkidi ilə “burjuaziyanın əlaltısı” adlandırılır, bir qismi işdən qovulur və ciddi tənbehlərə məruz qalır”* [224].

Bu illərdə özlərinin siyasi maraqlarını önə çəkən kommunistlər daha bir mühüm layihəni həyata keçirirlər: Bakıda Birinci Türkoloji Qurultay (1926, 26 fevral – 5 mart) çağırılır. Türkologiyanı böyük və sistemli elmi təlim kimi təqdim edən Bakı Türkoloji Qurultayı böyük əks-səda doğurmuş, haqqında mətbuatda gedən yazılar silsiləsi bu dəyəri dəfələrlə artırmışdı. 8 gün davam edən bu mötəbər tədbirdə müxtəlif ölkələrdən 131 nümayəndə iştirak etmişdi. Müzakirəyə çıxarılmış türk xalqlarının ortaq dili, tarixi və ədəbiyyatı məsələləri bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır. Hələ o zaman, qurultayın çağırıldığı ərəfədə və fəaliyyəti dövründə “Yeni fikir”, “Maarif və mədəniyyət”, “Maarif işçisi”, “Yeni məktəb”, “Dan ulduzu”, “Kommunist” kimi mətbuat orqanlarında qurultay haqqında 300-ə qədər məqalə dərc olunmuşdu. Ölkənin bir nömrəli mətbuat orqanı olan “Kommunist” qəzetinin dərc etdiyi materialların sayı, az qala, bütün mətbuat orqanlarında dərc edilənlərin yarısı qədər olmuşdu. Göründüyü kimi, *“qəzet əlifba islahatının həyata keçirilməsində, Şərq xalqlarının və Türkoloji qurultayların informasiya-təbliğat ruporu olmuşdu”* [224].

Moskva nəşrləri də Birinci Türkoloji Qurultayın keçirilməsini, hətta türk xalqlarının latın əlifbasına keçməsi barədə qərarını çox böyük bir canfəşanlıqla yaymışdı. Bu məqalə və materiallar qurultayın işini, məqsəd və məramını açıqlayan sənədlər kimi də böyük dəyərə malikdir. Böyük türk dünyasının və türkologiya elminin Ə.Hüseynzadə, M.Köprülüzadə, S.Oldenburq, S.Malov, H.Şərəf, A.Müller, V.Bartold, H.Zeynallı, B.Çobanzadə, F.Ağazadə və onlarca

məşhur türkoloqun məqalə və müsahibələrinin təqdim olunduğu "Kommunist" qəzeti [14, 15, 107, 137, 328] Türkiyə–Sovet dostluğuna, Türkiyə ilə münasibətlərin böyük və uğurlu gələcəyinə inam yaratmaqda idi.

Sonralar məlum oldu ki, Türkiyəni kommunistləşdirmək planının mühüm bir hissəsi də bu qurultayla bağlı imiş: *"İlk öncə türk xalqlarına olan bu səmimiyyət, bizə elə gəlir ki, Sovet hökumətinin daxili və xarici siyasətindən irəli gəlirdi. Bu hökumət dünyaya nümayiş etdirmək istəyirdi ki, Rus imperiyasının qurduğu dövlət azadlıq, bərabərlik, qardaşlıq simvoludur"* [290, s.5]. Amma az keçmir ki, SSRİ-nin bu məkrli planının iflasa uğraması repressiyaların başlanması ilə nəticələnir, o cümlədən *"100-dən artıq iştirakçısının, seçmə alim və mütəfəkkirinin əksəriyyətinin həbsi və fiziki məhvi ilə bitən bu qurultay yaxın tarixin ən böyük ziyalı-alim soyqırımı sənədidir, 30-cu illərin Sovet--Stalin diktatura rejiminin tarixi üçün ittihamdır"* [317, s.3]. Bütün bunlara baxmayaraq, *"Birinci Bakı Türkoloji Qurultayı dövrünün mühüm bir tarixidir və bir tarix kimi də müasirlik baxımından da mühüm əhəmiyyətə malikdir"* [219]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birinci Türkoloji Qurultayın 80 və 90 illik [120, 121] yubileylərinin keçirilməsi haqqında sərəncamları qurultayın türk xalqlarının həyatında böyük tarixi əhəmiyyət daşıdığını bir daha təsdiq edir.

Türk dünyası və onun gələcəyi haqqında bir çox faktları öncəgörmələri ilə dəyərləndirən Atatürk Rusiya ilə qonşuluğun vacibliyini dəyərləndirsə də, bolşevik ideyalarının ölkəyə buraxılmamasını vacib sayırdı. Hətta həyatının son illərində *"Şimaldan gələcək təhlükəyə qarşı diqqətli olunuz"* [474, s.135] deyimi də ilginc açıqlamalardandır. Beləliklə, *"Sovet Rusiyasının Mustafa Kamal paşanın simasında Türkiyə üçün bolşevik lideri hazırlamaq planları baş tutmadı. Antantaya qarşı mübarizədə sinfi maraqlara deyil, xalqın milli iradəsinə dayanan Atatürk Rusiya ilə yaxınlıq etsə də, bolşevik ideyalarını ölkəyə buraxmadı"* [221,s.7]. Sonralar aydınlaşacaqdı ki, *"Türkiyəni kommunistləşdirmək planının bir hissəsi də bu qurultay idi"* [317, s.3]. Lakin Türkiyə diplomatik gəlişmələrə üstünlük verməklə qonşuluq maraqlarını gözləmək siyasətini qorumağa çalışmışdır. Hətta bu münasibətlərin repressiyanın tüğyan etdiyi 30-cu illərdə və sonralar da davam

etdirilməsi diplomatiyanın, xüsusən də böyük səriştəyə malik Türk diplomatiyasının uğurlarından sayıla bilər.

Xatırlatmağa dəyər ki, Türkiyənin xarici işlər naziri Şükrü Saracoğlunun SSRİ-yə uzunmüddətli səfərində (24 sentyabr – 16 oktyabr 1939) İ.Stalin və V.Molotovla aparılan danışıqlar (beş saat on beş dəqiqə çəkən bu danışıqlar gecə 23:15-də başa çatmışdı) bir nəticə vermədi. Bu məsələ, təbii ki, türk mətbuatında maraq doğuran polemikalar yaratmışdı. Türk jurnalist Hüseyn Cahid Yalçın "Yeni Sabah" qəzetində *"Bizim Sovetlərdən olan dostlarımız öz fikirləri barədə əvvəlcədən bizi xəbərdar etsəydilər, türklər özlərini nəticəsiz qalmış alçaldıcı Moskva danışıqlarından xilas etmiş olardılar"* [490] deyə dəyərləndirirdi. Sovet nəşrlərində isə Sovet–Türkiyə danışıqlarının heç bir nəticə verməməsinin "günahını" Türkiyə tərəfində görürdülər. Hətta bu tendensiya sovet dövrü tarixşünaslığında başlıca fakt olaraq qalmışdır [499]. Amma Türkiyə rəhbərliyi Sovetlərə ümid və sayğı ilə yanaşmış, bu barədə yüksək tribunalardan fikirlərini paylaşmışlar. Türkiyənin xarici işlər naziri Şükrü Saracoğlunun SSRİ-yə uzunmüddətli səfəri, İ.Stalin və V.Molotovla nəticəsiz danışıqlarından təəssüflənən Türkiyə Prezidenti İ.İnönü Böyük Millət Məclisindəki çıxışında bildirirdi: "*İki qonşu məmləkət arasındakı dostluq qüvvətli əsaslara söykənmişdir. Dövrün müvəqqəti şəraitindən doğan şərtlər və imkansızlıqlar bu dostluğu ihlal etməməlidir"* [481,s.2-3].

Amma tarixdən də bəllidir ki, Sovet imperiyasının 30-cu illəri cəmiyyət tarixinə məqsədli şəkildə qırğınların törədildiyi qanlı bir tarix – aydınların soyqırımı tarixi kimi yazıldı. Hətta bolşevik-sovet ideyalarının daşıyıcıları olan, bu ideyaların qələbəsi yolunda çalışan insanlara "türkçü", "pantürkist" adı verməklə ləkələmək və aradan götürmək yolunu tutdular. Sovet hakimiyyəti illərində quruculuq tarixinin önəmli bir dövrü kimi ortaya qoyulan repressiya illəri düşmənlərə, o cümlədən "daxili düşmənlər"ə qarşı ciddi mübarizələr tarixi kimi də təqdim edilmişdir. Hətta bu dövrün əsl mahiyyətində nələrin dayandığını çox sonralar – Sovetlər birliyinin süqutundan sonra öyrənə bildik. *"1934-cü il yanvar ayının 1-dən 1939-cu il yanvarın 1-dək Azərbaycanda XDİ Komissarlığında 27*

*min 458 nəfər insan repressiyaya məruz qalıb"* [255, s.8]. Repressiya tarixi kimi xalqların taleyinə yazılanlar Azərbaycanın taleyində bir az da "bol" olmuşdur: *"Azərbaycan SSR xalq daxili işlər komissarının müavini Markaryanın Yejova etdiyi məruzələrdən biri Azərbaycanda repressiyanın miqyasının yuxarıların planlaşdırdığından daha artıq həyata keçirildiyini sübut edir"* [368, s.9]. Dövrün amansız xarakter və tələblərindən danışan ədəbiyyat tədqiqatçıları yazırdı: *"Sovet imperiyasının bizi milli dəyərlərimizdən, mənəvi-tarixi köklərimizdən ayırmaq cəhdi və istəyi nəinki bu ilişgiləri, hətta "türk" sözünün özünü belə ifadə etməyi qadağan etdi. H.Cavid, Ə.Cavad, S.Mümtaz, M.Müşfiq kimi yüzlərlə söz adamı "pantürkist", "panislamist" damğası ilə ittiham edilərək repressiya qurbanı oldu, "vətən xaini" damğası ilə vətəndən sürgün edildi"* [105, s.34].

1930-cu ildən SSRİ-də "kamalizm", "pantürkizm", "türkçülük" ittihamlarının genişlənməsi, mətbuatda "SSRİ və dövlət əleyhinə" cəhdlər kimi təqdim olunması siyasi reallıqlar idi. Hətta 1937-ci ilin fevralında ÜİK(b)P MK-nın məşhur fevral-mart plenumunda çıxış edən Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov Türkiyənin ünvanına açıq ittihamlar səsləndirdi: *"Pantürkist və pankamalist təbliğat SSRİ əleyhinədir və türk emissarları vasitəsilə Azərbaycanda, Krımda, Tatarıstanda, Özbəkistanda, Dağıstanda və Türkmənistanda yayılmaqdadır"* [497, s.26].

Bunun nəticəsi idi ki, türkçülüklə mübarizə o qədər amansız olmuşdu ki, uzun illər də adamları qorxu içərisində saxlaya bilmişdi. Bu dövr mətbuat orqanlarında Türkiyə ilə bağlı dostluq və qardaşlıq əlaqələrini ortaya qoyan hansısa bir məlumata rast gəlinməməsinin səbəbi kommunist rejiminin qadağaları ilə bağlı olmuşdur. Amma xatırlatmaq yerinə düşər ki, Türk mətbuatında yazılanlar da diqqətdə olmuş, dəfələrlə dövlətlərarası ən yüksək ranqlı danışıqlarda belə ciddi müzakirələrə səbəb olmuşdu. F.R.Atayın "Ulus" qəzetində dərc edilən bir yazısındakı *"Əgər Almaniya SSRİ-yə hücum etməsəydi, bir ildən sonra rus təhlükəsi elə həddə çatacaqdı ki, onu aradan qaldırmaq mümkün olmayacaqdı"* fikri Sovet səfirliyinin ciddi narahatlığına səbəb olmuşdu [475]. "Ulus" qəzetinə "Pravda" qəzetinin icmalçısı D.Zaslavski 25 dekabr 1941-ci ildə "Pravda"

qəzetində *"Сильно напуганный турецкий журналист" ("Bərk qorxmuş türk jurnalisti")* məqaləsi ilə cavab vermişdi [494].

Danılmaz faktdır ki, ölkənin ən populyar qəzetləri, eyni zamanda bütün sovet mətbuatına örnək olan "Pravda"da, "İzvestiya"da dərc edilən yazılarda ideoloji tələblərə yüksək səviyyədə riayət edilirdi. Elə isə Azərbaycanda kommunist-bolşevik ideallarının baş tərənnümçüsü olan "Kommunist" qəzetindən başqa bir mövqedə dayanmasını gözləmək nə dərəcədə doğrudur?! Sual oluna bilər ki, qəzetdən tələb nə idi? Təbii ki, sovet ideologiya maşınının tələbləri qəzet səhifələrində mövcud ideologiyanın cəmiyyətə xoşbəxtlik, bərabərlik gətirəcəyinə inandırmaq, əməkçi insanın fədakarlığını tərənnüm etmək, baş verən milli haqsızlıqlara göz yummaq, milli əhvali-ruhiyyəni aşağılamaq və bu kimi digər şeylərdən yazmaq idi. Əli qələm tutanlar bu cür yazmağa məcbur edilirdilər. Əks təqdirdə "müsavatçı", "millətçi", "pantürkist" damğaları vurulur, bu az imiş kimi, bütün qohum-əqrəbası, ailə üzvləri "xalq düşməni" elan edilirdi.

Qəzetdə yer alan çoxsaylı məqalələrə diqqət etməklə deyilənlərin şahidi oluruq. Bütün tale və həyat yolunu Azərbaycanla bağlayan, ADR-in Türkiyədə ilk səfiri olmuş Yusif Vəzir Çəmənzəminli "Kommunist" qəzetində bu cür "tənqid" olunurdu: *"Yusif Vəzir sovet ədəbiyyatının ona vermiş olduğu imkanları doğrultmaq üçün bugünkü həyatımızdan və yaxud köhnə müsavat quruluşunu ifşa edəcək əsərlər yazmaq əvəzinə... "Qızlar bulağı", "İki od arasında" kimi bugündən çox-çox uzaq əsərlər yazmışdır. Halbuki Yusif Vəzir öz iştirak etdiyi Müsavat hökumətinin avantürasını, şovinizmini və xalqı soymasını "Qızlar bulağı"ndan daha asan yaza bilərdi. Bəs nə üçün yazmayır? Nə üçün o, Müsavat hökumətinin Azərbaycan xalqını çapıb-talamasını göstərməyir?"* [373]. Eləcə də Tağı Şahbazi belə "təqdim" olunurdu: *"Vaxtı ilə cibində partiya bileti daşıyaraq orda-burda millətçi fikirlər yürüdən, nəinki bolşevikə, hətta adi bir sovet vətəndaşına belə layiq olmayan meşşan, ikiüzlü fəaliyyətlə məşğul olan Tağı Şahbazi... bütün yaradıcılığı bir xoruza yük ola bilən bu yazıçı..."* [373].

"Kommunist" qəzetində bu cür iddialar təkcə Yusif Vəzir, Hüseyn Cavid üçün deyil, eyni zamanda Əhməd Cavad və Əhməd Cavadın "quyruğu" kimi

təqdim olunan Mikayıl Müşfiq haqqında da söylənilirdi: *"Əhməd Cavad Azərbaycan xalqının ən qatı düşməni olan Müsavat hökumətinin sevimlisi və dərslik şairi olmuşdur. ...Özünün ən səmimi şeirini, Müsavatın erməni-azərbaycanlı əməkçilərinin qanı ilə boyanmış və Azərbaycan işçi və kəndlilərinin ingilis imperialistlərinə və Türkiyə sultanlarına satılması ilə möhkəmlənən bir murdar bayrağına həsr etmişdir"* [314]. Digər məqalədə göstərilirdi ki, Azərbaycan Sovet Yazıçılarının 3-cü plenumunda Azərbaycan K(b)P MK-nın şöbə müdiri Hökumə Sultanova *"...Əhməd Cavadın murdar sifətini bütün çılpaqlığı ilə açmışdır" və plenum "17 il ərzində öz düşmənçilik duyğularını ...dəyişmədiyi üçün Əhməd Cavadı yazıçılar sırasından xaric etmişdir"* [88]. Başqa bir müəllif, Ə.Əkbər bir az da irəli gedərək yazırdı: *"Müsavatçıların əl tulası olan Müşfiqin həyasızlığı o dərəcəyə çatmışdır ki, o, irəliləyən sovet ədəbiyyatına müqavimət göstərmiş, ...kontr-revolyusion pozucu işlərini yeritməyə imkan tapmışdır"* [164].

Bu cür yazılar qəzetin hər bir sayında var. Hədəf isə qəzetin təbirincə desək Azərbaycan xalqının "qəddar düşmənləri" olan *"Ruhulla Axundov və Mikayıl Hüseynovun yardımı və ittifaq rəhbərliyinin sinfi sayıqlığını itirməsi, siyasi korluğu, çürük liberalizmi sayəsində hər boyalı xalq düşməni, yapon-alman-faşist agentləri, trotskiçi, müsavatçı, pantürkist ünsürlər – Əli Nazim, Əhməd Cavad, Hüseyn Cavid, Yusif Vəzir, Sanılı, Seyid Hüseyn, Musaxanlı, Müşfiq, Mümtaz, Qantəmir, Sultan Məcid Qənizadə, Talıblı, Qurban Musayev, Tağı Şahbazi, Mikayıl Rəfili, Əli Razi və Zinət Zakirov" kimilər Azərbaycan Sovet Yazıçıları İttifaqına "soxulmuşlar"* [314] idi.

Eyni ittihamlar, həmçinin, dövrün alimləri, sənət adamları haqqında da deyilirdi. "Azərbaycan Dövlət Dram Teatrının burjua nasionalistlərinin əlaltılarından təmizlənməsi" [41], "Saf, revolusyon Azərbaycan dili haqqında" [349] adlı məqalələrdə Ülvi Rəcəb, Mirzağa Əliyev, Möhsün Sənani, Fatma Qədri, Şəmsi Bədəlbəyli, Rüstəm Səidov kimi sənətkarların teatr sənətinə, dilçi alimlər Bəkir Çobanzadə, İsmayıl Hikmət, Vəli Xuluflunun Azərbaycan dilinə vurduğu "ziyanlardan" danışılır. Gənc tədqiqatçı Gülər Qasımova bu cür ittihamların yer aldığı "Kommunist" və "Gənc işçi" qəzetlərindən toplanmış materialların bir

qismini “Açıq ədəbiyyat” [272] kitabçasında təqdim edir. Bu materiallar repressiyaya məruz qalmış yazıçılar arasındakı münasibətlərlə yanaşı, onların qəzet səhifələrində əsla tənqid yox, hər cür təhqir olunduqları məqalələrin bir qismidir.

1937-1938-ci illərin repressiyası qəzetin sovet rejiminə və ideologiyasına can-başla xidmət edən əməkdaşlarından da yan keçməmişdir. Qəzetə redaktorluq etmiş Ə.Qarayev, R.Axundov, B.Talıblı, H.Cəbiyev, tanınmış yazarlar X.İbrahim, F.Ağazadə, qəzetlə əməkdaşlıq edən neçə-neçə yazıçı-şair “millətçi” damğası ilə qətlə yetirilmişlər. Repressiya qurbanları olan əməkdaşların kimliyinin, xidmətinin nəzərə alınmaması da göstərir ki, bu, əslində, millətə qarşı qırğın siyasəti olmuşdur. Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə rejimlə barışmayıb, ona qarşı çıxanda, “Kommunist” qəzetinin redaktoru olmuş, eyni zamanda daha yüksək vəzifələrin etibar edildiyi Ruhulla Axundov Sovet Azərbaycanının baş ideoloqu idi. Proletariatın dahi rəhbərləri Marks və Leninin əsərlərini ilk dəfə Azərbaycan dilinə çevirən də, Marksın həyat və fəaliyyətini Azərbaycan oxucusuna təqdim edən də, “Kapital”ı “*bəşərə yol göstərən əsər*” [150] adlandıran da o idi. Hətta 1927-ci ildə Lenin haqqında “*Böyük alimlər, məşhur ustadlar, nəhayət, “124 min” peyğəmbərlər hamısı bir yerdə və hər birisi təklikdə unudular, lakin Lenin unudulmaz; çünki bunların hamısını bir yerə yığsan, bəşəriyyətin dirilməsi yolunda Leninin etdiyini edə bilməyiblər”* [150] deyən də o idi. *“İnqilabçı, leninçi, millətçi və "xalq düşməni”. Bu, Ruhulla Axundov idi”* [237]. Lenini tərcümə edən, ölümünə qədər Leninə inanan bu ideoloq 1937-ci ilin dekabrında həbs olundu və *“1938-ci ildə Leninin doğum günü – 22 apreldə güllələndi”* [150]. M.C.Bağırov Ruhulla Axundova hörmətlə yanaşmış, məhkəməsində “vicdanlı kommunist” adlandırırmış, hətta ona vaxtılə yazdığı məktublarında *“Əzizim Ruhulla”* [293,s.30] deyə müraciət etmişdir. M.Ə.Rəsulzadə isə 1952-ci ildə onun haqqında yazmışdı: *“...Müsavatçılıq və panturanizmə qarşı amansız mübarizə aparan Ruhulla Axundov “panturanizmin zəhərli bir nümayəndəsi və “Müsavat” partiyasının zavallı bir agenti” kimi günahlandırıldı”* [338]. “Uğurlar”la pərdələnən bu keçmişlər Xalq yazıçısı Anarın yazdıqlarını bir təsəlli kimi xatırladır: *“Sovet quruluşuna, kommunizm ideallarına*

*inamın, bu ideallara, bu quruluşa inamın xəyal qırıqlığını həm Nazim Hikmət yaşadı, həm Səməd Vurğun, həm Rəsul Rza..."* [22, s.23].

Təbii ki, belə bir zamanda Moskvada hazırlanan və əyalətlərdə həyata keçirilən qırğın siyasətinin məqsəd və məramında Türkiyəyə qarşı üzdə dostluq, amma əsl həqiqətdə düşmən mövqe sərgilənməkdə idi. Hətta İkinci Dünya müharibəsi illərində "Kommunist" qəzetinin dərc etdiyi məqalələr sırasında nəinki sanballı bir məqaləyə, "Türkiyə" adına belə nadir hallarda rast gəlmək olur. Olanlar da, 3-5 cümləlik xəbərlərdən ibarət olmuşdur: "Dünya xəbərləri. Türkiyədə" [144], "Qermaniya və Türkiyə hökumətləri arasında nota mübadiləsi" [274], "Türkiyədə taxılın məcburi surətdə dövlətə satılması" [399], "Türkiyədə" [394], "İngilis hərbi missiyası Türkiyədə" [247], "Türkiyənin xarici ticarəti" [412] və s. 1941-ci ilin altı ayı ərzində bu kimi bəsit, heç bir siyasi və iqtisadi məna daşımayan xəbərlərin sayı, olsa-olsa, 10-12-dir. Amma qəzetin "Xarici ölkələrdə" rubrikası, adətən, 4-cü, ara-sıra da 2-ci səhifələrdə yer alan müntəzəm, hətta gündəlik rubrikalardan olmuşdur. "İngiltərə–Qermaniya müharibəsi", "Evropada və Afrikada müharibə" başlığı ilə cəbhədəki son vəziyyət haqqında məqalələrsə, demək olar, hər gün dərc edilmişdir. Bu sırada ayrı-ayrılıqda "Hitlerin nitqi" [226], "Çercilin nitqi" [131] adlı məlumatların da verildiyi görünür. 22 iyun 1941-ci ildə Almaniyanın SSRİ-yə gözlənilməz və elan edilməmiş hücumu ilə vəziyyət tam başqa bir şəkil alır. "SSRİ xarici işlər komissarı Molotovun radio ilə xalqa müraciəti"ndən [362] sonra qəzetin dərc etdiyi məqalə və çağırışlarda səfərbərlik, cəbhədəki uğurlar, dahi rəhbər Stalinin yenilməz xidmətləri, arxa cəbhədə çalışan neftçilərin, kənd zəhmətkeşlərinin, eləcə də bütün xalqın fədakar əməyi haqqında yazılanlar qəzetin başlıca mövzusu olmuşdur. Hətta qəzetin müxtəlif saylarında Səməd Vurğunun, Süleyman Rüstəmin, Məmməd Rahimin, Mirzə İbrahimovun və başqa tanınmış şair və yazıçıların çağırış xarakterli şeirlərində də rejimin tələbindən irəli gələn bu əhvali-ruhiyyəni görürük. "Kommunist"in sonrakı saylarında da bu motivə önəm verilmiş, hətta SSRİ rəhbərliyinin qonşu Türkiyəyə torpaq iddialı münasibətləri mətbuatda yer almamışdır.

Azərbaycan–Türkiyə əlaqələrində *"60-cı illərdən sonra başlanan dövr xüsusi əhəmiyyət kəsb etməklə, həm münasibətlərin yumşalma, dostluq ənənələrinin yeni mərhələdə davam etdiyi bir tarixi dövr kimi diqqəti cəlb etmişdir. ...Bu dövr Azərbaycan–Türkiyə münasibətlərində yeni mərhələ olmaqla, əslində, İ.Stalinin ölümündən sonra başlayır* [511]. *"İosif Stalinin (Cuqaşvili) ölümü siyasi hakimiyyətdə bir çaşqınlıq yaratdı. Onu əvəz etməli olanlar yaxşı bilirdilər ki, ölkəni keçmişdəki kimi idarə etmək mümkün deyil, ciddi islahatlara ehtiyac var"* [372, s.7]. Təbii ki, bundan sonra iki ölkə – Türkiyə və SSRİ arasında da bir yumşalma nəzərə çarpdı. *"Türk–Sovet münasibətlərini bərpa etmək istəyini ilk olaraq SSRİ irəli sürdü"* [221, s.367]. *"May ayının 30-da SSRİ Nazirlər Sovetinin sədri G.M.Malenkov Türkiyəyə qarşı irəli sürülmüş sovet tələblərindən imtina edildiyini, iki dövlət arasında münasibətlərin belə bir qaranlıq mərhələyə gətirilməsində Stalin və Beriyanın günahkar olduğunu açıqladı"* [271, s.28]. Hətta 1960-cı ildə Türkiyənin baş naziri Adnan Menderesin Moskvaya və sovet rəhbəri Nikita Xruşşovun da Türkiyəyə səfərləri planlaşdırılır. Amma Türkiyədə 27 may 1960-cı ildə baş verən hakimiyyət çevrilişi bu tədbirləri əngəlləyir.

İki ölkə arasındakı rəsmi səfər və görüşlər ilk dəfə 1963-cü ilin əvvələrində Sovetlərlə Türkiyə arasında elmi-mədəni razılaşmalardan sonra baş tutdu. Bir ilk olaraq Azərbaycanın Xalq yazıçısı, dramaturq, tənqidçi, ictimai xadim Mehdi Hüseyn Türkiyədə səfərdə oldu, 1964-cü ildə "Bir ay və bir gün" kitabını oxuculara təqdim etdi. Türkiyə səfərlərinin nəticəsi kimi təqdim olunan bu kitab, *"1963-cü ilin aprel və may aylarında baş tutan səfərin təəssüratları Azərbaycan oxucusunun Türkiyə haqqında ilk və geniş tanışlığı idi"* [353, s.148]. 1967-ci ilin iyununda Əziz Nesin, Yaşar Kamal və Məlih Cövdət Antay Azərbaycanda oldular. Onların Azərbaycan görüşləri Qılman İlkinin "Türk yazıçıları Bakıda" adlı kitabçada əksini tapır [246].

Dövlətlərarası rəsmi səfərlərə gəldikdə isə, ilk olaraq Sovet hökumətinin dəvəti ilə az bir müddət (altı ay) Türkiyə Respublikasının hökumət rəhbəri olan Suat Hayri Ürgüplü 30 may–14 iyun 1963-cü ildə Sovetlər birliyində rəsmi səfərdə oldu. Türkiyə nümayəndə heyətinin səfər proqramında Azərbaycanda olmaq da yer

almışdı və türkiyəli qonaqlar 1-5 iyun tarixlərində Azərbaycanda da oldular. Bir fakta da diqqət yetirmək önəmlidir ki, Sovetlər dönəmində baş tutan ilk rəsmi səfərdən sonra Türkiyədən dəvət olunmuş heyətlərin səfərlərində Azərbaycanı ziyarət də planlaşdırılmış və Bakı səfərləri uğurla baş tutmuşdur.

Təbii ki, respublikanın baş mətbu orqanı olan "Kommunist" qəzetində bu səfərlərin hərtərəfli işıqlandırılmasına çalışılmış, amma bu, müəyyən hədlər daxilində mümkün olmuşdur. Daha dəqiq deyilərsə, əslində, qəzetə bu məsələdə yaradıcılıq üçün geniş imkan verilməmiş, əksinə, rəsmi materiallar da məhdud bir çərçivədə SİTA (Sovet İttifaqı Teleqraf Agentliyi) tərəfindən təqdim olunmuşdur. Bu xəbərlər, əsasən, rəsmi xarakter daşımış, hər iki tərəfdən olan dövlət və hökumət nümayəndə heyətlərinin görüşlərinin işıqlandırılması ilə məhdudlaşdırılmışdır. Başqa ölkələrdən gəlmiş nümayəndə heyətləri haqqında qəzetin dərc etdiyi xəbərlərin həcminə və əhatə dairəsinə diqqət ediləndə bu fərqlərin təqdimatı da, kəmiyyəti də ilk baxışdan diqqəti cəlb edir. Deyək ki, Vyetnam, Macarıstan, Kuba və bu kimi ölkələrin, yaxud qardaş adlandırılan Ermənistan, Gürcüstan, Ukraynadan gəlmiş nümayəndə heyətlərinin qəbulu fərqli və geniş işıqlandırılsa da, Türkiyə haqqında bunları söyləmək mümkün deyil.

"Kommunist" qəzetinin 30 may 1963-cü il tarixli sayında Suat Hayri Ürgüplünün rəsmi səfəri haqqında məlumat verilir. Qəzetin 1-ci səhifəsində "TBMM-in nümayəndə heyəti Moskvaya gəlmişdir" sərlövhəli SİTA-nın xəbəri yer tutur [381]. İyunun 1-də "Türkiyə nümayəndələri ölkəmizi gəzir" [419] adlı yeni məlumatda qonaqların Volqoqrada, Bakıya, Daşkəndə, İrkutska, Leninqrada (indiki Sankt-Peterburq) səfər edəcəkləri bildirilir. İyunun 2-də isə yenə 1-ci səhifədə "TBMM-in nümayəndə heyəti Bakıya gəlmişdir" [380] sərlövhəli rəsmi məqalə yer alır və Bakı təyyarə limanında qarşılanma mərasimindən reportaj təqdim edilir. Qəzetin 4 iyun sayında "Biz xalqın böyük yaradıcı əməyinin şahidi olduq" [123] adlı yazı, nümayəndə heyətinin Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi Z.Şükürova ilə görüşü, Ali Sovetin Rəyasət Heyətinin strukturu ilə tanışlıq haqqında xəbərlər təqdim edilir [418]. Təbii ki, nümayəndə heyəti bu görüşlərdən məmnun olduğunu rəsmi görüşlərdə və qəbullarda, onların şərəfinə

verilmiş ziyafətlərdə vurğulayır. Hətta nümayəndə heyətinin rəhbəri S.H.Ürgüplü “TBMM üzvləri Azərbaycan xalqının böyük nailiyyətləri haqqında xəbərləri böyük sevinclə qarşılamışdır” [123] deyə bildirmişdir. Qəzetin 5 iyun sayında yenə 1-ci səhifədə “Biz unudulmaz təəssüratlarla gedirik” xəbərində TBMM üzvlərinin Daşkəndə yola düşdükləri bildirilir [125].

Yeri gəlmişkən deyək ki, TBMM üzvləri Bakıda olarkən Moskvadan ağır olan bir xəbər də gəlir. Qəzetin 4 iyun tarixli sayında böyük türk şairi Nazim Hikmətin vəfatı haqqında SİTA-nın qısa xəbəri [316], iyunun 5-də isə SSRİ Yazıçılar İttifaqı və RSFSR Yazıçılar İttifaqı idarə heyətlərinin və ayrıca olaraq Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin [103] nekroloqu şairin portret şəkili ilə dərc edilmişdir. O dönəm Nazimin kim olduğu haqqında polemikaya ehtiyac da yox idi: ictimaiyyətin böyük sənətkar kimi qəbul etdiyi “mavi gözlü dev” Türkiyədə “vətən xaini” idi. Mərhum şairimiz Qasım Qasımzadənin Türkiyə səfərindən bir təəssüratı mütləq xatırlatmaq istərdim: *“Bizi müşayiət edən türkiyəli bələdçi müəllim idi. Yoldaşlardan biri ondan soruşdu:*

*– Siz Nazim Hikməti tanıyırsınızmı?*

*– Nazım Hikmet büyük şair, büyük sanatkar... O, geriyə çevriləndə arxada dayanan polis nəfərini gördü və ifadəsinə süni bir kəskinlik verərək, sözünü belə bitirdi: – ...ama vatan haini. O, bir daha İstanbula gələməz...”* [273, s.7-8].

TBMM Rəyasət Heyətinin sədri Suat Hayri Ürgüplünün rəhbərlik etdiyi parlament nümayəndə heyətinin səfəri [381] Sovet–Türkiyə münasibətlərinin yaxınlaşmasında yeni bir addım kimi dəyərləndirilsə də, hadisələrin sonrakı inkişafı münasibətlərdə irəliləyişlər olmadığını ortaya qoydu. Xüsusən də Kipr məsələsindəki fikir ayrılıqları bir sıra ziddiyyətləri ilə tarixə düşdü. Sovet İttifaqının bu məsələdə Türkiyəni müdafiə etməməsi, əslində, NATO-ya münasibətdən doğurdu. Bu “Kommunist” qəzetinin əvvəllər “Teleqraf xəbər verir” və 1964-cü ildən “Dünya xəbərləri”, “Planetin hər yerindən” rubrikasında dərc etdiyi xəbərlərin təkcə məzmununda yox, elə sərlövhələrində də aydın görünür. Təkcə 60-cı illərdə bu mövzuda onlarca xəbər dərc edilib. Onların bir qisminin sərlövhə və məzmunlarına diqqət edək: “Türkiyə Məclisində yumruqlaşma” [410],

“Türk zabitlərinin həbs edilməsi” [462], “Bizə torpaq verin” –Adanada 2 min kəndlinin nümayişi haqqında” [122],“Türkiyədə tətil hərəkatı” [435], “Türkiyədə vəziyyət” – Ankarada polkovnik Tələt Aydəmirin rəhbərliyi ilə bir qrup zabit hökuməti ələ keçirməyə cəhd etmişdir” [400], “Ankarada mühakimə” – 36 türk zabitinin məhkəməsi və Aydəmirə ölüm hökmü tələbi” [27], “Kipr prezidentinin bəyanatı” [260], “Xruşşovun sülh planı” [238], “Kiprin yeni konstitusiyası” [258], “Kipr məsələsində imperialist mövqe” [259], “NATO Kiprə müdaxilə edir” [315], “Türk gəmiləri Kipr sahillərində” [405], “Kiprdəki türk dəstələri –quldur dəstələri” [257], “Türkiyənin iqtisadi vəziyyəti pisləşir” [414], “Kipr məsələsində imperialistlərin kələkləri” [259]. Bu siyahını xeyli uzatmaq da olar, amma fakt faktlığında qalır və Sovet dövləti, bir az əvvəl qeyd etdiyimiz kimi, xarici siyasətində əks qütbdə dayandığını ictimaiyyətdən də gizlətmir. Qəzetin dərc etdiyi, ara-sıra Türkiyənin adının çəkildiyi bəzi şərhlərdə də bu amillər açıq-aydın görünür: A.Raçkovun “Təhlükəli oyun” [331] yazısında göstərilir ki, ABŞ-ın təzyiqi ilə NATO üzvü olan dövlətlər SSRİ-yə iri diametrli boruların satışını qadağan edir, bu, “strateji əhəmiyyətli məsələ” adlandırılır; N.Matüsün “Türkiyədə hərbi ruhi xəstəlik” [285] məqaləsində Kipr məsələsində Türkiyənin mövqeyinin adanı parçalamaq olduğu, “iki icma birlikdə yaşaya bilməz” tezisinin Türkiyənin təcavüzkar cəhdlərindən doğduğu iddia edilir və s. Türkiyə haqqında dərc edilmiş digər şərhlərdə də bu ölkənin mövqeyi və siyasəti pislənmiş, ictimaiyyətdə bu kimi fikirlərin formalaşdırılması ideoloji tələb olmuşdur.

Suat Hayri Ürgüplünün rəhbərlik etdiyi parlamentarilərdən sonra 30 oktyabr 1964-cü ildə Türkiyənin xarici işlər naziri Feridun Cemal Erkinin SSRİ-yə səfəri reallaşır. “Kommunist” qəzetində bu barədə hələ oktyabrın 20-də SİTA-nın məlumatı yayılır: “Türkiyənin xarici işlər naziri F.C.Erkinin SSRİ-yə səfərinə dair” [411]. Maraqlıdır ki, bu səfər ərəfəsində qəzetdə Kiprdən – Nikosiyadan “Bizim əsas düşmənimiz imperializmdir” sərlövhəli xəbər yayılır. Qısa məzmunu belədir: Kipr əvvəlki kimi, yenə də NATO-nun imperialist tədbirləri qarşısında qalmışdır. Məqsəd Kipr dövlətini ləğv etmək, onun ərazisini Şimali Atlantika blokunun hərbi-strateji meydanına çevirməkdir [124]. “Yol açılmışdır” [471]

xəbərində göstərilir ki, “Kiprdə Nikosiya–Girnə yolu türk ekstremistləri tərəfindən bağlanmış, amma indi burada yerləşən türk polisinin və türk hərbi qulluqçularının nəzarət postlarından təmizlənmişdir”. “Kamal Atatürk nədən danışırdı” [254] xəbərində Atatürkün Rusiya ilə münasibətlərə verdiyi önəmdən, Rusiyanın Türkiyə Cümhuriyyətinin milli və dövlətçilik hüquqlarına hamıdan öncə dəyər verməsindən danışılır. Amma sonda deyilir: *“Atatürkün vəsiyyətləri bu gün də əhəmiyyətini itirməmişdir. Bu vəsiyyətlərin yerinə yetirilməsi Türkiyə–Sovet mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə səbəb olardı”.* Baxın, yenə ironik bir şübhə! Belə çıxır ki, bu vəsiyyətlərin yerinə yetirilməsi gündəmdə deyildir.

*“Kipr məsələsində imperialistlərin kələkləri”* [350] məqaləsində Yunanıstan hökumətinə Türkiyənin təzyiqlərindən danışılır. Bunlar 1964-cü il noyabrın 1-də Türkiyə xarici işlər nazirinin Moskvada olduğu və SSRİ xarici işlər naziri A.A.Qromıko ilə, noyabrın 3-də SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginlə görüşdüyü vaxtlarda SİTA-nın yaydığı xəbərlərdir. Amma səfərdən sonra nazir F.Erkin senatda çıxış etmiş və Moskva danışıqlarının misilsiz dostluq şəraitində keçdiyini bildirmişdir. Bir gün sonra “Kommunist” qəzeti senatdakı məruzə haqqında xəbər və “Erkin: mehriban qonşuluq münasibətlərini möhkəmləndirməli” [146] sərlövhəli məqalə dərc etmişdir.

“Kommunist” qəzetinin 1965-ci ildə işıq üzü görmüş saylarında Türkiyə haqqında xəbərlərdə dostluq əlaqələrinin genişləndirilməsi, yeni layihələrin hazırlanması üçün planlar daha çox yer alır. Türkiyənin baş naziri Suat Hayri Ürgüplünün ikinci rəsmi səfəri də bu dövrə düşür (9-16 avqust 1965). S.H.Ürgüplünün 3 il sonra baş nazir statusunda SSRİ-yə səfəri “Pravda” qəzetində *“Sovet–Türkiyə işgüzar əlaqələri genişlənir”* [500] kimi dəyərləndirilirdi. “Kommunist” qəzeti isə yazırdı: *“Fikir mübadiləsi ölkələrimiz arasında etimadın artmasına və sovet-türk işgüzar əməkdaşlığının genişləndirilməsinə xidmət edəcəkdir. Sovet İttifaqı ilə Türkiyə arasında heç bir mübahisəli problem yoxdur”* [438]. Qəzetdə sonralar yer alan Moskva Şəhər İcraiyyə Komitəsi rəhbərlərinin Ankara bələdiyyəsinin qonağı olması, Ankarada keçirilən mətbuat konfransında aparılan söhbətlər [308] bu kimi xəbərlərdəndir.

1965-ci ilin dekabrında dövlət naziri Mehmet Kamil Ocak SSRİ-yə səfər edir. Bu barədə qəzet olduqca yığcam xəbər dərc etmişdir [403]. Amma bir il sonra SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin Türkiyə səfəri nəinki sovet, eləcə də Türkiyə və dünya mətbuatının böyük diqqət yetirdiyi məsələlərdən olmuşdur. Türkiyə–Sovet münasibətləri tarixində ilk dəfə idi ki, Sovet hökumətinin başçısı Türkiyəyə səfər edirdi. Təkcə bu faktın özü sözügedən səfərin nə dərəcədə mühüm olduğunu ortaya qoyur. O cümlədən, "Kommunist" qəzetində səfərin hərtərəfli işıqlandırılmasına böyük diqqət yetirilmişdir. 19-28 dekabr 1966-cı il tarixlərində gerçəkləşən səfərin hər günü – təntənəli qarşılanmadan tutmuş qəbullar, qonaqların şərəfinə verilən ziyafətlər, Ankaradan sonra İzmir və İstanbula edilən səfərlər, bölgənin iqtisadiyyatı ilə yaxından tanışlıq, keçirilən görüş və söhbətlər, ən nəhayət, yolasalınma mərasiminə qədər bütün detallar rəsmi materiallarda əhatəli əksini tapmışdır. "A.N.Kosıginin Türkiyəyə səfəri ərəfəsində" [265], "Türkiyə XİN-in bəyanatı" [409], "A.N.Kosıginin qarşılanması" [29], "A.N.Kosıgin Türkiyədə" [262] başlıqları altında 1-ci, 2-ci və 3-cü səhifələrdə geniş və əhatəli materiallar verilmişdir. Qəzetin sonrakı saylarında da bu ənənə qorunmuş, 23, 24, 25, 26, 28 dekabr tarixlərində SSRİ hökumət rəhbərinin iştirak etdiyi bütün tədbirlərin və görüşlərin işıqlandırılması üçün zəruri tədbirlər həyata keçirilmişdir. Səfər sonrası 1-ci səhifədə "Sovet–Türkiyə rəsmi məlumatı" [361] və "Sovet–Türkiyə münasibətlərində mühüm mərhələ" [360] başlıqları altında dünya və Türkiyə mediasının xülasəsi dərc edilmişdir. Bu materiallarda səfərin xarakteri və onun Sovet–Türkiyə qarşılıqlı münasibətlərində böyük rol oynayacağı bildirilir. Xatırladaq ki, bu səfərdən sonra Türkiyədə yeni bir sənaye erası başlandı. Bu gün İzmirin Əliağa rayonunda məşhur sənaye nəhəngi kimi tanınan və hazırda müstəqil Azərbaycan dövlətinin ən böyük xarici investisiyası olan "Petkim" kimya-sənaye zavodunun, İsgəndərun şəhərindəki metallurgiya kompleksinin, Egey bölgəsinin Kula və Nazıllı kimi şəhərlərində toxuculuq kombinatlarının və bir neçə sənaye obyektinin özülləri məhz bu səfərin bəhrələridir. Bu tarixi səfərdən sonra, 1967-ci ilin martında Türkiyənin Moskvadakı səfiri Hasan İşıqın rəhbərlik

etdiyi bir qrup iqtisadçı Bakıya səfər edir [359]. Bu səfər də "Kommunist" qəzetində rəsmi qaydada yığcam bir şəkildə təqdim olunmuşdur [416].

Türkiyə Cümhuriyyətinin baş naziri Süleyman Dəmirəl 19 sentyabr 1967-ci ildə SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıginin dəvəti ilə Moskvaya rəsmi səfərə gəlir [453]. A.N.Kosıginin səfərindən sonra bu, Türkiyə Cümhuriyyəti və SSRİ münasibətlərində önəmli hadisə kimi dəyərləndirilir. Türkiyənin baş nazirini Vnukovo təyyarə limanında SSRİ hökumətinin rəhbərləri qarşılayır: "Türkiyə Respublikası hökumətinin başçısı Moskvada" [436]. Qonaq sonra SSRİ Nazirlər Sovetinin sədri A.N.Kosıgin [454] və SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.V.Podqornı ilə [455] görüşür. Dekabrın 23-də Türkiyənin baş naziri Leninqradda, 24-də Daşkənddə olur və dekabrın 25-də Bakıya gəlir. Bakıda təntənəli və isti qarşılanma mərasimi barədə AzərTAc-ın geniş materialı qəzetin 1-ci səhifəsində dərc edilib [437]. "Azərbaycan torpağında görüşlər" sərlövhəsi ilə dekabrın 27-da Sumqayıt səfəri haqqında yazı təqdim olunur. Lenin adına (indiki Azadlıq) meydanda təntənə və sevgi ilə qarşılanan Süleyman Dəmirəl şəhərin sənaye müəssisələrində olur, görüşlər keçirir. Məqalə Qum adasında keçirilən görüşlərlə davam etdirilir. Qəzetin 28 dekabr sayında "Türkiyə Respublikasının baş nazirinin şərəfinə" [456] adlı rəsmi və geniş məqalədə qonağın şərəfinə düzənlənən ziyafətdən, hökumət rəhbərlərinin çıxışları haqqında məlumat verilir. Səfərlə əlaqədar daha iki xəbər də qəzetdə yer alır: "Türkiyəli qonaqlar Bakının görməli yerləri ilə tanış olmuşlar" və "Türkiyə Respublikasının baş naziri Bakıdan yola düşmüşdür" [457].

60-cı illər Türkiyə–Sovet dostluq əlaqələrini zənginləşdirən faktlardan biri də Türkiyə Respublikasının Cümhurbaşqanı Cövdət Sunayın SSRİ-yə səfəridir. Türkiyə prezidenti 1969-cu ilin 12-21 noyabr tarixlərində SSRİ-də rəsmi səfərdə olmuşdur. Səfərdən bir gün əvvəl "Kommunist" qəzeti SİTA-nın müxbiri N.Kudryaşevin "Türk xalqı Atatürkün xatirəsini yad edir" [266] sərlövhəli məqalə dərc edir. Şübhəsiz ki, səfər öncəsi təkcə "Kommunist"də yox, bütün ümumittifaq mətbuatında Atatürk və Lenin münasibətlərinin yüksək səviyyədə olmasının xatırlanması təkcə ənənəvi siyasi bir gediş yox, həm də hörmətli qonağa dəyərin

ifadəsi idi. Noyabrın 12-də Moskvaya gələn Cövdət Sunayı SSRİ-nin dövlət və hökumət rəhbərləri Vnukovo təyyarə meydanında qarşılamışlar: “Türkiyə Respublikasının prezidenti Moskvada” [444]. Bu xəbərdə də onun Kremldə Ali Sovetin Rəyasət Heyətinin sədri N.V.Podqornı və hökumət rəhbəri A.N.Kosıginlə görüşdüyü bildirilir. Qəzetin 14 noyabr sayında dərc olunan “Kremldə Sovet–Türkiyə danışıqları” başlıqlı xəbər Ali Sovetin Rəyasət Heyətinin sədri N.V.Podqornı ilə danışıqlar və qonağın şərəfinə düzənlənmiş ziyafət haqqındadır. Qəzet sonra 1-ci səhifəsində “Türkiyə Respublikasının prezidenti Cövdət Sunay (Bakıya gəlişi münasibəti ilə)” [439] və “Türkiyə prezidenti SSRİ-də” [450] məqalələrini dərc etmişdir. 1-ci məqalədə prezidentin bioqrafik məlumatı, 2-cidə onun Kiyev [449] və Tbilisi [448] səfərləri və görüşlər keçirdiyi bildirilir.

“Dostluq səfəri” [142] yazısında prezidentin Bakıya gəlməsi və qəbulları, şəhərlə tanışlığı, Azərbaycan Dövlət Universitetində olması haqqında məlumatlar əksini tapmışdır. Türkiyə prezidentinin təkcə rəsmi şəxs yox, həm də bir türk övladı kimi Bakı səfərində olması diqqəti cəlb edən cəhətlərdən olmuşdur. Noyabrın 19-da Moskvaya dönən Türkiyə prezidenti Sov. İKP MK-nın baş katibi L.İ.Brejnevlə görüşmüşdür: “L.İ.Brejnevin C.Sunay ilə söhbəti” [284]. Qəzetdə “Kremldə Sovet–Türkiyə danışıqları” [263], “Kremldə ziyafət” [264] və “Sovet–Türkiyə birgə rəsmi məlumatı” [358] da yer alır.

“Kommunist” qəzetinin 1960-80-ci illərdə dərc olunmuş Türkiyə–Sovet münasibətlərinə həsr olunmuş xəbər və məqalələrinin xronikasında bir sıra xəbərlər də olub ki, onların sıradan bir xəbər olduğunu nəzərə aldığımızdan üzərində dayanmağı məqsədəuyğun hesab etmədik. Sonda belə bir qənaətə gəldik ki, 60-cı illər Sovet–Türkiyə münasibətlərinin ən məhsuldar dövrü olmuş, uzun illər Türkiyəyə qarşı hətta ərazi iddialarında olan bir dövlətlə münasibətlərin yenidən qurulmasında mühüm işlər həyata keçirilmişdir. Bu ənənə sonrakı dövrlərdə də davam etdirilmiş, 1976-cı ilin iyununda Cümhuriyyət Xalq Partiyasının rəhbəri (CHP Genəl Başqanı) Bülənd Ecevit, 1978-ci ildə mədəniyyət naziri Əhməd Taner Kışlalı, 1982-ci ildə xarici işlər naziri İlter Türkmən və nəhayət, 1991-ci ildə

Cümhurbaşqanı Turqut Özal SSRİ-yə rəsmi səfərlər etmiş və Azərbaycanda da olmuşlar. Bu səfərlər "Kommunist" qəzetində də ətraflı işıqlandırılmışdır.

80-ci illərdə isə istər ümumittifaq, istərsə də respublikanın mətbuat orqanlarında Türkiyə haqqında rəsmi xəbərlərlə yanaşı, dostluq, qardaşlıq ənənələrini özündə əks etdirən müxtəlif səpkili yazılar yer almışdır. Bu yazıların əksəriyyətində, xüsusən də Azərbaycan mətbuatında dərc edilən yazılarda milli ruh, tarixi köklərə bağlılıq kimi meyillər özünü göstərmişdir. Hətta bunun qarşısını nə senzura, nə də hər hansı bir qorxu və qadağa ala bilmək gücündə olmuşdur. Rəsmi qaydada dərc edilən materiallarda türk dövlət və hökumət adamlarının Azərbaycan ziyarətləri zahirən tanışlıq xarakteri daşısa da, mənən daha geniş bir ampluada özünü göstərməkdə idi. Kommunist rejiminin bu məsələdə "ehtiyatlı" və "tədbirli" davranması özünü göstərsə də, Türkiyədən gəlmiş nümayəndələrin Bakı səfərlərini gündəlikdən çıxarmaq da mümkün olmamışdı. Amma daha az təqdimat və Türkiyə haqqında olduqca qısa xəbərlərin yayılmasına verilən önəmin də məqsədi insanların Türkiyə sevdasına qarşı qısqanclıq və qorxu idi.

Bu meyil qəzetin təqdim etdiyi materialların sənətkarlıq xüsusiyyətlərində də özünü göstərmiş, hətta materialların təqdimatındakı janr yeknəsəqliyi buradan doğan önəmli fakt olmuşdur. Ümumiyyətlə, dövlətlərarası münasibətlərdə dostluğun və qarşılıqlı əməkdaşlığın vurğulanmasına baxmayaraq, mətbuatın yaydığı və müəllifi SİTA olan xəbərlərdə ideologiyadan gələn "qısqanclıq", "məqsədəuyğun təqdimat" kimi meyilləri aşkar görməkdəyik. Eləcə də Türkiyənin siyasi gündəmində olan məsələlərin təqdimatında oxuduqlarımız fərqli bir təəssürat yaradır. Qəzetdə 1965-ci ilin oktyabrında parlament seçkiləri haqqında məlumatlar, Ədalət Partiyasının qələbəsi, Süleyman Dəmirəlin yeni hökumət qurması barədə məlumatlar da kifayət qədər yığcam bir şəkildə yer alır, o cümlədən Süleyman Dəmirəlin Ədalət Partiyası parlament qrupunun iclasında bütün dünya ilə, eləcə də yaxın qonşu olan SSRİ ilə dostluq münasibətlərinin inkişafına çalışacaqlarını bildirir [395]. Qəzetin eyni sayında Fransada parlament seçkiləri haqqında ətraflı məlumatlar yer alsa da, Türkiyə ilə bağlı xəbərlərdə bu "səxavəti" görmürük.

Yaxud Süleyman Dəmirəlin SSRİ-yə səfəri ərəfəsində "İzvestiya" qəzeti Türkiyə üzrə müxbiri Azad Şərifovun bu ölkənin baş naziri ilə müsahibəsini dərc etmişdi. Müsahibədə SSRİ ilə dostluqdan, onun tarixindən və gələcək perspektivlərindən söhbət açılsa da, müsahibənin "Kommunist" qəzetində dərc edilməsinə icazə verilməmişdi. Amma xalqlarımızın tarixi bağlılığını, qardaşlığını da ört-basdır etmək mümkün olmamışdı. Ola bilsin, bu bağlılığın təntənəsi idi ki, Süleyman Dəmirəl SSRİ-yə səfərinin mühüm bir hissəsini Bakı üçün ayırmışdı. Hətta 1967-ci ildə onun Bakı səfərində məhəbbət və sevgi ilə söylədiyi *"kökləri müştərək olan kültürümüzün bir-birimizi tanımağa imkan verdiyi"* [89] ifadəsini təkcə sadə vətəndaşlar yox, Türkiyə və Azərbaycanın hökumət adamları da coşqu ilə qarşılamışdılar. Ola bilsin ki, məhz o illərdə – 60-cı illərdə Azərbaycanda yeni bir milli intibahın başlanmasında bu kimi faktların rolu və təsiri az olmamışdır.

Heç şübhəsiz ki, bu kimi faktlar qəzetin üslub və dil məsələlərində əhəmiyyətli rol oynamışdır. Ümumiyyətlə, əgər 50-ci illərə kimi qəzetin hər bir xəbərində rus dilindən keçmə söz və ifadələrin yerinin nə qədər çox olduğunu görürüksə, 50-cı illərin sonlarından bu tendensiyanın səngidiyi müşahidə olunur. Qeyd edilməlidir ki, əvvəlki illərlə müqayisədə 60-cı illər və sonrakı dövrlərdə dilin saflığının qorunması daha səlis və uğurlu olmuşdur. Bu amil məşhur ədibimiz Mir Cəlalın diqqətindən qaçmamış, bu dövrdə formalaşmaqda olan *"dil mədəniyyətimizin yüksəkliyini"* [305] xüsusi qeyd etmişdir.

Ümumiyyətlə, dil məsələsi və mətbuatda onun saflığının qorunması bütün dövrlərdə polemika predmeti olmuşdur. Bu gün də bu məsələ ciddi aktuallığı ilə gündəmdədir. Bunun önəmli bir tərəfi son zamanlar dünyada, o cümlədən ölkəmizdə də internetin sürətli inkişafı və insanların xarici dillərdən istifadə imkanlarının genişlənməsi ilə əlaqəlidirsə, digər tərəfdən, təəssüflər olsun ki, mətbuat və söz azadlığından istədiyi kimi istifadə edən KİV-lər, haqlı olub-olmamalarına baxmayaraq, öz yanaşma meyarlarının düzgünlüyünü cəmiyyətə iddialı bir şəkildə qəbul etdirmək istəyindədir. AMEA-nın prezidenti akademik Akif Əlizadə bildirib ki, orfoqrafiya məsələlərilə bağlı mətbuatda bu günə kimi 300-dən artıq məqalə dərc edilib [111]. Hətta son vaxtlar "Xalq qəzeti"

bu məsələ ilə əlaqədar dərc etdiyi məqalələrdə AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli, AMEA Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva, AR Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini professor Sayalı Sadıqova, Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun yaradıcısı və rəhbəri olmuş professor Fikrət Türkmən [163] və başqalarının fikirlərində dil və türkçülük məsələlərinə toxunulmaqla, bu məsələnin aktuallığı diqqətdə saxlanmışdır. Əslində, bunu çox məqbul hesab edirik. Məqalələrinin birində də deyildiyi kimi, *“Azərbaycan dilinin tətbiq dairəsi süni olaraq məhdudlaşdırılır, səfirlik, xarici nümayəndəlik və şirkətlərdə Azərbaycan dilinin işlənməsi yarıtmaz vəziyyətdədir”* [348].

Jurnalistikanın sənətkarlıq məsələlərindən bəhs edilərkən daha önəmli bir məsələ – Sovet dövrü Azərbaycan jurnalistikasının sənətkarlıq problemlərinin tədqiqi və öyrənilməsi məsələləri də unudulmamalıdır. Bu məsələlərə vaxtaşırı toxunulmuş, ayrı-ayrı qəzetlərin, o cümlədən “Kommunist” qəzetinin səhifələrində Mirzə İbrahimov, Mir Cəlal, Nəsir İmanquliyev, Qulu Xəlilov, Famil Mehdi kimi ədəbi simalarının və mətbuat tədqiqatçılarının məqalələrində yer ayrılmışdır. Bunlar mətbuatımızın inkişafında önəmli yer daşısa da sovet ideologiyasının təsirlərindən yayına bilməmişdir. Mühacir mətbuatının tədqiqatçılarından Abid Tahirlinin dediyi kimi, *“...ümumən mətbuat tarixinin araşdırılmasına münasibət partiyalı və sinfi olmuşdur, rejim və ideologiyaya xidmət etmişdir,bəzən faktlar təhrif olunmuş, saxtalaşdırılmışdır”* [375].

Şübhəsiz ki, bu müəlliflər və onların yazdıqları üçün qınaq yeri ola bilməz və dövrün tələbləri ilə əlaqələndirilə bilər. Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin, Azərbaycan SSR Nazirlər Sovetinin “Kommunist” qəzetinin 50 illiyi münasibətilə redaksiya kollektivinə təbriki [261] və qəzetin fəaliyyətinə verilən qiymət də bunu təsdiqləyir. Amma tarixi reallıqlara obyektiv yanaşmanı unudan, eləcə də “Kommunist” qəzetini, az qala, bütün kommunist dövrünün baiskarı kimi təqdim edənlərin menyusuna Ulu Öndərin müdrikliklə söylədiyi fikirlərdən birini təqdim etmək yerinə düşərdi: *“Biz hamımız dövrün, zəmanənin övladları olduğumuzdan onun stereotiplərindən kənara çıxa*

*bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o zaman yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Belələrinin özləri də o zaman bu cür yazmışlar... O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu, günahdır"* [347]. Ulu öndər Heydər Əliyev 1994-cü ilin 26 avqustunda qəzetin 75 illik yubileyi münasibətilə "Xalq qəzeti" redaksiyasının kollektivinə göndərdiyi təbrik məktubunda da bunu bir daha vurğulayır [202]. Unutmamalıyıq ki, mətbuata partiya və "Qlavlit" nəzarəti az imiş kimi, Mərkəzi Komitənin Təbliğat və təşviqat şöbəsinə tabe olan "Müxbir" və "Təşviqatçı" jurnalları mətbuatın istiqamətləndirilməsi üçün fəaliyyətdə olmuşlar.

Mətbuat və söz azadlığı bütün dövrlərin ümdə məsələsi olmuş, hətta ingilis şairi, publisisti Con Milton (1608-1674) 1644-cü ildə "Aeropaqitika" əsərində mətbuat azadlığını müdafiə edir, *"Senzura cəmiyyətin inkişafına zərər gətirir, azad və yaradıcı insanın ləyaqətini təhqir edir"* [498, s.56] deyə bildirirdi. Bu önəmli məsələdə Avropanın yaşadıqları ilə sonralar Rusiya da üzləşdi. Sovet mətbuatının mənsub olduğu ənənələrə diqqət edəndə bu köklərin bilavasitə rus jurnalistika ənənələri ilə bağlı olduğunu yaddan çıxarmaq olmaz. Bu nə deməkdir? Rus jurnalistikasının tarixində demokratik dəyərlərin və doğru sözün nə cür qiymətləndirildiyini Rusiyada ilk çap nəşri olan "Vedomosti"nin (1702) ilk sayında görürük. I Pyotr ilk saydaca qəzetin bir neçə xəbərinin üstünə kağız yapışdıraraq qeyd emişdir ki, *"xalqa çatdırmaq olmaz"* [496, s.252]. Məhz bu kimi qadağalar senzor amilini möhkəmləndirmiş, I Pyotrdan sonrakı dövrlərdə, istər Yekaterinanın, istərsə də I Pavel və I Nikolayın dövrlərində yüksələn xətlə inkişaf etmişdir. Göründüyü kimi, *"Söz azadlığına qarşı mübarizə Rusiyada əsrlər boyu formalaşmışdı. Mətbuatın qadağan edilməsi, tirajın yandırılması, müsadirə olunması, xaricdən ədəbiyyatların ölkəyə gətirilməsinə qadağalar senzuranın işləyib hazırladığı metodlar sırasındadır"* [292, s.23].

Bolşeviklər də bu qadağaları fəaliyyətlərinin əzəli prinsipi kimi qəbul etmiş, çevrilişdən iki gün sonra qəbul etdikləri "Mətbuat haqqında dekret" mətbuat üzərində senzuranın hakimliyini bərqərar etmişdir. Məhz *"bu sənəd əsasında iki*

*ayda Rusiyada 92 qəzet bağlandı"* [502, s.64]. Mətbuat tədqiqatçısı professor Cahangir Məmmədli bu barədə çox obrazlı bir şəkildə yazır: *"Ən maraqlısı bu idi ki, Xalq Komissarları Soveti mətbuat üzərində nəzarətin müvəqqəti olduğunu və "yeni qaydaların möhkəmlənməsindən sonra mətbuata tam azadlıq veriləcəyini, bütün prosedurların yalnız məhkəmə yolu ilə həll ediləcəyini" bildirsə də, dekretin vəd etdiyi sənəd 1990-cı ilə kimi qəbul edilmədi"* [292, s.23]. Təbii ki, bu deyilənlər nəinki mətbuatın yazdıqlarında, eləcə də mətbuat tədqiqatçılarının təqdimatlarında ciddi önəm daşımaqla, ideologiyaya xidmət vasitəsinə çevrilmişdi. Amma bütün bunlarla bərabər, Bakı Dövlət Universitetinin dosenti A.Rüstəmovun izahına əsasən, *"jurnalistika – kütləvi informasiya vasitəsidir, dördüncü hakimiyyətdir, doğru, həm də yalan informasiyadır, yaradıcılıqdır, publisistikadır, cəmiyyətin güzgüsüdür"* [344, s.10]. Azad söz və demokratiya isə jurnalistikanın əsrlər boyu arzusu olaraq maraq doğurmuşdur:*"İngiltərə jurnalistikasının və publisistikasının o zamanlar yaşamış olduğu hadisələri bizim jurnalistika və publisistika müəyyən mənada indi yaşamaqdadır. ...indi bu proses postsosialist ölkələrində və postsovet respublikalarında müşahidə olunur"* [151, s.45].

Tədqiqatdan da göründüyü kimi yetmiş illik bir tarixi dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin mətbuatda təqdimi maraqlı olduğu qədər də, ziddiyyətli olmuşdur. Sovetlərin ilk illərində daha çox yaxın qonşuluq və dostluq münasibətləri ilə müşayiət olunan bu əlaqələr mətbuatın da maraq doğurduğu və əhatəli işıqlandırdığı mövzulardan olmuşdur. Amma 30-cu illərdən 60-cı illərə, Stalinin ölümünə kimi daha çox sovetlərin haqsız iddiaları və repressiyalarla müşayiət olunmuş dövr isə mətbuatda Türkiyə mövzusunu yasaqlamış, eyni zamanda bu mövzu açıq sərgilənməsə də Türkiyəyə qarşı aparılan Sovet antisiyasətinin ana xətti olmuşdur. Daha çox siyasi dairələrdə müzakirə mövzusu olsa da mətbuatdan gizlədilməsi də mümkün olmamışdır. Ardıcıl olmasa da bu barədə mətbuatın yaydığı təqdimatlar da qanətlərimizi təsdiqləyir.

60-cı illərdən sonra münasibətlərdə yumşalmalar olsa da, ciddi qısqanclıqlar da diqqətdən yayınmamış və mətbuatda da aşıq-aşkar sezilmişdir. Hətta həm ümumittifaq mətbuatında və respublikanın baş mətbu orqanı olan "Kommunist"

qəzetində dövlət rəhbərlərinin rəsmi səfərlərinin işıqlandırılması belə müəyyən məhdudiyyətlərlə mümkün olmuşdur.

Bir az irəlidə qeyd etdiyimiz kimi, bu təqdimatlar ideoloji çərcivədə olduğundan, əsasən təbliğat xarakterində və daha çox şüarçılıq, partiya derektivlərindən irəli gələn konyukturanın təsirində olmuşdur. "*Təbliğatın ruporuna çevrilmiş publisistikada hökm sürən sxematizm, şablonçuluq, trafaretizm bədii söz sənətinin inkişafina, mükəmməl tərəqqisinə mane olurdu*" [326, s.163]. Amma 1960-cı illərdən başlayan yumşalmanın təsirləri mətbuatda da özünü göstərmiş, ən önəmlisi mətbuatı ideoloji yasaqlardan qismən də olsa azad edə bilmişdi. Eyni zamanda beynəlxalq ədəbi-mədəni əlaqələr fonunda mətbuatın dərc etdiyi materiallar ideologiyanın standartlaşdırdığı mövzu çərçivəsini dağıtmış, xarici ölkələrlə bağlı səyahətnamələrin və səfər oçerklərinin təqdimatı oxucularda da maraq doğurmuşdur. Bu nümunələr nə qədər maraqlı və cəlbedici olsa da kapitalizmə nifrət, sosialist həyat tərzinin üstünlüklərinin təbliğinə verdiyi önəmlə, ideoloji amillərin önə çəkilməsi ilə diqqət mərkəzində olmuşdur. Amma qeyd edilməlidir ki, bu dövrdə formalaşan jurnalistika mətbuata təkcə yeni mövzular yox, həm də janr rəngarəngliyi, yeni üslub xüsusiyyətləri və forma yenilikləri də gətirmişdir. Bu amillər sonralar müstəqillik dövrü mətbuatının formalaşmasına da təsir etmiş, həm də yeni reallıqların təsdiqinə, o cümlədən Qarabağ mövzusundan – müharibədən, işğaldan, erməni terror və təcavüzündən, dünyanın ikili siyasətindən əhatəli təqdimatlar verə bilən tribunaya çevrilmişdir. Eyni zamanda mətbuat Azərbaycanın həqiqətlərinin dünyaya çatdırılmasında da əhəmiyyətli bir mövqeyə sahiblənə bilmişdir.

Mətbuat, o cümlədən uzun illər Azərbaycan Sovet mətbuatının flaqmanı olan "Kommunist" qəzetinin fəaliyyəti – bolşevik və kommunist ideyalarının təbliğatçısı olması – onun Azərbaycan xalqının mənəvi, maddi irsi olduğunu inkar etdirə bilməz. Əksinə, cəmiyyətin ictimai-siyasi həyatının reallıqlarının öyrənilməsində, bir sıra pozitiv və neqativ amillərin əks olunduğu, tarixin bəzi qaranlıq məqamlarının belə işıqlandırıldığı qəzətin əhəmiyyətli rolu da yaddan çıxarılmamalı, daha geniş araşdırmalara cəlb edilməlidir.

# II FƏSİL
# AZƏRBAYCAN–TÜRKİYƏ ƏLAQƏLƏRİNİN YENİDƏN TƏŞƏKKÜLÜ, FORMALAŞMASI VƏ STABİLLƏŞMƏSİ DÖVRÜ "KOMMUNİST" VƏ "XALQ QƏZETİ"NDƏ (1989-2002-Cİ İLLƏR)

## 2.1. Azərbaycan–Türkiyə əlaqələri müstəqillik illəri ərəfəsi (1989-1991) mətbuatında

Dünya düzənində baş verməkdə olan qlobal dəyişikliklər özünü XX yüzilliyin 80-ci illərinin sonlarında daha əhatəli şəkildə göstərməkdə idi. Xüsusən də münasibətlərdə demokratik meyillərin güclənməsi, humanitar sahələrdə yeni qapıların açılması, iqtisadi və elmi-texniki inkişaf cəmiyyətə yeni bir əhvali-ruhiyyə gətirməkdə idi. Hətta o dövrün şahidlərinin yaxşı yadındadır ki, uzun illər boyu "sosialist təhlükəsi"ni ciddi bir vahimə kimi görənlər belə "yenidənqurma" adı ilə gələn siyasətin köhnə stereotipləri dağıtmasını sevinclə qarşılamaqda idilər.

Uzun illər ərzində "Türkiyə", "türk xalqı" adlarının çəkilməsi yasaq edilsə belə, mətbuat birdən-birə bu tipli yazılara daha çox yer verməyə başlamışdı. Xüsusilə də cümhuriyyət tarixi ilə bağlı yazıların üzə çıxması sanki tədqiqatçıların və xalqın ürəyindəkilərin ortaya çıxması üçün başlanğıc olmuşdu. Təkcə bir faktı söyləmək yerinə düşər ki, yalnız tarixçi alim Zülfəli İbrahimovun 1950-ci ildə dərc olunmuş "İngilis-Amerikan müdaxiləçilərinə qarşı Azərbaycan xalqının mübarizəsi: (1918-1920-ci illər)" kitabını [242] çıxmaq şərti ilə 1989-cu ilə kimi Azərbaycan mətbuatında 1920-ci ilin mayında bolşevik təcavüzünün qurbanı olan Azərbaycan Xalq Cümhuriyyətinin adının belə çəkildiyi hansısa bir nəşrə və məqaləyə təsadüf edilmir. 1989-cu ildə milli oyanışın başlanması ilə bu məsələ mətbuatın gündəminə gəlmiş, "Xəzər", "Qobustan" jurnallarında, "Kommunist", "Elm", "Ədəbiyyat və incəsənət", "Azərbaycan", "Odlar yurdu" qəzetlərində ümumilikdə 10 məqalə dərc edilmişdir. Yeri gəlmişkən bir faktı da diqqətə çatdıraq ki, hələ demokratik hərəkatın ilk vaxtlarında ciddi qınaqlara məruz qalmış "Kommunist" qəzeti "Xəzər", "Qobustan" jurnallarından sonra Cümhuriyyət tarixinin yad edildiyi A2 formatlıq bir səhifədən də xeyli çox, iri həcmli yazı dərc edən ilk rəsmi qəzet olmuşdur. "1918-1920-ci illər dövrünün bəzi məsələləri:

“Dəyirmi masa” arxasında alimlərimizin söhbəti” [140] adlı bu yazıda ADR dövründə kommunist-bolşevik fəaliyyətinin araşdırılmasına önəmli yer verilir, həmçinin Şərqdə ilk İslam dövləti kimi tarixə düşmüş Azərbaycan Xalq Cümhuriyyəti tarixinin də öyrənilməsi aşkarlıq dövrünün ümdə vəzifələrindən biri kimi diqqətə çatdırılır. Görkəmli alimlərimizin – Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti akademik Cəmil Quliyevin, Azərbaycan SSR Elmlər Akademiyası Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik, SSRİ xalq deputatı Püstəxanım Əzizbəyovanın və başqalarının həmsöhbət olduqları dəyirmi masada AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Qaraş Mədətovun fikirləri həm tarixi baxımdan, həm də keçmişimizin öyrənilməsi baxımından cəsarətli və təqdirəlayiq fikirlər kimi dəyərləndirilməlidir: *“Tarix ədəbiyyatımızda Azərbaycan Demokratik Respublikasının tarixi hələ öz obyektiv qiymətini tapmamışdır. Məncə, heç kəs bu hökumətin burjua-mülkədar mahiyyətini inkar etmək, onu yaxşı məziyyətlərlə bəzəmək fikrində deyildir. Lakin tarixi həqiqət tələb edir ki, onun yaranmasının, fəaliyyətinin, daxili və xarici siyasətinin şərhində birtərəflilik aradan qaldırılsın, hər şey açıq-aydın, dərindən təhlil edilsin”* [140].

Milli dirçəliş və milli əhvalın yüksəlməsinin təntənəsi idi ki, Topxanada bir ağacın kəsilməsi haqqında xəbər xalqı Azadlıq (onda Lenin) meydanına toplaya bilmişdi və o hərəkat xalq gücünün və birliyinin nəyə qadir olduğunun göstəricisi idi. Amma sütunları laxlayan imperiya heç də 70 ildə qazandıqlarını asanca vermək niyyətində deyildi. 1990-cı ilin qanlı “20 Yanvar”ı da SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı siyasətin qanla yazılan yeni tarixi idi.

1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusu, Ermənistanın təcavüzündən və SSRİ rəhbərliyinin ermənilərə havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz etirazını bildirən xalq kütlələrinə qarşı hərbi əməliyyatlara başladı. *“Soyuq 20 Yanvar səhəri açılmağa macal tapmamış bəşər tarixinin insanlığa sığmayan ən faciəvi hadisələrindən biri – Bakı küçələrində dinc nümayişçilərin gülləbaranı baş verdi. Azərbaycana, nəyin bahasına olursa-olsun, milli mücadiləni boğmaq və yatırtmaq məqsədi ilə yeridilən rus qoşunları Bakıda və respublikanın müxtəlif rayonlarında 146 nəfər mülki şəxsi*

*küçələrdə, evlərində, avtomobillərində, iş yerlərində qətlə yetirdi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu"* [186].

Yanvarın 19-da hərbi əməliyyatın növbəti mərhələsi kimi Azərbaycan Televiziyasının enerji bloku partladılmış, respublika Televiziyası və Radiosunun verilişləri kəsilmişdi. Kütləvi informasiya vasitələrinin fəaliyyəti dayandırılmış, xalq informasiya almaq hüququndan məhrum edilmişdi. Azərbaycan KP MK-nın rəsmi orqanı olan "Kommunist" qəzetinin növbəti sayı 18 yanvardan sonra bir də 27 yanvar 1990-cı ildə nəşr olunmuşdu. Qəzet doqquz gün çap edilməmiş, bu müddətdə 20 Yanvar faciəsi barədə xalqa heç bir rəsmi məlumat verilməmişdi.

Faciənin miqyası ilə bağlı ilk xəbər verən "Kommunist" qəzetinin əlavəsi "Səhər" qəzeti idi. Baş redaktorun müavini Məzahir Süleymanzadə yazırdı: *"Kommunist" qəzetinin kağız ehtiyatından yararlanmaqla 2 milyon tirajla nəşr olunan "Səhər" dinc əhaliyə açılan atəşləri, uşaqların, qadınların və yaşlıların meyitləri əks olunmuş fotoları dərc etməklə əhalini informasiya blokadasından azad etdi"* [370, s.34]. Amma SSRİ yaşamaqda idi. "Kommunist" qəzeti 1990-cı ilin iyulunda çağırılan Sov.İKP-nin XXVIII qurultayının yeni "ideallarını" cəmiyyətə təqdim edirdi. Şübhəsiz ki, bu qurultaya həvəslə gedən Azərbaycan kommunistləri bu kimi "idealları" dəstəkləməkdə olsalar da, baş verənlərə etirazlarını da gizlətmirdilər. Hətta qurultay nümayəndəsi *"...prezident hakimiyyətini təsis etmək ideyasını irəli sürəndə bunu onunla əsaslandırdılar ki, yeni hakimiyyət formasına daha böyük dinamik qətiyyət, operativlik vermək lazımdır. Qonşu respublikada (Ermənistan) qəsbkarlıq niyyətləri güdən, konstitusiyaya zidd ordu təşkil edilməsini necə başa düşmək olar?! Ölkənin hər hansı sakini cib bıçağı üstündə soyuq silah gəzdirmək adı ilə məhkum edildiyi halda bu terrorçu təşkilatın gücü və qüdrəti mərkəzi televiziya ilə nümayiş etdirilir, hətta bəzi qəzetlərdə təriflənir"* [465] deyə çıxışında bildirirdi. "Kommunist" qəzetinin qurultayın gedişindən materiallar hazırlamaq üçün Moskvaya ezamiyyətə göndərilmiş müxbiri "Kremlin təzadları" məqaləsində yazırdı: *"Qurultay qalın meşədə kompassız hərəkət edən yolçuya bənzəyir. Gah işıq gələn tərəfə gedir, gah tüstü çıxan tərəfə. Düzgün yol isə hələ tapılmayıb"* [276].

Azərbaycan Kommunist Partiyasının yeniləşdirilməsi yolu ilə respublikanın siyasi və iqtisadi inkişafının yeni səviyyəyə yüksəldilməsini "təmin edəcək" Azərbaycan kommunistlərinin XXXII qurultayı, Sov. İKP qurultayının yekunları və respublika partiya təşkilatının təxirəsalınmaz vəzifələrindən danışan Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibovun çıxışı Sov.İKP nizamnaməsinə sadiqlik nümayiş etdirməkdə idi [51]. Amma qəzetin dərc etdiyi bəzi məqalələrin məzmununa diqqət edəndə başqa mənzərəyə şahidlik edirik. Bu sırada kommunist rejiminin tədqiqatçısı, rəhbər vəzifələrdə çalışmış tarix elmləri doktoru Kamran Rəhimovun məqaləsi diqqət çəkir: *"Bəzən bizi işin düz getməməsində, cəsarətsizlikdə, ikili mənəviyyatda təqsirləndirirlər. Əlbəttə, söhbət kimin haqlı, kimin haqsız olduğundan getmir. Onu demək lazımdır ki, onillərlə biz yalan və qorxu şəraitində yaşamışıq. Sosializm haqqında Lenin nəzəriyyəsinə yenidən baxılmalıdır"* [337].

Göründüyu kimi, günün "yenidənqurmasına və yeniləşməsinə" bəraət qazandırmaq niyyəti ilə kommunist rejiminin dünəninə qiymət verən kommunist müəlliflər bəzən bilərəkdən, bəzən də bilməyərəkdən rejimin mahiyyətini ortaya qoyurlar. Bu kimi yazılarla yanaşı, milli ruhun və milli tarixin yüksəlişini təbliğ edən, tariximizin şərəfli səhifələrini gündəmə gətirən məqalə və yazıların sayı da onlarca olmuşdur. "Azərinform"un böyük qardaşı" [104], "Azərbaycan Demokratik Respublikası" [112], "Demokratik respublikaya həsr edilir" [139], "Təkamül" qəzetinin baş redaktoru, "Beş hürriyyət" [231], "Xatirə lövhəsi açılmışdır. Respublika Azərbaycan milli dövlət quruluşunun dirçəliş gününü bayram edir" [236], "Böyük Əkinçi. Yaxud unudulmuş Həsən bəy Zərdabi" [281], "Tağıyev H.Z.: sahibkar, mesenat. Tarix elmləri doktoru Marat Allahverdiyevin kitabı haqqında" [374], "Azərbaycan xanlıqları. Dəyirmi masa" [48], "Folklorumuzun fədailəri" [149], "Orta əsr Azərbaycan dövlətləri. Dəyirmi masa" [320] və s. Bu yazılar milli tariximizin uzun illər qadağalar qoyulduğu mövzulardandır. Əslində, onların məzmun və mənasına, bir də müəlliflərinə diqqət edəndə görünür ki, xalqın ziyalıları, alimləri çox şeyləri bilirmiş. Sadəcə,

həqiqətlərin söylənməsi mümkün olmayıb, olanlar da ciddi senzura nəticəsində həyata vəsiqə ala bilməmişdir.

Təbii ki, milli mücadilənın güclənməsi Azərbaycan mətbuatında daha çox Türkiyə ilə əlaqəli yazıların kəmiyyət artımı ilə də müşayiət olunmaqda idi. Ölkə mətbuatı üçün Türkiyə mövzusu bir nömrəli məsələ kimi diqqəti cəlb etməkdə idi: *"Müstəqilliyimizin tarixi boyu olduğu kimi, hazırda da türkdilli ölkələrin kütləvi informasiya vasitələrinin, xüsusilə mətbuatının apardığı araşdırmalar adət-ənənələrimiz və müştərək tariximiz haqqında bilgilərimizin genişləndirilməsində və türk dünyası daxilində inteqrasiya yollarının axtarılıb tapılmasında ... mühüm rol oynayır"* [198, s.130]. Bu dövrdə mətbuat yeni mövzular ortaya qoysa da, hələ də bütün nəşrlər dövlətə bağlı idi, yəni nəşr olunan qəzet və jurnallar mütləq mənada hansısa bir dövlət təşkilatının nəşri kimi təqdim olunurdu. O, başqa məsələ idi ki, bu nəşrlərdə yeni əhvali-ruhiyyənin, milli çağırışların yer tapması həm dövrün tələbi, həm də vətənpərvərlik mövqeyindən fakt idi. Deyək ki, "Gənclik-Molodost" (baş redaktor Məmməd İsmayıl) respublika komsomolunun jurnalı olsa da, ətrafında yeni dövrün havası ilə yüklənmiş, milli ruhun öndə dayandığı müəllifləri toplamaqla, həm də cəmiyyətin aparıcı gücü olan böyük bir gənclik ordusunu birləşdirməkdə idi. Yaxud "Vətən" cəmiyyətinin nəşri olan "Odlar yurdu" qəzeti (redaktor Ramiz Əskər) dünya azərbaycanlılarının birliyinə dair ciddi çağırışlar səsləndirməkdə idi. Bu kimi meyillər partiya-sovet mətbuatının dəst-xətində və mövzu seçimində də özünü göstərməkdə idi.

Bu baxımdan ölkənin baş mətbu orqanı "Kommunist" qəzetinin müstəqillik ərəfəsində nəşr olunan saylarında Türkiyə ilə bağlı məqalələrin araşdırılmasında ilkin qənaətimiz bu oldu ki, Türkiyə mövzusu aktuallıq baxımından diqqəti cəlb etdiyi kimi, həm də xarici ölkə həyatından dərc edilən məqalələr sırasında kəmiyyət etibarı ilə ən çox diqqət çəkənidir. Az bir zaman kəsiyində bu mövzuda dərc edilən yazıların sayı kifayət qədər çoxdur: iki ildə (1990 və 1991-ci illər) 345 yazı. Mövzu və janr rəngarəngliyi ilə seçilən bu yazılar təkcə statistikası ilə yox, həm də müəlliflərin hiss və duyğularının türk dünyasına doğmalığı ilə maraq oyada bilir. Hətta bu mövzuda təqdim olunan rəsmi xəbərlərdə belə bunları sezməmək

mümkün deyil. Təqdim etdiyimiz bəzi məqalələrin adları və məzmunları da deyilənləri təsdiq edir:

- "Əlaqələr möhkəmlənir" [166]. Azərbaycan SSR Nazirlər Sovetinin sədri A.Mütəllibovun rəhbərliyi ilə nümayəndə heyətinin Türkiyəyə rəsmi səfərinin yekunları haqqında müsahibədir. Nümayəndə heyətinin rəhbəri SSRİ ilə Türkiyə arasındakı dövlətlərarası sazişdən və Azərbaycan SSR ilə Türkiyə arasında iqtisadi-ticari, mədəni, elmi mübadilə haqqında imzalanmış sənədlərdən danışır, ölkələrimiz arasındakı əlaqələrin gələcəyinə nikbinliyini bildirir.

- "Gör-götür dünyası" [354] yazısında Azərbaycan SSR EA-nın müxbir üzvü professor Teymur Vəliyev Türkiyəyə elmi ezamiyyəti haqqında qəzetin əməkdaşının suallarını cavablandırır. Professor Türkiyədə Azərbaycana olan maraqdan, elmi əlaqələrin qurulması perspektivlərindən danışır. 20 Yanvar faciəsi haqqında orada eşitdiklərini, türk xalqının azərbaycanlılarla həmrəy olduğunu, "Türk xalqı həmişə sizinlədir", "Azərbaycanın taleyinə biganə deyiliz" kimi şüarlarla İstanbulda, Ankarada, İzmirdə izdihamlı mitinqlər keçirildiyini söyləyir. Türkiyə Qızıl Aypara Cəmiyyətinin göndərmək istədiyi tibbi yardımın qəbul edilmədiyini və bu yardımın bir hissəsini nümayəndə heyəti üzvlərinin gətirdiyini bildirir.

- "Türkiyədən qardaş yardımı" [20]. Məqalə Ankaradan Azərbaycan paytaxtına iki hərbi nəqliyyat təyyarəsi ilə göndərilən 1 milyon dollar dəyərində humanitar yardım haqqındadır. Türkiyə Qızıl Aypara Cəmiyyəti Xarici əlaqələr şöbəsinin rəhbəri Xalid Doğanay bildirir ki, türk xalqı Bakı faciəsinə yas saxlayır. "Şəhidlərin, zərərçəkənlərin ailələrinə yardımlar göstərilməsinə hazırıq. İndi aldığımız dərmanları, tibb avadanlıqlarını, əlillər üçün arabaları, habelə ərzaq mallarını gətirmişik. Bir neçə gün sonra Bakıya daha 6 təyyarə gələcəkdir".

- "Min nəğməli, əfsanəli Türkiyə" [235]. SSRİ Xalq artisti Zeynəb Xanlarovanın Türkiyə səfərindən yol qeydləridir. Məşhur müğənni SSRİ ilə Türkiyə arasındakı yeni münasibətlərdən məmnun olduğunu bildirir, Bakı–İstanbul təyyarə reysinin açılmasını, turist mübadiləsini yüksək dəyərləndirir.

- “Azərbaycan–Türkiyə: əməkdaşlığın uzaq və yaxın üfüqləri” [282] yazısı Türkiyənin SSRİ-dəki səfiri Volkan Vuralın Azərbaycana səfəri, dövlət və hökumət rəhbərləri ilə işgüzar görüşləri və qəbullar haqqındadır. Bu görüşlərdə ölkələrimizin gələcək əlaqələrinin qurulmasına, xüsusən də iqtisadi sahədə daha böyük uğurların əldə olunacağına önəm verilir.

- “Türkiyə Respublikası prezidentinin xanımı Bakıya gəlmişdir” [441], “Türkiyə Respublikası prezidentinin xanımı Azərbaycanda” [442] yazıları rəsmi xəbər kimi təqdim edilir. Turqut Özalın həyat yoldaşı Səmra Özalın ölkəmizdə, Bakının, Gəncənin təhsil ocaqlarında və müxtəlif tədbirlərdə iştirakına həsr olunmuş məqalələrdə doğma bir insan kimi qarşılanması diqqətdən yayınmır.

- “Türkiyəni heyran qoydular” [336]. Azərbaycan Dövlət Dram Teatrının Türkiyə səfərindən sonra teatrın direktoru Həsənağa Turabovun səfərin yekunları, qardaş Türkiyədə böyük coşqu və tamaşaçı alqışları ilə qarşılandıqları haqqında təəssüratları təqdim edilir. Qeyd edilir ki, xalqlarımızın daha da yaxınlaşmasında mədəniyyət önəmli körpüdür, bu kimi səfərlərin müntəzəm olması vacibdir.

- “Qoşa qanad” [335] məqaləsində keçən əsrin sonlarında Gəncədən Qarsa köçmüş bir nəslin övladı olan Tələt Özgündüz və əsli Borçalıdan olan Saltan Borçalı Azərbaycana səfərlərindən və əlaqələrin qurulmasından danışırlar. Tələt bəy Qarsda bələdiyyə başqanının müavini, Saltan Borçalı isə “Nəbioğlu” şirkətinin qurucusu və sahibidir. Əslən Azərbaycan türkü olan bu insanlar İstanbulda Akademik Dövlət Dram Teatrının bədii rəhbəri Həsənağa Turabovla görüşlərindən məmnunluqlarını, mədəni əlaqələr üçün dəstək verəcəklərini bildirirlər. Bakıda onlar yenidən görüşmüş, xalqlarımızın milli varlığını tanıtmaq üçün teatrı Türkiyəyə yeni səfərlərə dəvət etmişlər. Maliyyə xərclərini də üzərlərinə götürmüşlər. Onlar baş nazir Həsən Həsənovla görüşdüklərini, Azərbaycanda qurmaq istədikləri layihələri də müzakirə etmişlər.

- “Əlaqələrimiz möhkəmlənir” [334]. Akademik Dövlət Dram Teatrının bədii rəhbəri Həsənağa Turabov və rejissor Azərpaşa Zəfəroğlu Türkiyəyə uğurla keçən qastrol səfərlərindən və qardaş ölkədə böyük sevgilərlə qarşılandıqları mərasimlərdən danışırlar.

- “110 gün Türkiyədə” [16]. Əskişəhərdə Yunis Əmrə sənət həftəsində iştirak edən müəllif (Kəmalə Ağayeva) Azərbaycana, onun sənət dünyasına olan məhəbbətdən, bu görüşlərdə aldığı zəngin təəssüratlardan söhbət açır. Ankara və İstanbulda olan müəllif ayrı-ayrı şəxslərlə Azərbaycan və Türkiyə haqqında fikir mübadilələrini təqdim edir. “Türkiyədə yaşayan azərbaycanlılar” cəmiyyətinin sədri Nihad Çətinqaya, onun ailəsi, əslən azərbaycanlı insanlarla söhbətlərinin, Türkiyənin mədəniyyət naziri Namiq Kamalla görüşlərinin zəngin təəssüratlarını oxucularla bölüşür.

- “Məramımız eynidir” [249]. Azərbaycan Respublikasının xarici işlər naziri Hüseynağa Sadıqov Türkiyənin Moskvadakı fövqəladə və səlahiyyətli səfiri V.Vuralın Bakı səfərinin və Azərbaycan prezidenti A.Mütəllibovla görüşünün yekunlarını şərh etmişdir. Nazir qeyd edir ki, Türkiyə səfiri dəfələrlə Azərbaycanda olub və heç bir səfirin ölkəmizə bu qədər çoxsaylı səfərinin şahidi olmamışıq. Bu, qardaş Türkiyənin Azərbaycana diqqət və qayğısının nəticəsidir.

- “SSRİ prezidenti M.S.Qorbaçovun dəvəti ilə Türkiyə prezidenti T.Özalın Moskvaya səfəri və Vnukovo təyyarə meydanında qarşılanması”. SİTA-nın yaydığı xəbər 1-ci səhifədə qəzetin adının önündə manşet xəbəri kimi verilir [385].

- “Yeni münasibətlər mərhələsi: Türkiyə prezidenti T.Özalla müsahibə” [174]. Həcmcə o qədər də böyük olmayan müsahibədə Türkiyə–Sovet münasibətlərinin tarixindən və gələcək perspektivlərindən söhbət açılır. T.Özal əsası Atatürk və Lenin tərəfindən qoyulan bu münasibətlərin bu gün də vacib olduğunu əsaslandırır. Müxbir sualına 70 il bundan əvvəl iki dövlət arasında bağlanmış dostluq müqaviləsini yada salmaqla başlayır və ölkələr arasında əlaqələrin roluna, onun inkişafının vacibliyinə yüksək dəyər verir.

- “Türkiyə Respublikasının baş konsulu qəbul edilmişdir” [447]. Bakıda Türkiyə Cümhuriyyətinin yeni açılan baş konsulluğu və rəsmi fəaliyyətə başlayan baş konsul Altan Karamanoğlu haqqında məlumatdır. Qəbulda qardaş Türkiyə ilə əlaqələrin genişləndirilməsi və perspektivləri müzakirə mövzusudur.

- “Azərbaycan və Türkiyə prezidentlərinin söhbəti” [385]. SSRİ prezidentinin dəvəti ilə rəsmi səfərdə olan Türkiyə Cümhuriyyətinin prezidenti

Turqut Özalın Bakı səfərində Azərbaycan prezidenti tərəfindən qəbulu haqqındadır. T.Özalın səfəri önəmli hadisə kimi dəyərləndirilir və ölkələrimizin gələcək münasibətlərinin qurulmasında mühüm rol oynayacağı bildirilir. Türkiyə prezidentinə ölkənin vəziyyəti, bazar iqtisadiyyatına keçidin çətinlikləri, o cümlədən erməni təcavüzü haqqında məlumatlar verilir. Azərbaycanın qonşulardan, eləcə də Türkiyədən gözləntiləri vurğulanır. Səmimi qəbul üçün minnətdarlıq edən Türkiyə prezidenti Azərbaycanın bu mürəkkəb mərhələni uğurla keçəcəyinə əminliyini bildirmiş, Azərbaycanın dünya iqtisadi birliyinə qoşulması üçün bütün dəstəklərini verəcəyini söyləmişdir və s.

Türkiyə ilə yenicə qurulmaqda olan əlaqələr haqqında bu məqalələri, ola bilsin ki, mövzusuna və yaxud janr xüsusiyyətlərinə görə ayrı-ayrılıqda təhlil və təqdim etmək də olardı. Əslində, məsələyə daha çox siyasi anlamda dəyər verilmiş, hətta rəsmi səfərlər daha çox danışılan və tədqiq edilən mövzulardan olmuşdur. Mövzunun "Kommunist", sonralarsa "Xalq qəzeti"ndə təqdimatına diqqət edəndə bu yazıları həm filoloji baxımdan, həm də siyasi, iqtisadi və mədəni əlaqələr baxımından dəyərləndirmək və şərti olaraq 3 (üç) qrupa ayırmaq mümkündür:

- Birinci rəsmi materiallardır. Dövlətlərarası münasibətlər, ölkə rəhbərlərinin və digər rəsmilərin görüşləri və s. bu qrupa aiddir.

- İkinci, iqtisadi əlaqələrin qurulması haqqında olan materiallardır. Burada müxtəlif siyasi zümrədən olan alim və tədqiqatçıların yazıları yer tutur.

- Üçüncü, qəzet əməkdaşlarının təqdim etdiyi müxtəlif janrlı məqalələrdir.

Qardaş Türkiyənin adının keçdiyi və mətbuatda dərc edilən bu yazılar, janrından, üslubundan, mövzusundan asılı olmayaraq, uzun illər ayrı düşmüş xalqlarımızın milli mədəni bağlılıqlarını ortaya qoyan nümunələrdir. Bu bölgü həm də ona görə məqsədəuyğun hesab edilə bilər ki, burada təkcə ayrı-ayrı fərdlərin yox, yaşından və zümrəsindən asılı olmayaraq bütün xalqın, eləcə də müstəqillik əldə etməyə hazırlaşan (əslində, o vaxtlar buna inananlar çox az idi) Azərbaycan dövlətinin, amma daha çox xalqlarımızın doğma münasibətlərinin ifadəsi və tərənnümü hiss olunmaqdadır. Əslində, mətbuatın yaratdığı bu mənəvi körpü gələcək əlaqələrin qurulmasında təməl kimi də qəbul edilə bilər. Ola bilsin ki,

hansısa bir məsələdə o dövrkü hakimiyyətin mövqeyində xalqın fikirləri ilə müəyyən ayrılıqlar olsun və sonralar göründü ki, bu, var idi. Amma Türkiyə ilə belə bir fakt diqqətdə olmasa da, olanlar da ciddi mövqe nümayişi olmadığından heç vaxt münasibətlərə təsir etməmiş və ciddiliyi ilə də gündəmdə olmamışdır.

Azərbaycanın SSRİ-nin tərkibində olduğu illərdə Türkiyə rəsmilərinin – dövlət və hökumət adamlarının Moskvaya rəsmi səfərləri çərçivəsində, birmənalı olaraq, Azərbaycana səfərlər də planlaşdırılmış və demək olar ki, bu səfərlər uğurla baş tutmuşdur. Keçən əsrin 60-cı illərindən başlayan bu səfərlərdə Bakı ziyarətləri də önəmli yer tutmaqla, təkcə ümumittifaq deyil, eləcə də respublika mətbuatının işıqlandırdığı mövzulardan olmuşdur. Düzdür, respublika mətbuatı və onun baş orqanı olan "Kommunist" qəzeti bu məsələləri müəyyən qadağa və hədlər çərçivəsində işıqlandırsa da, hər halda, rəsmi xarakterli bu təqdimatların özündə belə dostluq, qardaşlıq münasibətlərindən doğan mənəvi bağlılıqları asanca görmək olur. Azərbaycanın müstəqilliyi ərəfəsində isə bu münasibətlərdə daha ciddi yaxınlaşmalara və əlaqələrin genişlənməsinə şahidlik edirik. Türkiyənin Moskvadakı fövqəladə və səlahiyyətli səfiri V.Vuralın 16 yanvar 1991-ci ildə [415], ardınca Türkiyə prezidenti Turqut Özalın 13 mart 1991-ci ildə Moskva, sonra da Bakı səfərləri [385] və Bakıda Türkiyə konsulluğunun fəaliyyətə başlaması, baş konsulun Azərbaycanın dövlət başçısı tərəfindən qəbulu [447] Azərbaycan–Türkiyə münasibətlərində yeni mərhələnin başlandığının müjdələri idi. Göründüyu kimi, artıq bu məsələ dövlətlərarası münasibətlərdə də özünü göstərir və siyasi dairələrin gündəmini müəyyən edirdi.

Artıq zaman yeni hökmlərini diktə etməkdə, bu sırada isə Sovetlər birliyinin yaxınlaşan süqutu görünməkdə idi. Bu, Türkiyənin Balkanlarda, Qara dəniz–Xəzər dənizi–Mərkəzi Asiya regionunda geostrateji rolunu gücləndirməkdə idi. Bir sıra siyasətçilər yeni münasibətlərdə Türkiyənin rolunu Qara dəniz regionunu sabitləşdirməkdə, oradan Aralıq dənizinə çıxışa nəzarət etməkdə, Rusiyanın Qafqazda rolunu tarazlaşdırmaqda və NATO-nun Cənub qanadına xidmət etməkdə görürdü [492]. Təbii ki, mətbuatın bu məsələlərə davamlı diqqət ayırması da gündəmin önəmli mövzularından idi.

Çox sonralar eks-prezident Ayaz Mütəllibov Türkiyəyə ilk səfərini xatırlayaraq deyirdi: *“Bəxtiyar da (Bəxtiyar Vahabzadə ) məni müşayiət edən böyük nümayəndə heyətinin tərkibində idi. Bizim heyətin hərarətlə qarşılanmasından təsirlənən şair dedi: "Kaş biz öz müstəqil dövlətimizi təmsil edəydik". Cavab verdim ki, darıxma, gün gələr, bunu da görərik! O vaxt mən Nazirlər Kabinetinin sədri idim”* [145].

Amma Azərbaycana, eləcə də SSRİ tərkibində olan digər türk respublikalarına, onların gələcək müqəddəratlarında dəstəyin gözləniləndən aşağı səviyyədə olması da diqqəti cəlb edirdi. Bu, əslində, Türkiyədəki millətçilərin önəmli mövqeyi olsa da, Turqut Özal Türkiyəsi daha çox iqtisadi, ticari və mədəni əlaqələrin qurulmasına, dövlətlərarası münasibətlərin bu yöndə inkişaf etdirilməsinə çalışırdı. Burada, təbii ki, NATO üzvü olan bir dövlətin başqa istiqamətdə siyasət aparmasını gözləmək də reallıqlara sığası fakt deyildi. Amma maraqlıdır ki, geniş xalq kütlələri bu dəstəyi ummaqda idi. Bütün bu reallıqları xarakterizə etməyə çalışan tədqiqatçı Fərqanə Hüseynova Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektlərinin tədqiqinə həsr etdiyi monoqrafiyasında yazırdı: *“Müstəqilliyin bərpasından sonrakı illərdə Azərbaycanın dil, mənəvi, tarixi, mədəni və siyasi cəhətdən sıx tellərlə bağlı olduğu türk dövlətləri ilə hər hansı formada yaxınlaşmaq cəhdi onun xarici siyasətinin dini, etnik təəssübkeşlik prinsipləri əsasında həyata keçirilməsi və bu əməkdaşlığın “pantürkizm”ə, “panturanizm”ə meyilli olması haqqında ittihamlarla müşayiət olunurdu. Bununla belə, ümumilikdə XX əsrin 90-cı illəri təkcə Azərbaycan üçün deyil, bütünlükdə türk dünyası üçün əlamətdar hesab edilə bilər”* [228, s. 67].

Təbii ki, burada milli-tarixi bağlılığın və qardaşlıq çağırışlarının rolu danılmaz olduğu kimi, təsiri də qaçılmaz idi. Hətta Azərbaycana vaxtilə – XX əsrin əvvəllərində edilən hərbi kömək, Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun tarixi xilaskarlıq missiyası 80-ci illərin sonunda və 90-cı illərdə uşaqdan-böyüyədək, az qala, hər kəsin danışdığı və qardaş Türkiyədən umduğu böyük köməyin bir nömrəli mövzusu idi. Amma xalqdan uzun illər gizlədilən və ya işğal tarixi kimi anladılan bu tarixin kökündə nələrin dayandığını bəzi siyasətçi və

tarixçilərdən başqa dərindən bilən yox idi. Ona görə ki, sovet təbliğat sistemi Azərbaycan–Türkiyə münasibətlərinin bütün tərəflərini “ustalıqla” təhrif etmiş, bu sahədə bütün imkanlardan bəhrələnmişlər. Hətta erməni-bolşevik basqıları önündə qırğınlara məruz qalıb, az qala bir millət kimi varlığını itirmək təhlükəsi ilə üzləşəndə Azərbaycan türklərinin çağırışı ilə köməyə gələn Osmanlı ordusu və Azərbaycan könüllülərinin yaratdığı İslam Ordusu işğalçı və təcavüzkar kimi dəyərləndirilmiş, bu iftiralara etiraz edənlər isə repressiya qurbanları olmuşlar.

Milli dirçəlişin yenidən oyandığı bir vaxtda Azərbaycan Respublikası 1991-ci ilin avqustunda dövlət müstəqilliyini elan edir. Amma oktyabrın 18-də tanınan, yeri gəlmişkən qeyd edək ki, ilk dəfə məhz Türkiyə tərəfindən tanınan bu müstəqillik Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmuş, beynəlxalq imic qazanmış və suverenliyini qorumağa qadir bir dövlət olduğunu dünyaya göstərə bilmişdi. Müstəqilliyinin ilk günlərindən Azərbaycanın xarici siyasət xəttində Türkiyə və türkdilli ölkələrlə əməkdaşlığın qurulması xüsusi diqqətdə olmuş, bu tendensiya bu gün də uğurla davam etdirilməkdədir. Müstəqilliyin ilk illəri istər Azərbaycan tərəfdə hakimiyyətdə olanların mövqeyi baxımından, istərsə Türkiyə tərəfdən bir sıra amilləri ilə diqqəti cəlb edir. Burada iki dövlətin müəyyən tələblərə “riayət etməsi” bəzi ziddiyyətləri ortaya qoysa da, ümumilikdə xalqların qardaşlığına təsir edəcək dərəcədə güclü ola bilməmişdir.

Şübhəsiz ki, cəmiyyətin ictimai-siyasi həyatında baş verən qabarma və çəkilmələr milli mətbuatımızın diqqətində olmaqla, onların dövriliyinə, məzmun və ideya qayəsinə də təsirsiz ötüşməmişdir. Tədqiqat obyektimiz olan “Kommunist” qəzetinin tarixinə nəzər salanda da bunları rahatca görürük. 1919-cu ildən fəaliyyətə başlayan qəzet 1991-ci ilin 24 avqustunadək “Kommunist” adı ilə çıxmışdır. 1990-cı il noyabrın 29-na kimi Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı, 1990-cı il dekabrın 1-dən 1991-ci il avqustun 28-dək Azərbaycan KP MK-nın mətbu orqanı olmuşdur.

1991-ci il avqustun 28-dən “Xalq qəzeti” adı ilə nəşr olunmaqdadır. Qəzet 1991-ci il avqustun 29-dan həmin il sentyabrın 14-dək Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təsisçiliyi ilə gündəlik ictimai-siyasi qəzet kimi,

1991-ci il sentyabrın 17-dən 1992-ci il mayın 28-dək Azərbaycan Respublikası Prezidenti Aparatının və "Xalq qəzeti"nin jurnalist kollektivinin təsisçiliyi ilə Azərbaycan Respublikasının gündəlik ictimai-siyasi qəzeti kimi nəşr olunmuşdur. 1992-ci il mayın 30-dan redaksiyanın jurnalist kollektivinin təsisçiliyi ilə müstəqil ictimai-siyasi qəzet kimi nəşr olunmuşdur. 1994-cü ildən Azərbaycan Respublikası Prezidenti Aparatı İşlər İdarəsinin və "Xalq qəzeti" redaksiyasının jurnalist kollektivinin təsisçiliyi ilə ictimai-siyasi qəzet olaraq gündəlik nəşr edilir.

Uzun illər boyu Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Nazirlər Sovetinin mətbu orqanı kimi nəşr edilmiş "Kommunist" xalqımızın həm böyük uğurlarla, həm də hədsiz çətinliklər və faciələrlə müşayiət edilən həyat yolunun güzgüsü olmuşdur. Keçən əsrin 20-30-cu illərinin gərgin ictimai-siyasi mühiti, SSRİ xalqlarının tarixinə repressiya və heç bir haqqı olmayan qırğınların tarixi kimi – 37 rəqəmi ilə daxil olmuş dövrün haqsızlıqları, Böyük Vətən müharibəsi və faşizm üzərində qələbə, qələbədən sonrakı bərpa və quruculuq işləri, 70-ci illərdə iqtisadiyyat və mədəniyyət sahəsindəki uğurlar, respublikamızın tərəqqisi ilə bağlı hadisələr, sonrakı ziddiyyətli zaman kəsiyində baş verənlər bu qəzetin səhifələrində geniş əks olunmuşdur.

Daha önəmli bir məsələ Ulu Öndərin mətbuata, eləcə də "Kommunist" – "Xalq qəzeti"nə verdiyi dəyərlə əlaqədardır. "Kommunist"in ilk nömrəsinin çapdan çıxmasının 75 illiyi ilə əlaqədar Heydər Əliyevin "Xalq qəzeti" redaksiyasının kollektivinə ünvanladığı məktubunda deyilirdi: *"Xalq qəzeti" mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət "Kommunist" adı ilə nəşr edilən bu qəzet bütün Sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur"* [232]. "Xalq qəzeti"nin ("Kommunist" ) baş redaktoru, professor Tofiq Rüstəmov bu tarixi günlə bağlı yazırdı: *"Həmin dövrlərdə qəzet kommunist ideologiyasının təbliğatçısı olmuş, kommunist partiyalılığı mövqelərindən çıxış etmişdir. Bununla yanaşı, bütövlükdə Azərbaycan mədəniyyətinin, xüsusilə xalq maarifinin, ədəbiyyat və incəsənətimizin, milli ədəbi dilimizin inkişafında "Kommunist"in xidməti inkar edilə bilməz"* [347].

Azərbaycanın ikinci müstəqilliyinə qovuşduğu ərəfədə, xüsusən də keçən əsrin 90-cı illərində respublika mətbuatında Türkiyə mövzusu gündəlikdə duran önəmli mövzulardan olmuşdur. Ən önəmlisi, bu materiallar redaksiyaya Moskvadan gəlmirdi. Bu fakt özü də qəzet materiallarını rəsmi çərçivədən çıxarmış, jurnalist sənətkarlığı baxımından da zəngin bir spektr yaratmışdır. Əgər vaxtı ilə qəzet səhifələrində Türkiyə haqqında olan məqalə və təqdimatlar ancaq rəsmi materiallar idisə, artıq bu ənənə qırılmışdı, müəllif yazılarının, zarisovka, reportaj, müsahibə kimi janırların yer aldığının şahidi oluruq. Türkiyə haqqında dərc edilən rəsmi xəbərlərdə belə tarixlərdən qaynaqlanan dostluq, qardaşlıq ənənələrinin təqdimatı, demək olar ki, bütün yazılarda yer almaqda idi. Bu yazılarda milli ruha, kökə bağlılıq özünü daha bariz şəkildə göstərirdi.

Respublikanın baş mətbuat orqanı olan “Kommunist” qəzetində müstəqillik ərəfəsində (1990-1991) Türkiyə və türk dünyası haqqında onlarca material dərc edilmiş, ictimaiyyətin türk dünyasına olan sevgisi açıq mövzuya çevrilmişdi. Xatırlatmaq yerinə düşər ki, 1990-cı ilin iyul-dekabr saylarında bu mövzuda 30-dan çox rəsmi, qeyri-rəsmi xəbər və müxtəlif janrlı yazılar dərc edilmişdir. Aradan keçən illər bu əlaqələri daha da zəruri etmiş və bu gün də mətbuatda Azərbaycan–Türkiyə mövzusu aktuallığı ilə seçilən və diqqət mərkəzində olan bir nömrəli mövzu kimi ən önəmli yeri tutmaqdadır.

## 2.2. Müstəqilliyin ilk illərində Azərbaycan mətbuatında Türkiyə mövzusu

Atatürk irsinə sahiblik edən və bu tarixi irsə sadiq olan Türkiyə Respublikası Sovet İttifaqının dağılmasından sonra yeni dünyadakı yerini NATO dövlətləri sırasında tədricən itirməkdə idi. Yeni reallıqlar həm Türkiyə, həm də türk dövlətləri üçün yeni mövqe açmış və bu siyasi dairələrin də diqqətindən yayınmamışdı. *“Türkiyə beynəlxalq aləmdə strateji dəyərini yenidən artırmaq üçün müstəqilliyini yeni qazanmış ölkələrdə ortaq mənəvi dəyərlərini də istifadə edərək təsirini artırmalı idi”* [94, s.110]. Türkiyəli professor Kamran İnan yeniləşən dünyada Türkiyənin missiyasını bu cür dəyərləndirirdi: *“Önümüzdə*

*Adriatik dənizindən Orta Asiyayadək uzanan bir sahə açılıb. Türkiyə xaricdəki 70 milyon insanın taleyinə cavabdeh olan bir qüvvə halına gəlib. Əski Sovetlər birliyindən boşalan siyasi tarazlıq rolu bizi gözləyir"* [482, s.36]. Eyni zamanda, *"XX əsrin 90-cı illərinə qədər türk dünyasını beynəlxalq aləmdə təkcə Türkiyə Respublikası təmsil edirdi. 90-cı illərin başlanğıcında SSRİ-nin dağılması nəticəsində beş türk dövlətinin – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın müstəqillik qazanması ilə türk dünyasında gözəçarpacaq bir canlanma başlandı. Bu qarşılıqlı yaxınlaşma dünyada və xüsusən də Avropada gedən inteqrasiya ilə üst-üstə düşür və türk xalqlarının həyati mənafeyindən doğduğuna görə daha çox aktuallıq kəsb edirdi"* [228, s.43].

İkinci müstəqilliyini qazanmış Azərbaycan üçün də dünyaya inteqrasiyada Türkiyə ən önəmli dövlət idi. Müstəqillik qazanılandan sonra Türkiyəyə ilk rəsmi səfər Ayaz Mütəllibov dövründə, 1992-ci ilin yanvar ayında baş tutdu. Bu səfərdən əvvəl, yanvarın 14-də Azərbaycan prezidenti Ayaz Mütəllibov Türkiyə Xarici İşlər Nazirliyinin departament rəhbəri Bilal Şimşir başda olmaqla Türkiyə XİN-in nümayəndələrini qəbul etmişdi. Bu görüşdən məlumat dərc edən "Xalq qəzeti" Azərbaycan prezidentinin Türkiyəyə qarşıdakı səfərinin perspektivlərinə toxunaraq "Azərbaycan–Türkiyə. Diplomatik əlaqələr bərpa edildi" adlı birinci səhifədə dərc etdiyi məqaləsində yazırdı: *"Bu səfərin əsas xüsusiyyəti ondan ibarət olacaq ki, Türkiyə ilk dəfə müstəqil Azərbaycanın başçısını rəsmən qəbul edəcəkdir"* [92]. Yanvarın 21-də Moskvada rəsmi səfərdə olan Türkiyənin xarici işlər naziri Hikmət Çətin SİTA-nın müxbirinə bildirmişdi: *"Xalqımız, prezidentimiz və hökumətimiz prezident Ayaz Mütəllibovu səbirsizliklə gözləyirlər. Müstəqil Azərbaycanın başçısını onun ikinci doğma evində səbirsizliklə qəbul etməyə hazırıq"* [130].

Azərbaycandan Türkiyəyə ilk rəsmi səfər Ayaz Mütəllibov dövründə, 1992-ci il yanvarın 23-də baş tutdu. "Xalq qəzeti" səfər haqqında xəbərinə bu cür başlayırdı: *"Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti A.N.Mütəllibovun Türkiyə Respublikasına dövlət səfəri başlanır. Bu, Azərbaycan istiqlaliyyətinin elan edilməsindən sonra yüksək səviyyədə ilk Azərbaycan–Türkiyə görüşüdür"* [85].

Qəzetin bu mövzuda dərc etdiyi sonrakı xəbərlərdə Azərbaycan prezidenti A.N.Mütəllibovu Ankarada Esenboğa hava limanında Türkiyə prezidenti Turqut Özal, parlamentin sədri Hüsaməddin Cindoruq, xarici işlər naziri Hikmət Çətin, Türkiyə Silahlı Qüvvələri Baş Qərargah rəisi Doğan Güreş, dövlət naziri Şərif Ercan, Rusiya Federasiyasının səfiri Albert Çernışev və digər rəsmi şəxslərin qarşıladığı bildirilir. Qarşılama mərasimində Turqut Özalın *"Azərbaycanın dövlət istiqlaliyyətini birinci tanımış ölkə kimi Türkiyə qardaş ölkə ilə əlaqələrin genişlənməsinə böyük əhəmiyyət verir"* [85] sözlərinə Azərbaycan prezidenti Ayaz Mütəllibov *"Ümidvaram ki, Azərbaycanda böyük maraq göstərilən bu səfər Türkiyə ilə münasibətlərimizin uzun illər üçün möhkəm təməlini qoyacaqdır. Azərbaycanla hələ 1918-ci ildə mövcud olmuş diplomatik münasibətlərini birinci olaraq bərpa etmiş ölkənizə gəldiyimə görə özümü xoşbəxt hiss edirəm"* [85] cavabını vermişdir.

Azərbaycanın dövlət başçısının Türkiyəyə rəsmi səfəri elə ilk gündən dünya mətbuatının da gündəmində olmuşdur. "Frans Press" agentliyinin Ankaradan yaydığı xəbərdə deyilirdi: *"Bu səfər Azərbaycan ilə Türkiyə arasında yeni era olacaqdır"* [57]. "Frans Press" məlumatında səfərin gedişində Dağlıq Qarabağ probleminin müzakirə ediləcəyini də istisna etmirdi.

"Anadolu" agentliyi və digər xarici mətbuat orqanlarının səfər haqqında məlumatlarında *"Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalanacağı gözlənilir"* [50] kimi xəbərlər daha çox diqqət çəkir. Eyni zamanda, o da diqqətə çatdırılır ki, A.N.Mütəllibov Türkiyəyə ikinci dəfədir gedir. *"Onun qonşu ölkəyə 1990-cı ilin yanvarında baş nazir kimi birinci səfəri Azərbaycan rəhbərliyinin Ankara ilə müstəqil rəsmi əlaqələrinin başlanğıcını qoymuşdur"* [351] kimi ifadələrlə şərh edilir.

"Xalq qəzeti" sonrakı saylarında da "Azərbaycan prezidentinin Türkiyəyə səfəri davam edir" [77] başlığı ilə RİTA və "Azərinform"un Ankaradan səfər haqqında məlumatlarını dərc etmişdir. Bu məlumatlarda Azərbaycan prezidentinin Türkiyə prezidenti Turqut Özal və baş nazir Süleyman Dəmirəllə görüşləri, Türkiyə ilə Azərbaycan arasında imzalanacaq saziş haqqında məlumatlar yer alır.

“Azərbaycan–Türkiyə: münasibətlər tarixində yeni səhifə” [96] adlı məqalədə Azərbaycan və Türkiyə arasında dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə prezident A.Mütəllibovun Türkiyəyə rəsmi səfərinin əsas məqsədi və iki günlük danışıqların uğuru kimi dəyərləndirilir. Yanvarın 24-də günortadan sonra “Çankaya köşkü” iqamətgahında Azərbaycan tərəfdən Azərbaycan prezidenti Ayaz Mütəllibovun, Türkiyə tərəfdən Türkiyə prezidenti Turqut Özalın müqaviləni imzalaması günün mühüm hadisəsi və ikitərəfli münasibətlərdə yeni səhifə adlandırılır. Məqalədə o da bildirilir ki, görkəmli siyasi və ictimai xadim, ADR-in ilk rəhbəri olmuş M.Ə.Rəsulzadənin məzarını ziyarət Azərbaycan nümayəndə heyətinin üzvləri üçün təsirli və həyəcanlı olmuşdur.

Səfərin yekunlarına həsr edilmiş xarici və ölkə jurnalistləri üçün mətbuat konfransında prezident A.Mütəllibov bildirmişdir: *“Türkiyəyə səfər və yüksək səviyyədə görüş Azərbaycan üçün böyük siyasi əhəmiyyətə malikdir: respublika ilk dəfə müstəqil dövlət statusunda çıxış edirdi. Çox mühümdür ki, Azərbaycan Respublikasının rəhbəri yeni keyfiyyətdə ilk olaraq Türkiyəyə səfər etmişdir”* [30].

Səfər dövlətlərarası münasibətlərdə yeni mərhələ olsa da, bir sıra dairələrdə ciddi narahatlıqla qarşılanmışdı. Hətta “Xalq qəzeti”nin 7 fevral 1992-ci il sayında dərc edilmiş “A.Mütəllibov: Heç bir gizli niyyətimiz yoxdur: biz dünyəvi dövlət qururuq” adlı “Literaturnaya qazeta”ya verdiyi müsahibədə [199] müxbirin “Son vaxtlar qonşu müsəlman dövlətləri ilə fəal yaxınlaşma prosesi gedir. Azərbaycan İslam Konfransı Təşkilatının üzvü oldu. Bu, Azərbaycan Respublikasının geosiyasi istiqamətinin dəyişdirilməsi, həmin addımların MDB haqqında sizin imzaladığınız sazişin ziddinə olduğu demək deyilmi?” sualı bu qısqanclıqları diqqətə çatdıran faktın təsdiqi deyilmi?! Əslində, bunun acı fəlakətləri özünü çox gözlətmədi: 26 fevral 1992-ci ildə erməni silahlıları ilə Rusiyanın 366-cı alayı Xocalı qətliamını törətdi, 613 silahsız insan vəhşicəsinə öldürüldü, 1275 insan isə əsir alındı. Yaxın tariximizin ən qanlı və amansız faciələrindən olan bu hadisə Xocalını və burada yaşayan mülki əhalini qoruya bilməyən Ayaz Mütəllibov hakimiyyətinə qarşı xalqı ayağa qaldırdı və onun istefasına səbəb oldu.

Ayaz Mütəllibovdan sonra hakimiyyətə gələn Əbülfəz Elçibəy də xaricə ilk rəsmi səfərini Türkiyəyə etmişdir: Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) İstanbulda keçirilən toplantısında iştirak etmək üçün. Ə.Elçibəy QDİƏT-in İstanbul toplantısından sonra, 26-27 iyun 1992-ci il tarixlərində Ankarada işgüzar görüşlər keçirmişdir. "Xalq qəzeti"nin 25 iyun sayında yaydığı rəsmi məlumatda Azərbaycan prezidenti Elçibəyin başçılıq etdiyi nümayəndə heyətinin Qara dəniz ölkələri dövlət və hökumət başçılarının iyunun 25-də İstanbulda açılacaq görüşdə iştirak üçün Türkiyəyə yola düşdüyü məlumatı verilir [52]. Qəzetin həmin sayında digər bir məqalədə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasının perspektivlərindən danışılır. Məqalədə İstanbulda toplaşan Türkiyə, Yunanıstan, Gürcüstan, Bolqarıstan, Ukrayna, Rumıniya və Qara dəniz sahili dövlətləri rəhbərlərinin görüşünün əhəmiyyəti vurğulanır [253].

Qəzetin sonrakı sayında "Komsomolskaya pravda"dan götürülmüş bir yazı da diqqəti cəlb edir: "Türk marşı"nda birinci skripka kimdir?" [460]. Məzmunu bir yana, bu məqalənin adında belə çığıran bir hədə "gözə girir". Yazıda Türkiyənin təşəbbüsü ilə baş tutan Qara dəniz hövzəsinin dostluq və qardaşlıq hövzəsinə çevrilməsi təşəbbüsündən söhbət getsə belə, müxbir Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasını bu cür dəyərləndirir: *"İstanbul görüşü Türkiyənin bölgədə həm iqtisadi, həm də siyasi baxımdan liderliyini qanuniləşdirir. Daha qüdrətli Rusiya və Ukrayna öz daxili problemləri ilə məşğul olduqları bir vaxtda Türkiyə fürsəti fövtə vermir. Artıq Ankaranı Şərqlə Qərb arasında körpü rolu təmin etmir".* Məqalədə həm də bildirilir: *"Həlalik Qara dənizi əhatə edən ölkələr, təəssüf ki, əməkdaşlıqdan çox düşmənçilik edirlər. Görüşün bir əhəmiyyəti də budur ki, münaqişəyə cəlb olunmuş dövlətlərin rəhbərləri İstanbulda görüşüb söhbət edə biləcəklər... Yunanıstan və Türkiyə, Azərbaycan və Ermənistan da öz məsələlərini müzakirə edəcəklər"* [460].

Qəzetdə prezident Əbülfəz Elçibəyin Türkiyənin baş naziri S.Dəmirəllə [53] və Qara dəniz hövzəsi ölkələrinin yüksək səviyyədə keçirilən görüşü haqqında məlumat da yer alır [286]. Elçibəyin S.Dəmirəllə görüşündə maraqlı bir məqama da toxunulur: *"Tərəflər bütün sahələrdə ikitərəfli münasibətləri inkişaf etdirmək və*

*genişləndirmək barədə razılığa gəlmişlər. Azərbaycanda demokratik qüvvələrin qələbəsindən sonra əməkdaşlıq üçün hər cür şərait yaradılmışdır"* [53].

Azərbaycan prezidenti Əbülfəz Elçibəyin səfərinin ətraflı xronikası və onun Türkiyə haqqında təəssüratları "Anadolu torpağında görüşlər" adlı baş məqalədə daha geniş təqdim olunur. Türkiyə və xarici jurnalistlərə müsahibə verən Əbülfəz Elçibəy deyir: *"Mən Anadolu torpağına ilk dəfədir gəlirəm. Bir çox görkəmli dövlət və din xadimlərinin, Mustafa Kamal Atatürkün, Məmməd Əmin Rəsulzadənin, Zəki Toqanın, Adam Mitçkeviçin və azadlıq uğrunda digər mübarizlərin uyuduğu Anadolu torpağı müqəddəsdir"* [21]. Məqalədə bildirilir ki, Qara dəniz hövzəsində iqtisadi əməkdaşlığın iştirakçısı olan Azərbaycan bu məsələyə ciddi önəm verir. Bəyannamənin imzalanması mərasimində çıxış edən Ə.Elçibəy Türkiyənin təşəbbüsünü yüksək qiymətləndirərək, *"əməkdaşlığın inkişafı bölgədə siyasi sabitliyi təmin etməyə xidmət göstərməlidir"* [21] demişdir. Qəzet yazır ki, Ə.Elçibəyin Türkiyə səfərinin proqramı çox zəngin olmuşdur. *"Görüşlər, söhbətlər, gediş-gəliş bəzən səhər tezdən başlayıb axşamdan xeyli keçənə kimi davam edirdi. Məsələn, Ə.Elçibəyin S.Dəmirəllə ikinci görüşü iyunun 26-da gecə yarısına yaxın başlandı və təkbətək keçirildi"* [21].

Azərbaycanın dövlət başçısının TBMM-də çıxışı da böyük maraqla qarşılandı. Deputatlar Azərbaycan prezidentini səmimi qarşıladılar. Onun çıxışı dəfələrlə alqışlara səbəb oldu. *"Təkcə ona görə yox ki, hörmətli qonaq tərcüməçisiz danışırdı.Ə.Elçibəy türk dünyasının,türkdilli xalqların keçirdiyi tarixi proseslərdən danışaraq dedi: Biz elə bir cəmiyyət qurmaq istəyirik ki, Türkiyə bizim üçün istiqamət rolunu oynayır. Bizim əsas yolumuz Mustafa Kamal yoludur"* [21].

Azərbaycanın dövlət başçısı Əbülfəz Elçibəyin Türkiyəyə növbəti səfəri 1992-ci ilin 28 oktyabr – 5 noyabrında reallaşmışdır. Türkiyəyə 9 günlük səfər haqqında məlumat verən "Xalq qəzeti" bildirir: *"Səfər zamanı Türkiyə ilə Azərbaycan arasında əlaqələrin inkişafına dair bir sıra mühüm sənədlər imzalanacaqdır. Bunların sırasında sənaye, ticarət, təhsil, maliyyə, nəqliyyat, səhiyyə, rabitə və digər sahələrdə əməkdaşlığa dair sənədlər vardır"* [54]. "Ankara Azərbaycan prezidentini qarşılayır" [24] qəzetin baş xəbəri kimi 1-ci səhifədə

təqdim edilir. Binə aeroportunda Əbülfəz Elçibəy "Azərinforum"un müxbirinə səfərin məqsədini açıqlamışdır: *"Çoxdan nəzərdə tutulan bu səfərə qədər Azərbaycan dövlətinin rəhbərləri müxtəlif səpkilərdə xeyli görüş keçiriblər. Səfər zamanı iqtisadi və siyasi mövzularda 20-yə yaxın sənəd imzalanacaqdır. Əsasən iqtisadi, ticarət məsələlərinə üstünlük veriləcəkdir. Yeri gəlsə, Türkiyə ilə gələcəkdə hərbi münasibətlər qurmaq barədə də danışıqlar aparacağıq"* [24].

Qəzetin "Qardaş xalqların əməkdaşlığı inkişafa xidmət edir" [270] yazısında prezidentin keçirdiyi görüşlər və danışıqlar haqqında məlumatlar verilməklə, bir sıra dövlət adamlarından alınan müsahibələr, səfər haqqında fikirlər Azərbaycan prezidentinin Türkiyə səfərinin məqsədini anlamağa kömək edir. Bəzi anlar həyəcanı ilə diqqətdən yayınmır: "ADR-in banisi Rəsulzadə Türkiyədə vəfat edərkən onun tabutu üzərinə sərilmiş bayraq Azərbaycan prezidentinə təqdim olunur. Uşaqlar gül-çiçək dəstələri təqdim edirlər. Əbülfəz Elçibəy, Turqut Özal, Süleyman Dəmirəl və başqa rəsmi şəxslər mərasim iştirakçılarını salamlayırlar. Əbülfəz Elçibəy üzərində səkkizguşəli ulduz və aypara təsviri olan bayrağı yuxarı qaldırır, Dövlət Himni çalınır. Əbülfəz Elçibəy mərasimdə çıxış edir. Prezident deyir: *"Bugünkü hadisə dövlətlərimiz arasında münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcını qoyur"* [270].

Türkiyə səfərindən sonra Ə.Elçibəy səfərin yekunları ilə əlaqədar mətbuat konfransı keçirmiş, səfərin 8 gün davam etməsini *"...avqust ayından bəri Türkiyəyə Azərbaycan nümayəndə heyətinin bir neçə səfəri olmalı idi, bunların bəzilərini təxirə salmışdıq. Ona görə də böyük heyət ilə yola düşdük"* [148] deyə bildirmişdir. Oktyabrın 29-da Türkiyənin Cümhuriyyət bayramında iştirak etdiklərini bildirən prezident, səfərin ikinci hissəsinin türk dövlət rəhbərlərinin yığıncağına həsr olunduğunu söyləmişdir. Bunları böyük uğur adlandıran prezident onu da demişdir ki, *"türk dövlətləri arasında belə yaxınlaşma prosesini ehtiyatla aparmaq lazımdır. Digər dövlətlərin mənafelərinə toxunmaq olmaz. Bu, qorxu yox, siyasi etikadır"* [148]. Hətta Qarabağ məsələsindən danışan prezident *"Qarabağ məsələsinin müzakirəsi məsələsini N.Nazarbayev irəli sürmüşdü. Mən razılaşmadım. Belə çıxardı ki, müsəlman-türk dövlətləri yığışıb dindaşlarını*

*müdafiə edirlər. Hərçənd, Qarabağ münaqişəsi barədə fikir mübadiləsi oldu*” deyərək fikrini yekunlaşdırmışdı [148].

Səfər çərçivəsində noyabrın 2-də Ankarada Azərbaycan Respublikasının səfirliyi açılmış, iki ölkə arasında əməkdaşlıq və həmrəylik, həmçinin ticarət, nəqliyyat və cinayətkarların təhvil verilməsi haqqında müqavilələr imzalanmışdır. Bu müqavilələrin hər birinin ölkələrimizin əlaqələrində böyük əhəmiyyəti olmuşdur, amma siyasətçilər mahiyyət etibarilə “Əməkdaşlıq və həmrəylik haqqında müqavilə”yə daha ciddi önəm vermişlər.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan planlı sosialist təsərrüfat sistemindən imtina edərək azad bazar iqtisadiyyatı yolunu seçdi. Bu yol ölkənin daxili sosial-iqtisadi həyatının yenidən qurulmasını tələb etdiyi kimi, həm də xarici siyasət kursunda yenilənmələri qarşıya qoydu. 1992-ci il yanvarın 13-də “Azərbaycan Respublikasında xarici investisiya haqqında”, yanvarın 15-də isə “Xarici investisiyanın qorunması haqqında” qanunun qəbul olunması və mətbuatda dərc olunduğu gündən qüvvəyə minməsi bu sahədə atılan ilkin addımlar idi. 1992-ci il iyunun 15-də Azərbaycanda xarici iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimlənməsini təkmilləşdirmək tədbirləri haqqında ölkə prezidenti fərman verdi. Fərmana əsasən, taxıl məhsulları satın almaq üçün xüsusi valyuta fondu və respublika iqtisadiyyatını sabitləşdirmə fondunun bazasında Azərbaycan Respublikasının vahid valyuta fondu yaradıldı.

Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının qurucularından biri olması ölkənin sosial-iqtisadi həyatının yenidən qurulmasında növbəti uğurlu addım idi. Beynəlxalq iqtisadi-maliyyə qurumları ilə əməkdaşlıq etməyə başlayan ölkə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv oldu, daha sonra Dünya Bank Qrupu və Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı kimi maliyyə qurumları ilə əməkdaşlıq çərçivəsində işbirliyi layihələri ortaya qoyuldu. Qeyd edilməlidir ki, bu mərhələdə Azərbaycanın xarici siyasətinin ən vacib istiqamətlərindən birini enerji siyasəti təşkil etmişdir. Şübhəsiz ki, burada Azərbaycanın enerji ehtiyatlarının hasilatı bir fakt idisə, bu ehtiyatların beynəlxalq bazarlara çıxarılması yollarının tapılması

daha böyük siyasi və iqtisadi əhəmiyyətə malik məsələlərdən idi. Digər tərəfdən, Azərbaycanın müstəqilliyini əldə etməsi və birinci Türkiyə olmaqla, dünyanın bir neçə dövləti tərəfindən tanınması dünyanın, ən önəmlisi də qonşuların qəbul etmək istəmədiyi həqiqətlər idi. Hətta açıq desək, Türkiyənin Azərbaycanın müstəqilliyini tanımasına təsir edən bir fakt "Rusiya ilə münasibətlərin korlana biləcəyini" gündəmə gətirirdisə, digər fakt o idi ki, Qərb dövlətləri, xüsusən də *"ABŞ Türkiyənin Azərbaycanın müstəqilliyini tanımasına qarşı çıxırdı"* [486, s.264]. Enerji siyasətinin reallaşmasına Ermənistanın təcavüzkar siyasəti və müharibə imkan vermirdi. Başqa bir fakt isə Xəzərin beynəlxalq statusunun müəyyən edilməməsi ilə bağlı idi.

O dövr Azərbaycanın xarici siyasətinin əks olunduğu mənbələrə və "Xalq qəzeti"nin 1991-ci ilin sonlarında dərc etdiyi rəsmi materiallara nəzər yetirsək görərik ki, Ayaz Mütəllibov hakimiyyəti dövründə BP, "Statoyl", "Amoko", "Yunokal" və digər neft şirkətləri arasında ölkənin enerji sektoruna sərmayə qoyulması üçün görüşlər və müzakirələr olmuşdur. Amma birmənalı demək olar ki, bu görüşlərin nəticələri olmamışdır. Elçibəy iqtidarı dövründə də bu məsələlər gündəmdə olmuş, əvvəlki hakimiyyətdən fərqli olaraq, bir sıra işlər görülmüşdür. Bir sıra Qərb neft şirkətləri ilə "Azəri", "Çıraq", "Şahdağ" və "Günəşli" yataqlarında neft və qaz hasilatına dair müqavilələr imzalanmışdır. Danışıqların sonrakı mərhələsi qonşu İran və Rusiya tərəfindən ölkədə siyasi sabitlik pozulduğundan baş tutmamışdı.

Müstəqilliyin ilk illərinin siyasi xarakteristikasını verən siyasətçilər yazırdılar ki, *"bu dövrdə Azərbaycan xarici siyasətində ideologiyanın hakim olması səbəbindən ciddi tənqidlərə məruz qalmış və hətta bu səhv Azərbaycanın bir çox sahədə strateji itkiləri ilə nəticələnmişdir. Azərbaycanın həyata keçirdiyi ideoloji xarici siyasət kursu Turqut Özal dövründə Türkiyənin ideoloji əsaslardan uzaq praqmatik siyasəti ilə tərs mütənasib olmuşdur* [94, s.112]. Eyni zamanda, bu dövrdə Rusiyanın hərbi və İranın iqtisadi köməyi ilə Ermənistan təcavüzkar hücumu ilə yeni əraziləri işğal etdi. Surət Hüseynovun rəhbərliyi ilə Elçibəy hakimiyyətinə qarşı hərbi çevriliş cəhdi ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə

üz-üzə qoydu. *"1988-ci ildən başlayıb, 1993-cü ilin iyun ayınadək isə Azərbaycanın perspektivləri ilə bağlı ziddiyyətli mövqelər var idi. Ümumiyyətlə, söhbət dövlətin qalıb-qalmaması məsələsindən gedirdi. O zaman hakimiyyətdə olan qruplar emosional vətənpərvərlikdə, ola bilsin ki, nəyəsə qadir idilər, lakin mürəkkəb bir tarixi şəraitdə dövlətin müstəqilliyini və cəmiyyətin bütövlüyünü təmin etmək üçün bu keyfiyyət yetərli deyildi"* [295, s.19]. Bu cür olduqca böhranlı bir zamanda Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev Bakıya dəvət edildi. Onun əvvəlcə Azərbaycan parlamentinin sədri, daha sonra isə Azərbaycanın prezidenti seçilməsi ölkənin xilası oldu. "Xalq qəzeti"nin yazdığı kimi, *"Tarixi reallıqlar da göstərdi ki, müasir geosiyasi şəraitdə Azərbaycan beynəlxalq aləmlə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq, qarşılıqlı etimada əsaslanan əlaqələrə üstünlük verir və bu əlaqələri uğurla davam etdirir"* [297].

Təcavüzün hökm sürdüyü, strateji maraqların toqquşduğu, daxili sabitliyin olmadığı, ölkənin parçalandığı zamanda Heydər Əliyev hakimiyyətə gəldi və Ümummilli Lider 1993-2003-cü illərdə müstəqil Azərbaycanın yeni milli inkişaf strategiyasını yaratmaqla millətimizin adının və "imzasının imzalar içində" təsdiqinə müvəffəq oldu.

## 2.3. Ümummilli Lider Heydər Əliyevin dövlətçilik kursunda Azərbaycan–Türkiyə əlaqələri və onun mətbuatda təqdimatı haqqında

Keçən əsrin 90-cı illərində baş verən hadisələr, xüsusən də XX əsrin sonlarında baş verən ən böyük hadisə – SSRİ-nin dağılması Cənubi Qafqazı da böyük maraqların toqquşduğu məkana çevirdi. Azərbaycan da istisna təşkil etmədi, təcavüzün, zorakılığın və soyqırımının nə demək olduğunu gördü. *"Ölkə ərazisinin 20 faizi erməni təcavüzkarları tərəfindən işğal olundu ki, bu da Azərbaycanda bir milyon məcburi köçkünün və qaçqının yaranmasına gətirib çıxardı. Dünya birliyinin vəziyyəti beynəlxalq hüquq prinsipləri əsasında həll etmək səylərinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsi bütün postsovet məkanında ən mürəkkəb münaqişə olaraq qalır və Azərbaycanın milli faciəsidir"* [288, s.13]

Eyni zamanda, Azərbaycan cəmiyyətində də sabitliyi pozan çoxlu sayda amilin olduğu günün reallıqları idi. Bu dağıdıcı amillərin havadarları tərəfindən təcavüzkar iddialarla, "Böyük Ermənistan" xülyası ilə zəhərlənmiş Ermənistanın Azərbaycana təcavüzkarlığı elan olunmamış müharibəyə çevrilmişdi. Bir milyon insan yurd-yuvasından qovularaq qaçqın olmuş, Qanlı 20 Yanvar faciəsindən sonra əsrin Xocalı qətliamı, Bağanıs-Ayrım faciələri baş vermiş və dünya ictimaiyyətinin gözləri qarşısında bu təcavüz davam etməkdə idi. Dünyaya demokratiya dərsi keçən Qərbin böyük strateji maraqları fonunda bu terror hadisələri nəinki görünmür, hətta birmənalı olaraq olmamış kimi unudulurdu. Moldovada (Dnestryanı) və Gürcüstanda (Cənubi Osetiya və Abxaziya) baş verənlərdən beynəlxalq tribunalarda gur səslə danışanlar Azərbaycanın başına gətirilən faciələrdən danışmaq belə istəmirdilər. Eyni məzmunlu təcavüzkar hadisələrə fərqli reaksiya o demək idi ki, *"keçən əsrin 90-cı illərində Qərb dövlətlərini Azərbaycan torpaqlarının işğalından çox ölkəmizdəki enerji ehtiyatları və "milli azlıqlar məsələsi" maraqlandırırdı"* [295, s.49].

Azərbaycanın 90-cı illərdə sui-qəsd planlarına, dövlətçiliyə qarşı çıxışlara səhnə olmasında, təbii ki, bu kimi faktlar böyük önəm daşıyırdı. Belə bir ağır və böhranlı dövrdə hakimiyyətə gələn Heydər Əliyev dövlət quruculuğu prosesinə ictimai-siyasi sabitliyə nail olmaqdan başladı. Bunu dünyanın yeni siyasi gücünü yaradan dövlət başçıları və siyasət adamları da etiraf etməkdə idilər. Türkiyənin sabiq IX prezidenti Süleyman Dəmirəl, sabiq baş naziri Bülənd Ecevit, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, ABŞ-ın sabiq prezidenti Corc Buş, Bill Klinton, Rusiya prezidenti Vladimir Putin, Fransanın sabiq prezidenti Jak Şirak, BMT-nin sabiq baş katibi Butros-Butros Qali və onlarca dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimlər, məşhur yazıçılar onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirmiş, Heydər Əliyevi dünya siyasətində çox mühüm rol oynamış, ən başlıcası, öz xalqından istifadə etmək deyil, əksinə, öz xalqına xidmət etmək missiyasını layiqincə yerinə yetirən dahi insan, müdrik şəxsiyyət adlandırmışlar. Hətta düşmən olan ermənilər bunu etiraf etməyə məcbur olmuşdular. Çikaqo Universitetinin professoru, erməni əsilli

Ronald Süni 1997-ci ildə yazırdı: *“Heydər Əliyev dağılma ərəfəsində olan ölkədə böyük sabitlik və nizam-intizam yaratdığına görə hörmətə layiqdir”* [501].

Müasir Azərbaycanın müstəqillik yolundakı mübarizə tarixini araşdıran tədqiqatçıların etiraf və təsdiq etdikləri belə bir fakt var: *“Sosialist düşərgəsi dağıldığından yeni müstəqil ölkələr taleyin hökmü ilə güclülərin təsir sahəsinə atılmış müdafiəsiz məkanlara, yelkənsiz qayıqlara çevrilmişdi. Belə bir mürəkkəb vəziyyətdə Azərbaycanı müstəqil, suveren və demokratik dövlət quruculuğu kursuna çıxara biləcək böyük şəxsiyyətə ehtiyac var idi. Azərbaycan xalqı belə bir şəxsiyyəti yetişdirmişdi. Bu, Heydər Əlirza oğlu Əliyev idi!”* [295, s.12]. Heydər Əliyev hakimiyyətə gəlişi ilə *“Azərbaycan “G üçlüyü” (Geography, Geology, Geopolitics) ölkəsi”* [327, s.12] olaraq bütün Qafqazın və bölgənin aparıcı dövləti olduğunu təsdiq etdi.

Qafqaz Sovet İttifaqı dağılandan sonra dünyanın enerji maraqlarının və siyasətinin mərkəzində dayanmış bölgələrdən birincisi olmuşdu. *“Rusiya Federasiyası sərhədləri içində qalan Şimali Qafqaza baxış Türkiyə–Rusiya əlaqələri çərçivəsində qiymətləndirilərkən Cənubi Qafqazda üç yeni dövlətin ortaya çıxmasıyla bu ölkələrlə əlaqələr Qafqaz siyasətinin ana oxunu yaratmışdır”* [506, s.7]. XX əsrin 80-ci illərinin II yarısı – 90-cı illərinin əvvəllərində dünya sosialist sisteminin iflası, dünyanın siyasi xəritəsində yeni müstəqil dövlətlərin meydana çıxması, ABŞ-ın yeganə fövqəldövlət olaraq qalması ilə beynəlxalq aləmdə yeni dünya düzəni formalaşdı. Dünya dövlətləri özlərinin bundan sonrakı inkişaf yolları, prioritetlər və s. məsələləri yenidən nəzərdən keçirməyə başladılar. Tarixçi alim Əsmət Muxtarovanın yazdığı kimi, *“Belə bir şəraitdə müstəqilliyini yenidən bərpa etmiş Azərbaycan Respublikası da əvvəllər özü üçün prioritet olmayan bir sıra məsələlərlə üz-üzə qalmış oldu”* [309, s.35].

Təbii ki, bu sırada qonşu dövlətlərlə münasibətlərin qurulması və inkişafı önəmli yer daşımaqda idi və qardaş Türkiyənin strateji mövqeyi Ulu Öndər üçün olduqca önəmli olmuşdur. Azərbaycanın Türkiyə ilə əlaqələrinə xüsusi əhəmiyyət verən Ümummilli Lider dönə-dönə təkrarlayırdı: *“Azərbaycan... dünyanın bütün ölkələri ilə əməkdaşlıq arzusundadır. Lakin onu Türkiyə ilə xüsusi münasibətlər*

*bağlayır. Biz eyni kökdən boy atmışıq, ümumi cəhətlərimiz çoxdur. Biz iki ölkədə yaşayan bir xalqıq və öz birliyimizi möhkəmləndirməliyik"* [201, s.65]. Bu siyasi xətt müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin davamlı diplomatik kursu olmuş, siyasət və elm adamlarının da diqqətindən yayınmamışdır.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı isə bütün sahələrdə olduğu kimi, ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın inkişafında da yeni mərhələ olmuşdur. Bu mövqe, əslində, Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövründən diqqət mərkəzində idi. 1980-ci illərin axırlarında keçmiş Sovet İttifaqında gedən proseslər, ölkə rəhbərliyinin uğursuz "yenidənqurma" siyasəti, milli siyasət sahəsində buraxılan səhvlər bütün respublikalarda olduğu kimi, Azərbaycanda da ictimai-siyasi vəziyyəti kəskinləşdirməkdə idi. "1990-cı ilin 19-20 yanvar gecəsində "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə *"Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan" Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etmişdi"* [161].

"Xalq qəzeti"nə müsahibə verən AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli bildirir ki, *"Hadisələrin gedişi və Naxçıvana münasibət ancaq ümidsizlik yaradırdı. Naxçıvan o zamankı ittifaq və respublika rəhbərlərinin nəzərində arzuedilməz bir məkana çevrilmişdi. Belə bir məqamda dünya miqyaslı siyasətçi və tanınmış dövlət xadimi Heydər Əliyevin Naxçıvana dönüşü adi hadisə deyildi. Digər tərəfdən, o, vaxtilə yetişdirib partiya və sovet orqanlarında yüksək vəzifə kürsülərinə çəkdiyi "partiya-sovet xadimlərinin" laqeydliyi ilə üzləşmiş və siyasi təqiblərə, haqsız böhtanlara məruz qalmışdı* [161].

1990-cı il iyulun 22-də Heydər Əliyevin Naxçıvana gəlməsi ilə yeni bir siyasi dövr başladı və naxçıvanlılar da Heydər Əliyevin simasında xilaskarlarını tapdılar. *"Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətlər göstərmiş, ideyaları, zəkası, biliyi, idarəçilik təcrübəsi ilə bugünümüzə, sabahımıza bələdçilik edən Ümummilli Liderimiz Heydər Əliyevin siyasi fəaliyyətində 1990-1993-cü illər*

*Naxçıvan dövrü mühüm yer tutur"* [129, s.45]. Onun məqsədyönlü siyasəti Naxçıvanı erməni işğalından xilas etdi, əhalini aclıqdan qurtardı. *"Türkiyə Cümhuriyyəti tərəfindən Azərbaycanla Türkiyə arasında... Araz çayı üzərində körpü tikildi və 1992-ci il mayın 28-də rəsmi açılışı oldu"* [222, s.12].

Təbii ki, Heydər Əliyev haqqında yazılan onlarca yox, yüzlərcə məqalə və kitablarda, tədqiqat işlərində bu dövrün yeni tariximizdə həlledici bir mərhələ kimi təqdim olunması deyilənləri sübut edir. Naxçıvan MR Ali Məclisinin Sədri Vasif Talıbov Ulu Öndər Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi 1990-1993-cü illərin qısa xronikasını bu cür əsaslandırır: *"1990-cı ilin iyul ayında Ümummilli Lider Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanın ərazisini erməni işğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etmişdir. Həmin illərdə Ümummilli Liderimizin muxtar respublika parlamentində bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəliyə gətirərək, dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkarlıq siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir"* [313].

Heydər Əliyevin Naxçıvan Ali Məclisinə rəhbərliyi dövründə qonşu Türkiyə və İran İslam Respublikası ilə diplomatik münasibətlər quruldu. Sonralar da *"Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmişdir. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir"* [47]. Şübhəsiz ki, Heydər Əliyevin Naxçıvan dövrü siyasi fəaliyyətində Türkiyə Respublikası və o dövrdə Azərbaycan ilə münasibətlərin gərgin olduğu qonşu İran İslam Respublikası ilə diplomatik münasibətlərin qurulması önəmli yer daşıyırdı. Amma o da qeyd edilməlidir ki, *"...vaxtı ilə hər hansı bir xarici diplomatın, ictimaiyyət və mətbuat nümayəndəsinin yolunu-səmtini belə tanımadığı Naxçıvan bütün dünya informasiya mərkəzlərinin diqqətində dayanmışdı"* [157]. Müxtəlif vaxtlarda ABŞ-ın Bakıdakı səfiri R.Mayls Naxçıvanda səfərdə olmuş [352], Heydər Əliyevin Bill Klintona məktubu ilə

əlaqədar ayrılmış humanitar yardımın çatdırılması məsələləri müzakirə edilmişdir [13]. Yaxud 10 mart və 21 mart 1993-cü il tarixlərində İngiltərənin Azərbaycandakı səfiri Harold Fomstok [204] və Fransa səfiri Jan Perre [206] ilə görüşlərindən sonra Naxçıvana humanitar yardımların gətirilməsi reallaşmışdır. Bu kimi faktların sayını artırmaq da mümkündür, amma Türkiyə ilə Naxçıvan arasında Ulu Öndər tərəfindən qurulan və inkişaf etdirilən münasibətlərin yeri xüsusi və önəmli bir səviyyədə olmuşdur.

Blokada şəraitində yaşayan Naxçıvanı problemlər məngənəsindən xilas etmək, muxtar respublikanın həyati tələbatlarını ödəmək, hər şeydən əvvəl, nəqliyyat və kommunikasiya sisteminin qurulmasından asılı idi. Bu məsələ, birmənalı olaraq, qonşu Türkiyə və İran ilə yüksək münasibətlərin qurulmasına əsaslanırdı. Digər tərəfdən, istər kommunist, istərsə də cəbhə hakimiyyəti dönəmində Azərbaycan iqtidarı muxtar respublikaya kömək etmək əvəzinə onun rəhbərliyinə təzyiq göstərməyə çalışır, onun konstitusiya hüquqlarını pozmaq tədbirlərinə əl atırdılar. Blokadaya alınmış Naxçıvan isə ağır günlərini yaşamaqda idi. *"Yerimiz "Təbriz" mehmanxanasının 7-ci mərtəbəsində hazır idi. Mehmanxana direktorunun müavini, keçmiş tələbəm Cəlil Hacızadə bildirdi ki, lüks otağımız qonağa layiq deyil, həm də işığımız olmadığı üçün lift işləmir, ayaqla qalxmalı olacaqsınız. Qalxdıq. Binaya söz ola bilməz. Amma bu "lüks" otaqlarda televizordan tutmuş soyuducuya qədər hər şey olsa da, heç birinin faydası yox idi – stolun üstündəki axıracan yanmamış şam bunu izah edirdi"* [283]. Bu, professor Şamil Qurbanovun blokadada yaşayan, amma təslim olmayan Naxçıvan haqqında o vaxtlar "Xalq qəzeti"ndə təqdim edilən təəssüratları idi...

Muxtar respublikaya rəhbərlik etdiyi 1 il 9 ay ərzində Heydər Əliyevin qonşularla əsasını qoyduğu xarici əlaqələr bölgəni fəlakətdən xilas edən şərtlərdən oldu. Gənc tədqiqatçı Rza Talıbovun təbirincə desək, *"Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü dövlətçilik təcrübəsində çox böyük önəm daşıyır. Azərbaycan öz nicatını görkəmli dövlət başçısı və uzaqgörən siyasətçi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışında tapdı"* [377]. 1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri seçilməsi qonşularla, o

cümlədən Naxçıvan–Türkiyə münasibətlərinin qurulmasına ciddi təkan verdi. Naxçıvanla Türkiyə arasında həmin ilin oktyabrında müvəqqəti körpü açıldı və bu, qardaş ölkə ilə əlaqələrdə yeni vasitə oldu. Müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökumət nümayəndələrinin, iş adamlarının, qonşu vilayətlərin nümayəndələrinin Naxçıvana səfərlərinin sayı çoxalmış, muxtar respublikaya edilən yardımların həcmində artımlar olmuşdu. 1991-ci ilin 9 noyabırında Türkiyə "Qızıl Ay"ının xətti ilə Naxçıvana 126 ton ərzaq gətirilmişdi [401]. Noyabrın sonunda ərzaq məhsullarından ibarət 19 yük maşını İqdır şəhərinin əhalisi və valiliyi tərəfindən göndərilmişdi [165].

Naxçıvan–Türkiyə əlaqələrinin inkişafında digər təkanverici amil Heydər Əliyevin başçılığı ilə Naxçıvan nümayəndə heyətinin Türkiyəyə rəsmi səfərləri oldu. 1992-ci ilin martında Türkiyənin baş naziri Süleyman Dəmirəlin göndərdiyi şəxsi təyyarə ilə Heydər Əliyevin qardaş ölkəyə işgüzar səfəri, səfər çərçivəsində Türkiyə prezidenti Turqut Özal, baş nazir Süleyman Dəmirəllə keçirilən görüşlərin böyük siyasi əhəmiyyəti var idi. Bütün sahələrdə əməkdaşlığın qurulması və inkişaf etdirilməsi yönündə sənədlər imzalandı. Bu sənədlərdə muxtar respublikaya maliyyə, iqtisadi, texniki dəstək verilməsi, Naxçıvana zəruri ehtiyaclarının ödənilməsi üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji layihələrinin qurulması, nəqliyyat strukturunun yaradılması təsdiqlənirdi. Eyni zamanda, sənədlərdə, əsasən, bank işi, turizm və informasiya mübadiləsi sahəsində əməkdaşlığın qurulması, 100 nəfər tələbənin Türkiyəyə təhsil almağa göndərilməsi də əksini tapmışdı [37].

Sədərək–Dilucu körpüsünün açılışı (1992, 28 may) Naxçıvanın həyatında böyük bir hadisə olmaqla yanaşı, iqtisadi blokadanın yarılmasında mühüm addım oldu. *"Körpünün rəsmi açılış mərasimində Türkiyə Respublikasının baş naziri Süleyman Dəmirəlin başçılığı ilə 150-dən artıq türkiyəli nazirlərdən, yüksək çinli məmurlardan və ziyalılardan ibarət nümayəndə heyəti iştirak etmişdir"* [256]. Bu körpü iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirdiyindən xalq arasında "Ümid körpüsü", "Həsrət körpüsü" də adlandırılmışdır.

Heydər Əliyev körpünün açılış mərasimində həm bir siyasətçi, həm də xalqın blokada şəraitində yaşanan illərdəki əzablı həyatını duyan bir insan kimi *“Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 ildir ki, bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu günü böyük həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, bizim bu diləklərimiz həyata keçibdir”* [256] deyərək sevincini gizlətməmişdir. Türk dünyasının coğrafi bütünlüyünü təmin edən körpü Süleyman Dəmirəl tərəfindən *“Bu körpü, sadəcə, Türkiyə ilə Azərbaycanı deyil, dünyanı, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları bir-birinə bağlayacaqdır”* [256] deyə qiymətləndirilmişdir. Muxtar respublikanın Ali Məclisi Rəyasət Heyətinin iclasında körpünün açılışı tarixi hadisə kimi dəyərləndirilmiş [312], *“Sədərək–Dilicu körpüsü Türkiyə Respublikası və Naxçıvan MR arasında rəsmi keçid qapısı elan edilmişdir”* [393].

Bu gün də Türkiyə–Azərbaycan, Naxçıvan əlaqələrinin səviyyəsi, türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlərin əhəmiyyətindən danışanlar Sədərək–Dilucu körpüsünün əhəmiyyətinə xüsusi önəm verirlər. Çünki bu körpü Azərbaycan–Türkiyə əlaqələrinin hərtərəfli inkişafının olduqca mühüm mərhələsi olmuşdur. Heç şübhə yoxdur ki, bundan sonra da Türkiyə–Azərbaycan əlaqələrində, türk dünyasının birlik və həmrəyliyində Naxçıvanın xüsusi yerinin olması ən yeni tariximizin önəmli faktlarındandır. 2008-ci ildə Türkiyə baş nazirinin, 2009-cu ildə isə Türkiyə prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə iştirak etmək üçün Naxçıvana səfəri [420], 2010-cu ilin oktyabr ayında Azərbaycan–Türkiyə biznes forumunun Naxçıvanda keçirilməsi qardaş ölkənin Azərbaycanın bu qədim diyarına verdiyi önəmin ifadəsidir.

Heydər Əliyevin Naxçıvan dövrü siyasi fəaliyyətində Türkiyə ilə əlaqələrin qurulmasında və inkişafında iki şəxsiyyətin – Süleyman Dəmirəl–Heydər Əliyev münasibətlərinin böyük dostluq və qardaşlıq səviyyəsində olması da mühüm rol oynamışdır. Hətta uzun illər Heydər Əliyevin çox şirin bir tərzdə dediyi “Dostum, qardaşım Süleyman Dəmirəl” müraciəti də adamların dilində əzbər olmaqla, həm

də sevgi və güvənc duyğusu kimi səslənmişdir. Ermənistanın təcavüzü ilə əlaqədar narahatlıq hissləri keçirən Türkiyə rəhbərliyinin təcavüzün dayandırılmasına verdiyi dəstəyin bir hissəsi də, şübhəsiz ki, bu kimi faktlardan qaynaqlanırdı. Hətta 1992-ci ilin mayında Naxçıvanın Sədərək rayonuna ermənilərin böyük qüvvəylə hücumu ilə əlaqədar Türkiyə hökuməti bəyanat vermiş, 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan MR-nın muxtariyyətinin qarantı olduğunu dünyaya bəyan etmişdir.

Onda Heydər Əliyev dünya ictimaiyyətinə təcavüzlə bağlı müraciət etdi. Xarici dövlətlərin ölkəmizdəki diplomatik missiyalarının, eləcə də xarici mətbuat orqanlarının nümayəndələrinin Naxçıvana səfərlərini qiymətləndirən Heydər Əliyev deyirdi: *"Mən şəxsən gündə bir neçə dəfə onlarla görüşmüşəm, vəziyyət haqqında məlumat vermişəm. Onlar da çox operativ hərəkət edərək məlumatları bütün dünya informasiya orqanlarına çatdırmış və bunun nəticəsində dünya ictimaiyyətində böyük bir ciddi rəy yaranmışdır"* [277, s.366]. Məhz Heydər Əliyevin siyasi fəaliyyətinin nəticəsi idi ki, dünyanın 57 dövləti rəsmi şəkildə Ermənistanın Naxçıvana hərbi təcavüzünü pisləyən bəyanatlar vermişdi [311]. Bundan iki ay sonra 1992-ci ilin iyulunda Türkiyəyə səfər edən Heydər Əliyevin dövlət rəhbərləri və ictimaiyyətlə görüşlərində də bu məsələ diqqətdə olmuşdur.

Göründüyü kimi, Azərbaycan–Türkiyə münasibətlərinin daha dərinə gedən kökləri xeyli dərəcədə Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü ilə əlaqələndirilməlidir. O dövrün mətbuat orqanlarını, eləcə də tarixi sənədləri vərəqlədikcə bir daha sübut olunur ki, Ulu Öndər tutduğu yoldan heç vaxt dönməmiş, həmişə xalqla bir olmuş və bunu bir rəhbər kimi özünün ümdə vəzifəsi hesab etmişdir. Əslində, Naxçıvana qayıdışın mahiyyətində də bu amil dayanırdı. Təbii ki, hökumətə bağlı və ciddi nəzarət altında olan mətbuat orqanlarında – "Kommunist", "Sovet kəndi", "Həyat" və digər qəzetlərdə bu qayıdışın motivləri tamam başqa çalarda dəyərləndirilmişdir. Üstəlik o vaxtlar Azərbaycan tarixində önəmli yer tutan və yeni bir tarixin yazıldığı, blokadanın boğduğu Naxçıvan haqqında məlumatların verilməsinə belə yasaq qoyulmuşdu. Hətta o dönəmin "Kommunist" qəzetində məsələnin siyasi tərəfi bir yana, Naxçıvanda gedən

quruculuq işləri, Türkiyə ilə Naxçıvan arasında körpünün tikintisi, Naxçıvan aeroportunun yenidən qurulması kimi əhəmiyyətli layihələr haqqında xəbərlər barmaqla sayılacaq dərəcədə az olmuşdur. Amma bir sıra mətbuat orqanları, xüsusən də yeni nəşrlər bu məsələdə real və demokratik mövqedə dayana bilmişdilər. "Aydınlıq", "Azadlıq", "İki sahil", "Ədalət", "Yurddaş", "Səs", "Mədəniyyət", "Respublika", "Vətən səsi", "Naxçıvan" kimi qəzetlərin səhifələrində Naxçıvanla bağlı xəbər və materiallarda xalqın azadlıq səsi eşidilməkdə, böyük siyasətçiyə məhəbbət və guvən duyulmaqda idi [158].

Maraqlıdır ki, bir sıra ümumittifaq mətbuatında, o cümlədən mərkəzi mətbuatda da hadisələrə real və ədalətli münasibətlərin ortaya qoyulması gündəmdə olmuşdur. "Pravda", "İzvestiya" kimi mərkəzi mətbuat orqanlarının Naxçıvan reallıqlarına səhifələrində yer ayırması həm də Heydər Əliyev dühasının qüdrətindən irəli gəlirdi. Qeyd edilməlidir ki, bu baxımdan "Heydər Əliyevin hələ Naxçıvana qayıdışından əvvəl "Teatralnaya jizn" (1989) jurnalına A. Karaulova verdiyi tarixi müsahibə [301] təqdirəlayiq bir nümunə sayıla bilər. Eyni zamanda Heydər Əliyevin Naxçıvana qayıdışı onun siyasi arenaya yenidən qayıdışı oldu.*"Bütün səyini, gücünü və siyasi fəaliyyətini Naxçıvanın ərazi bütövlüyünün qorunması istiqamətində gedən gərgin mübarizəyə həsr edən Ulu Öndər əməli və uzaqgörən fəaliyyəti ilə daim xalqın yanında olduğunu, onun taleyini və gələcəyini düşündüyünü özünün önəmli vəzifəsi kimi təsdiq etdi"* [129, s.245].

Heydər Əliyevin Türkiyəyə səfərləri zamanı aparılan danışıqlar, imzalanmış sənədlər Naxçıvan–Türkiyə münasibətlərinin inkişafına ciddi təkan vermişdir. Əslində, Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü Türkiyə ilə əlaqələrin qurulmasına və möhkəmləndirilməsinə ciddi zərurət yaratdığı kimi, böyük siyasətçinin türk dünyasının problemlərinin həllinə də xüsusi önəm verdiyini təsdiqləyir. Ulu Öndər müstəqil Azərbaycanın prezidenti seçildikdən sonra bu məsələlərlə ardıcıl şəkildə məşğul olmuşdur. *"Heydər Əliyev öz xalqının tarixi köklərinə bağlı olan elə bir şəxsiyyətdir ki, o, bütün siyasi fəaliyyəti ərzində türk dünyasının birliyinə, bütövləşməsinə və vahid güc mərkəzinə çevrilməsinə böyük inam bəsləmiş və bu prosesin də davamlı inkişafına çalışmışdır"* [185].

1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev hakimiyyətinin ilk illəri yaxın tariximizin reallıqlarıdır. Çox sonralar bunu dəyərləndirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyəyə dövlət başçısı kimi ilk rəsmi səfərində TBMM-də çıxışında deyirdi: *"1993-cü ildən 1996-cı ilə qədər Azərbaycanda daxili ictimai-siyasi vəziyyət çox gərgin idi. Bir neçə dəfə dövlət çevrilişinə cəhdlər olmuşdu, vətəndaş müharibəsi başlanmışdı. Əlbəttə, bütün bu xoşagəlməz halların qarşısını almaq üçün böyük səylər sərf olunmuşdur. Demək olar ki, Azərbaycanda sabitlik 1996-cı ildə yaranmışdır"* [70].

Heydər Əliyev Azərbaycanın dünyaya inteqrasiya olunmasında, ən müxtəlif diplomatik anlaşmalarda müstəqil siyasət yeridən müstəqil Azərbaycanın mövqeyini rəhbər tutan dövlət rəhbəri olmuşdur. *"Sovet liderləri arasında... yeni dövrün qüsursuz siyasi-ideoloji kursunu ərsəyə gətirən yeganə siyasətçi məhz Heydər Əliyev oldu. Məhz bu baxımdan öz dövrünün ən xarizmatik dövlət xadimi və ən praqmatik siyasətçisi kimi tanınan Heydər Əliyev ümumbəşəri dəyərlərin daşıyıcısı missiyasına yüksələn universal şəxsiyyət kimi regionun coğrafi sərhədlərinə sığmayaraq ümumdünya kontekstinə çıxır"* [185].

Ulu Öndər Türkiyə ilə əməkdaşlığın genişlənməsinə, siyasi-iqtisadi və elmi-mədəni maraqların reallaşmasına xüsusi əhəmiyyət vermişdir. Eyni zamanda, *"Azərbaycanın yeni müstəqilliyi Türkiyənin Cənubi Qafqaz siyasətində önəmli yerə sahibləndiyini təsdiqləmişdi"* [478]. Şübhəsiz ki, Türkiyə üçün də Cənubi Qafqazın, o cümlədən Azərbaycanın tarixən təsdiq olunmuş coğrafi və strateji üstünlüyü gündəmdə olmuşdur. *"Azərbaycan güclü olmadan Türkiyənin bu regionda güclü olmayacağını"* [505] söyləyənlərın sonralar da hədəfləri düzgün qiymətləndirməsi türk dünyası dövlət rəhbərlərinin bütün toplantı və tədbirlərində təsdiq olunmuşdur.

Burada digər məsələ *"Türkiyə öz geosiyasi mövqeyini dəyərləndirərək həm enerji, həm də nəqliyyat sahəsində Avropa ilə Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiya arasında körpü və tranzit ölkə olmaq iddiasında idi. Bu iddiasını həyata keçirmək üçün Azərbaycanla yüksək əlaqələrin qurulması olduqca əhəmiyyətli idi"* [94]. Bu, həm də o demək idi ki, böyük enerji ehtiyatlarına malik

olan Azərbaycan bu resurslarını Türkiyə vasitəsilə Avropaya çıxara bilərdi. Mərkəzi Asiya respublikalarının enerji ehtiyatlarının Türkiyəyə çatdırılması da Azərbaycan vasitəsilə reallaşa bilərdi. Bu da Azərbaycanın tranzit ölkə ola bilməsini təsdiqləyirdi. Azərbaycanda 1993-cü ilin prezident seçkilərindən sonra Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrdə Azərbaycanla Qərbin enerji şirkətləri arasında neft müqaviləsinin imzalanması danışıqları gedirdi və aparılan müzakirələrdə Rusiyanın mövqeyi önəmli idi. Onu razı salmaq həm də Azərbaycanın daxilində kifayət qədər güclü olan və Rusiya ilə əməkdaşlığı önəmli hesab edən qüvvələrin mövqeyini yumşalda bilərdi, ən önəmlisi də Dağlıq Qarabağ münaqişəsində Rusiyanın mövqe və dəstəyinin alınması prinsipial məsələ olaraq qalırdı. Hələ 1992-ci ildə erməni qüvvələrinin Naxçıvana hücumları zamanı Türkiyənin müdaxiləsinin gündəmə gəlməsinin rusların *"üçüncü dünya müharibəsinə səbəb ola biləcəyini"* [510, s.24] açıqlaması "soyuq müharibə" dövrünün başa çatdığı vaxtlarda ilk dəfə Türkiyə ilə Rusiya arasında bir qarşıdurma ehtimalını gündəmə gətirmişdi. *"Rusiya və Ermənistanın da üzv olduğu Daşkənd Kollektiv Təhlükəsizlik Müqaviləsinə görə, üzv ölkələrdən birinə edilən hücum bütün üzv ölkələrə edilmiş sayılacaqdı"* [504, s.10], yəni belə olan halda Türkiyə hərbi qüvvələri tək Ermənistanla yox, həm də rus hərbi birləşmələri ilə üz-üzə durmalı idi. *"Bu, tək Türkiyə və Ermənistanı yox, regionda Rusiya ilə Türkiyəni qarşı-qarşıya gətirə bilərdi. Erməni separatçı qüvvələrinin geri çəkilməsiylə münaqişə həllini tapmışdır"* [507, s.223]. 1993-cü il aprelində isə Kəlbəcər rayonunun Ermənistan tərəfindən işğalı Türkiyə dövləti və xalqı tərəfindən ciddi etirazlarla qarşılanmış, Türkiyə Xarici İşlər Nazirliyi bəyanat yaymış, Türkiyə hökuməti BMT Təhlükəsizlik Şurasından təcili iclas çağırılmasını xahiş etmişdir. *"Türkiyə prezidenti Turqut Özal Ermənistanın işğalçılıq siyasətinə son qoymasını tələb etmiş və Türkiyə dövləti işğalın davam etməsi səbəbindən Ermənistanla sərhədini bağlamışdır"* [153].

Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycanın xarici siyasətini müstəqillik, balanslaşdırma; daxili siyasətini isə sabitlik və azərbaycançılıq prinsipləri əsasında qurdu. Bu dönəmdə xaricə ilk rəsmi

səfərini reallaşdıran Ulu Öndər bu mötəbər missiyasına da Türkiyədən başladı. Dövlət başçısı Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-də başlayan səfəri də bu qəbildən dəyərləndirilə bilər. Fevralın 11-dək davam edən ilk rəsmi səfər "Xalq qəzeti"ndə ikitərəfli əlaqələrin inkişafında yeni mərhələ kimi təqdim olunur [79]. Türkiyənin paytaxtı Ankarada aparılan danışıqlardan sonra Azərbaycan Respublikası ilə Türkiyə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə , investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş və digər sənədlərin imzalanması az bir zaman kəsiyində müstəqilliyini təmin etmiş Azərbaycan üçün olduqca önəmli hadisə idi. Şübhəsiz ki, dövlətlərarası münasibətlərin hüquqi tənzimlənməsini ortaya qoyan bu mühüm sənədlər yeni iqtisadi və siyasi münasibətlərin qurulmasında önəmli əhəmiyyətə malik olmuşdur. O cümlədən, 1994-cü il sentyabrın 20-də imzalamış "Əsrin müqaviləsi"ndə Türkiyənin "Türk Petrolları" şirkətinin iştirakına şərait yaratmışdır.

Bu sırada dövlət başçısı Heydər Əliyevin Türkiyəyə növbəti səfəri 1994-cü il iyunun 9-da baş tutur. Qısamüddətli səfərdə Heydər Əliyev ABŞ-ın dövlət katibi Uorren Kristofer, Böyük Britaniyanın xarici işlər naziri Duqlas Herdi, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Doğan Güreşlə görüşür [80]. Maraqlıdır ki, Türkiyəyə birgünlük səfərdən qayıdan dövlət başçısı Heydər Əliyev Rusiyanın müdafiə naziri Pavel Qraçovu qəbul edir [138]. "Xalq qəzeti"nin görüş haqqında təqdimatında maraqlı bir fakt diqqətdən yayınmır: *"Əvvəlcə belə güman edilirdi ki, qonşu ölkənin hərbi idarəsinin başçısı Bakıya, əsasən, Ermənistan–Azərbaycan münaqişəsi zonasında sülh yaratmaq əməliyyatında Rusiyanın iştirakının mümkünlüyünü müzakirə etmək üçün gəlmişdir. Pavel Qraçov bunu inkar etməyərək jurnalistlərə demişdir ki, onun əsas vəzifələrindən biri atəşin dayandırılması və qoşunların aralandırılması haqqında mayın 17-də Ermənistan və Rusiyanın imzaladıqları protokolu Azərbaycan tərəfinin imzalamaga razılıq verməsinin zəruriliyinə Heydər Əliyevi inandırmağa cəhd göstərməkdir".* Qəzet yazır ki, *"Pavel Qraçovun dediyinə görə, o, Azərbaycan prezidenti ilə söhbətindən*

*özü üçün iki mühüm nəticə çıxarmışdır. Birincisi Azərbaycandakı daxili siyasi vəziyyətin münaqişəyə təsiri ilə bağlıdır. İkincisi budur ki, problemin həllinə dair Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında siyasi müqavilə imzalanmayınca atəşin dayandırılması haqqında hər hansı sazişin səmərəsi olmayacaqdır”* [138].

Əslində, qəzetin dərc etdiyi bu iki məlumatın – dövlətimizin başçısı Heydər Əliyevin Türkiyəyə qısamüddətli səfəri, ABŞ dövlət katibi Uorren Kristofer, Böyük Britaniyanın xarici işlər naziri Duqlas Herdi, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Doğan Güreşlə görüşləri və ardınca Rusiyanın müdafiə naziri Pavel Qraçovu qəbul etməsi “Əsrin müqaviləsi”nə gedən yolun “təmizlənməsinə xidmət edirdi” deməklə yanılmırıq. Bu müqavilənin bağlanması ölkənin siyasi sabitlikdən, atəşkəsə nail olmaqdan, qonşuların, ən önəmlisi də Rusiyanın razılığından asılı olduğu dönəmin önəmli faktorlarından idi.

“Əsrin müqaviləsi” adlandırılan Bakı–Tbilisi–Ceyhan (BTC) neft boru kəmərinin Türkiyədən keçməsi üçün Heydər Əliyevin diplomatik səyləri önəmli olmuşdur. Layihənin həyata keçirilməsinə qarşı həm neft şirkətlərinin konsorsiumu tərəfindən yaradılmış “BTC Company” şirkətinə daxil olan bəzi şirkətlər, həm də Rusiya Bakı–Tbilisi–Ceyhanın yerinə Bakı–Supsa xəttinin çəkilməsini və Supsadan neftin tankerlər vasitəsilə boğazdan keçməklə nəql olunmasını istəyirdi. Lakin Heydər Əliyev BTC-nin həyata keçirilməsini istəmiş və Türkiyə prezidenti Süleyman Dəmirəl və ABŞ prezidenti Bill Klintonun razılığını aldıqdan sonra istəyinə nail ola bilmişdi. “Xalq qəzeti” yazırdı: *“Ümummilli Lider Heydər Əliyevin gərgin səyləri ilə "Əsrin müqaviləsi"nin reallaşması təkcə respublikamız üçün deyil, Qərbin aparıcı dövlətləri, habelə Cənubi Qafqaz və Orta Asiya regionu ölkələri üçün strateji əhəmiyyət daşıyır. Saziş qlobal layihələrin gerçəkləşməsinə yol açmış, xarici dövlətlərin Azərbaycanla genişmiqyaslı əməkdaşlığa marağını artırmış, keyfiyyətcə yeni bir mərhələnin başlanğıcını qoymuşdur”* [156]. Müqaviləni dəyərləndirən “BP Group Upstream”ın baş icraçısı Bernard Luney Cənub Qaz Dəhlizinin açılış mərasimində deyirdi: *“1994-cü ildə “Əsrin*

*kontraktı"nın imzalanması Azərbaycanda böyük sərmayələr və inkişaf dövrünün təməlini qoydu"* [113].

Dünya mətbuatı, eləcə də "Xalq qəzeti" bu barədə ən müxtəlif səpkilərdə siyasətçilərin, elm adamlarının və müxtəlif peşə sahiblərinin yüzlərcə məqaləsini dərc etmişdir. ARDNŞ prezidenti Rövnəq Abdullayev şirkətin uğurlarından bəhs etdiyi məqalələrindən birində deyirdi: *"Bu saziş Azərbaycanın dövlət müstəqilliyini de-fakto təsdiqləyən, onun dünya birliyinə üzvi surətdə inteqrasiyasına, beynəlxalq enerji bazarında bugünkü mövqeyi tutmasına əlverişli imkanlar açan epoxal bir sənəd idi"* [12]. Bu sırada "Xalq qəzeti"ndə dərc olunmuş bir məqalə də diqqətimizi çəkdi: *"Ulu Öndər Heydər Əliyevin iradəsi, prinsipial və qətiyyətli mövqeyi, habelə o zaman ARDNŞ-nin birinci vitse-prezidenti vəzifəsində çalışan cənab İlham Əliyevin danışıqlar prosesində nümayiş etdirdiyi diplomatik məharət, tərəfdaşı inandırmaq bacarığı sayəsində Azərbaycan neftinin nəqli marşrutları barədə qərarlar qəbul edildi"* [132]. Reallıq belə idi və *"Azərbaycanda ikinci dəfə siyasi rəhbərliyə gələn Heydər Əliyev vəziyyətin mürəkkəbliyini hamıdan yaxşı görürdü. Ulu Öndərin yeni neft strategiyası onun gərgin düşüncələrinin məhsulu kimi meydana gəldi"* [160].

Heydər Əliyevin Türkiyəyə 1994-cü il oktyabrın 18-də qısamüddətli səfərində – Türk Dövlətləri Başçılarının İkinci Zirvə toplantısında da problemlərin qarşılıqlı anlaşma yolu ilə tənzimlənməsi və Xəzərin statusunun həlli gündəmdə olmuşdur. "Xalq qəzeti"nin qeyd etdiyi kimi, *"...bunun Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan üçün də böyük iqtisadi və siyasi əhəmiyyəti vurğulanmışdır"* [387].

Azərbaycan və Türkiyə dövlət rəhbərlərinin qarşılıqlı səfərləri bundan sonra da davam etdirilmiş, hətta digər ölkələrlə müqayisədə bu səfərlərin müntəzəm xarakter alması hər iki dövlətin gündəmində olmuşdur. 1995-ci ilin iyulunda Türkiyənin Baş naziri Tansu Çillərin [391], az sonra dekabrda Türkiyə prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri "Xalq qəzeti"ndə geniş və əhatəli təqdim olunmuşdur. Süleyman Dəmirəlin səfərinin gedişi və görüşlərdən təqdim olunan xəbərlərin sərlövhələrinin təqdimatı da bunu təsdiq edir: "Türkiyə

Respublikasının prezidenti Süleyman Dəmirəl Azərbaycana gəldi" [36], "Heydər Əliyevin bəyanatı: Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin Azərbaycana səfəri ilə bağlı" [203], "Süleyman Dəmirəl Şəhidlər xiyabanını ziyarət etdi" [367], "Süleyman Dəmirəlin bəyanatı" [365], "İki ölkə başçısının yüksək səviyyədə gürüşü. Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl və Azərbaycan prezidenti Heydər Əliyevin görüşü haqqında" [244], "Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin Azərbaycana səfəri davam edir" [440], "Siyasi müxalifət rəhbərləri ilə görüş" [357], "Beynəlxalq bankın tikintisində. Türkiyə şirkətinin inşa etdiyi bankın inşaatçıları ilə H.Əliyev və S.Dəmirəlin görüşü" [114], "Süleyman Dəmirələ Azərbaycan EA-nın fəxri akademiki diplomu təqdim edildi" [364], "Milli Məclisin iclasında Türkiyə Respublikasının prezidenti iştirak etdi" [302], "Milli Məclisin iclasında Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin nitqi" [303], "Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin Azərbaycana səfəri davam edir" [445], "Türkiyə prezidenti Təzəpir məscidində olmuşdur" [430], "Baş nazirlə görüş: Türkiyə prezidenti S.Dəmirəlin Azərbaycanın baş naziri ilə görüşü" [108], "Türkiyə prezidenti Süleyman Dəmirəl Azərbaycan qaçqınları ilə görüşmüşdür" [424], "Türkiyə prezidenti Süleyman Dəmirəlin Azərbaycana səfəri başa çatdı" [428], "Bakıdakı Türk Anadolu liseyi ilə tanışlıq: Türkiyə prezidenti Süleyman Dəmirəl və Azərbaycan prezidenti Heydər Əliyev Türk Anadolu liseyində olmuşlar" [106], "Uşaq evində görüş. Türkiyə prezidenti Süleyman Dəmirəl və Azərbaycan prezidenti Heydər Əliyev Xətai rayonundakı 3 nömrəli uşaq evində olmuşlar" [464], "Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyə prezidenti Süleyman Dəmirəlin təkbətək görüşü" [56], "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sənədlərin imzalanması və mübadiləsi mərasimi" [78], "Türkiyə prezidenti Süleyman Dəmirəlin Azərbaycan ictimaiyyətinin nümayəndələri ilə görüşü" [427], "İki ölkə prezidentinin iş adamları ilə görüşü" [245], "Heydər Əliyevin və Süleyman Dəmirəlin birgə mətbuat konfransı" [214], "Türkiyə Respublikası prezidenti Süleyman Dəmirəlin şərəfinə Bakının "Gülüstan" sarayında Heydər Əliyevin adından ziyafət verilmişdir" [446], "Azərbaycan

prezidenti Heydər Əliyev və Türkiyə prezidenti Süleyman Dəmirəl iş adamları ilə görüşmüşlər: Heydər Əliyevin çıxışı" [58], Azərbaycan prezidenti Heydər Əliyev və Türkiyə prezidenti Süleyman Dəmirəl iş adamları ilə görüşmüşlər: Süleyman Dəmirəlin çıxışı" [59], "Nəzmiyyə xanım Dəmirəl sərgidə: "Yeni Azərbaycan, yeni nəsil, yeni sənət" devizi altında S.Bəhlulzadə adına sərgi salonunda təşkil edilmiş "Gənclik palitrası" sərgisində" [319], "Heydər Əliyevin və Süleyman Dəmirəlin birgə mətbuat konfransı: Heydər Əliyevin çıxışı" [215], "Süleyman Dəmirəl, Heydər Əliyev. Birgə bəyanat" [366], "Türkiyə və Azəbaycan prezidentləri beynəlxalq və şəhərlərarası telefon stansiyalarının açılışında iştirak etmişlər" [459], "Türkiyə prezidenti Süleyman Dəmirəl Axıska türklərinin nümayəndələrini qəbul etmişdir" [423], "Türkiyə prezidenti Süleyman Dəmirəlin Xalq şairi Bəxtiyar Vahabzadə ilə görüşü" [429], "Türkiyə prezidenti Süleyman Dəmirəl "Bayholdinq" şirkətinin tikinti obyektləri ilə tanış olmuşdur" [426], "Azərbaycan Respublikasının Prezidenti zati-aliləri Heydər Əliyev cənablarına Türkiyə Pespublikasının prezidenti S.Dəmirəlin Bakıya rəsmi səfəri zamanı səmimi qəbula görə minnətdarlığı" [452].

Türkiyə prezidenti S.Dəmirəlin rəsmi səfəri zamanı imzalanmış bəyanatda BMT-nin rolunun gücləndirilməsinin, regiondakı münaqişənin aradan qaldırılmasının və qlobal problemlərin həlli yollarının araşdırılmasına fəal təsir göstərməsinin vacibliyi vurğulanmaqla yanaşı, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarını qeyd-şərtsiz azad etməsi tələbi əksini tapdı. Səfərin tarixi əhəmiyyətini vurğulayan mətbuat yazırdı: *"İkitərəfli əlaqələrin möhkəmlənməsi və dostluq münasibətlərinin inkişafı Azərbaycan–Türkiyə əməkdaşlığının əhatə çərçivəsini genişləndirdi"* [223, s.67].

Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi sonrakı illərdə də dünya birliyinə inteqrasiya, müstəqil siyasi dəst-xətin davamı bütün sahələrdə təsdiqini tapmaqla daha da irəli getmiş və Azərbaycanın dünyada tanıdılmasında mühüm rol oynamışdır. Bu barədə "Xalq qəzeti"ndə müxtəlif imzalarla dərc edilən məqalə və şərhlərdə ətraflı məlumatlar yer alır. Bu tendensiya heç vaxt diqqətdən

yayınmamış, Türkiyə ilə əlaqələrin inkişafı Azərbaycanın nəinki diplomaik, eləcə də bütün sahələrdə apardığı kursun tərkib hissəsi olmuşdur.

1996-cı ilin aprelində Türkiyə Respublikasının baş naziri Məsud Yılmazın başçılıq etdiyi heyətin Azərbaycana səfərində "Azərbaycan–Türkiyə birgə bəyanatı" [90] imzalandı. Bununla yanaşı, 1996-cı il ərzində hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlərin imzalanması Azərbaycan–Türkiyə əməkdaşlığının əhatə dairəsini də genişləndirdi.

Azərbaycan prezidenti Heydər Əliyevin 1997-ci il aprelin 30-da İstanbulda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirakını "Xalq qəzeti" Azərbaycan dövlət başçısının qardaş Türkiyəyə növbəti səfəri kimi təqdim edir. "Beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı naminə" [115] sərlövhəli xəbərdə Heydər Əliyevin Türkiyəyə işgüzar səfəri haqqında məlumat verilir. "Qara dəniz regionunda yeni imkanlar" mövzusunda biznes konfransında çıxış edən Heydər Əliyev dünyanın 30 ölkəsindən 400-dən çox nümayəndənin iştirak etdiyi konfransın işini və Qara dəniz iqtisadi əməkdaşlığını yüksək qiymətləndirməklə, *"regiondakı mövcud silahlı münaqişələrin davam etdirilməsini pisləyir"* [209].

Səfər çərçivəsində Heydər Əliyev Türkiyə prezidenti Süleyman Dəmirəl [212], Gürcüstan prezidenti Eduard Şevardnadze [207], Ukrayna prezidenti Leonid Kuçma [218], Rumıniya prezidenti Emil Konstantinesku [217], Moldova prezidenti Petru Luçinski [216] və Ermənistan prezidenti Levon Ter-Petrosyanla [205] da görüşmüşdür. Görüşlərdə ATƏT üzvü olan ölkələrin dövlət başçılarının Lissabon zirvə görüşündə münaqişənin aradan qaldırılması üçün qəbul olunmuş prinsiplərin yerinə yetirilməsi məsələləri müzakirə mövzusu olmuşdur.

İstanbul Zirvə toplantısının təəssüratları mətbuatın gündəmini tərk etməmiş Heydər Əliyevin mayın 5-8-də Türkiyəyə yeni rəsmi səfəri reallaşdı. Atatürk hava limanında təntənə ilə qarşılanan Azərbaycan prezidenti bəyanatında səfərin əhəmiyyətini belə dəyərləndirir: *"Biz son illər tez-tez görüşürük. Ancaq hesab edirəm ki, bu rəsmi səfər, görüşlər zamanı əldə etdiyimiz nailiyyətlər əsasında Türkiyə–Azərbaycan əlaqələrini daha yüksək səviyyəyə çatdırmaq imkanına malik olacağıq. Azərbaycan Respublikası buna çox ehtiyac duyur"* [55].

“Xalq qəzeti”ndə dərc olunmuş məqalə və təqdimatların əhatəliliyi də göstərir ki, Türkiyə səfəri olduqca məhsuldar olmuşdur. “Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri davam edir” başlığı ilə qəzetin 7 və 8 may 1997-ci il saylarında Ankara, İzmir görüşlərinin xülasəsi qısa təqdim olunsa da, qəzetin 13 və 14 may sayları, demək olar ki, səfərin yekunlarına həsr olunmuşdur. “Azərbaycan–Türkiyə: dostluq, qardaşlıq, strateji əməkdaşlıq” adı ilə təqdim olunan bu yazılarda Azərbaycan prezidentinin qardaş ölkədə qarşılanması, Türkiyə dövləti və hökumətinin məsul şəxsləri tərəfindən qəbulları yer alır. Təqdim olunan iki material da diqqəti cəlb edir: birinci Ankaranın mərkəzi küçələrindən birinə “Azərbaycan” adının verilməsinə [25], ikinci respublikamızın Ankaradakı səfirliyinin yeni binasının bünövrəsinin qoyulmasına həsr edilmişdir. Dövlət rəhbərlərinin – Heydər Əliyev və Süleyman Dəmirəlin mərasimdəki çıxışlarında Azərbaycan–Türkiyə münasibətlərinin davamlı və əbədi olacağı vurğulanır [26].

Xəzərin enerji resurslarının dünya bazarlarına nəql olunması sahəsində aparılan işlər Azərbaycan ilə Türkiyənin davamlı işbirliyinin nəticəsi idi. Neft strategiyasının uğurla həyata keçirilməsi regional sabitliyin möhkəmlənməsində həlledici rol oynamaqla, qonşu dövlətlərlə, xüsusən Türkiyə ilə strateji münasibətlərin daha da dərinləşməsində mühüm əhəmiyyət kəsb edir. Əsası Ulu Öndər tərəfindən qoyulan bu siyasət bu gün də uğurla davam etdirilməkdədir.

1998-ci il sentyabrın 7-də Bakıda İpək Yolunun bərpası üzrə Beynəlxalq konfransın işə başlaması tarixi hadisə oldu. Konfransdan bir gün əvvəl “Xalq qəzeti” bu tarixi hadisənin əhəmiyyətini faktlar və rəqəmlərin dili ilə açıqlayır: *“Böyük İpək Yolunun üstündə 33 olkə yerləşir, TRASEKA-TACIS proqramlarının gerçəkləşdirilməsi sayəsində 1999-cu ildə yükdaşımaların həcmi 10 dəfə artaraq 4 milyon tona çatacaq”*[141]. Qəzetin həmin sayında İpək Yolunun əhəmiyyəti dövlət rəhbərləri tərəfindən də yüksək dəyərləndirilir. Türkiyə prezidenti Süleyman Dəmirəl “*Böyük İpək Yolu 11 milyon kvadrat kilometr ərazidə yerləşən və 200 milyon insanı birləşdirən türk dünyasının tərəqqisi və zənginləşməsinin yeni vasitəsi olacaqdır”*, Heydər Əliyev*“Bunlar bizim siyası və iqtisadi strategiyamızın nə qədər düzgün, məqsədəuyğun və Azərbaycan xalqının milli mənafelərini təmin*

*edən olduğunu bir daha sübut edir",* Gürcüstan prezidenti Eduard Şevardnadze *"Biz xoşbəxtik ki, ölkələrimiz Böyük İpək Yolunun dirçəldilməsində birləşdirici və mühüm məntəqəyə çevrilir. Bu yol Asiya ilə Avropa arasında, Şərqlə Qərb, Cənubla Şimal arasında intensiv əlaqələrin inkişafı yoludur"*, Rumıniya prezidenti Emil Konstantinesku *"İpək Yolu 3-cü minilliyin ən iri layihəsidir. Bu cür layihənin mühümlüyü bunda görünür ki, Yaponiya və Çindən başlamış Asiya ölkələrini Avropa qitəsi ilə birləşdirəcəkdir"* [141] deyə fikirlərini açıqlamışlar.

Qəzetin sonrakı sayında Bakının Binə hava limanında dövlət başçıları və nümayəndələrin qarşılanmasından reportajlar və dövlət başçısı Heydər Əliyevin ölkəmizin və xarici ölkə KİV müxbirlərinin suallarını cavablandırdığı materiallar dərc edilmişdir [127, 128]. Bu sırada "Türkiyə prezidenti Süleyman Dəmirəl Bakıya gəlmişdir" [425], "Ukrayna prezidenti Leonid Kuçma Bakıya gəlmişdir" [463], "Gürcüstan prezidenti Eduard Şevardnadze Bakıya gəlmişdir" [191], "Rumıniya prezidenti Emil Konstantinesku Bakıya gəlmişdir" [341], "Moldova prezidenti Petru Luçinski Bakıya gəlmişdir" [307], "Qırğızıstan prezidenti Əsgər Akayev Bakıya gəlmişdir" [278], "Özbəkistan prezidenti İslam Kərimov Bakıya gəlmişdir" [323], "Bolqarıstan prezidenti Petar Stoyanov Bakıya gəlmişdir" [126] və başqa sərlövhəli yazılar da tədbirin əhəmiyyətini ortaya qoyur. Ümumiyyətlə, 6 səhifəlik qəzetin 3 səhifəsi tədbir haqqında məlumatlara həsr edilmişdir [141].

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısı keçirildi. Azərbaycan prezidenti Heydər Əliyev, Gürcüstan prezidenti Eduard Şevardnadze və Türkiyə prezidenti Süleyman Dəmirəlin "Xam neftin Azərbaycan, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" imzaladıqları sənəd mətbuatın gündəmində yeni bir hadisə idi. İstanbul Zirvə toplantısında "Şahdəniz" yatağından hasil olunan təbii qazın Bakı–Tbilisi–Ərzurum marşrutu üzrə Türkiyəyə nəql olunması qərarlaşdırıldı. "Xalq qəzeti" yazırdı: *"Bu layihələr Azərbaycan və Türkiyənin iqtisadi inkişafında, regional təhlükəsizliyin daha da möhkəmlənməsində və dünyada söz sahibi olmasında yeni bir mərhələ idi. Ulu Öndər Heydər Əliyev və*

*Türkiyənin o vaxtkı dövlət rəhbərləri güclü iradə ortaya qoymasaydılar, "Əsrin müqaviləsi" reallaşa bilməzdi"* [296].

İqtisadiyyata yönəldilən xarici investisiyalar sahəsində qardaş ölkə Azərbaycanın əsas tərəfdaşı oldu. *"Azərbaycanın "Petkim", "Star" kimi layihələrə kapital qoyuluşu var. Daha sonra TANAP layihəsi gəlir, önəmli yatırımlardan birini də o təşkil edir. Burada söhbət Azərbaycandan Türkiyə iqtisadiyyatına qoyulan milyardlarla dollarlıq sərmayə portfelindən gedir"* [135].

ATƏT-in İstanbul Zirvə toplantısında Heydər Əliyevin Türkiyənin iştirakı ilə "Qafqaz paktı" yaradılması ideyası ilə çıxış etməsi, 54 ölkəni təmsil edən 2 min 500 nümayəndənin İstanbula, ATƏT-in Zirvə görüşünə toplaşması XXI əsrdə dünyada sülhün, əmin-amanlığın bərpa edilməsi, münaqişə ocaqlarının söndürülməsi yolunda mühüm addım idi. "Xalq qəzeti" 17 noyabr 1999-cu il tarixli sayında dövlət başçısının İstanbula yola düşməsi, 19 noyabr sayında isə "Qafqaz paktı"nın yaradılması təklifi ilə çıxışı haqqında məlumat verir. Azərbaycan prezidenti çıxışında bildirir ki, *"Cənubi Qafqaz Avropanın ayrılmaz hissəsidir. Mən ABŞ-ın, Avropa Birliyi ölkələrinin, Rusiyanın, Türkiyənin, Gürcüstanın, Ermənistanın və ATƏT-in marağı olan üzvlərinin dövlət və hökumət başçılarına müraciət edərək, onları regionun problemlərinin həlli üçün qətiyyətli fəaliyyət göstərməyə çağırıram. Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunmasını təklif edirəm"* [208].

Maraqlıdır ki, qəzetin həmin sayında "Müxalifətin İstanbul fiaskosu" yazısı da yer alır. Yazıda "İstanbul sammiti ərəfəsində müxalifətin Bakıdakı qalmaqallı mitinqləri və küçə yürüşləri istəyi baş tutmadıqda İstanbulu hədəf etdilər" deyə məlumat verilir. Həm də *"Öz ölkələrində nüfuzunu itirmiş müxalifətçi liderlərin başqa bir ölkədə fiaskoya uğramaları təbii hal..."* [472] hesab edilir. Qəzetin növbəti sayında Türkiyə prezidenti S.Dəmirəllə "Arena" qəzetinin baş redaktoru Səyyad Ağbabalının müsahibəsi [18] dərc edilmişdir.

"Avropa Təhlükəsizlik Xartiyası"nın imzalanması və bəyannamə qəbulu ilə başa çatan İstanbul Zirvə görüşü haqqında "Xalq qəzeti"nin daha bir yazısında qeyd edilir ki, *"Azərbaycan prezidenti ölkəmizin problemlərini Avropa, dünya*

*problemləri kontekstində beynəlxalq aləmə çatdırmışdır... Azərbaycan prezidenti İstanbul Zirvəsində çıxış edən bir çox dövlət rəhbərlərindən fərqli olaraq, ancaq problemləri sadalamaqla kifayətlənməmiş, Qafqaz regionunda sülhün və təhlükəsizliyin bərpa olunması üçün yol göstərmişdir"* [267]. "İstanbul sammiti dünya tarixində, XX əsrdə ən böyük hadisələrdən biridir" [252] qəzetin manşet xəbəri kimi verilmişdir. Bu sammit ölkə başçısının Amerika [60], Türkiyə [66], Fransa [63], Qazaxıstan [65] prezidentləri, İsrailin baş naziri [64], AFR kansleri Herhard Şröderlə [61], hətta Ermənistan prezidenti Robert Koçaryanla [62] təkbətək görüş kimi də əlamətdar olmuşdur. Qəzetin 24 noyabr sayında "Çırağan" sarayında tarixi sənədlərin imzalanması mərasimi" adı ilə verilən xəbərlərdə İstanbul Zirvə görüşündə əldə edilən nailiyyətlər və mərarsimdə ABŞ, Türkiyə, Gürcüstan, Qazaxıstan, Türkmənistan prezidentlərinin çıxışları təqdim edilir [136].

"Xalq qəzeti" məlumat verir ki, Azərbaycan prezidenti İstanbul sammitindən 3 gün sonra, noyabrın 27-də Türkiyəyə dövlət başçısı Süleyman Dəmirəlin dəvəti ilə işgüzar səfərə getmiş, "Erroziya ilə müdafiə həftəsi"nin açılış mərasimində (30 noyabr 1999) iştirak etmiş, İsparta Universitetində (1 dekabr 1999) olmuşdur. Süleyman Dəmirəllə İstanbul sammitinin nəticələrinin müzakirə olunduğu təkbətək görüşdə *"...dövlət başçıları İstanbul sammitində imzalanmış sənədlərin əhəmiyyətindən söz açaraq, bu layihənin Avropa və dünya ölkələrinin iqtisadi inkişafı üçün böyük rol oynadığını qeyd etdilər"* [67].

Bütün sahələrdə Azərbaycana siyasi və iqtisadi yardım göstərən Türkiyə müstəqil dövlətçiliyin əsas atributlarından olan ordu quruculuğu sahəsində hərbi əməkdaşlığı da ildən-ilə genişləndirmişdir. 1999-2002-ci illərdə hərbi əməkdaşlıq sahəsində imzalanmış bir sıra sənədlər Azərbaycan ordusunun hərbi potensialının inkişafına yüksək təsir göstərmişdir. Bu əlaqələr Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasında, hərbi təlimlərin keçirilməsində, maddi-texniki bazanın möhkəmləndirilməsində və ordumuzun NATO-nun ən müasir standartları səviyyəsində qurulmasında mühüm rol oynamışdır. 1999-cu ildə ölkələrimiz arasında imzalanmış sazişə əsasən Azərbaycan hərbiçilərinin Türkiyə hərbi

qüvvələri tərkibində Kosovoda sülhməramlı missiyada iştirakı Azərbaycanın Ümumavropa təhlükəsizlik sisteminə qoşulmasının müjdəsi idi.

Əhməd Necdət Sezərin 2000-ci ildə prezident seçilməsi və iyulda ilk xarici səfərinə Azərbaycana gəlməsi Türkiyənin diplomatik kursunda yeni olmasa da, hakimiyyət dəyişikliyindən sonra da bu ölkənin Azərbaycanla müttəfiqlik mövqeyini bir daha təsdiqlədi. "Xalq qəzeti" 12 iyul sayında Türkiyə prezidentinin Azərbaycana səfərini "Azərbaycan–Türkiyə: dostluğumuz və qardaşlığımız əbədi və sarsılmazdır" [93] manşeti ilə təqdim edir. Birgə bəyanat hər iki ölkənin önəmli məqsədi olduğunu bir daha göstərdi [119]. Qəzetin növbəti sayında "Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyə prezidenti Əhməd Necdət Sezərin qaçqınlarla görüşü" [68], "Türkiyə prezidenti Əhməd Necdət Sezərin Azərbaycan Milli Məclisində görüşü" [421] xəbərləri yer almışdır.

"Xalq qəzeti"ndə Azərbaycan–Türkiyə əlaqələrinin spektrini təqdim etdiyimiz bu materiallar təşkil etmişdir, demək xeyli dərəcədə yanlış olardı. Qəzet rəsmi səfər və görüşlərdən əlavə onlarca müəllif məqaləsinə, elm və siyasət xadimlərinin çoxsaylı materiallarına, müxbirlərin hazırladığı gündəlik xəbər və məlumatlara da xüsusi önəm vermişdir. Bu təqdimatların əsasında müəyyən tarixi hadisələrlə yanaşı, gündəlik hadisələrə həsr edilmiş xəbərlər də xüsusi yer tutur. Nümunə üçün deyək ki, təkcə 1995 və 96-cı illərdə "Xalq qəzeti"ndə dərc edilmiş bu cür xəbərlərin sayı 200-dən çox olmuşdur. Sözardı onu da qeyd etməliyik ki, sonrakı illərdə də "Xalq qəzeti"ndə dərc edilmiş məqalə və xəbərlərin sayı bundan az olmamışdır.

Sonda "Xalq qəzeti"nin dərc etdiyi materiallardan gəldiyimiz bir qənaət də var: *"XX əsrin tarixi məhz şəxsiyyətlərin tarixdəki rolu baxımından ibrətamiz bir dövr oldu. Bu tarixi Çörçillsiz, De Qollsuz, Kennedisiz, Mandelasız və eləcə də Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil"* [185]. On illik bir keşməkeşli və böhranlı zaman kəsiyində qurulmaqda olan Azərbaycana rəhbərlik edən və ölkəni olum-ölüm dilemmasından uğurla çıxaran Ulu Öndər Heydər Əliyevin siyasi baxışlarına tarix indi daha dərin məna qazandırmaqdadır. Dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən gözlənilməz dəyişikliklər onun

Azərbaycan adlı vətənimizin bugününə və gələcəyinə çox möhkəm tellərlə bağlı olduğunu daha aydın göstərir.

Bu dövr Azərbaycan cəmiyyətinin bütün sahələrində olduğu kimi mətbuatın inkişafında yeni mərhələ olmuş, söz və mətbuat azadlığını həyatı reallığa çevrmişdir. Bu da Azərbaycan mətbuatının peşəkar və demokratik şəraitdə işləməsinə şərait yaratmış, milli mətbuatı xaosdan və anarxiyadan qurtarmışdır. Ulu öndərin Azərbaycana rəhbərliyi dövründə formalaşan və inkişaf etdirilən bu kimi amillər mətbuatın azad fəaliyyətinə geniş imkan yaratmış, onun inkişafını əngəlləyən bütün amilləri aradan qaldırılmasını qanunvericilik bazasında həllinə nail olunmuşdur. Bundan sonra kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün silsilə tədbirlər həyata keçirilmişdir. Heydər Əliyevin rəhbərliyi və müəllifliyi ilə hazırlanan və qəbul edilən ilk Konstitusiya aktında söz və mətbuat azadlığı ayrıca maddə ilə (50-ci maddə) ilə əks olunmuşdur. "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa əsasən kütləvi informasiya vasitələri azad elan olunmuşdur.

Sonralar Avratlantik məkana üzv olan Azərbaycan söz və mətbuat azadlığı sahəsində beynəlxalq sazişlərə imza atmaqla demokratik dəyərlərə ciddi önəm verdiyini təsdiqlədi. Bununla da Ulu Öndər Heydər Əliyevin mətbuatın üzərindən senzuranı götürməsi mətbuatın inkişafında yeni bir mərhələ oldu. 1998-ci il 6 avqust tarixində "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" verilən fərman mətbuatı senzuradan azad etməklə, onun inkişafını və rolunu artırdı.

Mətbuatın problemlərinin həlli və onların aradan qaldırılmasına Ulu Öndərin sayıq münasibəti azad sözə verilən qiymət olmaqla demokratik cəmiyyətin təməl pripsiplərindən idi. Ümummilli lider qeyd edirdi ki, *“Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. Bu gün əsas vəzifə onun geniş imkanlarından milli dövlət quruculuğunda, demokratik dəyərlərin bərqərar edilməsində, sivil vətəndaş cəmiyyətinin formalaşmasında, islahatların həyata keçirilməsində, insanların mənəvi saflaşmasında səmərəli istifadə etməkdən ibarətdir”* (167, s. 42-43).

Önəmlidir ki, bunlar mətbuat qarşısında dəqiq, operativ və qərəzsiz yanaşma kimi tələblər qoymuş və yeni dövrün  çağrışların həyat normasına çevrilməsinin sübutu oldu. Tədqiqat obyekti olan  "Xalq qəzeti"ndə dərc edilən materiallar, məqalə və eləcə də müxtəlif  janırlı çoxsaylı təqdimatlar da təsdiqləyir ki, həm Sovet, həm də müstəqillik dövrü mətbuatının mövqeyi dövrün tələbləri ilə bağlı olmuşdur. Bu tələblər bir zaman milli əqidə və milli düşüncənin əleyhinə olsa da, müstəqillik dövründə bu kimi amillər gündəlik tələb olmuş, eyni zamanda müstəqil dövlətin fəaliyyət ruporuna çevrilə bilmişdir. Bu yanaşma mətbuatın dövlətçilik və türkçülük mövqeyinin formalaşmasında da özünü göstərmiş, təkcə Türkiyə ilə münasibətlərin yox, həm də türkdilli dövlətlərlə əlaqələrin genişlənməsində fəallığı və təsirliliyi ilə gündəmdə ola bilmişdir. TÜRKSOY-un fəaliyyəti, təhsil sahəsində qazanılan uğurları, strateji əməkdaşlıq amilləri bu deyilənlərin ümdə bir hissəsidir. Şübhəsiz ki, tezislər kimi təqdim etdiyimiz bu fikirlərin əhatə dairəsi o qədər genişdir ki, ayrı-ayrılıqda onları təqdim etmək, istər siyasi, istər hüquqi, eləcə də mədəni, hümanitar, iqtisadi, içtimai və s. baxımdan daha əhatəli bir şəkildə dəyərləndirmək mümkünsüzdür. Xüsusən də bir dissertasiya həcmində bu imkanlar xeyli dərəcədə məhduddur.

# III FƏSİL
# AZƏRBAYCAN –TÜRKİYƏ ƏLAQƏLƏRİNİN DİNAMİK İNKİŞAF DÖVRÜ "XALQ QƏZETİ"NDƏ (2003-2018-Cİ İLLƏR)

## 3.1. Müştərək regional layihələr, enerji və neft strategiyasının uğurları mətbuatda

Azərbaycanda dövlət müstəqilliyinin bərpa olunması (1991) uzun illər gözlənilən bir arzunun həyata vəsiqə alması idi. Amma SSRİ-nin dağılması xalqımızı düşünüləndən də ciddi və çətin sınaqlarla üz-üzə qoydu: Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının bir hissəsi müvəqqəti də olsa itirildi, bir milyonadək soydaşımız yurd-yuvasından didərgin salındı, ölkə onlarca qanlı terror hadisəsi, dövlət çevrilişi, vətəndaş müharibəsi kimi hadisələrlə sınağa çəkildi. Daxildə qeyri-qanuni silahlı birləşmələrin özbaşınalığı günün reallığına çevrildi. Bu ağır sınaqları dəf edən Azərbaycan müstəqillik tarixinin yeni səhifələrini yazdı, ən önəmlisi də qanlar bahasına qazanılan müstəqilliyimizi qorudu, dövlətçiliyimizi möhkəmləndirdi.

Bütün bunlar Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsi idi. *"Heydər Əliyev tərəfindən müəyyən edilmiş neft strategiyası Azərbaycana böyük uğurlar gətiribdir. Bir sözlə, neft strategiyası bizə imkan verir ki, bu gün də, gələcəkdə də neftdən əldə olunan gəlirlərdən səmərəli istifadə edərək, Azərbaycanı hərtərəfli inkişaf etdirək, xalqımız üçün gözəl şərait yaradaq"* [69].

2003-cü ilin dekabrında Ulu Öndərin rəsmi ölüm xəbəri bəzi qüvvələri sevindirsə də, Azərbaycanın qazandığı müstəqilliyin və siyasi kursun dönməzliyi, etibarlı əllərdə olduğu ilk günlərdən təsdiqini tapdı. Azərbaycan Respublikasının yeni seçilmiş prezidenti İlham Əliyevin andiçmə mərasimində söylədiyi geniş nitq ölkədə Heydər Əliyev siyasətinin davam etdirildiyini bir daha təsdiq etdi [81]. Elə bu tədbirdə – prezident seçilməsi münasibətilə "Gülüstan" sarayında keçirilən rəsmi qəbulda xarici ölkələrdən gəlmiş qonaqları salamlayan İlham Əliyev ölkənin gələcək xarici siyasətinə önəm verməklə Türkiyə–Azərbaycan münasibətləri haqqında deyirdi: *"Türkiyə bütün sahələrdə Azərbaycana dayaq və arxa olmuşdur. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra ilk olaraq ölkəmizi tanıyan məhz*

*qardaş Türkiyə olmuşdur. Biz daim belə bir ifadəni işlədirik: Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır"* [81].

Eyni zamanda, Türkiyə 1970-1980-ci illərdə yaşadığı dərin iqtisadi böhrandan çıxış yollarını yeni yaranmış Türk dünyası ilə iqtisadi əlaqələrin qurulmasında görürdü. Turqut Özal hökumətində *"Türkiyədə güclü xarici siyasətin həyata keçirilməsinin yalnız iqtisadiyyatı gücləndirməklə mümkün olacağı düşünülürdü"* [479, s.39]. Statistikaya nəzər salanda görünür ki, Türkiyənin Azərbaycanla ticarət əlaqələri digər türk dövlətləri ilə müqayisədə daha balanslı olmuşdur: *"Qarşılıqlı artan maraqlar ölkələrimiz arasındakı ticarət əlaqələrinə də pozitiv təsir göstərib. Azərbaycanın idxalda əsas tərəfdaşları siyahısında Türkiyə 2006-cı ildə 4-cü, 2007-2010-cu illərdə isə 2-ci mövqeyə sahib olub"* [333, s.70].

Hadisələrin sonrakı inkişaf tendensiyası da göstərdi ki, ki, İlham Əliyevin prezidentliyi dövründə Heydər Əliyev siyasəti nəinki uğurla davam etdirilmiş, eyni zamanda, bu siyasət daha da gücləndirilərək özünü təsdiq etmişdir. *"Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycana regionda cərəyan edən hadisələr birbaşa təsir göstərdiyi kimi, ölkənin özü də regionda marağı olan dövlətlərin təsir dairəsinə girib"* [467, s.16]. Göründüyü kimi, Azərbaycanın iqtisadi cəhətdən güclənməsi onun xarici siyasətinə də müsbət təsir göstərmişdir. Bu, özünü Azərbaycan–Türkiyə münasibətlərində də hiss etdirmişdir.

Türkiyəyə ilk rəsmi səfərində də bu inam açıq şəkildə Azərbaycan prezidentinin dilindən eşidilmişdir: *"Mən Türkiyədə dəfələrlə olmuşam. Türkiyə mənim üçün doğma, əziz ölkədir, hamımızın vətənidir, amma prezident kimi bu, mənim ilk səfərimdir. Mən əminəm ki, ölkələrimiz bundan sonra da bir-birinə dayaq, arxa olacaqdır, biz daim birlikdə olacağıq"* [71]. Azərbaycan prezidenti Türkiyə Böyük Millət Məclisindəki nitqində bildirirdi: *"Bir neçə ildən sonra, bütün bu regional, irimiqyaslı layihələr həyata keçiriləndən sonra Azərbaycan və Türkiyə əl-ələ verərək, uğurla irəliyə gedəcəklər. Bölgədə Türkiyəsiz, Azərbaycansız heç bir əməkdaşlıq, işbirliyi, regional işbirliyi mümkün deyildir. Bu, bizim böyük nailiyyətimizdir"* [70]. Türkiyə prezidenti Abdullah Gülun 28 May Respublika Günü münasibətilə Azərbaycanın dövlət başçısı İlham Əliyevə

ünvanladığı təbrik də deyilənləri təsdiq edir: *"Xalqlarımız arasında dərin köklərə malik yaxınlığın, nümunəvi həmrəyliyin konkret işlər əsasında daha da gücləndirilərək irəli aparılması ən böyük amalımızdır"* [443]. Tarix də göstərir ki, *"Azərbaycan ilə Türkiyə işbirliyindəki münasibətlər hər gün daha da yüksəlməkdədir və bu, hər iki dövlətin başlıca hədəflərindəndir"* [275].

*"Xəzər hövzəsinin və Azərbaycanın zəngin neft və qaz məhsullarının dünya bazarlarına iki dost ölkə – Gürcüstan və Türkiyə ərazisindən nəql olunması ideyasının əsasında da Azərbaycan dövləti dayanır"* [478]. Önəmli faktdır ki, Türkiyə və Azərbaycan arasında enerji əməkdaşlığı sahəsində qarşılıqlı asılılıq mövcuddur. Enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasında müttəfiqlik hər iki dövləti üç böyük neft və qaz layihəsi – Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və Cənub Axını bir-birinə daha sıx bir şəkildə birləşdirmişdir. Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu və digər transmilli nəqliyyat-kommunikasiya layihələri *"Türkiyənin regionda lider, aparıcı dövlət statusunu xeyli möhkəmləndirmiş və onun Azərbaycanla, Gürcüstanla strateji regional tərəfdaşlıq münasibətlərini gücləndirmişdir"* [221, s.367].

2002-ci ildə əsası qoyulan Bakı–Tbilisi–Ceyhan (BTC) layihəsinin 2006-cı il iyulun 12-də açılışı olur. *"2006-cı ildən 2016-cı ilin üçüncü rübünədək BTC, təxminən, 2.55 milyard barel və ya 341 milyon ton xam neft ixrac etmişdir. Ceyhan limanına çatdırılan neft buradan da tankerlər vasitəsilə dünya bazarına çıxarılırdı. Fərqli hesablamalara görə, Türkiyə BTC-dən aldığı tranzit haqqı, vətəndaşları üçün yaratdığı iş imkanları ilə birlikdə orta hesabla 5 milyard dollar qazanca nail olmuşdur"* [476, s.352]. Bu neft kəməri Türkiyənin region dövlətləri ilə siyasi və iqtisadi münasibətlərinin də inkişafına şərait yaratmış və iqtisadi baxımdan strateji əhəmiyyət kəsb etmişdir. "Xalq qəzeti"nin "Heydər Əliyev adına Bakı–Ceyhan əsas ixrac neft boru kəməri: faktlar və rəqəmlər" [200] təqdimatında kəmərin iqtisadi əhəmiyyəti və verəcəyi səmərə haqqında məlumatlar deyilənləri bir daha təsdiq edir.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyədə investisiyalarının həcmi artmış, 2008-ci ildən sonra isə Azərbaycan şirkətlərinin Türkiyədə sərmayə yatırımı sürətlənmişdir. ARDNŞ 2008-ci ilin may ayında "Petkim Petrokimya Holdinq A.Ş."nin 51 faizini 2 milyard 40 milyon dollara almışdır. Bununla da Azərbaycan Türkiyədə ən böyük sərmayə yatıran ölkə olmuşdur. Bu barədə "Xalq qəzeti"nə müsahibə verən neft şirkətinin Sərmayələr idarəsinin rəisi Vaqif Əliyev deyirdi: *"Beynəlxalq portfelimizdə ən böyük yeri Türkiyədəki layihələrimiz tutur. SOCAR-ın məqsədi regionun əsas tranzit qovşağı olan Türkiyədə tam inteqrasiya olunmuş neft və qaz şirkəti quraraq, ölkəmizin strateji mövqeyini və bazar potensialını ən yaxşı şəkildə dəyərləndirməkdir"* [156].

Bunun ardınca İzmirin Əliağa bölgəsində yeni neftayırma zavodunun tikintisinə başlanmış, 2011-ci ilin oktyabr ayında "Star" neftayırma zavodunun təməli qoyulmuşdur. Bu barədə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə "Xalq qəzeti"nə bildirmişdir: *"Türkiyədə səhmlərinin 61,32 faizi şirkətimizə məxsus olan "Petkim"i xammalla təchiz etmək məqsədilə yeni neft emalı zavodunun tikintisinə başlanılmışdır. Oradakı liman da genişləndirilir və tezliklə Türkiyənin ən böyük limanı olacaqdır"* [160]. Yeni zavodun 2018-ci ilin oktyabrında istifadəyə verilməsi ilə ARDNŞ BTC-dəki neft payının bir hissəsini emal edərək benzin və dizel şəklində Türkiyə bazarına çıxarmışdır. Digər tərəfdən, *"TURCAS" mərhələli şəkildə "sahibləndiyi paylarını ARDNŞ-yə satdıqdan sonra 2014-cü ildə layihədən ayrılmışdır"* [489]. Bu, ARDNŞ-nin yeni layihələrinin həyata keçirilməsinə imkan yaratmış, *"Azərbaycan Respublikası Prezidentinin uzaqgörənliyinin, eyni zamanda, ölkəmizin gələcəyə yönəlik investisiya siyasətinin bariz nümunəsi"* [162] faktını təsdiq etmişdir.

Bu dövrdə Türkiyə qaza olan ehtiyacını ödəmək üçün yollar axtarmaqda, üç ölkədən – Rusiya, Türkmənistan və Azərbaycandan qaz almaq fikrində olduqlarını açıqlamaqda idi. Eyni zamanda, hər üç ölkə Türkiyə bazarında yer almaq fikrində idi. Bu məsələdə Azərbaycanı maraqlandıran digər məsələ Türkmənistan qazının Azərbaycan vasitəsilə Türkiyəyə çatdırılması idi. Amma *"Türkmənistanın Rusiya*

*və İranla qaz müqaviləsi buna imkan vermirdi. Həm də İran və Rusiya aldıqları qazı Türkiyəyə daha yüksək qiymətlərlə satdığından Türkmənistan qazının Azərbaycan üzərindən çıxışına mane olmaqda idilər"* [477, s.24]. Belə olan şəraitdə 2001-ci ildə Heydər Əliyev Türkiyəyə səfəri zamanı Azərbaycan qazının Türkiyəyə satılması haqqında hökumətlərarası müqavilə imzaladı, burada təbii qazın alqı-satqısı da əks olunurdu. Bu müqavilənin şərtlərinə görə, *Azərbaycan Gürcüstan vasitəsilə Türkiyəyə ildə 6 milyard kubmetr ($m^3$) həcmində qaz satacaqdı* [213]. 2002-2006-cı illərdə inşa edilən Bakı–Tbilisi–Ərzurum qaz boru kəməri "Şahdəniz-1" yatağından hasil edilən təbii qazın Türkiyə və Avropa bazarlarına çıxarılmasını təmin etdi.

2006-cı ildən təbii qazın bazar qiymətlərinin qalxması qiymətlərə yenidən baxılmasını gündəmə gətirdi. Azərbaycanla Türkiyə arasında enerji məsələsindəki fikir ayrılığından doğan müzakirələr, nəhayət, 2010-cu ildə yekunlaşdı və iyunun 7-də Azərbaycanla Türkiyə arasında "Şahdəniz-1" və "Şahdəniz-2" yataqlarından hasil ediləcək qazın satış qiymətləri ilə bağlı müqavilə imzalandı [371]. Bu müqaviləyə əsasən 2008-ci il aprelin 15-dən Azərbaycandan Türkiyəyə satılan təbii qazın qiyməti yeniləndi. *"Bu, yenə də digər ölkələrin Türkiyəyə satdığı qazın qiymətindən aşağı olmuşdur. Məsələn, Türkiyə Respublikası Enerji Nazirliyinin 2012-2013-cü illərdəki hesabatlarına görə, Türkiyə Rusiyadan aldığı təbii qazın hər 1000 $m^3$-nə 429, İran qazına 507, Azərbaycandan aldığı təbii qaza isə 349 dollar ödəmişdir"* [518].

2012-ci il iyunun 26-da Azərbaycan və Türkiyənin birgə fəaliyyəti nəticəsində Azərbaycanın təbii qazını Türkiyəyə və Avropaya nəql edəcək TANAP (Transanadolu Qaz Boru Kəməri) müqaviləsi imzalandı. Uğurla gerçəkləşən enerji layihələrinin icrası mətbuatın da ciddi önəm verdiyi mövzulardan olmuşdur. Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, daha sonra "Şahdəniz" qazını Türkiyəyə çatdıran Bakı–Tbilisi–Ərzurum xətti iki ölkəni bir-birinə daha da yaxınlaşdırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd edib ki, *"Cənub Qaz Dəhlizinin rəsmi açılışı tarixi hadisədir. İyun ayında isə*

*TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, Cənub Qaz Dəhlizinin dörd layihəsindən üçü artıq reallaşıb – "Şahdəniz-2", Cənubi Qafqaz Kəməri və TANAP layihəsi. Dördüncü layihə – TAP qrafik üzrə icra edilir"* [378].

Türkiyə ərazisi ilə 1850 kilometr uzanan *"TANAP iki qardaş ölkənin iqtisadi həyatında, eləcə də bütün Avropanın sosial və iqtisadi durumunda mühüm hadisədir"* [478]. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Cənub Qaz Dəhlizinin açılış mərasiminin iştirakçılarına məktubunda deyilirdi: *"TANAP bölgənin taleyini dəyişdirəcək əhəmiyyətə malik əməkdaşlığımızın bir başqa bəhrəsidir"* [422].

Bütün bunlar da təsdiq etdi ki, Azərbaycan müstəqil dövlət kimi beynəlxalq layihələrin təşəbbüskarıdır. *"Onların sırasında TANAP ayrıca yer tutur. Çünki bu layihədən öncə gözlər "Nabucco" enerji layihəsinə dikilmişdi. Ancaq Qərb ölkələrinin günahı ucbatından "Nabucco"dan imtina edildi. O zaman Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türkiyədə yeni layihə ilə bağlı müzakirələr aparıldı. İki ölkə rəhbərliyi TANAP layihəsini hazırlamaq qərarına gəldi. Buna qarşı da inamsızlıq yaratmağa və onun qeyri-real olduğu fikrini aşılamağa çalışanlar tapıldı. Lakin Azərbaycan və Türkiyə liderlərinin siyasi qətiyyəti ilə 2018-ci il iyunun 12-də Əskişəhərdə TANAP-ın açılış mərasimi baş tutdu* [379].

2017-ci ilin oktyabrında regionun nəqliyyat xəritəsini dəyişdirəcək Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu istifadəyə verildi. Qeyd edək ki, BTQ-nin xəyal olduğu 1998-ci il sentyabrın 8-9-da Bakıda Böyük İpək Yolunun bərpasına dair konfransda Türkiyə prezidenti Süleyman Dəmirəlin də iştirakı layihənin həyata keçirilməsində iki ölkə arasında tərəfdaşlığın dərinləşməsinə stimul vermişdir. Bu beynəlxalq konfransdan 9 il sonra – 2007-ci il fevralın 7-də Gürcüstanda Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə üçtərəfli regional əməkdaşlıq sammiti sənədlərinin imzalanması ilə tarixi bir layihənin təməlinin qoyulması haqqında informasiya mətbuatın gündəmində önəmli xəbər idi. Bu, *"Azərbaycanın regionda və beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi olmaqla yanaşı, regionun nəqliyyat xəritəsini də dəyişdirəcək, Xəzər hövzəsi regionunun və Orta Asiya ölkələrinin Avropa və Çin ilə nəqliyyat əlaqələrinin qurulmasında xüsusi rol*

*oynayacaq bir hadisə idi”* [345]. Amma bu xarici ölkələrin, hətta supergüclərin, xüsusilə güclü erməni lobbisinin təzyiqi olmadan ötüşmədi və *“ABŞ Konqresi Bakı–Tbilisi–Qars dəmir yolunun maliyyələşdirilməsini ABŞ şirkətlərinə qadağan edən qanun qəbul etdi”* [345]. Xarici siyasətçilərin də yazdığı kimi, *“Ermənilər rus hərbi bazasının Gürcüstandan çıxarılma qərarına, Gürcüstan hökumətinin Türkiyə və Qərb dövlətləri ilə münasibətlərini möhkəmləndirməsinə, Türkiyə və Azərbaycanın Gürcüstanda mövqeyini gücləndirəcək hər cür addıma qarşı çıxıblar”* [508, s.2].

Erməni lobbisinin təzyiqləri ilə layihəyə qarşı duran ABŞ həqiqətə çevrilən layihəyə tam başqa mövqedən yanaşmağa başladı. Təbii ki, iqtisadi maraqların ortaya qoyduğu kifayət qədər geniş arqumentlər BTQ dəmir yolunun böyük potensialını təsdiq edirdi. Nəhayət, 2017-ci il oktyabrın 30-da baş tutan açılış mərasimi vaxtilə “xəyal” adlandırılan bu layihənin reallığını da təsdiq etdi. Bununla da bu mövzu təkcə Azərbaycan və Türkiyə mətbuatının yox, bütün dünya mətbuatının diqqətini çəkdi, o cümlədən Amerika mediası gerçəkləşən Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin açılışını manşet xəbəri ilə təqdim etdi.

İki ölkə qarşılıqlı sərmayə qoyuluşunun yüksək hədəfləri ilə diqqət mərkəzindədir. Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim deyir: *“Türkiyənin Azərbaycana investisiyaları 11, Azərbaycan şirkətlərinin Türkiyəyə investisiyaları isə 9 milyard ABŞ dollarıdır. SOCAR-ın Türkiyəyə investisiyalarının həcmi 2020-ci ilədək 17 milyard dollara çatacaq. Türkiyəyə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir”* [83, s.21-22].

Göründüyü kimi, Azərbaycanın Türkiyədəki investisiyaları da diqqətçəkəndir və ötən illərin statistikasında ən müxtəlif rəqəmlərlə xarakterizə olunur. *“Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf və tərəqqi konsepsiyasının prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu gün Azərbaycan dövlətinin nailiyyətlərinin əsasını təşkil edir”* [83, s.27]. Bu mənada prezident İlham Əliyevin fikirləri də maraq kəsb edir: *“Ölkələrin uğurlu inkişafını təbii resurslar həll etmir. Düşünülmüş siyasət, xalq-iqtidar birliyi, şəffaflıq, bütün*

*azadlıqların təmin edilməsi, düzgün iqtisadi siyasət və regional əməkdaşlıq uğurlu inkişafın əsas amilləridir"* [355]. Bu reallıqları dəyərləndirən "Xalq qəzeti" yazırdı: *"Enerji ehtiyatlarının dünya bazarlarına çatdırılmasında müttəfiqlik- üç böyük neft və qaz layihəsi – Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və Cənub Qaz Dəhlizi ilə bir-birinə daha sıx şəkildə birləşdirmişdir. Eyni zamanda, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın regionda və beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi olmaqla yanaşı, regionun nəqliyyat xəritəsini də dəyişdirəcək, Xəzər hövzəsi regionunun və Orta Asiya ölkələrinin Avropa və Çin ilə nəqliyyat əlaqələrinin qurulmasında xüsusi rol oynayacaq bir hadisə idi"* [154].

Bu gün Azərbaycanın Türkiyə iqtisadiyyatına investisiyalarının ümumi həcminin milyardlarla dollar olduğu təsdiq edilir. "Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın yeni üfüqləri" adlı tədbirdə iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov bildirib ki, *"Azərbaycanın Türkiyəyə investisiyaları 14,5 milyard dollar həcmində dəyərləndirilir. Türkiyə, öz növbəsində, Azərbaycana 11,8 milyard dollar yatırıb. Azərbaycanda Türkiyə kapitalı ilə 3400 şirkət, Türkiyədə isə Azərbaycan kapitalı ilə 2400 şirkət fəaliyyət göstərir"* [91].

Bütün bu uğurların əsasında isə xalqa arxalanan siyasət dayanmaqdadır. Hələ 2013-cü ilin 9 oktyabr seçkilərinin nəticələrini dəyərləndirən "Xalq qəzeti" yazırdı: *"Xalqın müdrik və dəyişməz seçiminə əsaslanmış ölkə vətəndaşları növbəti dəfə Heydər Əliyev siyasi kursunun zəfərinə, təntənəsinə səs vermişlər. Müdrik xalqımız bu seçimi ilə təkamülə əsaslanan inkişaf tərəfdarı olduğunu, ölkənin taleyini yalnız konkret planlara malik, çevik, işlək və monolit komandaya etibar etdiyini təsdiqlədi. Türkiyənin aparıcı kütləvi informasiya vasitələri prezident İlham Əliyevin seçkilərdəki inamlı qələbəsini geniş işıqlandırdı və dünyaya yaydı. Onu ilk təbrik edən lider də Türkiyə prezidenti oldu"* [233].

"Xalq qəzeti"nin müştərək regional layihələr, enerji və neft strategiyasının uğurlarını təqdim edən və təqdimat rəngarəgliyi ilə cox zəngin olan materiallar silsiləsi də təsdiq edir ki, Azərbaycan-Türkiyə əlaqələri dövrünün ən yeni mərhələsini yaşamaqdadır. Bu mərhələ şübhəsiz ki, tək Azərbaycan və Türkiyənin

yox, həm də bütün regionun ictimai-siyasi və iqtisadi həyatında mühüm rol oynayacaqdır.

## 3.2. Çoxtərəfli əlaqələrin dərinləşməsi və Azərbaycan–Türkiyə strateji tərəfdaşlığı mətbuatda

Müasir dünya düzənində illərin sınağından çıxmış və ən etibarlı tərəfdaş imici qazanmış Azərbaycan–Türkiyə münasibətlərinin daha da inkişaf etdirilməsi hər iki ölkənin strateji maraqlarına çevrilmişdir. *"Dövlət və hökumət başçılarının, eləcə də siyasi, iqtisadi, elm, təhsil, mədəniyyət və digər sahələrə aid strukturların qarşılıqlı əlaqələrinin genişləndirilməsi strateji tərəfdaşlıq amilini daha da gücləndirmişdir"* [153]. Hələ 1992-ci ilin martında Ermənistan hərbi qüvvələrinin Naxçıvana hücumlarına münasibət bildirən və "Washington Post" qəzetinə müsahibə verən Süleyman Dəmirəl türk hökumətinin *"Türkiyə ictimaiyyəti tərəfindən ciddi təzyiq altında olduğunu, daha ciddi addımlar atmaq və ya hərbi müdaxilə etmək məcburiyyətində olacağını bildirmişdi"* [509, s.61].

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın da baş nazir olarkən söylədiyi və "Xalq qəzeti"ndə dərc edilən fikirləri siyasi əhəmiyyətini bu gün də təsdiq edir: *"Bunu əminliklə söyləyə bilərəm ki, hansı siyasi iqtidar gəlirsə-gəlsin, bu əlaqəni poza bilməz. Çünki bizim aramızdakı əlaqələr qurumların əlaqəsi deyildir. Bizim aramızdakı əlaqə millətlərin əlaqəsidir"* [390].

2010-cu il mayın 16-da Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı hər iki dövlətin irəli sürdüyü Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması istiqamətində verilən qərar Türkiyə–Azərbaycan ikitərəfli münasibətlərinin qurulmasında yeni addım idi. Prezident İlham Əliyevin və Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın keçirdikləri birgə mətbuat konfransında bu məsələnin əhəmiyyətini dəyərləndirən qardaş ölkənin baş naziri deyirdi: *"Bu gün keçirdiyimiz görüşlərdə, ən önəmli addımlardan biri Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması istiqamətində verdiyimiz qərardır. Bu, çox geniş, hərtərəfli bir işdir və Türkiyə ilə Azərbaycan arasında gələcəyi əhatə edən ən mühüm addım olacaqdır"* [72].

Nəhayət ki, Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə özünü təsdiq etmiş tarixi-mənəvi əlaqələr 2010-cu il avqustun 16-da Türkiyə Respublikasının prezidenti Abdullah Gülün Azərbaycana səfəri zamanı “Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında” müqavilənin imzalanması ilə yeni bir mərhələyə qədəm qoydu. Bu, ənənəvi ortaqlığın və həmrəyliyin nəticəsi olmaqla, “Bir millət – iki dövlət” anlamının daha böyük çərçivədə bir daha təsdiqi idi. Müqavilə tərəflərin ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını tanımaqla, hər hansı birinin təhdid və ya təhlükə, üçüncü dövlət və ya bir qrup dövlət tərəfindən silahlı basqın və ya hərbi təcavüzə məruz qaldığında hərbi imkanlardan belə istifadə etməklə bütün zəruri tədbirlərin görülməsini, təxirəsalınmaz məsləhətləşmələr aparmağı, qarşılıqlı yardım göstərməyi təsdiqləyir. Bu, yeni dünya düzənində Azərbaycan və Türkiyə dövlətlərinin siyasi iradəsinin təntənəsi idi: *“Artıq dünyada gündəmi müəyyənləşdirilən bir ölkə olmaqdan çıxıb, gündəm müəyyən edən bir ölkəyə çevrilmişik”* [390].

Strateji əməkdaşığı şərtləndirən onlarca ciddi fakt olsa da, Dağlıq Qarabağ probleminin həlli yollarının axtarılması və siyasi iradənin ortaya qoyulmasını Türkiyə ilk gündən özünün ümdə məsələsi hesab etmişdir: *“Medvedevin Türkiyəyə səfərində də onunla bu mövzunu müzakirə etdik. Amerikada da istər Obama ilə, istərsə də Medvedevlə bu mövzunu müzakirə etmək imkanımız olmuşdu. Bundan bir həftə əvvəl də Sarkozi ilə Fransada bu mövzunu müzakirə etdik. Biz bu mövzu ilə əlaqədar həssaslığımızı eyni şəkildə davam etdiririk. Çünki Azərbaycanın bu probleminə bizim əhəmiyyət verməməyimiz mümkün deyildir”* [72].

Türkiyə prezidenti Abdullah Gülün 2010-cu il avqustun 16-da Azərbaycana səfəri zamanı "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə" imzalandı [73]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyanatla çıxış edərək dedi: *“Bu gün imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə böyük tarixi əhəmiyyətə malik olan bir sənəddir. Bu müqavilə gələcək fəaliyyətimizi müəyyən edir”* [75]. Milli Məclisinin sədri Oqtay Əsədov Türkiyə prezidenti ilə görüşündə müqavilənin siyasi əhəmiyyətini bir daha qabardaraq qeyd etmişdir: *“Bu sənədlər*

*bizim ikitərəfli əlaqələrimizin daha da möhkəmlənməsi və inkişaf etməsi üçün hüquqi baza yaratmışdır"* [5].

Türkiyə prezidenti Abdullah Gül hərbi əməkdaşlıq və Dağlıq Qarabağ probleminin Türkiyə üçün öndə durduğunu əvvəllər də qeyd etmişdi: *"Türkiyə Azərbaycanın maraqlarına zidd addımlar atmayacaq və Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün səylərini əsirgəməyəcəkdir"* [388]. "Gülüstan" sarayında rəsmi ziyafət mərasimində Abdullah Gül bu məsələ üzərinə bir daha qayıdaraq bildirir: *"Azərbaycanın ərazi bütövlüyü, Azərbaycanın işğal altındakı torpaqlarının azad edilməsi sadəcə sizin məsələniz deyil, hamımızın məsələsidir. Qafqazda sabitliyin, sülhün və əmin-amanlığın bərqərar olması, işğalın sona çatması üçün Türkiyə əlindən gələn bütün səyləri göstərməyə davam edəcəkdir"* [190]. Azərbaycanın dövlət başçısı da müqavilənin əhəmiyyətini diqqətə çatdırdı: *"Bu müqavilə bundan sonra onilliklər ərzində Türkiyə ilə Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətlərini müəyyən edəcəkdir"* [189].

"Xalq qəzeti" Türkiyə prezidentinin ölkəmizə səfərini dəyərləndirərək yazırdı: *"Müqavilənin imzalanması beynəlxalq aləmdə diqqət mərkəzində idi. Xüsusilə Ermənistan rəhbərliyi müqavilənin imzalanmasından ciddi narahatlıq hissi keçirirdi. Ekspertlər Rusiya prezidenti Dmitri Medvedevin 49 illik hərbi müqavilənin imzalanmasını nəzərdə tutan Ermənistan səfəri ərəfəsində Türkiyə prezidenti Abdullah Gülün Azərbaycana səfəri, strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə imzalanmasını çox yüksək qiymətləndirirlər"* [117].

Xatırladaq ki, 2010-cu ilin 15 sentyabrında keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının İstanbul sammitindən əvvəl Azərbaycan–Türkiyə ikitərəfli danışıqlarının rəsmi nəticəsi iki ölkə arasında Strateji Əməkdaşlıq Şurasının yaradılmasına dair imzalanmış sənəddir. Birgə Bəyannamənin imzalanması [87] strateji əməkdaşlıq səviyyəsində əlaqələrin daha da möhkəmlənməsini təmin etdi. Şuranın yaradılmasına siyasi dəyər verən Prezident İlham Əliyev bəyanatında deyirdi: *"İmzalanmış sənəd, aslində, bu günə qədər görülən işlərə, bir növ, yekun vurur, strateji tərəfdaşlığımızın gələcək inkişafını müəyyən edir"* [95].

Strateji Əməkdaşlıq Şurasının yaradılmasından danışan Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, Milli Məclisin Azərbaycan–Türkiyə parlamentlərarası işçi qrupunun rəhbəri Nizami Cəfərov "Xalq qəzeti"nə bildirmişdi ki, *"Azərbaycan–Türkiyə münasibətləri "bir millət – iki dövlət" prinsipinə uyğun olaraq uğurla inkişaf edir. Azərbaycan və Türkiyə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamənin imzalanması münasibətlərinin dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını nümayiş etdirmişdir"* [133].

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ilk toplantısı 2011-ci il oktyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə İzmirdə keçirildi. İki qardaş ölkədən 10 nazirin iştirak etdiyi toplantıda ikitərəfli əlaqələr geniş müzakirə olunmaqla 20-yə yaxın sənəd imzalandı. Bir il sonra Azərbaycana səfəri ərəfəsində Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan Ankaranın "Esenboğa" hava limanında mətbuat konfransında məsələnin strateji tərəfinə ciddi önəm verildiyini söyləmişdir: *"Azərbaycanda keçirəcəyimiz görüşlərdə Cənubi Qafqazda sülhün bərqərar olması istiqamətindəki səylərlə bağlı da geniş müzakirələr aparacağıq. Bu çərçivədə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında sülh yolu ilə həllini bir daha bəyan etmək imkanımız da olacaqdır"* [109].

"Xalq qəzeti"nin səfər haqqında dərc etdiyi materiallar bir daha göstərdi ki, Azərbaycan–Türkiyə münasibətlərində Dağlıq Qarabağ mövzusu birmənalı olaraq gündəmdədir. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan birgə mətbuat konfransında bunu bir daha təsdiq edir: *"Dəyərli qardaşımla təkbətək görüşdə ikitərəfli əlaqələrimizi ətraflı nəzərdən keçirmək fürsətimiz oldu, ən önəmlisi, təbii ki, Dağlıq Qarabağ mövzusunu təkrar müzakirə etmək fürsətimiz oldu. Dağlıq Qarabağ mövzusundakı mövqeyimiz, düşüncəmiz, mübarizəmiz – hər şeyimiz birdir. Azərbaycan üçün Dağlıq Qarabağ mövzusu necə bir qanayan yaradırsa, bizim üçün də elə qanayan bir yaradır"*[78]. Baş nazir Ərdoğanın səfərinin yekununu şərh edən siyasilər bildirir: *"Azərbaycan və Türkiyənin dövlət başçılarının bəyanatları da göstərdi ki, iki dövlətin arasına girmək olmaz"* [243].

Türkiyə rəsmiləri dəfələrlə bildiriblər ki, Cənubi Qafqazda daimi sülhün olması üçün, hər şeydən əvvəl, müharibə ocağı olan Dağlıq Qarabaq probleminin həlli önəmli şərtlərdəndir. Təbii ki, illərdir Türkiyənin Dağlıq Qarabağ probleminin həlli ilə bağlı mövqeyində heç bir dəyişiklik olmayıb, hətta bu məsələdə Türkiyə Azərbaycan ilə eyni fikirdə və mövqedə olduğunu dəfələrlə açıqlamışdır. “Xalq qəzeti” bu mövqeyi təkcə təsdiqləmir, həm də qardaş ölkə ictimaiyyətinin və iqtidarının yekdil mövqeyini sərgiləyir: *“Əlaqələrimizin çiçəklənməsi, təbii ki, Türkiyəyə və Azərbaycana düşmən kəsilən qüvvələri ciddi narahat edir. Buna görə də türk düşmənləri iki ölkə arasında münasibətlərə mənfi təsir göstərmək üçün daim yeni vasitələrə əl atırlar. 2009-cu il oktyabrın 10-da İsveçrənin Sürix şəhərində Türkiyə ilə Ermənistan arasında "Diplomatik münasibətlərin təsis olunması"na və "İkitərəfli əlaqələrin inkişaf etdirilməsi"nə dair protokolların imzalanmasına nail olan bəzi tərəflər də elə düşünürdülər ki, bu yolla əzəmətli Türkiyəni cılız Ermənistan qarşısında diz çökdürəcəklər. Ancaq alınmadı. Qardaş ölkənin bütün ictimaiyyəti və istər iqtidar, istərsə də müxalifət partiyalarından olan nümayəndələr məkrli planlara qarşı çıxdılar. Türkiyə rəhbərliyi bəyan etdi ki, Azərbaycan torpaqları işğaldan azad edilməyənədək Ermənistanla əlaqələrin qurulmasından söhbət gedə bilməz”* [170].

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının fəaliyyətini dəyərləndirən “Xalq qəzeti” yazırdı: *“2012-ci il sentyabrın 11-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclasının keçirilməsi ikitərəfli Azərbaycan–Türkiyə münasibətlərinin yeni mərhələsi kimi qiymətləndirilə bilər. 2013-cü il noyabrın 13-də Ankarada keçirilən üçüncü, 2015-ci il yanvarın 15-də isə dördüncü iclasda Azərbaycanla Türkiyə arasında iqtisadiyyat, enerji, energetika, nəqliyyat, müdafiə, humanitar sahələrdə əməkdaşlığın perspektivləri, Bakı–Tbilisi–Qars, TANAP layihələri ilə bağlı işlərin uğurlu gedişi, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi müzakirə olunub. İkitərəfli, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılmışdır”* [153].

Strateji Əməkdaşlıq Şurasının beşinci iclası 2016-cı ilin 15 martında Bakıda keçirilməli idi. Paytaxt Ankarada törədilən terror aktı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana nəzərdə tutulan səfərini bir ayda ikinci dəfə təxirə saldı. Lakin bunun qarşılığında Azərbaycan Respublikasının Prezidenti planlaşdırılan iclasın Ankarada keçirilməsi barədə təşəbbüslə çıxış etdi. "Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası martın 15-də Ankarada keçiriləcək" xəbəri Türkiyəni lərzəyə salan terror hadisəsindən qat-qat sürətlə yayıldı və dövlət başçısı İlham Əliyevin düşmən xəyanətinin acısını yaşayan Türkiyəyə getməsi milyonların qəlbini riqqətə gətirdi. Ən böyük alqışı isə, təbii ki, qardaş ölkənin dövlət başçısının dilindən eşitdik: *"Millətimizin və ölkəmizin bu çətin günündə – Ankaranın mərkəzində, Kızılayda tamamilə mülki əhaliyə qarşı həqiqətən çox ciddi terror aktı – terrorçu-intiharçının törətdiyi hücumla bağlı göstərdiyiniz həmrəyliyə görə öz adımdan və millətimiz adından təşəkkür edirəm. ...Bu səfərinizlə bütün dünyaya, xüsusilə də dünyadakı bütün terror təşkilatlarına və onların arxasındakı qüvvələrə çox güclü və dəqiq mesaj verdiyinizə əminəm. Sizə millətim adından bir daha təşəkkürümü bildirirəm"* [101].

"Xalq qəzeti" bildirir ki, martın 15-də Ankarada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası başa çatdıqdan sonra "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclasının Protokolu"nu Azərbaycan və Türkiyə prezidentləri imzaladılar. Türkiyə–Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının Ankarada keçirilən beşinci iclasında enerji, nəqliyyat məsələləri ilə yanaşı, müdafiə, hərbi və bütün bu istiqamətlərdə əməkdaşlıq da müzakirə edilmiş və altı müqavilə imzalanmışdır [101].

Tədbirdən sonra mətbuata bəyanatlarla çıxış edən Azərbaycan və Türkiyə prezidentləri yekdil mövqelərini bir daha bəyan etdilər. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan: *"Görüşlərimizdə hərbi sənaye və təhlükəsizlik məsələlərini bir daha müzakirə etdik. Müdafiə sənayesi sahəsində bəzi konkret addımların atılmasını qərarlaşdırdıq. Keçiriləcək Üçüncü Türkiyə–Azərbaycan Müdafiə*

*Sənayesi Əməkdaşlığı Toplantısının bu baxımdan mühüm fürsət olacağına inanıram".* Yaxud İlham Əliyevin dediyi kimi: *"Nə qədər Türkiyə güclü olarsa, bir o qədər biz güclü olacağıq. Bizim gücümüz birliyimizdədir. Türkiyə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq normalarına uyğun həllinin tərəfdarı olmuşdur və bu dəstək bu gün də göstərilir"* [97].

2017-ci il oktyabrın 31-də isə Bakıda Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti – altıncı toplantısı keçirildi. Toplantıda iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunmuş və 6 mühüm sənəd imzalanmışdır. Ənənəvi olaraq "Xalq qəzeti" tədbirin ictimaiyyətə çatdırılmasında bütün yaradıcı və texniki imkanlardan istifadə etməyə çalışmışdır. Yeri gəlmişkən qeyd edək ki, tədbirin açılışı tarixi İpək Yolunun – Bakı-Tbilisi-Qars dəmir yolunun acılış mərasiminə təsadüf edir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuata bəyanatında dediyi kimi, *"Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsini, atdığımız addımın nəticəsini görmək bizi çox qürurlandırır"* [100]. Oktyabrın 31-də sənədlərin imzalanması mərasimindən sonra hər iki ölkənin prezidentləri mətbuata bəyanatlarla çıxış etdilər. Prezident İlham Əliyev bildirmişdir: *"Bu gün region üçün ən ağrılı problemlərdən biri olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. Mən prezident Ərdoğana danışıqlarla bağlı son vəziyyət haqqında məlumat verdim. Əfsuslar olsun ki, bu münaqişə hələ də öz həllini tapmayıb"* [98].

Ankarada 2018-ci il aprelin 25-də Azərbaycan və Türkiyə dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclası keçirilib [102]. İclasda çıxış edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan *"Biz Türkiyədə hər zaman "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyərək hərəkət edirik və dar gündə də, yaxşı gündə də qardaşlarımızın yanındayıq. Azərbaycanda da bu vəziyyət eynidir. Bu baxımdan FETÖ, PKK, PYD, YPG, İŞİD terror qruplaşmaları ilə mübarizəmizdə heç vaxt dəstəyini əsirgəməyən Azərbaycan xalqına xüsusilə təşəkkür edirəm. Türkiyə Silahlı Qüvvələrinin Afrində keçirdiyi "Zeytun budağı"*

*əməliyyatını həm Azərbaycan hökuməti, həm də Azərbaycan xalqı öz mübarizəsi hesab edib"* [102] demişdir.

Növbəti prezident seçkilərindən sonrakı ilk rəsmi xarici səfərini Ankaraya edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də çıxışında Türkiyə və Azərbaycanın bir-birinə ən yaxın müttəfiqlər olduğunu vurğulamışdır: *"Biz hər zaman bir-birimizin yanında olmuşuq. Bu gün də belədir, sabah da belə olacaq. Türkiyə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və həmişə bizim yanımızda olmuşdur. Biz də, öz növbəmizdə, Türkiyənin yanındayıq. Hörmətli prezidentin də qeyd etdiyi kimi, terrora qarşı mübarizədə, "Zeytun budağı" əməliyyatının aparılmasında həmişə Azərbaycan dövləti və xalqı birmənalı şəkildə Türkiyənin yanında olub. Bu, bizim qardaşlıq borcumuzdur"* [102].

Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasında Azərbaycanın və Türkiyənin dövlət başçıları İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclasının Protokolu" və 5 sənəd, o cümlədən Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akar "Şəxsi heyətin mübadiləsinə dair Protokol" imzalamışlar [173].

Bütün dövrlərdə Türkiyə–Azərbaycan münasibətləri həm iki ölkə, həm də region üçün çox önəmli rol oynamışdır. Ölkələrimiz arasında əlaqələr tarixi-siyasi zəmin üzərində inkişaf etməklə, bütövlükdə regionun siyasi taleyinin və inkişaf perspektivlərinin müəyyənləşməsində mühüm rol oynayır. Təkcə Azərbaycan və Türkiyənin hakimiyyət dairələrinin yox, xalqlarımızın da mövqeyini dəyərləndirən "Xalq qəzeti" yazır: *"Azərbaycan və Türkiyə, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eləcə də türk dünyasını bir araya gətirən qurumlarda çox fəal ölkələrdir. 2015-ci ildə Türkiyə "G-20"yə ev sahibliyi etdi. Bu, Türkiyəyə digər bir ölkəni həmin tədbirə qonaq kimi dəvət etmək hüququ verirdi. Türkiyə də bu məsələdəki yeganə haqqını Azərbaycan üçün istifadə etdi"* [155].

Yeri gəlmişkən bir faktı da söyləmək yerinə düşər ki, *"2000-ci illərin əvvəllərindən Rəcəb Tayyib Ərdoğanın Türkiyədə hakimiyyətə gəlməsi ilə bu*

*əlaqələr daha da inkişaf edib. İqtisadi əlaqələrin həcmi artıb, yeni enerji layihələrinin imzalanması uğurla həyata keçirilib. TANAP layihəsi də məhz Ərdoğanın hakimiyyəti dövründə imzalanıb"* [155]. Bu baxımdan da Azərbaycan mətbuatında, eləcə də "Xalq qəzeti"ndə Azərbaycan–Türkiyə strateji əməkdaşlığı məsələləri daim gündəmdə olmuşdur. Qəzetdə dərc edilən rəsmi və digər tipli materialların təhlili də göstərir ki, "*Türkiyə–Azərbaycan əlaqələrini başqa ölkələr arasındakı münasibətlərlə müqayisə etmək mümkün deyil. Bu əlaqələr bütün məsələlərdə, ən önəmlisi də beynəlxalq və regional platformalarda həmrəylik səviyyəsindədir: bütün mövzularda Türkiyə Azərbaycanı, Azərbaycan da Türkiyəni dəstəkləyir. Azərbaycan və Türkiyə iki dövlət olsa da, ümumi hədəfləri birdir"* [155]. Regionda yeni əməkdaşlıq imkanları, yeni enerji xəritəsi, milli və transmilli maraqlar Ankara və Bakını birləşdirir. Hər iki dövlətin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması istiqamətində verdiyi qərar Türkiyə–Azərbaycan ikitərəfli münasibətlərinin qurulmasında uğurlu addım olmuşdur.

"Xalq qəzeti"nin təqdimatında araşdırdma mövzusu olan çoxsaylı materiallar da bunların göstəricisi olmaqla, həm də qənaətimizi təsdiqləyir: xalqlarımızın həyatında keşməkeşli tarixi ilə önəmli yeri olan bu birlik yeni hadisə olmasa da, yeni dünya düzənində yeni reallıqdır. Qəzetin təqdim etdiyi, istər mövzu, istərsə də janr müxtəlifliyi ilə fərqlənən materiallar da bunun əyani misallarıdır. Qeyd etmək yerinə düşər ki, bu materiallar təkcə dövlət rəhbərlərinin çoxsaylı bəyanat, açıqlama və müsahibələri ilə məhdudlaşmır, həm də hər iki ölkənin dövlət, siyasət və elm adamlarının, çoxsaylı müəllif və qəzet əməkdaşlarının, bir çox hallarda hətta xarici ölkə siyasətçilərinin, eləcə də xarici mətbuatın, o cümlədən Amerika, Avropa, İsrail, Rusiya, eləcə də adlarını çəkə bilmədiyimiz onlarca ölkənin mətbuatında dərc edilmiş analitik təhlilə əsaslanan məqalələrin təqdimatı ilə də diqqətdə olmuşdur. Təbii ki, bu məsələlərin mətbuatda təqdimatına çox böyük məsuliyyət və yaradıcılıq potensialı ilə yanaşan redaksiya kollektivi qarşıya qoyduğu və məqsəd hesab etdiyi vəzifələrin öhdəsindən layiqincə gələ bilmiş, Azərbaycan – Türkiyə münasibətlərinin bütün incəliklərini özünün önəmli mövzusu kimi geniş oxucu dairəsinə təqdim edə bilmişdir. Heç

şübhə etmirəm ki, bu mətbuatın, eləcə də böyük ənənələrə və tarixə sahib olan "Xalq qəzeti"nin təkcə vəzifəsi yox, həm də uğuru hesab edilə bilər. Qəzetin dərc etdiyi bu materiallar silsiləsi Müstəqil Azərbaycan dövlətinin və xalqının mövqeyi olmaqla da maraq doğurur, eyni zamanda ən yeni tariximizin öyrənilməsində olduqca etibarlı, əhatəli və bütün mövzularda çox zəngin bir xəzinə olduğunu da ortaya qoyur və sübut edir.

### 3.3. Yeni tarixi çağırışlar kontekstində terrorizmə qarşı mübarizə və ümumtürk həmrəyliyi

Günümüzün ən aktual məsələlərindən biri kimi diqqət mərkəzində olan terror, həm də dünyanın ən ağrılı bəlasına çevrilmişdir. Terrorizmin qorxunc bir kabus kimi dünyanın hər yerinə yayılması, fəlakət və amansızlıqları KİV-in həyəcanla yazdığı mövzulardandır. "Xalq qəzeti" bu qorxunc kabus haqqında yazırdı: *"Terrorçuluq bəşəriyyətin ən qorxunc kabusudur. Bu kabus dünyanın bütün ölkələrinin başı üzərində dolaşır. Cinayətkarlığın ən təhlükəli formalarından biri olan bu dəhşətli hadisələri törədənlərə heç bir halda haqq qazandırmaq mümkün deyil"* [116]. Təəssüflər olsun ki, özündə siyasi, dini və ya iqtisadi hədəflərə çatmaq məqsədilə hər cür zorakılığı birləşdirən terror və ya terrorizm uzun müddət dünyanın lazımınca diqqət ayırmadığı məsələlərdən olmuşdur. Hətta onlarca fakt var ki, buna olduqca etinasız münasibətlər bəsləməklə dini don geydirilmiş, demokratiya və insan haqları haqqında bağıran hüquq müdafiəçiləri İslam coğrafiyasında milyonlarla müsəlman terrorun qurbanı olanda susmağa üstünlük vermişlər. Amma 2001-ci il sentyabrın 11-də ABŞ-da baş verən terror aktı [516] və ondan sonra Rusiyada, Türkiyədə, Fransada baş verən terror hadisələri göstərdi ki, terror artıq müsəlman dünyasının çərçivəsindən çıxmış, Qərbə və Avropaya yönəlmişdir. Parisdə 12 insan qətlə yetiriləndə, az qala, bütün dünya ayağa durdu, dünya mətbuatı bu terror aktından yazdı, dünya liderləri Fransaya başsağlığı verdi və Parisdə 1 milyon 300 min insanın iştirakı ilə həmrəylik yürüşü keçirildi [515]. "Charlie Hebdo" jurnalına dəstək aksiyasına 50-yə qədər ölkənin hökumət və dövlət rəhbərlərinin qatılması olduqca önəmli hadisə

idi, amma terror aktlarına verilən dəyərin dövlət, şəxsiyyət və coğrafiya ilə müəyyənləşdirilməsi heç cür qəbuledilməz və dözülməzdir" [304].

Terrorizmlə mübarizədə ABŞ-da baş tutan 11 sentyabr 2001-ci il hadisəsi yeni bir mərhələ oldu. "Əl-Qaidə"nin üzərinə götürdüyü bu hücumdan sonra, "Taliban" və İŞİD kimi terror təşkilatları İslam dini adına cihad etdiklərini bildirməklə, "islamçı terrorizm" anlayışını gündəmə gətirdilər. Hətta çox sonralar Almaniya kansleri Angela Merkeli qəbul edən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan birgə mətbuat konfransında Merkelin işlətdiyi "islamçı terror" ifadəsinə sərt reaksiya göstərərək *"Xalqım bu məsələni səhv başa düşə bilər. Terror təşkilatı DEAŞ-a görə "islamçı terrorizm" ifadəsini işlətsək, bu, biz müsəlmanları kədərləndirər. Çünki İslam ilə terrorizm bir araya gəlməz. İslamın hərfi mənası sülhdür. Bunu, xahiş edirəm, istifadə etməyək. Çünki istifadə edildiyi təqdirdə biz bunun qarşısında durmaq məcburiyyətindəyik, səssiz qalsaq, qəbul edilər. Müsəlman bir prezident kimi bunu heç vaxt qəbul edə bilmərəm"* [340] ifadələrini işlətdi.

Digər tərəfdən, 11 sentyabr hadisələrindən sonra baş verənlərə diqqət etdikdə terrorun pərdəli məqsədlərini, hətta kimə və nəyə xidmət etdiyini belə bəzi ehtimallarla söyləmək olur. Dünyada məşhur "Solğun at" kitabının müəllifi, ABŞ-ın xüsusi xidmət orqanlarında uzun illər çalışmış Uilyam Kuper mediaya müsahibəsində deyirdi ki, *"sentyabrda terror aktları törədiləcək və məsuliyyəti Usamə bin Laden adlı bir nəfərin üstünə qoyulacaqdır". Az keçmir, Kuper müəmmalı şəkildə güllələnərək öldürülür"* [225]. Buna bənzər taleyi Mərkəzi Kəşfiyyat İdarəsinin digər bir əməkdaşı, keçmiş pilot Filipp Marşal da yaşayır. Əslində, bu barədə bu kimi onlarca fakt mətbuatın gündəmində olmuşdur, bu gün də var. Bunların həqiqət axtarışında nə qədər dəyərli olduğunu söyləmək çətin olsa da, dəyişməyən bir fakt var: terror hücumlarından ən çox zərər görən müsəlman ölkələridir. İraq, Türkiyə, Pakistan, Əfqanıstan kimi ölkələr cinayətkar qrupların savaş meydanı olmuşdur, ən acınacaqlısı da odur ki, baş verən terror aktları dünyaya amansız faciə və qırğınlar gətirən hadisədən çox statistik məlumatlar kimi təqdim olunur. Digər bir qənaət də budur ki, 11 sentyabr terror aktının

məsuliyyətini “Əl-Qaidə” təşkilatı üzərinə götürdükdən sonra Amerika Birləşmiş Ştatları üçün Əfqanıstanda, daha sonra İraqda hərbi əməliyyatlar keçirmək sanki çoxdan gözlənilən “yağlı” bir fürsət oldu. Terrorla mübarizə adlandırılan “ərəb baharı” dinc insanlara fəlakətlər “bəxş etdi”.

Terrorizmin ayrı-ayrı ölkələrin sərhədlərini aşaraq beynəlxalq aləmi ciddi narahat etməyə başlaması, terror dalğasının Qərbə və Avropaya yönəlməsi dünya dövlətlərini beynəlxalq terrorizmə və təcavüzkar separatizmə daha həssaslıqla yanaşmağa, terrora və onu dəstəkləyənlərə qarşı barışmaz mövqenin ortaya qoyulmasına vadar etmişdir. Azərbaycan terrorizmlə mübarizədə beynəlxalq birliyin səylərini müdafiə etmiş, terrorizmin forma və təzahürlərinə qarşı barışmaz mövqedə dayanan dövlət olmuşdur. ABŞ Dövlət Departamentinin hesabatında *“Azərbaycanın Birləşmiş Ştatlar və beynəlxalq təhlükəsizliyə dəstək qüvvələrinə Əfqanıstanda hərbi əməliyyatlar aparmaq üçün öz hava məkanından istifadəyə icazə verməsi və 90 nəfərlik hərbi heyətin sülh əməliyyatlarında iştirakı xüsusilə vurğulanır”* [39].

SSRİ-nin süqutundan sonra terrora ən çox məruz qalan respublikalardan olan Azərbaycan bu gün də dünyanın ikili standartları ilə üz-üzədir. Erməni terror təşkilatlarının bir-birinin ardınca törətdikləri terror aktları nəticəsində 2500-dən artıq soydaşımız qətlə yetirilmiş, çoxlu sayda günahsız insan ömürlük şikəst olmuşdur. Ermənistan tərəfindən müxtəlif dövrlərdə ölkəmizə qarşı 50-dən çox terror aktı həyata keçirilmiş, uşaqlar, ahıl insanlar, hətta hamilə qadınlar belə erməni terrorunun qurbanına çevrilmişdir [116]. Dinc əhaliyə qarşı törədilmiş kütləvi qətllərin ən dəhşətlisi olan Xocalı soyqırımı ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasəti ən qanlı səhifələrindəndir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə qəddarlıqla törədilmiş bu qətliamı “Times”, “İzvestiya”, “Sunday Times”, “Financial Times”, “La Monde” qəzetləri, “Valer actual”, “Krua”, “Eveneman” jurnalları və digər mətbu orqanlar bəşəri cinayət adlandırmışlar.

Dünya birliyi terrorizm və separatizmdən müdafiə üçün ciddi tədbirlər görməkdədir. Amma çox təəssüf ki, beynəlxalq ictimaiyyəti ciddi narahat edən

terrorizm yenə də dünyaya ağalıq edir. Çünki *“Terror təşkilatları dünyanı qan gölünə döndərmək uğrunda sanki yarışa giriblər. Bunun əsas səbəblərindən biri də dünya birliyinin terrorizmin qarşısını vaxtında almamasıdır. Vaxtında Ermənistanın nazı ilə oynamasaydılar, işğalçı dövlətin törətdiyi terror aktlarına ciddi münasibət bildirilsəydi, bu gün ASALA, PKK, “Əl-Qaidə”, “Hizbullah”, “Taliban”, İŞİD kimi terror təşkilatları öz şəbəkələrini bu qədər genişləndirə bilməzdilər”* [116]. Beləliklə, bu mövzuda “Xalq qəzeti”nin səhifələrində işıq üzü görmüş məqalə və məlumatları 3 qrupda təqdim etmək olar:

- birinci qrupa Türkiyənin PKK-nın terror təşkilatına qarşı mübarizəsinin dinamikasını, mahiyyət və xarakterini;
- ikinci qrupa dünya birliyinin, ayrı-ayrı təşkilat və dövlətlərin PKK terror təşkilatına qarşı mübarizəsini və eyni zamanda dəstəyini;
- üçüncü qrupa isə terrorla mübarizədə Azərbaycan dövlətinin və xalqının qardaş Türkiyəyə və türk xalqına dəstəyini əks etdirən materialları aid etmək mümkündür.

### 3.3.1. Türkiyənin PKK terror təşkilatına qarşı mübarizəsi

Terror təşkilatı kimi tanınan Kürdüstan Fəhlə Partiyasının (PKK) fəaliyyətinə qarşı mübarizə Türkiyənin terrorla mübarizə tarixinin önəmli bir hissəsini təşkil edir. Azərbaycan mətbuatında, o cümlədən “Xalq qəzeti”ndə PKK-nın yaranması, dünya terror təşkilatları ilə birliyi, törətdiyi terror aktları haqqında dərc edilən informasiya və materialların, bir az da dəqiq desək, PKK adının keçdiyi məqalə və şərhlərin sayı düşünüləndən də çoxdur. Sadə bir statistikaya nəzər yetirməklə bunu görmək mümkündür: *“Müasir dünya siyasətinin formalaşmasında özünəməxsus rolu olan Türkiyə son 3 il ərzində beynəlxalq terrorçu qüvvələrin əsas hədəfindəki dövlətlər sırasındadır. Təkcə 1 il 6 ayda (yanvar 2015-iyun 2016) ölkədə 300-dən çox adam terror nəticəsində həyatını itirmiş,1600 nəfərdən çoxu isə yaralanmışdır”*[318]. Azərbaycan mətbuatında bu kimi məlumatların yer alması bir tərəfdən Türkiyə–Azərbaycan münasibətləri ilə əlaqələndirilsə də, digər tərəfdən, Azərbaycanın terrora və terrorizmə qarşı barışmaz mövqeyinin ifadəsidir.

Türkiyə 40 ilə yaxındır ki, PKK terroru ilə mübarizə aparır. Uzun illərdir ki, bu barədə informasiyalar mətbuatın gündəmindən düşməmiş, nə qədər operativ və qabaqlayıcı tədbirlər görülsə, qərarlar çıxarılıb, ən yüksək dairələrdə bəyanatlar verilsə belə, terror səngimək bilməmişdir. Əslində, bu dinamika güvəncli bir şəkildə böyümüş, Türkiyə ərazisində əhatəsini genişləndimişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra təkcə "Xalq qəzeti"ndə dərc edilən bu xəbərlərin statistikasına baxanda terrorun hər gün davam etdiyini görürük. Adlar, məkanlar dəyişsə də, məram və məqsəd, terrorun gətirdiyi faciə və ölümlər dəyişməmişdir.

"Xalq qəzeti"nin təqdim etdiyi bu xəbərlərin məlumat və mövzu dairəsinə yaxından diqqət edək: "Türkiyənin təhlükəsizlik qüvvələrində olan məlumatlara əsasən, hücumu İraqın şimalından gələn terrorçu dəstələr həyata keçirib. Bu səbəbdən türk ordusunun rəhbərliyi PKK-çıların zərərsizləşdirilməsi üçün hərbi əməliyyatların Şimali İraqda da davam etdirilməsi barədə qərar qəbul edib" [172], "Türkiyənin Hakkari vilayətində baş verən partlayışlarda şəhid olanların sayı 11 nəfərə çatıb. Hazırda PKK terrorçularının zərərsizləşdirilməsi məqsədilə əməliyyat davam edir" [398], "Almaniya Xarici İşlər Nazirliyi PKK terror təşkilatının hücumları üzündən Türkiyə istiqamətində səyahətə çıxan vətəndaşlarını terror təhlükəsindən qorunmağa çağırıb. Almaniya hökumətinin bəyanatında terror hədələrinin ölkə daxilində mülki vətəndaşları və dinc sakinləri də gözlədiyi bildirilib" [2], "Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus təyyarələr PKK terror qruplaşmasına aid bir çox hədəflərlə yanaşı, İran və İraq sərhədlərinin birləşdiyi bölgələri də bombardman edib. Həmin bombardmana 24 təyyarə qatılıb. Qeyd edək ki, 2003-cü ildən bəri Türkiyədə ilk dəfə PKK-ya bu şəkildə ağır zərbə endirilib" [404], "Hakkari vilayətində daha bir ağır terror aktı baş verib. Terrorçular bu dəfə də türk hərbçilərini hədəfə alıblar. Əsgərləri daşıyan avtobus qəfildən terrorçuların hücumuna məruz qalıb" [398], "Türkiyə mətbuatının verdiyi məlumata görə, Hakkari ərazisi ilə hərəkət edən avtobusun yaxınlığında bomba partladılıb. 10 əsgərin yaralandığı bildirilir. Partlayış avtobusun yararsız vəziyyətə düşməsi ilə nəticələnib. Hadisədən sonra Türkiyə hərbi qüvvələrinin bölgədə apardığı antiterror əməliyyatları daha da gücləndirilib" [178], "Baş qərargah İraqın

şimalında PKK-ya qarşı keçirilən hərbi əməliyyatların nəticələrini açıqlayıb: 90-100 terrorçunun məhv edildiyi müəyyənləşib. Yaralı terrorçuların sayı 80-dən çoxdur. PKK-ya məxsus çoxlu sayda mağara, sığınacaq, bina-tikili, cəbbəxana, nəzarət məntəqələri də dağıdılıb" [461], "Baş qərargah ölkə daxilində 5 ayda keçirilən əməliyyatlarda 330 terrorçunun məhv edildiyini, 24 terrorçunun təslim olduğunu, 33 terrorçunun yaxalandığını bildirib. Eyni müddətdə 88 hərbçi şəhid olub" [458]...

Qəzetdə terror aktına dair təqdim olunan onlarca xəbərin, demək olar ki, hər birinin məzmunu bu cürdür, sadəcə, ölənlərin və öldürülənlərin sayı müxtəlifdir. Əslində, sərlövhələr də bir-birinə bənzəyir: "Türkiyənin Hakkari vilayətində 53 PKK terrorçusu öldürülmüşdür" [406], "Türkiyə Hərbi Hava Qüvvələri PKK-ya ağır zərbə endirmişdir" [408], "Türkiyə trrror ilə üz-üzədir" [432], "Türkiyənin cənub-şərqindəki Şəmdinli qəsəbəsi ərazisində bir ay ərzində 318 PKK terrorçusu məhv edilib" [402], "Türkiyədə PKK ilə atışmada 10 əsgər şəhid olub, 20-dən çox terrorçu məhv edilib" [397], "Türkiyədə daha bir terror aktı törədilib" [180], "Suriyada PKK üzvlərinə divan tutublar" [363], "Türkiyə terror qurbanlarını yad edir" [431], "PKK-nın Ağrı qanadı məhv edilib" [329], "PKK-ya ağır zərbə" [330], "Terrorizm yenidən ayaq açır" [382], "İstanbulda terrorçular polis bölməsinə hücum ediblər, ölən və yaralananlar var" [251], "Türkiyə: terror dalğası səngimək bilmir" [433], "Ərdoğan: "İki ayda iki mindən çox PKK terrorçusu öldürülüb" [183], "Ərdoğan: Ankaradakı terror aktının kökləri Suriyadan qaynaqlanır" [182], "Türkiyədə keçirilən əməliyyatlar çərçivəsində 4 gündə 68 PKK-çı öldürülüb" [396] və s.

Saydıqlarımız dərc edilmiş informasiyaların çox az bir hissəsidir. Tarixlərə diqqət edəndə bu məlumatların son 4-5 ilin məlumatları içərisindən seçildiyini də görürük, amma bunların özləri də bu 4-5 ilin bütün statistikası deyildir. Deyilənlər isə, heç şübhə etmirik ki, 40 ilə yaxın bir zaman kəsiyində davam edən PKK terrorunun statistikasını təsəvvür etməyə imkan verir və bölgəyə faciələr gətirən mahiyyət və məramı haqqında qorxu dolu bir mənzərə yaradır.

Dünyanın demokratik ölkələrindən biri olan Türkiyədə bu baş verənlərsə adlarını demokratiya və ədalət qoruyucuları, insan hüquq və azadlıqlarının müdafiəçisi adlandıran Avropanı, Amerikanı heç də narahat etmir. Əksinə, qardaş Türkiyə bu mübarizədə, eləcə də bütün dünyada və ən yaxın qonşularında "ərəb baharı"nın faciələrini yaşayan ərəb dünyasına sahiblik məramında da təkdir. Dövlətin, hökumətin güvəndiyi yeganə güc isə türk xalqıdır. Bununla bərabər, uzun illərdir ki, Avropa İttifaqına daxil olmaq ümidləriylə demokratik inkişaf yolunda fəaliyyətlərini davam etdirirlər.

"Xalq qəzeti"nin dərc etdiyi materiallar sırasında qardaş Türkiyənin terror və terror qaynaqlarına, onun arxasında duran sahiblərinə verilən təpkilər də diqqəti cəlb edir: *"Son zamanlar Türkiyə və onun əhatəsindəki dövlətlərin ərazilərində baş verən qarışıqlıqlardan istifadə edən PKK terror təşkilatı öz fəaliyyətini xeyli genişləndirib. Məhz buna görə də Türkiyə Milli Təhlükəsizlik Şurası növbəti iclasını keçirib. İclasda PKK terror təşkilatı və Suriyadakı vəziyyətlə bağlı məsələlər müzakirə edilib"* [3], *"Əgər terrorçu Kürd Fəhlə Partiyası (PKK) Suriyanın şimalında Türkiyə üçün təhlükəyə çevrilərsə, Ankara Suriyada onlara qarşı əməliyyatlara başlaya bilər. Bunu Türkiyə prezidenti Abdullah Gül deyib"* [4], *"Heç bir dövlət qonşu dövlətə hərbi müdaxilə etmək istəməz. Amma bu, bir seçim imkanı deyil, məcburiyyət yaranarsa, əl ata biləcəyimiz vasitələrdən biridir. Əsəd silah paylayır, PYD və PKK Əsəd rejimi ilə əməkdaşlıq edir"* [322], *"Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan baş vermiş terror aktı ilə bağlı dünən sərt açıqlama verib: "Terrorun dini, irqi, vətəni yoxdur. Terrora qarşı beynəlxalq işbirliyi çərçivəsində mübarizə aparmağın vacib olduğu göz önündədir. Bunu illərdir ki, deyirik. Amma deməklə kifayətlənməyib, artıq hərəkətə keçərək iş görməyin vaxtı çatdığını xüsusilə vurğulamaq istəyirəm"* [434]. Fikrimizin davamı kimi qəzetdə verilən bəzi sərlövhələrə də diqqət edək: "Türkiyə Bəşər Əsədi kürd yaraqlılarını silahlandırmaqda ittiham edib" [392], "Rəcəb Tayyib Ərdoğan: PKK silahı yerə qoymalı, Türkiyə ərazisini tərk etməlidir" [332]... Təbii ki, əvvəldə dediyimiz kimi, bu kimi misalların sayı o qədərdir ki, onlardan ayrı-ayrılıqda danışmasaq da, nümunə kimi təqdim etdiyimiz bu az bir hissə də fikirlərimizi

çatdırmağa bəs edir. Göründüyü kimi, bəyanatların səsləndirildiyi zaman kəsiyindən Türkiyənin 2018-ci ilin 20 yanvarında başlatdığı "Zeytun budağı" əməliyyatına uzun illər qalmaqda idi, amma...

İllərdir Ərdoğan hökuməti PKK təmsilçiləri ilə danışıqlar aparır, bir sıra güzəştlərə gedilirdi. Kürdlərin bölgədəki bir çox problemlərinin həlli üçün çoxsaylı işlər görülür, sosial və hüquqi məsələlərin həlli ilə bağlı addımlar atılırdı. Kürdlərin mətbuatı, radio və televiziyaları var idi, öz dillərində danışmalarına qadağalar qoyulmamışdı, məhkəmə prosesləri kürd dilində aparılırdı. Millətin müqəddəratında və özünütəyinində daha zəruri bir addım da o oldu ki, 2015-ci il parlament seçkilərində kürdlərin siyasi partiyası olan Xalqların Demokratik Partiyası (HDP) parlamentdə 59 deputatla təmsil olundu. Bu qədər etimad və güvəncin qarşılığında PKK tərksilah olunmalı, terror təhdidlərindən kənarda durmalı idi. Amma bu, nəinki baş vermədi, Türkiyə ərazisində olan 1500-ə qədər yaraqlı da ölkəni tərk etmədi. Əksinə, dövlətin kürdlərə olan etimadının terror və silah yolu ilə qazanıldığını zənn edən PKK-çılar bir az da irəli gedib Türkiyə polislərini öldürdülər, dövlət atributlarını ayaqlar altına atdılar və terror fəaliyyətlərini gücləndirməklə yeni iddialarla gündəmə gəldilər. Bu proseslərdən sonra Türkiyə hökuməti gördü ki, dinc və danışıqlar yolu ilə məsələnin həlli mümkün deyil. Bütün bunlardan sonra Türkiyə hökumətinin başlatdığı mübarizə təsdiq edir ki, terrorla mübarizə sonuncu PKK üzvü məhv edilənə qədər davam etdiriləcəkdir.

Bu gün isə Suriyada baş verənlər, hakimiyyətdəki lider boşluğu, xeyli müddətdir davam edən vətəndaş müharibəsi İŞİD (DAEŞ) və PKK üçün münbit şərait yaratmışdır. Bölgənin terror təşkilatları üçün logistik baza və təhlükəsiz ərazi olması Türkiyəni narahat etməklə, sərhəddən kənarda hərbi əməliyyat keçirmək məcburiyyəti ilə üzləşdirmişdir. "Fərat qalxanı" hərəkatı ilə sərhəd xəttini DAEŞ terror təhdidindən təmizləyən Türkiyə "Zeytun budağı" hərəkatı ilə də PKK-nın Suriya qolu PYD-yə (Xalq Müdafiə Birlikləri) qarşı mübarizəyə qərar vermişdir.

Hələ bir neçə il əvvəl "Xalq qəzeti" yazırdı: *"PKK böyük zərbələr alsa da, yüzlərlə əlisilahlı quldurunu, silah-sursat anbarlarını, gizləndikləri mağaraları*

*itirsə də, hələ təhlükəli olaraq qalmaqdadır. İllərdir Türkiyə İraq və Suriyada əməliyyatlar aparmaq istəyir, amma müəyyən qüvvələr kürd separatçılarını terrora cəlb edərək bu işə mane olurlar. Bununla da Türkiyənin Yaxın Şərqin söz sahibinə çevrilməsinin, müsəlman ölkələrini ətrafına toplamasının hər vəchlə qarşısı alınır"* [384]. 2016-2017-ci illərdə 5 minə yaxın PKK terrorçusu məhv edilsə də, ölkənin təhlükəsizlik qüvvələrinin 480-dən çox əməkdaşı da terrorun qurbanı olmuşdur. Baş nazir Binəli Yıldırım parlamentdə çıxışında yeni hökumətin ikinci mühüm vəzifəsinin terrorla mübarizə olduğunu bəyan edib: *"Biz bütün terror təşkilatları, o cümlədən PKK terrorçuları ilə mücadiləmizi bundan sonra da qətiyyətli şəkildə davam etdirəcəyik. Son məqsədimiz bu mövzunu Türkiyənin gündəmindən çıxarmaqdır"* [6].

PKK-nın hücumlarının hədəfində Türkiyə hərbçiləri, polisi, təhlükəsizlik orqanlarına məxsus obyektlər dayansa da, beynəlxalq əhəmiyyətli enerji kəmərlərinin də son zamanlar hücumlara məruz qaldığı təsdiqini tapır. *"Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin Türkiyədən keçən hissəsində törədilən partlayış təkcə bu ölkəyə qarşı deyil, layihənin qlobal iştirakçılarına yönəldilən hücum kimi də qiymətləndirilir. Bu hücum həm qazın hasilatçısı olan Azərbaycan və tranzit ölkə Gürcüstanın, həm də layihədə iştirak edən ölkələrin nəhəng enerji şirkətlərinin mənafelərinə ziddir"* [413].

Türkiyə hökumətinin terrorla mübarizədə kifayət qədər prinsipial mövqe nümayiş etdirməsi, ordunun kəskin davranışı və mübarizəsi dünya dövlətlərində xeyli təəccüb yaratsa da, PKK-nın YPG qolunun açıq müdafiəsinə keçənlər olmadı. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan terrorla mücadiləni sona qədər aparacaqlarını bildirərək deyirdi: *"Fərat qalxanı" əməliyyatı başa çatdıqdan sonra ikinci və üçüncü mərhələlər də olacaq". Onun sözlərinə görə, yeni plan təkcə Suriya ərazisini deyil, həm də İraq ərazisini əhatə edəcək"* [179].

Suriyanın Afrin bölgəsində "Zeytun budağı" əməliyyatına başlananda ABŞ bəzi etirazlarını bildirsə də, Türkiyənin haqlı mövqeyi və tələbləri ilə razılaşmağa məcbur oldu. ABŞ münaqişənin dinc yola salınması üçün bir sıra təkliflərini də verdi, amma heç birini Türkiyəyə qəbul etdirə bilmədi, əksinə, türklərin tələbləri

önündə bəzi razılaşmaları qəbul etdi. Bu məsələdə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın liderlik mövqeyi, xarizmatik bir rəhbər olması, türk diplomatiyasının peşəkarlığı və silahlı qüvvələrin əzmkar rolu və ən önəmlisi, türk xalqının dəstəyi diqqətçəkən faktlardır. Amma Türkiyənin ana müxalifət partiyası CHP terrorla mübarizədə hökumətin həyata keçirdiyi tədbirləri ciddi tənqid etməkdədir. Hətta vaxtilə kürd partiyası HDP-nin parlamentdə təmsil olunmasını istəməyən CHP hökumətin terror təşkilatına yaxınlıq göstərməsini, hətta parlamentdə yer almasına dəstək verməsini səhv bir addım hesab edirdi. Hökumətin bu məsələdə kifayət qədər siyasi iradə nümayiş etdirmədiyini bəyan edən ana müxalifət sonralar tam başqa bir yol tutdu. 2018-ci ilin yanvarında AKP hökuməti, bir az da dəqiq desək, Türkiyə hökuməti Afrində "Zeytun budağı" əməliyyatına başlayanda onun əleyhdarları sırasında ABŞ və digər xarici güclərlə yanaşı ana müxalifət partiyası CHP də dururdu və onlar sonacan da YPG-ni nəinki terror təşkilatı kimi tanımadılar, hətta cidd-cəhdlə onun müdafiəsinə qalxdılar. Amma "Xalq qəzeti"nin "Anadolu" agentliyinə istinadən yaydığı məlumatda Türkiyənin terrorizmə qarşı mübarizədə mövqeyini açıqlayan müdafiə naziri Nurəddin Caniklinın dediyi kimi, *"Bu günlərdə Bəşər Əsəd rejimi tərəfindən Afrinə göndərilən silahlı dəstə geri qaytarılıb. Hamı bilsin ki, belə cəhdlər Türkiyənin terrorizmlə mübarizəsini dəyişmək iqtidarında deyil. Terrorçuları dəstəkləyənlər Türkiyənin hədəfinə tuş gələcəklər"* [9]. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın dedikləri isə bu inamı daha da artırır: *"Terrordan alət kimi istifadə edənlər, məsum insanların qanını axıdanlar Türkiyəni əsla diz çökdürə bilməyəcəklər. Tam əksinə, özləri diz çökəcəklər"* [101].

"Xalq qəzeti"nin təqdim etdiyi bu materialları Türkiyə dövlətinin və xalqının 40 illik bir mübarizəsinin tarixi kimi də dəyərləndirmək olar. Uzun illər bu məsələ mətbuatın gündəmində Türkiyə əleyhinə səsləndirilən ittihamlar sırasında yer almışdır. Amma ölkənin inkişafı yolunda böyük əngələ çevrilən, cəmiyyətdə qorxu və təşviş yaradan bu hadisələrə Azərbaycan mətbuatında verilən qiymət təkcə sıradan mətbu bir dəyərləndirmə yox, həm də müstəqil Azərbaycan mətbuatının sayıq və qərəzsiz mövqeyindən döğan faktdır. Eyni zamanda bu

təqdimatlar təkcə qardaş Türkiyə dövlətini və xalqının yox, həm də Azərbaycan dövlətinin və xalqının mövqeyidir.

### 3.3.2. Dünya birliyinin PKK terror təşkilatına qarşı mübarizəsi və dəstəyi

Son illərdə terrorizmin ayrı-ayrı ölkələrin sərhədlərini aşaraq beynəlxalq aləmi ciddi təhdid etməyə başlaması, terror dalğasının Qərbə və Avropaya yönəlməsi və 2001-ci ilin 11 sentyabr hadisələri dünya dövlətlərini beynəlxalq terrorizmə və təcavüzkar separatizmə daha həssas yanaşmağa, terrora və onu dəstəkləyənlərə qarşı barışmaz mövqeyin ortaya qoyulmasına, qlobal cinayətlərlə mütəşəkkil mübarizəyə səfərbər etmişdir. Bu məsələdə 60 ildən çox NATO üzvü olan və olduqca ciddi terror təhdidləri ilə üz-üzə qalan Türkiyənin həmkarları tərəfindən dəstəklənməsi gündəmdə olmuşdur. "Xalq qəzeti" yazır ki, məsələyə ciddi önəmin verilməsi günümüzün reallıqlarından doğduğu kimi, həm də güclənən terrorun qlobal problemə çevrildiyini sübut edir. Türkiyəyə verilən önəm haqqında ABŞ prezidenti D.Tramp 29 oktyabr 2017-ci ildə Türkiyənin Cümhuriyyət bayramı münasibətilə prezident R.T.Ərdoğana ünvanladığı təbrikində deyir: *"60 ildən çoxdur ki, yaxın NATO müttəfiqi olaraq ölkələrimiz bir çox qlobal və regional problem qarşısında birlikdə çalışır. Regional təhlükəsizliyin artırılması, İŞİD və PKK daxil olmaqla, terrorizmin bütün növlərinə qarşı mübarizədə Türkiyə çox önəmli müttəfiqdir"* [143].

Hələ bundan xeyli əvvəl də Türkiyənin çox önəmli müttəfiq olması ABŞ prezidenti Donald Tramp və Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında baş tutmuş telefon danışığı zamanı müzakirə edilmişdi: *"Rəcəb Tayyib Ərdoğan terrorla mübarizədə ABŞ-la Türkiyə arasındakı əməkdaşlıqdan məmnunluğunu bildirib. Onun sözlərinə görə, iki ölkəni möhkəm dostluq və müttəfiqlik əlaqələri bağlayır. Hər iki ölkə PKK terrorçularına qarşı da birgə mübarizə aparmalı və ABŞ bu təşkilatın qanadı kimi fəaliyyət göstərən terrorçulara dəstək verməməlidir"* [175]. Onda "Xalq qəzeti" ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Con Kerbiyə istinadən bildirirdi ki, *"Rəsmi Vaşinqton PKK-nı, əvvəllər olduğu kimi, bir terror təşkilatı olaraq tanıyır və Türkiyə hökumətinin terrorla mübarizəsini*

*dəstəkləyir”* [8]. ABŞ-ın İstanbulda yeni təyin olunmuş konsulu Cenifer L.Devis bir az da irəli gedərək deyirdi: *“İki ölkə arasında terrorizmlə mübarizə istiqamətində işlər davam etdirilir. Bu istiqamətdə Türkiyə dövləti və Birləşmiş Ştatların maraqları üst-üstə düşür”* [7].

“Xalq qəzeti”ndə dərc edilmiş və Türkiyəni terrorizmə qarşı mübarizədə dəstəkləyən dövlətlər sırasında bir sıra Qərb dövlətlərinin olması heç də təəccüblə qarşılanmadı. Doğrudan da, terrorun qorxunc bir kabus kimi bütün bəşəriyyətin, o cümlədən Avropa ölkələrinin başı üzərində dolaşması artıq günün reallığı idi. Almaniya kansleri Angela Merkel Bundestaqda 2017-ci il üçün büdcə layihəsinin müzakirəsində çıxış edərkən Avropa İttifaqı (Aİ) ilə Türkiyə arasında son vaxtlar yaranmış gərgin münasibətlərlə bağlı mövqeyini açıqlayarkən deyirdi: *“Terror əleyhinə qəbul edilən qərarlara hörmətlə yanaşılmalıdır”* [23]. Amma bütün bu mötəbər bəyanatların səsləndirilməsi fonunda ikili standartların hökm sürdüyü də diqqətdən qaçmır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Milli Təhlükəsizlik Şurasının (MTŞ) iclasından sonra bu qurumun bəyanatında Avropa İttifaqına üzv dövlətlərlə münasibətlərə də toxunulur. Bu barədə məlumat verən “Xalq qəzeti” bildirir: *“Son vaxtlar bir sıra Avropa ölkələrində türkiyəli siyasətçi və dövlət adamlarına qarşı bir sıra hüquqazidd hərəkətlərə yol verilib. Acı təəssüf ki, Avropada müsəlmanlara qarşı ksenofobiya və düşmənçilik hissləri güclənir. Türkiyə dövləti öz vətəndaşlarına qarşı zorakılıq hallarına yol verilməsi ilə heç cür razılaşa bilməz və buna qarşı hər zaman adekvat addımlar atmağa hazırdır”* [11].

Yaxud Türkiyənin baş naziri Binəli Yıldırım ölkə parlamentində çıxışı zamanı deyir: *“ABŞ Ankara ilə müttəfiqliyini qorumaq istəyirsə, PKK-nın Suriya qanadı olan YPG və PYD-ni dəstəkləməkdən imtina etməlidir”* [176]. “Ərdoğan Aİ ölkələrini PKK-nı dəstəkləməkdə ittiham edib” [182], “Ankara Vaşinqtonun YPG ilə əməkdaşlıqdan imtina edəcəyini gözləyir” [28], “Süleyman Soylu: “Bəzi ölkələr PKK terrorçularına dəstək verir” [369], “Fikri İşıq: ABŞ Suriyadakı terrorçuları silahlandırmamalıdır” [188] kimi ancaq sərlövhələrini xatırlatdığımız materiallar da məzmun etibarilə eynidir: dünya dövlətləri Ankara ilə müttəfiqliyini və Türkiyə xalqı ilə dostluq münasibətlərini qoruyub saxlamaq istəyirsə, PKK-nı, onun Suriya

qanadı olan YPG və PYD-ni dəstəkləməkdən imtina etməlidir. Qəzetin dərc etdiyi bu kimi materialların, bəyanat və çıxışların sayını artırmaq, daha çox misallar gətirmək də olar. Amma gəlinən nəticə "Xalq qəzeti"nin təqdim etdiyi kimidir: *"Türkiyə eyni anda 3 terror qruplaşması – PKK, İŞİD, FETÖ ilə mübarizə aparır, ancaq Qərb özünü görməzliyə vurur. Bu gün PKK hərtərəfli dəstəklə təmin olunur"* [294]. Göründüyü kimi, Türkiyənin sürətli inkişafı, regional güc statusunu qazanması Qərb üçün heç də arzu olunan deyil. Keçən əsrin 70-ci illərindən bəri Türkiyəyə qarşı başladılan silahlı PKK terrorunu dünyanın supergücləri – ABŞ, İsrail, İran, keçmiş SSRİ, indiki Rusiya öz maraqları baxımından dəstəkləmişlər. *"Bu gün bütün antitürk qüvvələr PKK-nı irəli verərək, əslində, özlərinin yüzillərdən bəri yığılıb qalmış istəklərini həyata keçirmək üçün dəridən-qabıqdan çıxırlar"* [383].

Təşkilat Türkiyə ərazisində müstəqil kürd dövlətinin qurulmasını istəmiş və havadarlarından buna dəstək də almışdır. Hətta Yunanıstanın PKK ilə daimi işbirliyinə girməsi uzun illər gündəmdə olmuşdur və bunu təsdiq edən faktların sayı da bir yığındır. Amma bütün bu səylər nəinki Türkiyəni zəiflətdi, əksinə, yunanlara beynəlxalq terrorizmə dəstək verən dövlət "imici" qazandırdı. Yunanıstanın adını çəkdiksə bir faktı da unutmamalıyıq. "Xalq qəzeti"nin yazdığı kimi, *"PKK regionda tək deyil. Regionda bu təşkilatla maraqları üst-üstə düşən daha bir terror təşkilatı, daha bir partiya və daha bir dövlət var. Bu, ötən əsrin əvvəllərində yaranmış, Türkiyə və Azərbaycan torpaqlarının hesabına "dənizdən-dənizə böyük Ermənistan" yaratmaq istəyən "Daşnaksütyun" partiyası və onun müasir terror qanadı olan ASALA təşkilatı və terrorçuluğu, separatizmi dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistandır"* [383].

Ən yeni tariximizdə isə PKK-ya dəstək verən ölkələr sırasında müasir Ermənistanın fəaliyyəti fövqəldir. PKK və ASALA terror təşkilatlarının ortaq mövqeləri hələ 80-ci illərdən gündəmdə olmuş, erməni terrorçular PKK-nın terror aksiyalarında fəal iştirak etmişlər. Ermənistanın Laçında kürd vilayətinin yaradılması təşəbbüsünü gündəmə gətirində qarşıya qoyulan bir məqsəd xaricdən

dəstək almaq idisə, digər önəmli məqsəd ermənilərin PKK terror təşkilatının dəstəyini qazanmaq idi. *"PKK-nın "uğurlu" fəaliyyəti və supergüclərin dəstəyi sayəsində o zamandan bəri on minlərlə insan həyatı faciələrin qurbanı olmuşdur. Təkcə 2015-ci ildə atəşkəsin pozulmasından 2016-cı ilin dekabrına kimi Kürdüstan Fəhlə Partiyası – PKK ilə münaqişədə 2 min nəfər insan həyatını itirmişdir. Xaricdə hazırlanaraq regiona göndərilən terrorçularla mübarizədə həlak olan vətəndaşların həyatı Türkiyə iqtidarı üçün son dərəcə əziz və qiymətlidir. Buna görə də tam təbiidir ki, Türkiyə hazırda İraqda və Suriyada terrorla ciddi mübarizə aparır"* [10]. Eyni zamanda, mətbuatda ölkə daxilində terror və terrorcular haqqında hər gün məlumatlar verilir: "İstanbulda terror əməliyyatı: 8 nəfər həbs olundu" [250], "Ərdoğan R.T.: İslam ilə terrorizm bir araya gəlməz" [184], "Qara dənizdə PKK əməliyyatı" [269], "Türkiyə terrorla yeni mübarizəyə başlayır: Zeytun budağı" [451]... Bunlar "Xalq qəzeti"nin qardaş ölkənin KİV-inə istinadən yaydığı xəbərlərin çox az bir hissəsidir.

Fikirlərimizi tarixçi alim Fəzail İbrahimlinin "Xalq qəzeti"ndə dərc edilmiş məqaləsindən bir sitatla tamamlamaq yerinə düşərdi: *"Tarixə qısa bir ekskurs etsək, görərik ki, Türkiyə o zaman Birinci Dünya müharibəsinin aparıcı ölkələri və qalib bloku olan Antanta tərəfindən bölündü. Bu gün Avropa İttifaqında, Avropa Şurasında, Avropa Parlamentində əyləşən və Türkiyəyə qarşı bu münasibəti göstərən vəkillərin babaları Türkiyəni böldülər. Ərazisində Ermənistanı, Yunanıstanı rəsmi olaraq yaratdılar... Həmin vaxtdan başlayaraq bu günə qədər Türkiyəyə qarşı münasibət dəyişməyib. Üstündən iki nəsil dəyişib, bütün Avropa təsisatlarının tərkibi dəyişib, yeniləri ilə əvəz olunub, lakin Türkiyəyə qarşı düşüncə və yanaşma tərzi dəyişməyib"* [241].

Türkiyəyə qarşı dəyişməyən bu münasibət isə yüzlərlə insanın qanı bahasına başa gəlməkdədir və təəssüf doğuran bir fakt da var ki, qanı axıdılanlar və faciələrə düçar olanlar sırasında dinc əhali, yaşlı insanlar, qadınlar və uşaqlar da var. Bu statistika isə ortaya qorxunc rəqəmlər qoyur. Təkcə *"son 3 ildə (2015-2018) Türkiyə ərazisində və ölkə hüdudlarından kənarda aparılan əməliyyatlar çərçivəsində İŞİD və PKK-nın 14 min 694 min üzvü məhv edilib"* [407]. Müharibə

fəlakətlərindən danışanlar isə bu faciələrin ancaq statistikasını səsləndirməklə vəzifələrini bitmiş hesab etməkdədirlər. İkili standartlardan bəhrələn bu kimi faktların mətbuat tərəfindən gündəmə gətirilməsi ictimai fikirin diqqətində olmaqla, adamların həqiqəti anlamağa da imkan yaradır. Eyni zamanda ən yeni tariximizdə PKK-ya dəstək verən ölkələr sırasında Ermənistanın da olması təkcə mətbuat müstəvisində yox, həm də beynəlxalq tribunalarda səsləndirilən fikirlərdən olmuşdur.

### 3.3.3. Türkiyənin terrorla mübarizəsinin Azərbaycan dövləti və xalqı tərəfindən dəstəklənməsi

Türkiyə və Azərbaycan arasındakı əlaqələrin dünyada analoqu olmayan müttəfiqlik səviyyəsinə yüksəlməsi ilk növbədə tarixi təmələ söykənsə də, bu gün regionda təhlükəsizliyin təminatında, bütün münaqişələrin sülh yolu ilə həllində maraqlı olan iki qardaş dövlətin dünyanın ən nüfuzlu təşkilatlarında eyni mövqedən çıxış etməsinə mütləq mənada imkan yaradır. Azərbaycan mətbuatında, o cümlədən "Xalq qəzeti"ndə bu məsələyə verilən önəm də, təbii ki, həm xalqlarımızın, həm də dövlətlərimizin yekdil mövqeyindən irəli gəlir.

Bu barədə danışan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qətiyyətlə deyir: *"Azərbaycan rəsmi olaraq PKK-nı terrorçu təşkilat kimi tanıyır və ona qarşı mübarizədə həmişə olduğu kimi, Türkiyə dövlətinin və xalqının yanındadır"* [74]. Azərbaycan dövlətinin terrorizmə qarşı apardığı mübarizə və barışmaz mövqe xalq tərəfindən də böyük rəğbətlə qarşılanmaqdadır. Hətta "Xalq qəzeti"nin dərc etdiyi xəbərlərdən birində deyilir ki, Azərbaycanda fəaliyyət göstərən Sosial Rifah Partiyası terrora qarşı beynəlxalq qurum yaradılmasını təklif edir. Bu tədbirin iştirakçılarından biri, Vətəndaş Həmrəyliyi Partiyasının sədri, millət vəkili Sabir Rüstəmxanlı çıxışında bildirir: *"Terrorçuluğun, təcavüzkarlığın dünyada öz miqyasını kifayət qədər genişləndirdiyini görürük. Əslində, bu terror təşkilatlarını bu və ya digər məqsədlərlə Avropa dövlətləri yaradıb. ASALA erməni terror qurumu, PKK bu qəbildən olan təşkilatlardandır"* [177].

PKK ermənilər tərəfindən Türkiyəyə qarşı yaradılmış ASALA ilə yaxın və sıx əlaqələr qurmuş terrorçu təşkilatdır. Bir zamanlar fəaliyyətini dayandıran

ASALA sonra yenidən "dirildi". Təşkilatın vaxtilə Parisdə Türkiyə səfirliyinə qarşı terror həyata keçirən iki üzvü mətbuat konfransı keçirdi və terrorçulardan biri-- Vazgen Sislyan dedi ki, *“ASALA fəaliyyətini dayandırmayıb, Ermənistanda, Türkiyədə və digər ölkələrdə fəaliyyətdədir”* [147]. Lakin onun dediyinə görə, təşkilat silahlı əməliyyatlara fasilə verərək siyasi vasitələrdən istifadə etməyə çalışır. *“Bununla belə, istənilən vaxt yenidən silahlı mübarizəyə əl ata bilər”* [147]. Türkiyə dövlətinin terrorizmə, o cümlədən PKK-ya qarşı apardığı genişmiqyaslı əməliyyatlardan yayınmaq üçün daha təhlükəsiz yer kimi Dağlıq Qarabağı seçmələri Azərbaycan üçün də böyük təhlükə idi. Türkiyə mətbuatında da ermənilərin PKK terrorçularına işğal altında olan Dağlıq Qarabağda düşərgələr yaratdığı haqqında informasiyalar yer almışdır [484]. “Akşam” qəzeti Türkiyədə fəaliyyət göstərən Əsassız Erməni İddialarına qarşı Mübarizə Dərnəyinin (ASİMDER) başqanı Göksel Gülbeyin soylədikləri əsasında Qarabağda 12 PKK düşərgəsi yaratdığını və həmin düşərgələrdə 1750 PKK yaraqlısının yerləşdirildiyini [483], “Yeni Şəfəq” qəzeti isə PKK-nın 400 terrorçunu Qarabağa göndərdiyini bildirir [485].

Hətta “Xalq qəzeti” 1997-ci ildə separatçı terror təşkilatı PKK ilə ermənilər arasında terror ittifaqının razılaşdırılmış şərtlərini də açıqlayırdı:

*“– Ermənilər PKK terror təşkilatı içində tədris və təbliğat fəaliyyəti ilə məşğul olacaq;*

*– PKK terror təşkilatına hər il adambaşına 5 min ABŞ dolları ödəniləcək;*

*– ermənilər bəzi lokal hərbi əməliyyatlarda iştirak edəcəklər;*

*– PKK və ASALA terror təşkilatları bundan sonra ortaq idarə olunacaq;*

*– Türkiyədə təhlükəsizlik qüvvələrinə qarşı əməliyyatlarda kəşfiyyatı ermənilər aparacaq;*

*– Türkiyə məğlub olduqdan sonra əldə edilən torpaqlar isə bərabər olaraq bölüşdürüləcək;*

*– düşərgə xərclərinin 75 faizini ermənilər ödəyəcək;*

*– Türkiyədəki metropol şəhərlərdə tədbirlər keçiriləcək...”* [383].

AŞ PA-nın 2001-ci il payız sessiyasında beynəlxalq terrorizm problemi müzakirə edilərkən Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyev çıxışında Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində 32 terror aktı törətdiyini və bunun nəticəsində 2 min Azərbaycan vətəndaşının həlak olduğunu, 1 milyondan çox vətəndaşımızın isə ev-eşiyindən didərgin düşdüyünü bildirmişdi. ASALA erməni terror təşkilatının Ermənistan hökuməti ilə sıx əlaqədə olduğunu bəyan etməklə Ermənistanın terrora verdiyi dəstəkdən danışmışdı. Amma ikili standartlar məsələnin həllində əngəl olaraq qaldı.

Türkiyə və Azərbaycanın düşmənlərinin öz çirkin niyyətlərini həyata keçirmək üçün əlverişli ərazi kimi Ermənistanı seçməsi və burada toplaşması heç də təsadüfi deyildi. Birincisi, Ermənistan PKK-nı terrorçu təşkilat kimi tanımır. İkincisi, ermənilərlə PKK-çıların mübarizəsi, məqsəd və strategiyaları da tam oxşardır. Hər ikisi Qara dəniz və Aralıq dənizi sahillərində mövqelənmək niyyətindədir. Türkiyə və Azərbaycana qarşı ərazi iddiaları bu qüvvələri birləşdirir. Bunlar özlüyündə terrorun dövlət səviyyəsində dəstəklənməsini təsdiqləyən faktlardır. Ermənistan prezidentinin *“Qarabağı biz azad etdik, Ağrını da gələcək nəsillər geri alacaq”* [72] kimi sərsəm bəyanatları ağıllı düşüncənin məhsulu ola bilərmi? Əbəs deyil ki, cox sonralar da Türkiyə rəsmiləri bildirirdi ki, “Radikalizmin və təcavüzkarlığın Ermənistanı gətirdiyi yer məhv nöqtəsidir” [322]. Vaxtilə dövlətlərarası tədbirlərin birində bu barədə Azərbaycan və Türkiyə prezidentlərinin polemikası da olmuşdu:

*“Rəcəb Tayyib Ərdoğan: Bu, bir dövlət xadiminə və ya bir prezidentə yaraşan ifadə tərzi, yanaşma forması deyildir. "Siz hazırda Dağlıq Qarabağı bizdən təhvil aldınız, biz ölüb gedəcəyik, Ağrını da siz alacaqsınız" – belə bir məntiq olarmı? Belə bir anlayış olarmı? Gəncliyə belə bir istiqamət, belə bir üfüq verilərmi? Bu nə deməkdir? Ey gənclər, Ermənistan Türkiyə ilə bundan sonra istədiyi kimi, istədiyi şəkildə bir müharibəyə də girə bilər. Bunların hamısını rədd edirik. Belə bir dövlət xadimi, belə bir diplomatiya olmaz...*

*İlham Əliyev: Mən əlavə etmək istəyirəm ki, əslində, Sarkisyandan başqa bir şey gözləmirdim. Çünki dəfələrlə onunla görüşmüşəm”* [72].

Azərbaycanın terrora və terrorizmə qarşı mübarizəsi və tutduğu yol birmənalı olmuşdur. Prezident İlham Əliyev çıxışlarında, mətbuata müsahibə və açıqlamalarında dəfələrlə demişdir ki, *"Terror aktını qətiyyətlə pisləyirik, qınayırıq və bir daha deyirik ki, biz bu gün türk xalqının yanındayıq"* [101].

Mövzunun davamı kimi aktuallıq kəsb edən bir məsələ haqqında da danışmaq istərdik. Türk Silahlı Qüvvələrinin içinə sızmış Fətullahçı Terror Təşkilatının (FETÖ) üzvü olan əsgərlər və onlarla əməkdaşlıq edən mülki şəxslər tərəfindən həyata keçirilməyə çalışılan 15 iyul 2016-cı il tarixli hərbi çevriliş təşəbbüsü türk millətinin böyük dəyanəti və iradəsi önündə darmadağın edildi. Demokratik seçkilər yolu ilə seçilmiş hökuməti və prezidenti yıxmağa çalışan çevrilişçilərin aqibəti bəlli olsa da, onların demokratiyanı müdafiə edən azad və əliyalın vətəndaşların, eyni dindən olan qardaş-bacılarının, ata-babalarının və bu millətin gələcəyi olan övladlarının üzərinə təyyarələriylə, tanklarla və ağır silahlarla getməsi və atəş açması da tarixin çirkin bir reallığı idı. 249 nəfər şəhid edildi, 2 min 193 nəfər isə yaralandı.

Dövlət xadimlərinin, eləcə də Türkiyə–Azərbaycan Parlamentlərarası dostluq qrupunun sədri, AK millət vəkili Necdət Ünüvarın 15 iyul hadisələri zamanı Türkiyə Böyük Millət Məclisində yaşananları əks etdirən "Gazi Meclis'te o Gece" kitabında [488], AK millət vəkili Ayşə Kəsirin və başqalarının çıxışlarında medianın roluna ciddi önəm verilmişdir. "CNN Türk" kanalının əməkdaşı Hande Firatın FETÖ-nün *"15 iyul dövlət çevrilişi cəhdində etdiyi jurnalist uğuru bütün dünyada əks-səda verdi. Onun Cümhurbaşqanıyla "FaceTime" üzərindən qurduğu əlaqə 15 iyulun qırılma nöqtəsi olaraq da tarixə keçdi"* [513]. *"Mən Türkiyə mediasına da təşəkkür edirəm. Eyni zamanda, Türkiyənin sabiq prezidenti Turqut Özalı minnətlə anıram. Çünki məhz Turqut Özal müqavimətlərə baxmayaraq, ölkədə özəl televiziya və radio kanallarının yaradılmasının önünü açıb. Keçən il 15 iyulda özəl KİV olmasaydı, bəlkə də hərbi çevriliş cəhdinin nəticəsi fərqli olardı"* [118]. Türkiyənin ədliyyə naziri (indi baş nazirin müavini) Bəkir Bozdağın çevriliş cəhdinin ildönümü ilə bağlı media mənsublarına söylədiyi bu fikir də bu dəyərin bir nümunəsidir.

Öncədən söyləmək yerinə düşər ki, gündəlik nəşr olunan "Xalq qəzeti"nin FETÖ hadisələrinin səhərisi gün nəşr edilən sayında Türkiyədə baş verənlərə və çevriliş cəhdinin anatomiyasına kifayət qədər əhatəli yer ayrılmışdır: qəzetdə dövlət başçısı İlham Əliyevin Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana müraciəti də daxil olmaqla 11 məqalə və rəy yayımlanıb. Təxminən 30 (otuz) min işarəlik bu yazıların ümumi həcmi qəzetin xeyli hissəsini təşkil edir. Heç şübhəsiz ki, Azərbaycan kimi dost-qardaş ölkənin zərrə qədər təmənna güdmədən Türkiyə hakimiyyətinin yanında yer alması daha ciddi dəyərin ifadəsidir. Eyni zamanda, vaxt itkisi gözləmədən baş verənlərin *"Türkiyənin dövlətçiliyinə, türk xalqına, onun iradəsinə və seçiminə qarşı törədilən dəhşətli cinayət"* [82] adlandırılması qardaş, həm də tərəfdaş bir dövlətin və onun dəstəkçisi olan xalqın siyasi iradəsinin və uzaqgörənliyinin bariz ifadəsi idi.

"Xalq qəzeti"nin bu sayında dərc olunan və bu silsilədən olan yazılara iki aspektdən qiymət vermək olar: birincisi, dövlətin və dövlət rəsmilərinin rəsmi mövqeyini əks etdirən rəsmi materiallar, ikincisi, ziyalıların və siyasətçilərin fikirlərini ortaya qoyan materiallar. Elə o dəqiqə də bir mühüm məsələ diqqəti çəkir: bu mövqelər yekdildir, ifadə formaları müxtəlif olsa da, məzmun etibarilə eyni məsləkə xidmət edir: *"Həmişə türk xalqının və dövlətinin yanında olan Azərbaycan xalqı və dövləti Türkiyənin konstitusiyasına, demokratiyasına qarşı yönəlmiş bu cinayəti qətiyyətlə pisləyir və qəbuledilməz hesab edir"* [82]. Bu həm də ölkədə hakimiyyət və xalq birliyinin mühüm təntənəsi kimi diqqəti çəkir.

Azərbaycan Respublikası Prezidenti Admistirasiyasının mətbuata açıqlamasında da [86], Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun həmkarı Mövlud Çavuşoğlu ilə telefonla danışığında da [299], Xarici İşlər Nazirliyinin Türkiyədə baş vermiş hadisələrlə bağlı bəyanatında da [49], yaxud Türkiyənin o dönəm Azərbaycandakı səfiri İsmayıl Alper Coşqunun jurnalistlərə müsahibəsində də [389, 517] və dünyanın Türkiyənin haqlı mövqeyinə liberal, bəlkə də bir az sərt desək, dost olmayan bir mövqe nümayiş etdirdiyi bir məqamda ATƏT-in fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank Valter Ştaynmayer [33] və təşkilatın baş katibi Lamberto Zanyer [34] Türkiyədə dövlət

çevrilişinə cəhdlə bağlı narahatlıq ifadə etmiş, demokratik yolla seçilmiş hökumətə qarşı bir qrupun çevriliş cəhdi qətiyyətlə pislənmişdir. Ziyalıların və siyasətçilərin mövqeyi kimi təqdim olunan yazılarda da demokratik seçkilər yolu ilə hakimiyyəti qazanmış hökuməti və prezidenti yıxmağa çalışanlar ciddi qınaq yerinə çevrilir. Bu sırada millət vəkili Cavanşir Feyziyevin "Türk milli iradəsinin zəfəri" yazısı həm operativlik, həm bir siyasətçi və vətəndaş mövqeyindən olduqca diqqətəlayiqdir: *"bu qiyamın müəllifləri, sadəcə, mövcud siyasi hakimiyyətə deyil, həm də türk dövlətçiliyinə və türk xalqına düşmən kəsildiklərini ortaya qoydular"* [187].

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar həmin saatların həyəcan və düşüncələrini oxucularla bölüşür: *"Şükürlər olsun ki, bizim əlimiz yetməsə də, sanki diləklərimiz qardaşlarımızın harayına yetişdi. Eyni dəyərləri, ortaq arzu-diləkləri paylaşdığımız Türkiyə cəmiyyətinin qeyrəti gecənin qaranlığında qəfil peyda olan hərbi qiyamın başı üstündə şimşək kimi çaxdı"* [35]. Qəzetin dərc etdiyi digər iki yazıda – "Türkiyə xalqının milli maraqlarına, ölkənin demokratik əsaslarına və hüququn aliliyinə qəsdin qarşısı alındı" [171], "Türkiyədə demokratiya qalib gəldi" [298] həm 15 iyun hadisələri haqqında geniş məlumat verilir, həm də bu hadisələrin siyasi dərsləri oxucuya anladılır.

Azərbaycan KİV-nin hər birində eyni mövqedən olan materialların dərc edilməsi, hadisələrə verilən siyasi qiymətin dövlət çevrilişi kimi dəyərləndirilməsi tarixin qardaşlıq telləri ilə birləşdirdiyi xalqlarımızın və dövlətlərimizin birliyinin təsdiqidir. Türkiyə səfiri Erkan Özoral 15 iyul hərbi çevrilişinin ildönümü ilə bağlı media mənsubları ilə görüşündə Azərbaycanın hər zaman olduğu kimi, 15 iyul hadisələri zamanı da Türkiyənin yanında olduğunu vurğulayıb [514]. Buna görə Azərbaycan xalqına və prezidentinə təşəkkür edən səfir *"Tarix boyu müşahidə edilən bu həmrəyliyin ən müasir nümunəsi isə başda prezident İlham Əliyev olmaqla, Azərbaycan xalqının Türkiyədə 15 iyul dövlət çevrilişi cəhdinə qarşı verdiyi dəstəkdir"* [325] deyə bildirir.

İndi üstündən günlər keçdikcə bu hadisələrin mahiyyəti – Türkiyənin həyatında, xüsusilə də hərbi və təhlükəsizlik sistemində nə qədər ciddi bir buxov olduğu aydınlaşır. "Xalq qəzeti" bu faktlara toxunaraq yazırdı: *"Məhz həmin*

*şəbəkəyə daxil olan generallar Türkiyədə terrora qarşı sistemli mübarizə aparmağa mane olublar, PKK-nın məhv edilməsi qarşısına əngəllər çıxarıblar, türk ordusunun Suriyaya girməməsi üçün min cür bəhanələr uydurublar"* [356].

Önəmli faktdır ki, tarixin ən müxtəlif illərində ən müxtəlif çətinliklərə sinə gərmiş və sınaqlardan uğurla çıxmış türk xalqının milli iradəsi, azadlıq mücadiləsi və eyni zamanda, beynəlxalq aləmin xalq tərəfindən seçilən hökumətə dəstək olması qiyamçıların arzularını gözlərində qoydu. *"Türkiyə cəmiyyəti növbəti dəfə öz sayıqlığını və siyasi yetkinliyini nümayiş etdirdi. İnsanlar küçələrə və meydanlara çıxaraq çevrilişin reallaşmasına imkan vermədilər. Qəhrəman türk xalqı bir daha tarix yazdı"* [417]. Qəhrəman xalqın qanla yazdığı bu tarix Türkiyənin gücünü, regiondakı nüfuzunu həzm edə bilməyən qüvvələrin istəyini heçə endirdi. *"Onlar Türkiyəni Liviya, Misir, İraq və nəhayət, Suriya ilə səhv salmışdılar. Onlar unutmuşdular ki, türk milləti digər millətlərə bənzəməz"* [168].

Türkiyədə baş verənlərə rəsmi Bakının mövqeyi Azərbaycan xalqının mövqeyi olmaqla illərin sınağından çıxmış qardaşlığın bir daha təzahürü oldu. Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoralın *"Türkiyə terrorla, xüsusilə FETÖ, PKK ilə mübarizə aparır. Bu məsələdə Azərbaycan Türkiyəyə dəstək verir. Buna görə təşəkkürümüzü bildiririk"* [324] deyərək dəyərləndirməsi etimadın, güvəncin bir daha təsdiqidir.

Göründüyü kimi, *"Qloballaşan dünyanın mübarizə apardığı problemlərdən biri də terrorizmdir. Hər il, hətta hər gün yüzlərlə günahsız insan terrorun qurbanma çevrilir"* [1, s.195]. Məsələ burasındadır ki, Azərbaycan terrorun nə olduğunu KİV-lərdə yayılan informasiyalardan deyil, Ermənistanın məkrli məqsədlərinə nail olmaq üçün törətdiyi terror aktlarının gətirdiyi faciələrdən bilir. *"Terror Azərbaycan üçün 1987-ci ilin dekabrında zəlzələnin qurbanlarına çevrilmiş ermənilərə köməyə gedən ...təyyarənin Spitak üzərində vurulması, Bakı–Tbilisi avtobus marşrutunda (16 noyabr 1989-cu il), Moskva–Bakı sərnişin qatarında (30 may 1991-ci il), Qarakənd üzərində içərisində Rusiya və Qazaxıstanın da dövlət adamlarının olduğu vertolyotun (20 noyabr 1991-ci il), 1994-cü ilin mart və iyun aylarında Bakı Metropoliteninin "20 Yanvar"*

*stansiyasında, “28 May” və “Gənclik” stansiyaları arasında qatarların partladılmasından sonra insanların qəlbində yaranan torpaq, vətən ağrısı, gözlərində doğmaları üçün nisgil damcılarıdır. ...tarixi torpaqlarını itirən bir xalqın XXI əsrdə üzləşdiyi haqsızlıq, yerindən-yurdundan didərgin salınmış 1 milyon insanın qaçqın-köçkün taleyi, 25 min adamın yarımçıq qalmış həyatının haraylarıdır”* [286, s.237-238]. Azərbaycan uzun illər erməni terroruna məruz qaldığından bu məsələlər milli KİV-in daimi mövzulardan olmuş, “Xalq qəzeti” də bu problemin araşdırılmasına xüsusi önəm vermişdir. Nəticə olaraq qazanılan təcrübənin uğur və çatışmazlıqlarını aşağıdakı şəkildə təqdim edərdik:

- çoxsaylı xəbər və materiallarda Azərbaycanda və Türkiyədə terrora qarşı aparılan mübarizənin mahiyyət və məzmunu doğru təqdim edilmişdir;

- qəzetin terrorizmlə mübarizə haqqında dərc etdiyi materiallar göstərir ki, cəmiyyətin antiterror dünyagörüşünün formalaşmasında, xüsusən də ictimaiyyətin terrorla mübarizəyə səfərbər edilməsində mətbuatın böyük imkanları var. Bu, adamlarda terrorun yaratdığı gərginliyin zəiflədilməsində mühüm rol oynayır. Xüsusən də analitik təhlil yönündə olan materialların təsir gücü daha effektlidir;

- məqalə və xəbərlərdən həm hadisələrin iştirakçıları, həm də onlara dəstək olan qüvvələr haqqında ətraflı məlumatlar almaq olur. Eyni zamanda, yeni dünya düzənində ayrı-ayrı dövlətlərin terrorizmə münasibətdə ikili standartlar, ikili məqsəd və məramlar nümayiş etdirməsi, ədalət çərçivəsində olmayan mübarizə üsulları haqqında məlumatların yer alması təqdirəlayiqdir;

- terrora qarşı Azərbaycan dövlətinin prinsipial mövqeyinin və suveren siyasətinin təqdimatında geniş auditoriyanın, xüsusən də mütəxəssislərin fikir və mülahizələrinin təqdimatı uğurlu addım olardı;

- qlobal terrorizm mövzusu mətbuatın diqqət ayırdığı önəmli və daimi mövzulardan olmalıdır. Xüsusən də indiki dövrdə bu sahədə jurnalist tədqiqatlarına ehtiyac hiss olunur. Amma təəssüflə qeyd edilməlidir ki, bu mövzuda materiallar kəmiyyət etibarı ilə çox azdır;

- qəzetin qlobal terrorizmə dair dərc etdiyi materiallar sırasında daha çox xarici informasiya mənbələrindən və yaxud da terror aktlarının baş verdiyi

ölkələrin informasiya mənbələrindən alınan xəbərlərin çoxluq təşkil etdiyi görünür. Hətta bəzi materiallar əvvəlinə və sonuna bəzi əlavələrlə olduğu kimi çevrilərək və ya tərcümə edilərək təqdim olunmuşdur. Bu təqdimatlar daha çox xəbər və məlumat xarakterindədir, siyasi şərhlərə və analitik materiallara az rast gəlinir. Bu tipli materialların təqdimatı, fikrimizcə, daha uğurlu olardı;

- *"Beynəlxalq terrorizmə qarşı mübarizə üçün təkbaşına hansısa hegemon dövlətin və ya hətta inkişaf etmiş dövlətlərdən ibarət qrupun cəhdləri kifayət etmir. ... Beynəlxalq terrorizmin qarşısının alınması əksər dövlətlərin, xalqların və dünya ictimaiyyətinin səylərinin birləşdirilməsini tələb edir"* [286, s.250]. Azərbaycanın Amerika, Pakistan, Türkiyə, İsrail kimi dövlətlərlə əlaqələri, Əfqanıstanda, Kosovoda sülhməramlıların tərkibində Azərbaycan könüllülərinin də iştirakı maraq doğuran faktlardır. Amma bunların mətbuatda ətraflı təqdimatı görünmür;

- materiallarda jurnalist peşəkarlığı və sənətkarlığı, ola bilsin ki, gözlənilən qədər yüksək deyil, amma məqalələr, ən azı, regionda və dünyada baş verən terror hadisələrinin ümumi mənzərəsini, hadisələr haqqında fikir yarada bilir;

- açıq deyilməlidir ki, qəzetin qlobal terrorizm mövzusunda dərc etdiyi materiallarda jurnalistikanın geniş imkanlarından, eləcə də mətbu janrların imkanlarından arzuolunan səviyyədə istifadə edilməmişdir, amma materialların mövzu zənginliyi və əhatə dairəsi də göstərir ki, bu sahədə kifayət qədər təcrübə, potensial və imkanlar, ən önəmlisi də zəngin baza vardır.

# NƏTİCƏ

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra tarix xalqımıza təkcə azadlıq adlı əvəzsiz bir neməti yox, həm də şərəf duyacağımız bir tarixi də qaytarmış oldu. Tarixçi alimlərimizin, tədqiqatçıların üzünə "tam məxfi" və "məxfi" qrifləri ilə bağlı elan edilmiş arxivlərin, fondların açılışı cümhuriyyət tarixinə dair önəmli və yeni münasibətləri ortaya qoydu. O cümlədən, müstəqil Azərbaycan mətbuatının bu barədə yazdıqları və bundan sonra da yazacaqları bu şərəfli tarixin cəmiyyətə çatdırılmasında mühüm rol oynadı.

Bu gün Azərbaycan Xalq Cümhuriyyəti dövrü türkçülük ideyalarının geniş yayıldığı bir dövr kimi də xarakterizə edilir. Sovet dövrü Azərbaycan mətbuatında da Türkiyə mövzusu, bütün qadağalara baxmayaraq, cəmiyyətin maraq doğurduğu mövzulardan olmuşdur. 70 illik bir dövrü özündə birləşdirən əlaqələrin tarixi həm zaman, həm də mahiyyət baxımından bir neçə mərhələdə özünü göstərmişdir. Tədqiqatda bu mərhələlərə qismən də olsa diqqət ayrılmış, onun tərəqqi və tənəzzülünü şərtləndirən amillərin araşdırılmasına önəm verilmişdir.

Dünyada baş verməkdə olan qlobal dəyişikliklər, xüsusən də humanitar sahələrdə yeni qapıların açılması, iqtisadi və elmi-texniki inkişaf cəmiyyətə yeni bir əhval gətirməkdə idi. Dövrün mətbuat orqanlarına diqqət edəndə yeni tezislərin ortaya çıxması, xalqların müstəqillik yolunun müəyyənləşdirilməsində yeni addımlar da özünü göstərməkdə idi. Uzun illər sovet mətbuatında Türkiyə və türk xalqının adının çəkilməsi yasaq edilsə belə, 80-ci illərin sonlarında mətbuatda Türkiyə mövzusu gündəmdə daha çox görünməkdə idi. Milli dirçəliş və milli əhvalın yüksəlməsinin təntənəsi idi ki, 1988-ci ildə "Kommunist" qəzetinin Topxanada bir ağacın kəsilməsi haqqında verdiyi xəbər bütün milləti Azadlıq (onda Lenin) meydanına toplaya bilmişdi və o hərəkat xalq gücünün və birliyinin nələrə qadir olduğunun göstəricisi idi. Təbii ki, milli mücadilənin güclənməsi Azərbaycan mətbuatında daha çox Türkiyə ilə bağlı yazıların artması ilə müşayiət olunur, mətbuat üçün Türkiyə mövzusu bir nömrəli məsələ kimi diqqəti cəlb etməkdə, önəmli mövzu olmaqda idi.

Milli dirçəlişin oyandığı bir vaxtda Azərbaycan Respublikası 1991-ci ilin avqustunda dövlət müstəqilliyini elan edir. Amma oktyabrın 18-də tanınan, yeri gəlmişkən, ilk dəfə məhz Türkiyə tərəfindən tanınan müstəqilliyin ilk günlərindən xarici siyasət xəttində Türkiyə və türkdilli ölkələrlə əməkdaşlığın qurulması xüsusi diqqət mərkəzində olmuş, bu tendensiya bu gün də uğurla davam etdirilməkdə və mətbuatın diqqətçəkən mövzusu olmaqdadır.

Aparılan araşdırmalardan ortaya çıxan bir sıra elmi-nəzəri qənaətlər təsdiqini tapmış zəngin faktlara əsaslanmaqdadır. Amma o da nəzərə çatdırılmalıdır ki, bunların bəziləri subyektiv qənaət təsiri də bağışlaya bilər. Fikrimizcə, bu, tədqiqatın dəyərini azaltmır, əksinə, müəyyən mülahizələr var ki, bunların bir qisminin təsdiqi zamanın öhdəsinə buraxılmalıdır. Bütün hallarda bunlar ayrı-ayrılıqda mətbuatın cəmiyyətdəki rolunu təsdiq etməklə onun ən müxtəlif istiqamətlərdə daha dərindən araşdırılmasına, xeyli dərəcədə də bir sıra reallıqların ortaya çıxmasına və təsdiqinə imkan yaradır. Heç şübhəsiz ki, bu, mətbuatın cəmiyyətdəki yeri və rolu ilə əlaqələndirilməlidir. Professor Alxan Bayramoğlunun dediyi kimi, *“ mətbuat mənsub olduğu xalqın həyata baxışlarını, məişət və yaşayış tərzini, ictimai-mədəni proseslərə sosial-psixoloji münasibətini özündə əks etdirən, eyni zamanda, onun hər hansı məsələyə münasibətinin formalaşmasında əhəmiyyətli rol oynayan bir vasitədir”* [110, s.3].

Digər tərəfdən, *“zamanın çağırışına adekvat cavabların tapılmasında kütləvi informasiya vasitələrinin yeri və rolu qırmızı xətt kimi keçir”* [287, s.14]. Təsadüfi deyil ki, *“Xalqın ədəbi-mədəni, ictimai-siyasi həyatı ilə sıx bağlı olan milli-demokratik mətbuat yalnız informasiya yaymaq missiyasını həyata keçirmir, o, eyni zamanda maarifçilik ideyalarını təbliğ edən, cəmiyyətin təkamülündə misilsiz rol oynayan, estetik zövq aşılayan çoxşaxəli, polifonik təbliğat sistemidir. Bəşəriyyətin tərəqqisi, milli şüurun oyanışı və milli özünüdərk prosesinin yüksəlişində mətbuatın müstəsna yeri və əhəmiyyəti vardır* [236, s.6]. Bu və bu kimi tendensiyalar uzun illər KİV-in cəmiyyətdəki yerinin önəmliliyini və vacibliyini ortaya qoymaqla, həm də onun “dördüncü hakimiyyət” olduğunu ciddi

bir hökmlə təsdiq zərurəti yaratmışdır. Beləliklə, təqdim etdiyimiz elmi-nəzəri qənaətləri aşağıdakı şəkildə ümumiləşdmək olar:

- Azərbaycan–Türkiyə əlaqələrinin yenidən qurulması və inkişafı, mətbuatda bu mövzunun daha qlobal təqdimatı xeyli dərəcədə yeni dövrün tələbləri, ən önəmlisi də qazanılan müstəqilliyimizlə bağlı olmuşdur.

- Sovet sisteminin dağılması, yeni müstəqil dövlətlərin meydana çıxması və özünütəsdiqi birmənalı olaraq dövrün tələbi idi. Belə bir zaman kəsiyində SSRİ-dən ayrılan müttəfiq respublikaların özlərini yeni dövlət kimi təqdim etmələri gündəmi təsdiq edən reallıqlar idi. Təbii ki, bu sırada türkdilli dövlətlərin, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi ortaya çıxan Azərbaycan Respublikasının dünya düzənində bütün basqı və təpkilərə rəğmən yeni bir dövlət kimi tanınması mühüm bir hadisə idi. Amma bu deyilənlər nə qədər ümdə olsa da, zaman dünya düzənində önəmli strateji mövqeyi ilə seçilən Türkiyənin qarşısına da önəmli vəzifələr qoymaqda idi. Bu həm də dünyada türk xalqlarının yeni birliyini ortaya qoymaqla, illərdən bəri pərər-pərən olmuş və yadlaşmış, eyni soy-kökdən olan, dini və dil bağlılığına, bu mühüm amillərdən qaynaqlanan tarixi təməllərə söykənən xalqlarımızın tarixi keçmişinin öyrənilməsini və yaranmaqda olan əlaqələrinin təbliğini tələb edirdi. Şübhəsiz ki, bu ümdə məsələdə mətbuatın rolunun öyrənilməsi də günün tələblərindəndir.

- Daha ciddi bir qənaət ideoloji təsirlərə baxmayaraq, mətbuatın bütün dövrlərdə zamanın fövqündə dayana bilməsi ilə əlaqədardır. Belə ki, yaşadıqları coğrafi məkanlardan asılı olmayaraq, bu istər Türkiyə, istərsə də Azərbaycan olsun, xalqlarımız arasında diplomatik, iqtisadi və ticari əlaqələr olmayanda belə mədəni əlaqələr onların tarixlərinin bütün dövrlərində önəmli bir səviyyədə özünü təsdiq edə bilmişdir. Bütün qadağalara baxmayaraq, özünü göstərən və təsdiq edən bu əlaqələrdə ədəbiyyat və incəsənətin, eləcə də mətbuatın ümdə rolu və xidmətləri uzun zamanlar da tədqiqat obyekti olacaqdır. Hətta mətbuat ciddi yasaqların hökm sürdüyü, sovet senzurasının hər şeyə lupa ilə baxdığı zamanlarda belə bu məsələlərin üstündən “gözüyumulu” keçə bilməmiş, xalqlarımız arasında qiyabi də olsa əlaqələrin qurulmasında, qan yaddaşımızın təzələnməsində, tarixi ənənələrin

yada salınmasında və qürur yeri, milli ənənə kimi ortaya qoyulmasında bir çox halda biləräkdən, bəzən də dövrün müxtəlifyönümlü tələblərinə dəstək olaraq üzərlərinə düşən missiyanın yönəticisi ola bilmişdir. Bu da, özlüyündə, mətbuatın təsir gücünü bir daha təsdiq edir.

- Sovet dövrü Azərbaycan mətbuatında dərc edilən bütün məqalə və yazılarda sovet ideologiyasının tələbləri ciddi şəkildə yerinə yetirilmiş, mətbuat uzun illər quruluşu təbliğ edən, sosializm yarışı və başqa formal adlarla təqdim edilən monoton mövzuların təsirində olmuşdur. Başqa sözlə desək, mətbuat sovet ideologiyasının sifariş və tələblərinin yerinə yetirilməsində bir nömrəli vasitə olmaqla, xalqın milli dərkinə xidmət edən problemlərin və tarixi həqiqətlərin işıqlandırılmasına qırmızı işıq yandırmışdır. Müstəqillik dövrü ərəfəsindən başlayaraq mətbuatda tarixi keçmişə sayğılı münasibət, mövzu rəngarəngliyi, yanaşma tərzində obyektivlik və millilik önə çəkilmişdir.

- Mətbuat orqanlarında sovet dönəmində daha çox bədii publisistika nümünələri ilə üzləşiriksə, müstəqillik illərində isə həm siyasi, elmi yanaşmanın öndə dayanması diqqəti cəlb edir.

- Hakim ideoloji təsirdən qurtarmaq, milli dəyərlərə hörmət və sayğı müntəzəm olmasa da, Sovet dövrü mətbuatında ara-sıra toxunulan məsələlərdən olmuşdur. Təqdim olunan tədqiqatda bu məqamlardan "Kommunist" qəzetinin dərc etdiyi bir sıra məqalə və materiallardan bəhs edilmiş və örnək kimi təqdim olunmuşdur. Ola bilsin ki, bu kimi faktların ortaya qoyulması və təqdimat tərzi bəzi tədqiqatçılar tərəfindən başqa cür, deyək ki, sistemin təbliğat vasitəsi olan mətbuatın müdafiəçisi, yaxud da belə bir fikirdə olmaq meyli kimi də qəbul edilə bilər. Həqiqətdə isə bunlar heç də Sovet dövrü mətbuatına nə rəğbət və sevgidən, nə də nostalji hisslərin təsirindən doğmamış, olsa-olsa, mətbuatın qismən də olsa dövrün güzgüsü olmaq istəyini təsdiq etmək meyillərindən qaynaqlanmışdır. Bu kimi faktlar da bir daha təsdiq edir ki, mətbuat bütün zamanlarda dövrün reallıqlarının cəmiyyətə çatdırılmasında önəmli vasitədir.

- Eyni zamanda, sovet dövründə nəşr edilən "Kommunist" qəzetində dərc olunan məqalə və xəbərləri araşdırarkən belə bir ümdə qənaətə gəlmək olur ki, bu

materialların istər mövzusunda, istərsə də məzmununda əsas məqsəd ideologiyaya xidmət olmuşdur. Sovet partiya aparat sisteminin ideoloji şöbələrinin bilavasitə rəhbərliyi və yönəticiliyi ilə fəaliyyət göstərən redaksiyanın və yaradıcı heyətin əsas vəzifəsi milli əhvali-ruhiyyəni boğmaq, milli gücü passivləşdirmək, vətənpərvərlik hissini ideoloji mənafelərin mənfəəti naminə istifadə etmək və xalq kütlələrinin kommunist ideoloji-siyasi tərbiyəsini təmin etmək, rejimin dayaqlarına inam yaratmaq, sosialist quruluşunun bərabərlik və ədalətliliyini təbliğ etməklə eybəcərlikləri ört-basdır etmək olmuşdur.

- Qloballaşma və inteqrasiya proseslərinin sürətlə getdiyi indiki məqamda Azərbaycan gerçəkliklərinin dünyaya tanıdılması dövrün aktual məsələləri sırasında önəm daşımaqdadır. Mədəniyyətlərarası dialoqların artması mətbuatın Avropa, Yaxın və Uzaq Şərq, Amerika, Afrika mövzusunu sistemli şəkildə gündəmə gətirməsinə təkan vermiş, eyni zamanda Sovetlərin dağılması qonşuluq münasibətlərinə yeni baxış formalaşdırmışdır. Bu, Azərbaycan–Türkiyə münasibətlərində və onun mətbuatda təqdimatında da xüsusi önəm daşımışdır. Uzun illər ciddi qadağalarla məhdudlaşdırılan və əlaqələrin qurulmasında xüsusi yeri olan məqalə və çağırışlar mətbuatın bir nömrəli mövzusu olmuşdur. Bu tendensiya bu gün də yüksələn bir vüsətlə davam etdirilməkdədir.

- Azərbaycanda yetmiş il ərzində qadağan edilmiş elmi-mədəni əlaqələrin öyrənilməsi mətbuatımız üçün də yeni səhifələr açmışdır. Təcrübə mübadiləsindən tutmuş tarixi birliyimizin, dostluq və qardaşlığa söykənən daha geniş və strateji müttəfiqliyin uğurlarının təqdimatında mətbuat geniş meydan qazanmışdır. Bu cəhətdən Azərbaycan–Türkiyə, eyni zamanda, digər türk dövlətləri ilə olan əlaqələrin işıqlandırılması, türk xalqlarının inteqrasiyasını, elmi, mədəni mühitdə qazandıqlarını önə çəkmək müasir dövrdə mətbuatın dəyər verdiyi aktual məsələ kimi mühüm və tarixi əhəmiyyətə malikdir.

- Müstəqilliyinin ilk günlərindən Azərbaycanın xarici siyasət xəttində Türkiyə və türkdilli ölkələrlə əməkdaşlığın qurulması xüsusi diqqət mərkəzində olmuş, hətta dövlətlərarası münasibətlərin yenicə təşəkkül tapdığı dövrlərdə belə

mətbuat xalqlarımızın mədəni əlaqələrini, milli-tarixi və dini bağlılıqlarını olduqca geniş dairədə təqdim və təbliğ edən mötəbər bir tribuna ola bilmişdir.

- Milli dirçəlişin yenidən oyandığı bir vaxtda Azərbaycan Respublikasının 1991-ci ilin avqustunda dövlət müstəqilliyini elan etməsi mətbuatın ümdə mövzularından olmuşdur. Milli mətbuat müstəqil Azərbaycanın müasir beynəlxalq münasibətlər sisteminə inteqrasiya olunmuş, beynəlxalq imic qazanmış və suverenliyini qorumağa qadir bir dövlət olduğunu dünyaya göstərə bilmişdir. Diplomatik münasibətlərin yenicə qurulduğu vaxtlarda bu, çox önəmli idi. Hətta yeri gəlmişkən qeyd edilməlidir ki, bu sahədə mətbuatın xidmətləri ölçüyəgəlməz bir səviyyədə olmuş, xüsusən də müstəqil mətbuatın meydana gəlməsi və formalaşması bu sahədə əlaqələrin genişlənməsinə, daha böyük uğurların qazanılmasına təkan vermişdir. Hətta bəzi məqamlarda müəyyən xarici təsirlər önündə gözləmə mövqeyində olan siyasi dairələrin, bir sıra hallarda dövlət qurumlarının belə mövqelərinin dəyişməsinə təsir göstərə bilmişdir.

- Mətbuat dövrünün aynası olmaqla, Azərbaycan–Türkiyə əlaqələrinin dərindən öyrənilməsinə, eləcə də gələcək tədqiqatlar baxımından olduqca gərəkli ola bilən mükəmməl baza yarada bilmişdir. Ümid edirik ki, təqdim olunan tədqiqatın da əhəmiyyəti və töhfələri gələcəkdə istinad edilən mənbələrdən olacaqdır.

- Ən nəhayət, tədqiqat işindən çıxan bir qənaət də həm sovet, həm də müstəqillik dövrü mətbuatının öyrənilməsində müəyyən işlərin görülməsini təsdiq etsə də, bunların olduqca az olduğunu da vurğulayır. Xüsusən də Sovet hakimiyyəti illərinə qədər tədqiq olunan mətbuat tarixi ilə müqayisədə bu tədqiqatlar olduqca az və əhatəsizdir. Təbii ki, olanların üstündən qələm çəkmək, tarixin zibil qutusuna atmaq da ədalətsizlik olardı. Amma bu tədqiqatların daha çox ideoloji təsirlərə məruz qaldığı da görünür, partiyanın "atalıq qayğısı", az qala, hər səhifədə və cümlədə yada salınır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, bu gün hətta internet medianın və sosial şəbəkələrin tədqiqatına yetərincə diqqət ayrılsa da, yazılı dövri nəşrlərin araşdırılmasına ayrılan tədqiqat işlərinin sayı çox azdır. Digər tərəfdən, daha ciddi maraq doğuran araşdırmalarsa daha çox ədəbi,

mədəni araşdırma və tədqiqatlar kimi təqdim olunmaqdadır. Hesab edirəm ki, “dördüncü hakimiyyət” adlandırılan mətbuatın müasir cəmiyyətdəki yeri daha ciddi araşdırmalar tələb edir və hər zaman olduğu kimi, bu gün də buna daha önəmli ehtiyac və tələbat vardır.

O cümlədən, 100 ildən də çox tarixi və ənənələri olan, əvvəlcə “Kommunist”, ikinci müstəqilliyimizdən sonra “Xalq qəzeti” adlandırılan dövri nəşrin həm tarixi, həm də tale yolu, əslində Azərbaycan xalqının tarixinin və tale yolunun önəmli bir hissəsidir, desək yanılmarıq. İllərdir ki, bu qəzetin səhifələrində əks olunmuş keşməkeşli, həm də uğurlu və ziddiyətli təqdimat xalqımızın tarixidir. Bu səhifələrdə İkinci Dünya Müharibəsi, dünyanın kommunizm və imperalizm siyasətindən doğan uğur və ziddiyyətləri, Çernobıl faciəsi, qardaş Türkiyə ilə müxtəlif vaxtlarda boy verən münasibətlər, baş verən terror hadisələri, İran-İraq müharibəsi, Qarabağ müharibəsi, erməni soyqırımı, ən sonda tarixi qələbəmizin uğuru və 30 ildən sonra tarixi torpaqlarımıza sahibliyimiz və mübarizəmiz haqqında, eləcə də adını çəkə bilmədiyimiz yüzlərcə mövzular və müstəqilliyimizin şərəfli tarixi haqqında minlərlə materiallar var ki, onların proplematikası böyük bir zaman kəsiyində aktual olduğu qədər də gərəkli və vacib olmuşdur. Bunlar uzaq və yaxın keçmişimizin, bu günümüzün uğur və problemlərinin öyrənilməsində və tədqiq olunmasında olduqca mükəmməl və zəngin baza yaratmaqdadır. Eyni zamanda daha əhatəli və genişmiqyaslı tədqiqatların ortaya qoyulması üçün də əvəzi olmayan mənbə hesab edilməlidir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## AZƏRBAYCAN DİLİNDƏ


1. Abbasbəyli, A.N. Dünya siyasəti / A.Abbasbəyli. – Bakı: Nurlar, – 2011. – 584 s.
2. Abbasov,E.Almaniya hökuməti vətəndaşlarına Türkiyəyə səyahətlə bağlı xəbərdarlıq edib // Xalq qəzeti. – 2011, 24 avqust. – s.5.
3. Abbasov, E. Türkiyə Milli Təhlükəsizlik Şurası: Terrora qarşı daha təsirli mübarizə strategiyası həyata keçiriləcək // Xalq qəzeti. – 2011, 20 avqust. – s.6.
4. Abdullah Gül: Ankara Suriyada əməliyyatlara başlaya bilər // Xalq qəzeti. – 2012, 18 avqust. – s.3.
5. Abdullah Gül Milli Məclisin Sədri Oqtay Əsədovla görüşmüşdür // Xalq qəzeti. – 2010, 17 avqust. – s.2.
6. Abdullayev, M. Binəli Yıldırım Türkiyənin yeni hökumətinin prioritetlərini açıqladı // Xalq qəzeti. – 2016, 26 may. – s.5.
7. Abdullayev, M. Cenifer L.Devis: Türkiyə–ABŞ əməkdaşlığı regionda sabitliyin rəhnidir // Xalq qəzeti. -- 2017, 25 yanvar. – s.4.
8. Abdullayev, M. Dövlət Departamenti:ABŞ Ankaranın terrorla mübarizəsini dəstəkləyir // Xalq qəzeti. -- 2017, 11 yanvar. – s.7.
9. Abdullayev, M. Nurəddin Canikli: Heç kim Türkiyənin terrorizmlə mübarizəsinin nəticələrini dəyişə bilməz // Xalq qəzeti. -- 2018, 24 fevral. – s.4.
10. Abdullayev, M. Rəcəb Tayyib Ərdoğan: Türkiyə regionda terrorun kökünü kəsməkdə qərarlıdır // Xalq qəzeti. – 2017, 6 noyabr. – s.4.
11. Abdullayev, M. Terrorçulara dəstək verilməsi Türkiyə ilə müttəfiqlik və dostluq münasibətlərinə zərər vurur // Xalq qəzeti. – 2017, 1 aprel. – s.5.
12. Abdullayev, R. Heydər Əliyevin yeni neft strategiyası // Xalq qəzeti. – 2017, 28 aprel. – s.6.
13. ABŞ səfiri Naxçıvanda. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr / tərt. ed. Ə. Həsənov – Bakı: Azərbaycan, – 2008. – s.757-759.

14. Ağamalıoğlu, S. Birinci Türkoloji Qurultayın açılışı münasibətilə təbrik nitqi // “Kommunist. – 1926, 28 fevral. – s.2.
15. Ağamalıoğlu, S. Türkoloji qurultay bizə nə verə bilər? Türkoloji qurultay ərəfəsində // “Kommunist. 1925, 9 noyabr. – s.2.
16. Ağayeva, K. 110 gün Türkiyədə. Kommunist // Xalq qəzeti. – 1991,15 yanvar.– s.4.
17. Ağayev, İ. Mətbuat və publisistika. "Azərbaycan Xalq Cümhuriyyəti" (Ədəbiyyat, dil, mədəni quruculuq) / İ.Agayev. – Bakı: Qoliot Qkup QSC, – 2009. – s.203-223.
18. Ağbabalı, S. Türkiyə hər zaman Azərbaycanın yanında olacaq // Xalq qəzeti. – 1999, 20 noyabr. – s.7.
19. Axıska türklərinin nümayəndələri qəbul edilmişdir // Xalq qəzeti. –1995, 12 dekabr. – s.2.
20. Amaşov, Ə. Türkiyədən qardaş yardımı // Kommunist. –1990, 15 mart. – s.2.
21. Anadolu torpağında görüşlər // Xalq qəzeti. – 1992, 30 iyun. – s.2.
22. Anar. Mübarizə bu gün də var / Anar. – Bakı: Nurlan, – 2002. – 532 s.
23. Angela Merkel Türkiyə ilə dialoqun saxlanmasının tərəfdarıdır // Xalq qəzeti. – 2016, 25 noyabr. – s.5.
24. Ankara Azərbaycan prezidentini qarşılayır //Xalq qəzeti. – 1992, 30 oktyabr.– s. 1.
25. Ankarada Azərbaycan prospekti // Xalq qəzeti. – 1997, 13 may. – s. 2.
26. Ankarada Azərbaycan səfirliyinin yeni binasının təməlinin qoyulması mərasimi // Xalq qəzeti. – 1997, 14 may. – s. 2.
27. Ankarada mühakimə. 36 türk zabitinin məhkəməsi və Aydəmirə ölüm hökmü tələbi // Kommunist . – 1963, 21 iyun. – s. 3.
28. Ankara Vaşinqtonun YPG ilə əməkdaşlıqdan imtina edəcəyini gözləyir // Xalq qəzeti. – 2017, 11 noyabr. – s. 3.
29. A.N.Kosıginin qarşılanması // Kommunist. – 1966, 22 dekabr. – s. 1.
30. A.N.Mütəllibovun mətbuat konfransı // Xalq qəzeti. – 1992, 25 yanvar. – s. 1.
31. Aslanov, A. AzərTAc-dan AzərTAc-a: mürəkkəb və şərəfli yol / A.Aslanov, V.Musayev, D.İsmayılov. –Bakı, Şərq-Qərb,–2008.– 184 s.

32. Aslanov, A. Müasir dünyanın informasiya şəbəkəsində AzərTAc-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri / A.Aslanov. – Bakı, Şərq-Qərb, – 2011. – 230 s.
33. ATƏT sədri Türkiyədəki dövlət çevrilişinə cəhdlə bağlı narahatlıqlarını bildirib // Xalq qəzeti. – 2016, 17 iyul. – s. 3.
34. ATƏT-in baş katibi Lamberto Zanyer Türkiyədəki hadisələrdən narahatdır // Xalq qəzeti. – 2016, 17 iyul. – s. 3.
35. Aydınoğlu, T. Anar: Qardaş Türkiyədə xalqın iradəsi qalib gəldi // Xalq qəzeti. – 2016, 17 iyul. – s. 4.
36. Aydınoğlu, T. Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl Azərbaycana gəldi // Xalq qəzeti. – 1995, 8 dekabr. – s. 2.
37. Azərbaycanla bağlı Naxçıvan MR ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr / tərt. ed. Ə.Həsənov – Bakı: Azərbaycan, – 2008. – s.674-675.
38. Azərbaycanın ilk satirik jurnalı – "Molla Nəsrəddin"-109// Xalq qəzeti. – 2015, 7 aprel. – s.3
39. Azərbaycanda terrorçuluğa qarşı görülən işlər ABŞ Dövlət Departamentinin illik hesabatında yüksək qiymətləndirilmişdir // Xalq qəzeti. – 2010, 7 avqust. – s. 2.
40. Azərbaycan demokratik mətbuatı tarixindən. Mətbuat haqqında Nizamnamə / – Bakı: Qanun, – 1996. №12, – s. 51-15.
41. Azərbaycan Dövlət Dram Teatrının burjua nasionalistlərinin əlaltılarından təmizlənməsi // Kommunist. – 1937, 30 sentyabr. – s. 3.
42. Azərbaycan dövri mətbuatı (1892-1920). Biblioqrafiya / tərt. ed.: N.Axundov. – Bakı: Elm, – 1987, – 221 s.
43. Azərbaycan dövri mətbuatı (1875-1990). Biblioqrafiya / tərt. ed.: S.Rüstəmova-Tohidi. – Bakı: Azərnəşr, – 1993, – 258 s.
44. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası:I cild/–Bakı:Lider,– 2004.–440 s.
45. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Xalq qəzeti. – 2017, 17 may. – s. 1.
46. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), Parlament (Stenoqrafik hesabatlar). I cild / – Bakı: Azərbaycan, 1998. – 976 səh.

47. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Prezidentinin sərəncamı //Xalq qəzeti.–2013,22 yanvar.– s.1.
48. Azərbaycan xanlıqları. Dəyirmi masa // Kommunist – 1990, 18 avqust. – s. 3.
49. Azərbaycan XİN: Qardaş Türkiyədə baş vermiş hadisələr bizi ciddi narahat etdi və sarsıtdı. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Türkiyədə baş vermiş hadisələrlə bağlı bəyanat yayıb // Xalq qəzeti. – 2016, 17 iyul. – s. 2.
50. Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlıq haqqında saziş imzalanacağı gözlənilir // Xalq qəzeti. –1992, 23 yanvar. – s. 2.
51. Azərbaycan kommunistlərinin XXXII qurultayı və respublika partiya təşkilatının təxirəsalınmaz vəzifələri. Ayaz Mütəllibovun məruzəsi // Kommunist. – 1990, 10 iyul. – s.1- 2.
52. Azərbaycan nümayəndə heyəti Türkiyəyə yola düşmüşdür // Xalq qəzeti. – 1992, 27 iyun. – s. 2.
53. Azərbaycan prezidenti Əbülfəz Elçibəy Türkiyənin baş naziri S.Dəmirəl ilə görüşmüşdür // Xalq qəzeti. – 1992, 27 iyun. – s. 1.
54. Azərbaycan prezidenti Əbülfəz Elçibəyin Türkiyəyə səfəri // Xalq qəzeti. – 1992, 29 oktyabr. – s. 1.
55. Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyəyə səfəri // Xalq qəzeti. – 1997, 6 may. – s. 2.
56. Azərbaycan prezidenti Heydər Əliyevin və Türkiyə prezidenti Süleyman Dəmirəlin təkbətək görüşü // Xalq qəzeti. – 1995, 9 dekabr. – s. 1.
57. Azərbaycan prezidentinin Türkiyə səfəri "Frans Press"də // Xalq qəzeti. – 1992, 23 yanvar. – s. 2.
58. Azərbaycan prezidenti Heydər Əliyev və Türkiyə prezidenti Süleyman Dəmirəl iş adamları ilə görüşmüşlər: Heydər Əliyevin çıxışı // Xalq qəzeti. – 1995, 12 dekabr. – s. 2.
59. Azərbaycan prezidenti Heydər Əliyev və Türkiyə prezidenti Süleyman Dəmirəl iş adamları ilə görüşmüşlər: Süleyman Dəmirəlin çıxışı // Xalq qəzeti. – 1995, 12 dekabr. – s. 2.

60. Azərbaycan prezidenti Heydər Əliyevin ABŞ prezidenti Bill Klinton ilə görüşü // Xalq qəzeti. – 1999, 23 noyabr. – s. 1.
61. Azərbaycan prezidenti Heydər Əliyevin AFR kansleri Herhard Şröder ilə görüşü // Xalq qəzeti. – 1999, 24 noyabr. – s. 2.
62. Azərbaycan prezidenti Heydər Əliyevin Ermənistan prezidenti Robert Koçaryanla görüşü // Xalq qəzeti. – 1999, 24 noyabr. – s. 2.
63. Azərbaycan prezidenti Heydər Əliyevin Fransa prezidenti Jak Şirak ilə görüşü. // Xalq qəzeti. – 1999, 23 noyabr. – s. 2.
64. Azərbaycan prezidenti Heydər Əliyevin İsrailin baş naziri Ehud Barak ilə görüşü // Xalq qəzeti. – 1999, 24 noyabr. – s. 2.
65. Azərbaycan prezidenti Heydər Əliyevin Qazaxıstan prezidenti Nursultan Nazarbayev ilə görüşü // Xalq qəzeti. – 1999, 24 noyabr. – s. 2.
66. Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyə prezidenti Süleyman Dəmirəl ilə görüşü // Xalq qəzeti. – 1999, 23 noyabr. – s. 1.
67. Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyə prezidenti Süleyman Dəmirəl ilə görüşü // Xalq qəzeti. – 1999, 30 noyabr. – s. 1.
68. Azərbaycan prezidenti Əliyevin və Türkiyə prezidenti Əhməd Necdət Sezərin qaçqınlarla görüşü // Xalq qəzeti. – 2000, 13 iyul. – s. 2.
69. Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Respublika Nazirlər Kabinetinin ilk iclasında Azərbaycan Prezidenti İlham Əliyevin nitqi // Xalq qəzeti. – 2003, 17 noyabr. – s. 1.
70. Azərbaycan prezidenti İlham Əliyevin Türkiyə Böyük Millət Məclisində nitqi // Xalq qəzeti. – 2004, 14 aprel. – s. 1.
71. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə rəsmi səfəri // Xalq qəzeti. – 2004, 13 aprel. – s. 1.
72. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat konfransı // Xalq qəzeti. – 2010,18 may. – s. 2.
73. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə prezidenti Abdullah Gül: Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və

qarşılıqlı yardım haqqında müqavilə. Sənədlərin imzalanma mərasimi // Xalq qəzeti. – 2010, 17 avqust. – s. 1.
74. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı. Baş nazir Rəcəb Tayyib Ərdoğanın bəyanatı // Xalq qəzeti. – 2011, 28 iyul. – s. 1-2.
75. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Abdullah Gülün mətbuat konfransı // Xalq qəzeti. – 2010, 17 avqust. – s. 1.
76. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı. Prezident İlham Əliyevin bəyanatı // Xalq qəzeti. – 2011, 28 iyul. – s. 1.
77. Azərbaycan prezidentinin Türkiyəyə səfəri davam edir // Xalq qəzeti. – 1992, 23 yanvar. – s. 1.
78. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında sənədlərin imzalanması və mübadiləsi mərasimi // Xalq qəzeti. – 2011, 28 iyul. – s. 2.
79. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri // Xalq qəzeti. – 1994, 9 fevral. – s. 1.
80. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri başa çatmışdır // Xalq qəzeti. – 1994, 12 fevral. – s. 1.
81. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində söylədiyi geniş nitq // Xalq qəzeti. – 2003, 1 noyabr. – s. 1.
82. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. Türkiyə Respublikasının prezidenti zati-aliləri Rəcəb Tayyib Ərdoğana // Xalq qəzeti.– 2016,17 iyul.– s.1.
83. Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətindəki fövqəladə və səlahiyyətli səfiri cənab Xəzər İbrahimin müsahibəsi // – Bakı: EcoVision jurnalı, – 2018. №33, – s. 15-28.
84. Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının üzvlərini qəbul etmişdir // Xalq qəzeti. – 2009, 29 oktyabr. – s. 2.
85. Azərbaycan Respublikasının Prezidenti A.N.Mütəllibovun Türkiyəyə rəsmi səfəri başlandı // Xalq qəzeti. – 1992, 23 yanvar. – s. 1.

86. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun mətbuata açıqlaması: Prezident İlham Əliyev Türkiyədə baş vermiş hadisələrdən ciddi narahat olub və dövlət çevrilişi cəhdini qətiyyətlə pisləyib // Xalq qəzeti. – 2016, 17 iyul. – s. 2.
87. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə imzalandı // Xalq qəzeti. – 2010, 16 sentyabr. – s. 1.
88. Azərbaycan Sovet Yazıçıları İttifaqı plenumunun yekunları // Kommunist. – 1937, 28 mart. – s. 2.
89. Azərbaycan torpağında görüşlər // Kommunist. – 1967, 27 mart. – s. 2-3.
90. Azərbaycan–Türkiyə birgə bəyanatı // Xalq qəzeti. – 1996, 16 aprel. – s. 2.
91. Azərbaycan Türkiyəyə 14,5 milyard ABŞ dolları dəyərində investisiya yatırıb // Xalq qəzeti. – 2018, 30 may. – s. 6.
92. Azərbaycan–Türkiyə: diplomatik əlaqələr bərpa edildi // Xalq qəzeti. – 1992, 15 yanvar. – s. 2.
93. Azərbaycan–Türkiyə: dostluğumuz və qardaşlığımız əbədi və sarsılmazdır // Xalq qəzeti. – 2000, 12 iyul. – s. 3.
94. Azərbaycan–Türkiyə münasibətləri: 1991-2016. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (məqalələr) / Bakı: Poliart MMC,–2002,s.97-155
95. Azərbaycan–Türkiyə münasibətləri uğurla inkişaf edir. Prezident İlham Əliyevin bəyanatı // Xalq qəzeti. – 2010, 17 sentyabr. – s. 2.
96. Azərbaycan–Türkiyə: Münasibətlər tarixində yeni səhifə // Xalq qəzeti. – 1992, 25 yanvar. – s. 4.
97. Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər // Xalq qəzeti. – 2016, 16 mart. – s. 1.
98. Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyevin bəyanatı // Xalq qəzeti. – 2017, 01 noyabr. – s. 1.
99. Azərbaycan və Türkiyə prezidentlərinin söhbəti//Kommunist.–1991,19 mart.– s.1.

100. Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası. Azərbaycan–Türkiyə sənədləri imzalanıb//Xalq qəzeti.–2017, 6 noyabr.–s.1.
101. Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının beşinci iclası keçirilib // Xalq qəzeti. – 2016, 16 mart. – s.1.
102. Azərbaycan–Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib // Xalq qəzeti. – 2018, 26 aprel. – s.1.
103. Azərbaycan Yazıçılar İttifaqı İdarə heyəti. Nazim Hikmətin vəfatı ilə əlaqədar nekroloq // Kommunist. –1963, 05 iyun. – s.4.
104. "Azərinform"un böyük qardaşı // Kommunist. – 1990, 10 may. – s.6.
105. Bağırlı, A. Sovetlər dönəmində Türkiyə–Azərbaycan ədəbi əlaqələri // I Millətlərarası Türkiyə –Azərbaycan münasibətləri sempozyümü, – Kastamonu: – 12 mayıs – 14 mayıs, – 2016, – s.34-41.
106. Bakıdakı Türk Anadolu liseyi ilə tanışlıq. Türkiyə prezidenti Süleyman Dəmirəl və Azərbaycan prezidenti Heydər Əliyev Türk Anadolu liseyində olmuşlar // Xalq qəzeti. – 1995, 9 dekabr. – s.5.
107. Bartold, V. Türkoloji qurultay münasibətilə. Qurultayın Bakıda keçirilməsi haqqında // Kommunist. – 1925, 9 noyabr. – s.3.
108. Baş nazirlə görüş. Türkiyə prezidenti S.Dəmirəlin Azərbaycanın baş naziri ilə görüşü // Xalq qəzeti. – 1995, 9 dekabr. – s.2.
109. Baş nazir Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfərindən əvvəl mətbuat konfransı keçirmişdir // Xalq qəzeti. – 2011, 28 iyul. – s.2.
110. Bayramoğlu, A. Azərbaycan mətbuatı tarixi. Ön söz (1875-1920) /A. Bayramoğlu. – Bakı: Elm və Təhsil, – 2009. – s.3-5 .
111. Bayramov, Ə. Orfoqrafiya Komissiyasının yekun iclası keçirilib // Xalq qəzeti. – 2018, 15 dekabr. – s.5.
112. Bayramov, Q. Azərbaycan Demokratik Respublikası // Kommunist. – 1990, 11 may. – s.2.
113. Bernard, L. Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində çıxış // Xalq qəzeti. – 2018, 29 may. – s.3.

114. Beynəlxalq Bankın tikintisində: Türkiyə şirkətinin inşa etdiyi bankın inşaatçıları ilə H.Əliyev və S.Dəmirəlin görüşü //Xalq qəzeti.–1995, 9 dekabr.–s.4.
115. Beynəlxalq əməkdaşlığın inkişafı naminə //Xalq qəzeti.–1997,30 aprel.–s.4.
116. Bədəlov, Ə. Terrorizm qorxunc bəşəri kabus kimi dünyanın hər yerinə ayaq açır // Xalq qəzeti. – 2016, 8 yanvar. – s.7.
117. Bədəlov, Ə. Türkiyə–Azərbaycan dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır // Xalq qəzeti. – 2010, 19 avqust. – s.6.
118. Bəkir Bozdağ: 15 iyul Türkiyədə çevrilişin mümkün olmadığını göstərdi // Kaspi. – 2017, 12 iyul. – s.4.
119. Birgə bəyanat imzalanmışdır // Xalq qəzeti. – 2000, 12 iyul. – s.2.
120. Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı // Xalq qəzeti. – 2005, 10 noyabr. – s.1.
121. Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı // Xalq qəzeti. – 2016, 19 fevral. – s.1.
122. Bizə torpaq verin.Adanada nümayiş // Kommunist. –1963,3 may. – s.3.
123. Biz xalqın böyük yaradıcı əməyinin şahidi olduq // Kommunist. – 1963, 04 iyun. – s.3.
124. Bizim əsas düşmənimiz imperializmdir // Kommunist. –1964,25 oktyabr.– s.3.
125. Biz unudulmaz təəssüratlarla gedirik // Kommunist. –1963, 05 iyun. – s.3.
126. Bolqarıstan prezidenti Petar Stoyanov Bakıya gəlmişdir. // Xalq qəzeti. – 1998, 8 sentyabr. – s.2.
127. Böyük İpək Yolunun bərpası üzrə Beynəlxalq konfrans // Xalq qəzeti. – 1998, 06 sentyabr. – s.1-2.
128. Böyük İpək Yolunun tarixi dəyəri dövlət rəhbərləri tərəfindən də yüksək dəyərləndirilir // Xalq qəzeti. – 1998, 06 sentyabr. – s.3.
129. Cabbarlı, Ə. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri / Ə. Cabbarlı. – Naxçıvan: Əcəmi, – 2015. – 232 s.

130. Cahangirov, A. Hikmət Çetin: Türkiyədə Mütəllibovun səfərini səbirsizliklə gözləyirlər // Xalq qəzeti. – 1992, 22 yanvar. – s.2.
131. Cahan müharibəsi. Çerçilin nitqi // Kommunist. – 1941, 12 fevral. – s.3.
132. Cəbrayılov, R. Milli maraqlara əsaslanan enerji diplomatiyası // Xalq qəzeti. – 2010, 21 sentyabr. – s.6.
133. Cəfərov Nizami: Azərbaycan–Türkiyə münasibətləri "bir millət, iki dövlət" prinsipinə uyğun olaraq uğurla inkişaf edir // Xalq qəzeti. – 2010, 17 sentyabr. – s.4.
134. Coşqun İsmayıl Alper: Türkiyə Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün əlindən gələni edib, bundan sonra da edəcək // Xalq qəzeti. – 2015, 9 aprel. – s.3
135. Coşqun İsmayıl Alper, Türkiyənin Azərbaycandakı səfiri: Azərbaycan Türkiyə üçün mühüm tərəfdaş ölkədir // Yeni Azərbaycan. – 2016, 5 avqust. – s.2.
136. “Çırağan” sarayında tarixi sənədlərin imzalanması mərasimi // Xalq qəzeti. – 1999, 24 noyabr. – s. 2.
137. Çobanzadə, B. Türkoloji qurultay/Türkoloji qurultayın gündəliyində duran məsələlər haqqında // Kommunist. – 1925, 9 noyabr. – s.3.
138. Danışıqlar müvəffəqiyyətlə keçmişdir // Xalq qəzeti. – 1994, 14 iyun. – s.3.
139. Demokratik respublikaya həsr edilir // Kommunist. – 1990, 26 may. – s.4.
140. “Dəyirmi stol” arxasında alimlərimizin söhbəti: 1918-1920-ci illər dövrünün bəzi məsələləri // Kommunist. – 1989, 6 iyun. – s. 2-3.
141. Dirçələn Qədim İpək Yolu ilə üçüncü minilliyə doğru // Xalq qəzeti. – 1998, 09, 10, 11 sentyabr. – s. 2-3
142. Dostluq səfəri // Kommunist. – 1969, 21 noyabr. – s.2.
143. D.Tramp: Türkiyə önəmli müttəfiqdir // Xalq qəzeti. – 2017, 10 oktyabr. – s.3.
144. Dünya xəbərləri: Türkiyədə // Kommunist. – 1941, 27 yanvar. – s.3.
145. Eks-prezident Ayaz Mütəllibovla “Kulis.az”ın müsahibəsi // Olaylar. – 2017, 6 noyabr. – s.5.

146. Erkin: Mehriban qonşuluq münasibətlərini möhkəmləndirməli // Kommunist. – 1964, 14 noyabr. – s.4.
147. Eyyubova, G. Terrorizm – insanlara bəla gətirən kabus // İki sahil. – 2017, 17 avqust. – s.7.
148. Əbülfəz Elçibəy: Türkiyə ilə Rusiyanın xətrinə dəymədən // Xalq qəzeti. – 1992, 3 noyabr. – s.2.
149. Əfəndiyev, P. Folklorumuzun fədailəri // Kommunist. –1990, 1 fevral. – s.3.
150. Əhməd, D. Lenin və Marksı dilimizə çevirən ilk adam // 525-ci qəzet. – 2014, 21 avqust. – s.5.
151. Əhmədli, N. Con Milton və onun “Areopagitika” əsəri / N.Əhmədli. – Bakı: Bakı Universiteti, – 2011. – 118 s.
152. Əhmədov, B. “Molla Nəsrəddin” niyə bağlandı // Ədəbiyyat qəzeti. – 1991, 1 fevral. – s.4.
